Ахундов С.С.

Əsərləri.

АРХИВ

SÜLEYMAN SANİ AXUNDOV

ƏSƏRLƏRİ

Azərbaycan Milli
Kitabxanası
17018

Redaktəsilə

Şəki şəh. Mərkəzi Tipik
AXTYBLAN-ın Sb
Mərkəz Tipik Kitabxanası
imeni
S. ƏBİRİ

AZƏRNƏŞR
BƏDİİ-ƏDƏBİYYAT ŞÖ'BƏSİ



SYLEJMAN SANI AXUNDOV

Sylejman Sani 21 oqtjabr 1875-çi ildə Şuşa şəhərində anadan olmuşdur. Atası Rzaqulu bəj Axundov, anası Dyrnisə xanım Vəlibəj zadə Qarabaq nyçəbasındandır. Sylejman coçuq ikən atasını qajıb etdikdən sonra dajısı Səfərəlj bəj Vəlibəjov vasitəsilə Zaqafqasja darylmyəlliminin tyrk şö'bəsinə daxil olmuşdur. 1894-çy ildə darylmyəllimini bitirərək Bakıda 3-çy «rus-tatar» məktəbinə myəllim tə'jin olunmuş. O zaman Bakıda tyrk zijalılarından mytərəqqi bir qrup əmələ gəlmişdi. Bunu təşkil edənlərin əksəri myəllimlər idi: Nəriman Nərimanov, Sultan Məçid Qəni zadə, Həbib bəj Mahmudbəjov, Məhəmməd Həsən Əfəndijev, Əli Çabbar Ismajılov, A. Çəbibəjov, Nəçəfqulu bəj Vəlijev, Ə. H. Haçıjev və qejriləri.

Sylejman Sani bu qrupa daxil olaraq myəllimlik vəzifəsilə bərabər içtimai işlərdə calışmaqa başlajır. O zaman şəhərin ycdə iki pajını təşkil edən tyrklərin jalnız yc ibtidai şəhər məktəbi vardı. Fanatik mollaların tə'siri altında bulunan əvam çəmaət bu məktəblərə «rus məktəbi» adı verərək, uşaqlarını qaranlıq, rytubətli mollaxanalara verib bunları boş buraqırdılar.

Mollalar ilə myəllimlər qrupu arasında amansız mybarəzə gedirdi. Əvam kytlənin gəzlərini acmaq ycyn iki ymdə jol var idi: biri mətbuat, digəri teatro. Mətbuat tyrklər ycyn o zaman qapalı idi. Te-

atro jolu acьq isə də, car senzuru da jatmamьşdь. Fəqət jenə də bu jolda calьşmaqь qrup özy ycyn birinçi vəzifə sanьrdь.

Sylejman Sani Bakьja gəldiji gyndən myəllim arqadaşlarь ilə bahəm tyrk səhnəsində həvəskar aqtijor sifətilə ojunlarda iştirak etməjə başlajьr. Ilk dəfə səhnəjə Nəriman Nərimanovun «*Nadanlьq*» adlь façiəsində cьqьr.

Sylejmanьn jazьcьlьqь 1899-çu ildə jazdьqь «*Təməhkar*» adlь beş pərdəli qomedja ilə baslanьr. Bu əsər həmin ildə Nikitinin sirq-teatrosunda ojnanьr. Böjyk myvəffəqijjət qazanьr. Əsər o gyndən tyrk səhnəsində məhkəm jer dutaraq Şuralar zamanь da dəfələrlə ojnanьr.

1905-çi inqilabьndan sonra tyrklərə mətbuat jolu acьlьr. Bakьda qəzetlər, zurnallar nəşr edilməjə başlanьr. Sylejman Sani «*Irşad*», «*Tərəqqi*» qəzetlərində kicik hekajələr jazmaqa başlajьr. Az bir zamanda Bakьda «*Niçat*», «*Nəşri məarif*», «*Çəmijjəti-xejrijjə*», «*Səfa*», «*Səadət*» kibi çəmijjətlər acьlьr. Sylejman Sani bunlarda iştirak edirsə də ymdə calьşmasь «*Niçat*» da kecir.

1906-çь ildə Şəmsəddin Sami bəjin «*Gavə*» adlь məşhur façiəsini, böjyk əzijjətdən sonra senzurdan izn alaraq, tyrk səhnəsinə salьr. O zamana kibi osmanlь ədiblərinin əsərlərini Azərbajçan səhnəsində ojnamaqa izn verməjirdilər.

1905-çi ilə kibi tyrk dilinin tə'limi peđaqozi ysulundan xəbəri olmajan şəxslərə həvalə edilmişdi. Bu isə tə'lim işinə böjyk zərər gətirirdi. Tyrklər inqilabdan istifadə edərək Bakь dumasьnьn koməkliji ilə tyrk dilinin tə'limini mytəxəssislər əlinə verməji həkymətdən tələb etdilər. Həkymət bu tələbi qəbul

etməjə məçbur oldu. Tyrk dilinin tə'limi mytəxəssis myəllimlərin əllərinə kecər-kecməz hazьrda olan kitablarьn jaramadьqь, proqramlarьn joqluqu mejdana cьqdь. Bu ehtijaçlarь əldə etmək ycyn Həsən bəj Meliqovun sə'ji ilə 1906-çь ildə Bakьda birinçi myəllimlər qurultajь caqьrьldь. Qurultaj jalnьz proqram tərtib etməjə myvəffəq oldu. Myəllimlərə, gələn qurultaja kibi tədris kitablarь jazmaq təklif olundu. Sylejman Sani, Fərhad Aqa zadə və Abdulla Əfəndijevin jardьmilə əlifba kitabcasь jazmaqa başladьqda, ərəb əlifbasьnьn ysuli-sovtijəjə jaramadьqь mejdana cьqьr. Ona görə myəllim joldaşlarь ərəb əlifbasьnь islah edərək bir əlifba kitabcasьnьn prozesini dyzəldirlər.

1907-çi ildə ikinçi qurultaj vaqe olur. Joldaşlarьndan Fərhad Aqa zadə bu əlifbanь qurultaja təqdim edir. Uzun-uzadь mybahəsə və mynaqişələrdən sonra qurultaj:—Bu məsələ Ymum Islam qonqrasь kibi məçlislərə aid bir vəzifədir—dejə əlifbanь rədd etdilər. Bu fəqərədən sonra 6 myəllim, Sylejman Sani də onlarьn icində, daha qurultajlara, qonqralara umud baqlamajьb birlikdə inqilabvari «Ikinçi il» adlь məşhur kitabь jazьrlar.

Sylejman Sani latьn əlifbasь tərəfdarь olaraq 1906-çь ildən başlamьş joldaşlarь Fərhad Aqa zadə və Abdulla Əfəndijev ilə bahəm bu jolda işləjir. Şura həkymәti devrində, latьn əlifbasь qəbula kecdikdən sonra, ilk dəfə jeni əlifba kitabcasь Sylejman Sani, Aqa zadə və Məhəmməd zadə tərəfindən jazьlьr.

1905-çi ildən başlamьş tyrk məktəbləri get-gedə artmaqa başlajьrlar. Coçuqlar ycyn zurnallar nəşr edilir. Bakьda əvvəl «*Dəbistan*» sonra «*Məktəb*» məçmuələri nəşrə başlajьr. Fəqət bu zurnallarda dərç olunan hekajələrin əksəri rusçadan tərcy-

mə olduqu ycyn coçuqlarь maraqlandьrmajьr. O zaman Sylejman Sani «*Məktəb*» zuralьnda «*Qorqulu naqьllar*» sərlevhəsi altьnda maraqlь, orzinal hekajələr jazmaqa başlajьr. 1918-çi ildə Bakь qommunasь zamanь Sylejman Sani 8 Ijuldan 1-çi məarit qomisarь joldaş Qolesniqovun sədrliji altьnda Xalq Məarif Şurasьnda iştirak edərək, zəhmət məktəbi təşkili ycyn proqram tərtibi və qejri işlərdə calьşьr.

1920-çi ildə, əks-inqilab Gənçədən Qarabaqa kecdikdə Sylejman Sani Azərbajçan inqilab qomitəsi tərəfindən Şuşaja işləməjə göndərilir. Orada əvvəl 286-çь rabitə nacalniki joldaş Rьbakinin sədrliji altьnda devləti hərbi ləvazьmatь ucota alan qomisijada və sonra Şuşa qəza hərbi qomisarjatьnda işləjir.

Kyrdystan əks-inqilabcьlar hərəkatьndan xilas olduqdan sonra Sylejman Sani orada kənd şuralarь jaratmaq, şura aparatlarь dyzəltməjə tə'jin olunur. Bu işləri bitirdikdən sonra Sylejman Sani 9 avqust 1920-çi ildə Qarabaq oblast məarif mydiri tə'jin olunur. Bu vəzifədə Sylejman Sani Qarabaq və Zəngəzurda bir coq məktəb, coçuq jurdu, qlub, qiraətxana, kytybxana və qejri acaraq şuralaşmьş və sevgili vətəninə xidmət edir. 1921-çi ildə revmatizm xəstəlijinə dyşərək Bakьja gəlir. Burada Bakь məarif şö'bəsində bir myddət inspeqtorluq vəzifəsini apardьqdan sonra məarif qomisarlьqьnьn razьlьqilə təkrar əski vəzifəsi, məktəb mydirlijinə qajьdьr. Sylejman Sani haman ildə Azərbajçanьn şuralaşma il dönymy mynasibətilə e'lan olunmuş ədəbi qonqursda iştirak edir. «*Lacьn juvasь*» adlь façiəsi birinçiliji qazanьr.

1921-çi ildə Bakьda Təbliq və Tənqid teatrosu acьlьr. Sylejman Sani bu jeni teatro ycyn bir coq pjes jazaraq proletariat kytləsinin məhəbbətini qazanьr. Nojabrьn 13-də jeni teatronun pərdəsi onun «*Cərxi-Fələk*» adlь pjesi ilə acьlьr.

1923-çy ildə Bakьda «*Şərq qadьnь*» məçmuəsi nəşrə başlajьr. Sylejman Sani qadьnlara maxsus olan bu gənç orqanda iştirak edərək bir coq hekajələr jazьr. Bununla bərabər «*Məarif və Mədənijjət*» və «*Inqilab və Mədənijjət*» zurnallarьnda da iştirak edir.

Sylejman Saninin coçuqlar ycyn jazdьqь orzinal hekajələrdən başqa, bir coq rusçadan tərçymələri də vardьr. Bunlarьn çymləsindən professor M. N. Boqdanovun təbiətə dajir bədii əsərləri «*Sərcə*» «*Sьqьrcьn*» «*Qaranquşlar*» və qejri təkrar cap olunmuşlar.

Sylejman 40 ildən zijadə içtimai-ədəbi məarif çəbhələrində aqtiv surətdə calьşaraq şura vətəninə xidmət etmiş.

Sylejman 1922-çi ildən 1930-çu ilə kibi Bakь şurasь yzvy, 2 dəfə Bakь Içraijjə Qomitəsi namizədi, bir dəfə Azərbajçan Mərkəzi Içraijjə Qomitəsi yzvy olmuşdur.

1932-çi ildə Işçi-kəndli, Qьzьl əskər və Bəhrijjunlar nymajəndələri şuralarьnьn Azərbajçan Mərkəzi içraijjə qomitəsi Sylejman Saninin Azərbajçan Sosialist Şura Çymhurijjəti qarşьsьnda 36 il pedaqozi ədəbi, mədəni, içtimai sahədə içra etdiji mystəsna xidməti qijmətləndirərək ona zəhmət qəhramanь adь verməji qərara alьr.

Sylejman Sani bu gyn Azərbajçan şura jazьcьlar ittifaqьnьn yzvy olub, Şura jazьcьlarь sьrasьnda calьşmaqdadьr.

HEKAJƏLƏR

KEVKƏBI-HYRRIJJƏT

Şahzadə naqьla başlajaraq dejir:

— Şahьm, zamani-sabiqdə, Sylejman pejqəmbərin əsrində, tərəfi şimalda bir taifeji-əzim sakin idi. Bu taifənin vətəni bir çənnət misal məkan idi ki, təbiət өz gөzəllijini orada sybuta jetirmişdi. Lakin bu topraq bir mərəzi-bidərmanə mybtəla olub o gөzəl ne'mətlərdən məhrum qalmьşdь. Bu mərəz pirlik mərəzi idi: belə ki, 18 jaşьnda çavanьn sacь-saqqalь aqarьb beli iki qat olurdu. Əlləri, ajaqlarь əsib gөzlərinin nuru gedirdi. Həştad jaşьnda bir qoçaja dөnyrdy. Bu xalqdan ijirmi beş jaşьna catan olmamьşdь.

Bir gyn bu taifə məçlisi-kybra qurub mərəzlərinə carə tapmaqa şyru' etdilər. Lakin açiz qalьb mə'jus oldular. O vaqt onlardan biri kyrsijə qalqьb dedi:

— Qardaşlar, biz өzymyz bu azara carə tapa bilmədik. Mənim başьma bir fikir dyşmyş; söjlərəm, bəgənsəniz onu əmələ gətirərik. Tərəfi-çənubda, Asija topraqьnda bəni israil taifəsinin arasьnda alim bir şəxs var. Bu alim hər bir cətin işə əlaç və hər bir dərdə dərman bilir. Əqilli adamlar secib onun hyzuruna gөndərək və dərdimizə carə istəjək.

Hamь bu təklifə razь oldu. Elcilər secib hədijjələrlə bərabər ol alimin janьna gөndərdilər. Elcilər o zaman gəlib catdьlar ki, alim həzrətləri əjləşib,

işə məşqul idi. Elcilər divanxanaja daxil olub tə'zim etdilər və dedilər:

— «Ej tilsimlər acan, hejvanlarьn, quşlarьn dilini bilən, ej əçinnəjə həkmy catan. Biz əhli-şimalьq. Jerimiz çənnət misal bir jerdir. Xyda hər ne'mətini bizə əta etmişdir. Lakin biz bir mərəzi-bidərmana mybtəla olmuşuq. Hənuz çavan ikən piri fanijə dənyryk. Ej sultani-həkmyran, bizə bir nəzər et. Baq qamətimiz bykylyb, sac saqqalьmьz aqarmьş, Lakin hec birimizin jaşь ijirmidən zijadə dejildir. Bu nə mərəzdir? Lytf elə, carəsini səjlə»

Alim dedi:

—Ej əhli-şimal, bu azarьn dərmanь Kevkəbi-hyrrijjətin şəfaətidir. O ildьz topraqьnьzьn şərq tərəfində bir daq dalьnda pynhandьr. O daq təbii dejil, onu divlər həryb sizi Kevkəbi-hyrrijjətin şəfaətindən məhrum etmişlər; zamanь ki onu daqьtdьnьz, Kevkəbi-hyrrijjətin nuru çanьnьza sirajət edib ruh və bədənlərinizi təzələjəçəkdir, sizləri çavanlaşdьrьb əz təbii halьnьza salaçaqdьr.

Elə ki, elcilər dərdlərinin carəsini bildilər, alimə artьq razьlьq edib şad və xyrrəm əz vətənlərinə qajьtdьlar və vətəndaşlarьnь işdən hali etdilər. Onlar da balta, bel, kyrək, ling və qejri alət gətyryb daqь daqьtdьlar və Kevkəbi-hyrrijjətin yzy acьldь, onun şə'ləsi bunlara dyşyb çymləsini çavan etdi. Insanlar ruhə gəlib al libaslara girib bajram etdilər. Lakin şadlьqlarь artьq davam etmədi. Bir myddət kecərək qara bulutlar Kevkəbi-hyrrijjətin yzyny dutub onu jenə pynhan etdi.

1905

Şəkil xəb. Mərkəzi Tyrk
KYTYHXAN:Sь
Центр. Тюрк. Библиотека
имени
«САБИР»

6466

JUQU


Juqumda əzymy bir qaranlьq jerdə gərđym. Gəzlərim hec bir şej secməjirdi. Lakin ajaqlarьmьn altьnda topraq olduqunu hiss edirdim. Bir myddət kecərək gəzlərim zylmata əjrəşdi. Javaş-javaş ətrafьmdakь əşjanь secməjə qadir oldum. Myqabilimdə bir səhra acьldь, orada qojun syrysy gəryndy. Syryjə tərəf jənəldim. Jaqьnlaşdьqda belə bir şəkil gərdym: qojunlar başlarьnь jerə əjib, gəzlərini ota dikib guja otlamaq istəjirlər, lakin hərəkətsiz durmuşlar. Cobana gəldikdə o da comaqьnьn uçu nu avuçlarьna alьb cənəsinə dirsək vermişdi. Onda da hec bir hərəkət joq idi. Mən təəççybdə ikən gəzlərimə meşə və caj sataşdь. Oraja getdim. Meşədə coqlu hejvan və quş var idi. Fəqət bunlar da hərəkətsiz sykuta getmişlərdi. Hətta cajьn suju gəryda insanlar gəryndy.

— Gedim onlardan harada olduqumu sorum— dejə jola dyşdym. Gəlib catdьqda gərdym ki, qəbirlər arasьnda əmmaməli, fəsli, papaqlь, sarьqlь insanlar dərin juquja getmişlər.

—Xudaja, bu nə məxluq və nə məkandьr ki, mənə rast gəlmiş?.. Bu fikirdə ikən gəzymə bir kynbəd dəjdi. Janьna getdim. Kynbədin hec bir qapьsь joq idi. Lakin mərmər divarьn yzərində barmaq işarəsilə qapь bura olduqunu gəştərirdi. Diqqətlə baq-

ɦьqda bu jazьnь secdim. «Bura zylmat aləmidir-
lşьqlьqa cьqmaq istəjənlərin jolu buradьr.»

Jazьnьn altьnda belə bir ycbuçaq cəkilmişdi-



Onun hər guşəsindən qьzьl qarmaqlar asьl-
mьşdь. Bu tilsimi acmaq qəsdilə saq qarmaqь cə-
kib sol və yst qarmaqla bitişdirdim. Qapь acьlma-
dь. Sonra sol qarmaqь yst və saq qarmaqla bitiş-
dirdim, jenə acьlmadь. Axьrda yst qarmaqь sol və
onu da saq qarmaqa tərəf cəkib bitişdirdim, o saat
qapь acьldь. Mən girdim, qapь jenə өz-өzynə өr-
tyldy. Bir qədər getdikdən sonra bir mejdana cьq-
dьm. Buradan 72 jol ajrьlьrdь.

Bunlarьn hansь məni işьqlьqa cьqarar—fikrin-
də ikən jol başьnda dirək yzərində barmaq şəkli
«I» hərfinə işarət etdijini gərdym, o jolu dutub get-
dim. Başqa bir mejdana cьqdьm. Orada da jol ba-
şьnda qondarьlmьş dirək yzərində «R» hərfi jazьl-
mьşdь. Bu minval ilə hər mejdanda, dirək ystyndə
«Ş» sonra «A» və axьrda «D» hərfləri göstərişi ilə
gəlib bir qapьja cьqdьm. Bu qapьnьn yzərində di-
rəklər ystyndə jazьlmьş hərflər myrəkkəb olub «Ir-
şad» ləfzi jazьlmьşdь. Qapьnь acdьqda gynəş pən-
çərədən gözlərimə dyşyb məni ojatdь.

Kycədən:

— «Irşad», «Irşad» təzə qəzetə sədasь gəlirdi.

1905

QONAQLЬQ

Bol jedilər, bol icdilər. Qəhvə gəldi. Icərkən or-
talьqa belə bəhs dyşdy.

Həkymətin sytunu kimdir?

— Əlbəttə bəjlər! Ev sahibi dedi. Biz nyçəbasьz
həkymət jaşaja bilməz. Həkymətin sytunu bizik.

Taçir dedi:

— Tiçarət olmazsa, para olmaz. Parasьz da heç
bir həkymət jaşaja bilməz. Həkymətin sytunu biz
taçirlərik.

Alim dedi:

Həkymətləri jaşadan bilikdir, onsuz hec bir qu-
ruluş davam edə bilməz, pozulub məhv olar. Həky-
mətin sytunu alimlərdir.

Ruhani dedi:

— Rəijjəti həkmyranlar itaətində saqlajan, on-
lara tabe etdirənlər biz ruhanilərik. Bizsiz əxlaqlar
pozular, isjanlar qalqar, qanlar tökylər, həkymət-
lər də jьqьlar. Bizik həkymətin sytunu.

Zabit dedi:

— Səjlədiklərinizi təsdiq edirəm, lakin dyşman
vətənin ystynə hyçum etdikdə dəşlərini verib onu
mydafəə edən kimdir? Əlbəttə biz. Həkymətin sy-
tunu biz əsgərlərik.

Qonaqlar ejvana cьqьb qəljan, sьqara çəkməjə
məşqul oldular. Bəhs jenə təzələndi. O vaqt bir qo-
ça kəndli arabadan taxьl kisələrini fə'lələrin dalьna

verirdi, onlar da ambarlara jьqьrdьlar. Ev sahibi bəj dedi:

— O qoça kəndlini həkəm secək, nə desə ona razь olaq.

Hamьsь bu təklifə razь oldular. Kişini işdən avara edib caqьrdьlar, bəhslərini səjlədilər. Kəndli dedi:

— Ej aqalar, dyzyny jaxtarsanьz həkymətin sytunu biz kəndlilər ilə o qan-tər icində jyk daşьjan tə'lələrdir. Biz əkməsək, bicməsək, onlar da işləməsə hec bir həkymət jaşaja bilməz—bunu dejib çəld işinə getdi.

1905

QATIL COÇUQ

Otuz-qьrq il bundan əvvəl, bəlkə indi də Azərbajçanьn coq jerlərində mysəlman əkincilər arasьnda xejli təəççyblyj hər kəsin nəzərini əzynə çəlb edən və əkincilik sən'ətinə əsla jaqьşmajan bir hal vardь. O da əkincilərimizin əz zəhmətilə beçərilmiş taxьlь bicməkdə açьz qalaraq iranlь bicincilərinə məhtaç olmaqlarь idi.

Jajьn sьçaq gynləri idi. Iran bicinciləri əjinlərində çьndьr paltar, ajaqlarьnda carьq, qabarlь əllərində oraq, arqalarьnda mitil jorqan Aras cajьnь keçərək Azərbajçana sel kibi aqьrdь. Bu zəhmətkeşlər arasьnda başь əmmaməli və qurşaqlь, bojnu joqun sejid dəstəsi də gərynyrdy. Zənn olunmasьn ki, bu myftəxorlar da Azərbajçana iş aramaqa gəlirdilər. Xajьr onlar xьrmanlarь gəzib «çəddimin palьnь ver» dejə kəndlilərdən «sejid vergisi» tələb edərdilər. Dini və adəti mevhumata qərq olmuş sadədil məzlum kəndlilər hər bir vergidən əvvəl bu myftəxorlarьn torbalarьnь doldurardьlar və hec biri çyr'ət edib onlarьn tələbini rədd edə bilməzdi.

***

«Zəmili» kəndi daq ətəjində, meşə qьraqьnda dyşmyşdy. Bu kəndin əhli əkincilik və maldarlьq ilə məşqul olardь. Tarlalarь jyksək jerlərdə olduqu yçyn daqlar arasьndan aqan cajlardan istifadə edə bilməzdilər. Ona gərə jaqmьr az jaqan ili əkinləri janьb zəhmətləri hədər gedərdi.

Bu kəndin qurtaraçaqьnda, meşənin başlanqьcьnda əsgi və ufaq daxmada Qьzxanьm adlь bir qadьn 12 jaşlь oqlu ilə jaşardь. Bu qadьn 5 il idi ki, dul qalmьşdь. Əri Mehdiqulunu artьq dərəçədə sevərdi və sevməjə də haqlь idi; cynky Mehdiqulu həlim təbiətli, gylər yzly, rəhmdil bir şəxs idi. Ələnə kibi bir dəfə də olsa Qьzxanьmь inçidib əzijjət verməmişdi. Bundan ilavə Mehdiqulu kənd əhli ilə də gözəl rəftar edərdi.

Tarlasьnь hamьdan qabaq şumlajьb qurtarardь və sonra dul qadьnlarьn, xəstə dyşmyş kəndli qardaşlarьn jerlərini pulsuz-parasьz öz ökyzləri ilə syrərdi; buna görə kəndlilər onu coq istərdilər. Bu jaqşьlьqlarьn əvəzi idi ki, indi dul qalmьş Qьzxanьmьn tarlasьnь «ho» edib əkərdilər və bicin zamanьnda kömək edərdilər. Bir tərəfdən də oqlu Mərdanь özlərinə coban dutub pul vermək ilə Qьzxanьma kömək əllərini uzadardьlar. Qьzxanьm bu qejrətli kəndlilərin sajəsində öz oqlu ilə jaqşь gyzəran edərdi.

Qьzxanьm, əri kibi işlək, xoş xasijjətli, namuslu bir qadьn idi. Bir ittifaq kəndlilərin məhəbbətini ona daha da artьrmьşdь. Çavan Qьzxanьm dul qaldьqdan sonra dybarə ərə getməmişdi.

Elcilərə belə çavab verərdi:

— Sevgili ərimdən sonra kimsəjə arvad olmaq həvəsində dejiləm və oqlum Mərdanьn da qəlbini jaralamaq istəməjirəm. O qejrətli coçuq bəjyjyb məni hamьdan jaqşь saqlajaçaqdьr.

Bu fikir janlьş dejildi. Mərdan saqlam, çəsur bir coçuq idi. Anasilə mehriban rəftar edib itaətindən bojun qacьrmazdь.

Atasь Mehdiqulu asudə vaqtlarьnь avda kecirərdi. Bə'zi vaqt Mərdanь da özy ilə ava apararдь. Bu isə coçuqda avcьlьq həvəsini artьrardь. Atasь

ələndən sonra coçuq onun av tyfəngini də özy ilə gətyrərdi. Anasь mane olmaq istədikdə dejərdi:

— Anaçan, qorqma, tyfəngdən mənə xəta gəlməz, bəlkə məni jьrtьçь hejvandan myhafəzə edər. Atmaqda da ustajam.

***

Gynəş ahəstə-ahəstə daq başьndan enirdi. Getdikçə gözə batьçь şə'ləsi zəifləşirdi. Dynjaja buraqmьş zərrələrini geri çəkərək sankь dejirdi:—Siz də bir qədər rahat olun balalarьm.

Bir azdan sonra daqьn dalьna enərək gözdən qajib oldu. Kəndə qaranlьq çökməjə başladь. Aradan bir on dəqiqə kecərək daqьn arqasьndan qara bulutlar qalqaraq kəndin ystyny aldь.

Qьzxanьm daxmadan cьqьb darvazaja gəldi. Qara bulutlarь gördykdə jazьq qadьnьn yrəji iztiraba dyşdy.

Mərdan hər gyn gynəş batdьqda mallarь kəndə gətirərdi. Qəflətən şimşək qьzьl ilan kibi göj yzyndə ojnajaraq daqlara dəhşətli bir səda buraqdь. Bu səsdən diksinərək Qьzxanьm yrəjində dua etməjə başladь.

Gurultu getdikçə artьrdь. Bir azdan sonra şiddətli jaqmьr jaqmaqa başladь. Qьzxanьm daxmaja girib kəlmə, jamaqlь şalьna byryndy və jenə qapьja cьqdь. Bu vaqt qьsa bojlu, qaraqaş, pьrtlaq göz bir çavan sejid abasьnь başьna çəkmiş doqqaz ilə gəlirdi. Qьzxanьmь gördykdə ona tərəf jönəldi.

— Bacь, mən qərib sejidi allah qonaqь saqlamaqь rəça edirəm.

— Aqa, çəddinə qurban olum, bu ev hec bir qonaqь qapьsьndan naumud qajtarmamьş, ançaq mənim ərim vəfat etmiş. Mən bir dul qadьnam, kişisiz evə sən naməhrəmi neçə buraqьm?

Sejid bunu eşitdikdə və çavan Qızxanımın gözəl simasının gördykdə qara pırtlaq gözlərindən od parladı.

— Baçı, sejid evladı hər bir evə məhrəmdir, məni belə jaqmırda qapından naumud qajtarsan bu evi bişək-şybhə bəla dutar.

Qızxanım sejidin qarqışlarından coq qorqardı. Oqlu xəstə olanda, başı ağrıjanda, ja sançı dutanda hər bir şejdən əvvəl sejidə nəzr edərdi. Indi sejidin sözlərini eşitdikdə yrəji qorquja dyşdy. Bir tərəfdən də namuslu qadın jad kişini evinə buraqmaqdan həja edirdi. Bu halda intizarının cəkdiji oqlu jadına dyşdy.

— Aqa icəri bujurun, jaqış sizi isladır.

Hər ikisi həjətə daxil oldu. Qızxanım daxmaja girib cıraqı jandırdı və sonra sejidi icərijə təklif etdi.

— Bujurun aqa rahat olun.

Sejid islanmış abasının cıqarıb əjləşdi.

— Bəs baçı, oqlun haradadır?

— Aqa oqlum kəndin mallarını otarır, indi gələr. Ançaq jaqış coq şiddətli jaqır. Oqlumdan nigaranam; cynky uşaqdır, daqdan aqan selə dyşyb tələf olar.

Sejid dedi:

— Xof etmə baçı, sən mən sejidi mysafir etdin, çəddini Məhəmmədəlmystəfa bujurmuşlar ki, mənim evladım olduqu evə bəla nazil olmaz. Bu saat oqlun saq və salamat gəlib cıqar.

— Allah aqzından eşitsin aqa.

— Əlbəttə biz sejidlərin aqzından cıqan sözlərin hamısı allah, pejqəmbər kəlamıdır. Ançaq baçı, səndən bir söz sormaq istərəm. Sən belə gözəl və çavan qadın nə ycyn ikinçi ərə getməmisən?

— Aqa mən ərimi coq istəjirdim. O ələndən sonra əhd etdim ki, bir də başqasına getməjim. Onun tək varisini bəjydym.

— Əhsən, əhsən, göryrəm sən coq vəfalı qadınsan. Lakin nadanlıqdan çəddimin əmrindən cıqmısan və gynah da etmisən. Məjər bilmirsənmi ki, çəddim Məhəmmədəlmystəfa öz şəriətində bir kişijə dört arvad almaqı çajız bujurmuşlar. Bundan ilavə siqə jolu da qojmuş. Biz sejidlərə gəldikdə bunlar da lazım dejil. Bir dua oqumaqla hər bir qadın bizə halal olur. Mən buraja girdikdə o duanı oqudum ki, sən mənə həlal olasan. Bunların sirri bilirsənmi nədir? Islam tajfası tərəjib artsın, jer yzyny dutsun, kafirlərə qalib gəlsin.

Bu halda «Qızıl inəjin» mələməsi Qızxanımın qulaqına catdı, çəld dışarıja cıqdı və qapını acıb inəji icərijə buraqdı. Sonra gözlərini doqqaza dikdi ki, görsyn oqlu gəlirmi?

Jaqış kəsilmişdi. Lakin joldan hələ sel aqırdı. Uzaqdan Qızxanımın gözynə bir qaraltı göryndy. Gözlədi ki, görsyn kimdir. Bir azdan sonra Mərdan və arqasınça «Bozdar» gəlib cıqdı. Qızxanım soruşdu:

— Oqlum nə ycyn belə geç gəldin? Jaqış mallara xəta jetirmədi ki?

— Xajır ana, sel gyçly olduquna görə malları daqdan endirmədim ki, dərələrdən kecə bilməzlər, hamının mallarını bir-bir qapılarına kibi aparıb həjətlərinə buraqdım.

— Gəl, əqilli oqlum, rahat ol, bir sejid qonaqımız da var. Jaqış dutmuşdu, coq jalvardı ki, icəri qojum.

—Jaqşı etmişsən, ana! belə havada qonaqı jolda qojmazlar.

— Sən get rahat ol, mən də inəjimizi saqıb pəjəjə salım.

Mərdan icəri daxil olub sejidə salam verdi və «xoş gəlmisiniz»—dejə halını soruşdu. Sonra islanmış japıncısını cıqarıb divardan asdı və tyfəngini də buçaqa qojdu. Sejid tyfəngə nəzər jetirib Mərdana dedi:

— Oqlum, tyfəng gətyrməjə hələ uşaqsan.

— Aqa, 12 jaşında kəndli balasına uşaq deməzlər. Bu gyn sizin baxtınızdan əlimə av kecmədi. Davşan coqdu, ançaq mən onları av etməjirəm; cynky ətini hec kəs jeməjir, av edəndə də köpəjim Bozdara verirəm.

— Oqlum, davşan ətini, at ətini pejqəmbərimiz məkruh bujurmuşlar, jə'nî istəsən jejərsən, istəməsən jeməzsən.

Mərdan soruşdu:

— Belə nə ycyn? Desin, ja halaldır ja haram.

— Oqlum şəriətimizdə coq sirrlər vardır. Sən başa dyşməzsən.

Qızxanım əlində bir badja syd daxil oldu. Sonra syfrə salıb, kypədən jaq cıqarıb saplıçaja qojdu və gedib qajqanaq bişirib syd, qatıq ilə syfrəjə qoidu.

— Aqa, başqa xərəjimiz joqdur, allah verəndən jejin.

— Allah evinizə bərəkət versin, bunlar da coqdur.

Taamdan sonra Qızxanım syfrəni jıqışdıraraq dedi:

— Aqa biz kəndlilər erkən jatıb erkən də durmağa adət etmişik. Bilirəm siz də jol gəlmisiniz, jorulmusunuz. Izn verin jerlərinizi salım.

Sejid dedi:

— Mənim də adətim elədir.

Qızxanım oqlu və qonaq ycyn icəridə və özy ycyn də dəhlizdə jer hazır etdi.

Mərdan və sejid rahat olandan sonra Qızxanım cıraqı gətyryb dəhlizə kecdi və orada jatmaq istədi. Birdən jadına dyşdy ki, Mərdanın köjnəji jarımcıq qalmış, səhər istəjəndə verə bilməjəçəkdir. Ona görə köjnəji tikməjə məşqul oldu. Qızxanım geçə jarıja kibi işləjib köjnəji hazır etdi. Sonra cıraqı səndyryb özy də jatdı. Qızxanım jeniçə juquja getmişdi ki, kumanın qapısı acıldı. Bunun çırıltısı Qızxanımı ojatdı.

— Kimsən?—dejə səslədi.

— Baçı mənəm, bajıra cıqmaq istəjirəm, köpəkdən qorquram—dejə sejid çavab verdi.

— Səbr edin aqa, cıraqı jandırım. Qızxanım şala byrynyb cıraqı jandırdı və aftafaja su tökyb sejidə verib dedi:

— Evin sol tərəfinə gedin.

— Baçı köpəkdən qorquram, dışarıja cıq onu qojma.

— Köpək pəjənin janında jatır. O sizi görməjəçəkdir. Ejbi joqdur mən də cıqaram.

Dışarı cıqdılar. Jaqmırdan sonra hava coq gözəl və gyndyz kibi ajdınlıq idi. Sejid aftafanı jerə qojub Qızxanıma tərəf gəldi.

— Gözəl qadın, bajıra cıqmaq bir bahana idi. Mən sənin eşqindən bu geçə gözlərimi jummamışam, mənim istədijim gərək ola, bunu dejə sejid Qızxanımın əlindən japışdı. Qan, hajalı-namuslu qadınların başına sıcradı. Əlini çəkib şala byryndy.

—Aqa, sən məni bihəja qadınmı sanırsan? Hec pejqəmbər evladı belə iş edərmi? Səni mən evimə burağıb qonaq etmişəm, qabağına duz, cörək qojmuşam. Hec ondan utanmajırsanmı? Indijə kibi mənim əlimdən bir naməhrəm dutmamış.

Sejid dedi:

— Mən bajaq sənə dedim ki, mən sənə nəmələrəm dejiləm, siqə duasьnь da oqumuşam. Mənlə mylaqat etsən, nə inki gynah, savabdan da savabdьr; cynky bir sejid evladьnьn məramьnь əmələ gətirirsən. Burada nə gynah ola bilər? Onu da bil ki, hərgah mənim xahişimi əmələ gətirməsən elə bir qarьqbş edəjəçəm ki, bu ev janьb kyl olsun, istəkli balan da tezlik ilə əlindən getsin, indi səndən çavab gəzləjirəm.

Jazьq qadьn sejidin ajaqlarьna dyşyb jalvarmaqa başladь:

— Aqa, səni and verirəm o çəddinin pak olan ruhuna, mənim namusuma doqunma. Mənim balamь əlimdən alma.

Sejid Qьzxanьmьn şalьnь başьndan dartьb jerə atdь və onu quçaglajaraq dedi:

— Gəryrəm sən öz ixtijarьn ilə mənim xahişimi əmələ gətirməjəçəksən.

Namuslu qadьn həjasьndan qьşqьrmajьrdь ki, səsini qonşularь və oqlu eşidər. Ançaq öz gyçy ilə sejidin əlindən xilas olmaq istəjirdi. Bu halda Mərdan ojandь. Juqulu coçuq dəhlizdən gələn ьşьqь gəryb səhər acьlmьşdьr, sandь. Çəld dəhlizə cьqdьqda həjətdə cьplaq anasьnь sejidin quçaqьnda capalajan gərçək qan qejrətli coçuqun başьna sьcradь. Tez icəri girib tyfəngi qapdь və həjətə cьqdь.

— Nə edirsən binamus kişi?

Bunu eşitçək sejid Qьzxanьmь buraqdь. Mərdan onu qaravula gətyryb tyfəngin caxmaqьnь əkdi. Sejid şimal ruzgarьndan qopan qoçaman aqaç kibi jerə sərildi.

Bunu gərçək Qьzxanьm qьşqьrdь:

— Nə etdin oqlum, sejid qatili oldun, evimiz tar-mar olaçaqdьr.

— Bəs sən istərdin ki, mənim anamьn namusuna doqunanь saq qojum. Məgər mən Məhdiqulunun oqlu dejiləm? Sən ana, qorqma, hamьja çavabь özym verəçəjəm—dejə Mərdan anasьna təsəlli verdi.

Tyfəngin səsinə və Qьzxanьmьn qьşqьrьqьna jaqьn qonşular təkylyb gəldilər. Əhvalatь biləndən sonra dedilər:

— Əhsən sənə ijid və namuslu oqlan, lə'nət olsun belə binamus sejidə.

1923

ÇƏHALƏT QURBANЬ

Coçuqluq xatьratьmdan, naqьlьna şyru etdijim bu vaqeə məndə elə bir dərin tə'sir buraqmьş, qəlbimdə elə silinməz nəqş baqlamьşdьr ki, sanki uzun myddət joq, dynən vaqe olmuşdur.

Səkkiz jaşьnda coçuq ikən «Sejidli» adlanan kəndimizdə baş acьq, ajaq jalьn, təbiətin mərhəmətli quçaqьnda, məişətin aqьr və zəhərli hallarьndan xəbərsiz jaşardьm.

Bir gyn əmim oqlunun altь jaşar oqlu ilə həjətimizdə ojnarkən palanlь ata minmiş bir qoçanь darvazamьzьn aqzьnda durmuş gərdym.

— Baba kimi istəjirsiniz?—dejə soruşdum. Çavabьnda mə'lum oldu ki, əmim oqlu ilə gəryşmək istəjir. Bujurun icəriјə—dejə mən əmim oqluna xəbər verməjə qacdьm. Qoça, əmim oqlu ilə gəryşdy, salamlaşdь.

Mən də joldaşьm ilə ojnamaqa məşqul oldum. Bir qədər səhbətdən sonra salamatlaşьb, «allah sizdən razь olsun, mən qoçanь umudsuz qajtarmadьnьz»—dejə atьnь minib getdi.

Bundan bir, necə gyn sonra həmin qoça, ystynə on dərt jaşьnda bir, qьz minmiş jykly atьn çilovunu cəkərək janьnda da on jeddi jaşlь digər bir qьz ilə həjətə girdi.

Əmim oqlu onlara xoş gəldin elədi. Qoça kicik qьzь atdan dyşyrtdy və sonra ata catьlmьş iki məfrəsi acьb jerə saldь. Bu məfrəşlərdə bir qədər, qab-

-qaçaq və qejri ev şejləri vardь. Əmim oqlu həjətimizdəki bir əski kumanь göstərib dedi:

— Budaq baba, məskəniniz bu kuma olaçaqdьr. Atь axьra cək, rahat et, sonra uşaqlarьnьz ilə otaqa bujurun, bizə qonaq olun.

— Coq razьjam, sizə zəhmət vermək istəməjirəm. Qьzlarьm kumanь təmizləjib palas salarlar, rahat olarьq.

—Budaq baba, jol gəlmisiniz, jorulmusunuz, həm də açmьsьnьz bujurun bizdə jemək jejin, bir qədər rahat olun sonra mənzilinizi səliqəjə salarsьnьz.

Bu sözlərə anam da şərik olub qьzlarь otaqьmьza apardь. Budaq baba da atь rahat edib əmim oqluna qonaq oldu. Anam qьzlara jer göstərib oturtdu və sonra baçьmь və məni göstərərək tanьş etdi:

— Bu mənim qьzьm və bu da kicik oqlumdur. Bəjyk qardaşlarь Tiflisdə oqujur. Sizin bəjyk baçьqьzь tanьjьram o «Şilli» kəndində olur. Indi siz bir baş Kyrdystandanmь gəlirsiniz?

— Xejir, biz Kyrdystandan Şillijə gəldik, baçьmьzьn janьnda mənzil tapmadьq, buraja gəldik— dejə bəjyk qьz çavab verdi.

— Ananьz saqdьrmь?

— Joq, bir ildir ki, ölybdyr.

Anasьz uşaqlarьn gyny pis kecər, ananьn hec kəs verə bilməz. Balalarьm, mənim uşaqda kərpə ikən atalarь öldy. Amma mən özym qlarьmь bəsləjib bəjydyrdym.

Anam qьzlar ilə mehribanlьqla danьşaraq jemək hazьr etdi və syfrəjə qojub taam jeməji təklif elədi. Lakin onlar utanaraq jerlərindən qьmьldammadьlar.

— Utanmajьn qьzlarьm, iləri gəlin cörək jejin.

Baçьm qalqьb baçьlarьn əllərindən dutdu və syfrə başьna apardь. Onlar da utana-utana jemək jeməjə başladьlar. Qonaqlarьmьz jeməjə məşqul

ikən mən də onların bir ata-ana evladı olaraq əsla bir-birlərinə bənzəmədiklərinə diqqət edirdim.

Böyük qız uça boylu, incə belli, iri qara gözlü, uzun qara saclı, dodaqlarında mydam bir təbəssym, nəzakətli bir Kyrdystan gözəli olduqunu sybut edirdi.

Kicijinə gəldikdə ala gözlü bu qız gəjərcinə bənzəjirdi. Bu bənzəmə mənim fikrimi o qədər çəlb etmişdi ki, özymy saqlaja bilməjərək:

— Sənin adın gəjərcindirmi?—dejə kicik qızdan soruşdum. Qəflətən verdijim bu sual qadınların gylyşməsinə səbəb oldu.

— Xejir, mənim adım Gylbənd, baçımınki Tamamdır,—dejə böyük qız çavab verdi və sonra mənə diqqət jetirərək dedi:

— Gəjərcin adı sizə daha artıq jaraşır.

Anladım ki, Gylbənd mənim abı mahut cuxama, cal papaqıma işarə edir.

Mənim sualım indijə qədər davam edən sykut pozdu. Mənim qardaşlarım naqıla qulaq asmaq coq sevər. Ona jemək vermə, icmək vermə, boliuça naqıl söjlə. Geçələr məni rahat qojmajır «Baçı jenə naqıl de»—dejə jalvarar; mən də Məlik Məhəmməd, Qır at naqıllarından ajrısını bilmərəm—dejə baçım şikajətləndi.

— Mən də naqıl bilməjirəm, ançaq baçım Tamam coq bilir. Kyrdystan aşıqları söjlədikləri naqılların hamısını dəşynə jıqıb, elədirmi, baçım? —dejə Gylbənd soruşdu. Tamam isə qızararaq başını aşaqı salıb çavab vermədi. Mən də anamdan soruşdum:

— Ana, Tamam bizim evdə olaçaqdır, eləmi?

—Joq oqlum, Gylbənd, əmi oqlun gildə qalaçaqdır. Tamam da əmi qızının uşaqını saqlajaçaqdır. Budaq baba ilə əmi oqlun belə sözləşmişlər.

Bəs Məhəmməd Rza nədir? Qoj əmi qızımın oqlunu o saqlasın Tamam da bizdə qalsın—dejə anamdan rəça etdim.

— Kişi xajlaqı kərpə uşaq saqlaja bilməz, bu arvad işidir. Sən darıqma hamımız bir həjətdə oluruq, hər saatda Tamamla göryşəçəksən, o da sənə gözəl naqıllar söjləjəçəkdir—dejə anam məni sakit etdi.

Qızlar jeməklərini bitirib ajaqa qalqdılar. Saq olun—dejə anamdan getməjə izn istədilər.

—Gedin qızlarım, mənzilinizi səliqəjə salın. Bu gyn rahat olun, sabahdan da işə başlarsınız.

Qızlar cıqdılar. Mən də onların arqasınça, həjətdə Tamama jaqlaşıb dedim:

— Tamam, doqrusunu de, jenə naqıl dejəçəksənmi?

—Dejəçəjəm, hələ sənə jaqşı ojunlar da öjrədəçəjəm—dejə məni arxajın etdi. Sonra əlini cijnimə qojaraq mə'sumanə bir təbəssym ilə—indi de görym, sənsən gəjərcin ja mən?

— Əlbəttə sənsən. Mən paltarımı dəjişsəm heç gəjərcinə bənzəmərəm—dejə mən çavab verdim.

— Doqrusu gəjərcini sevərəm, adım gəjərcin olsajdı artıqça xoşlanardım. Anam mənə daq kecisi dejərdi; cynky qajalara keci kibi dırmaşardım. Tamam adını mənə atam qojub.

— Tamam, bundan sonra mən sənə gəjərcin dejəçəjəm, razısanmı?

— Razıjam, indi gedim baçıma kömək edim, sonra söhbət edərik—dejə Tamam qacaraq komalarına getdi.

Mejvə baqları ilə ihatələnmiş gylly, baqcalı böyük həjətimizdə bizdən başqa iki əmi oqlumun da ailəsi jaşajırdı.

Kicik əmi oqlum hərcəndi evli dejildi, lakin d[illegible] baçьsь və onun iki jaşьnda oqlu ilə bir ailə kibi ajrьça jaşardьlar, Tamam da bunlarda işləjəçəkdi.

Kyrdystan daqlarьnda bəslənmiş bu iki cicək bu ailələr icərisinə girmək ilə onlarda bir jenilik, şadlьq vyçuda gətirdisə də digər tərəfdən nifaqə və ondan tərəjən façiəli hadisələrə də səbəb oldu; lakin burada onlardan bəhs etməjib hekajəmizin qəhrəmanь olan Tamam qьzçьqazьn yrək deşən façiəsini jazaçaqam.

***

Jazьn qьzqьn gynləri idi. Biz coçuqlar vaqtьmьzьn coqunu mejvə baqlarьnda kecirərdik. Gah jetişmiş mejvələri dərib jejərdik, gah quş juvalarьndan bala dyşyryb ojnardьq. Gah da çələ qurub ana quşlarь dutardьq. Bu pis hərəkətləri bizə tərk etməjə Tamam sə'j və qejrət edərdi. Bunlarьn əvəzində bizə çyr-bə-çr ojunlar öjrədib məşqul edərdi.

Hec unutmaram. Bir gyn bibim evinə getmişdim. Onlarьn baqьnda gəzymə aqaç deşijində japьlmьş bir alaçəhrə juvasь sataşdь. Çəld aqaça dьrmaşьb əlimi juvaja soqdum və tyksyz ətçə balalar ystyndən ana alaçəhrəni dutub sevinçək bir halda aqaçdan endim. Daha bibimə gərynməjib evimizə qacdьm, həjətimizdə Tamama rast gəldim.

— Bibin sənə nə verdi?—dejə Tamam soruşdu.

— Hec zad vermədi—dejə çavab verdim.

—Jalan söjləjirsən, bibin səni coq istəjir. Jəqin jenə də çiblərini qanfet ilə doldurubdur. Baq onun ycyn də əllərini çiblərindən cьqarmajьrsan, hec qorqma, mən səndən zor ilə almajaçaqam. Istərsən verərsən, istəməzsən verməzsən. Ançaq sözlərin jalan olduqunu bu gyn mənə sybut etdin—dejə Tamam məni utandьrdь.

Mən həqiqətən Tamamь artьqça istəjirdim və hec bir şej ondan myzajiqə etməzdim. Bunu özy də bilirdi. Lakin bu sözlərdən məqsədi nə olduqunu anlamadьm. Sol çibimdən əlimi cьqarьb dedim:

— Indi özyn baq, gər çibimdə bir şej varmь?

— O biri əlini çibindən cьqart, qanfet oradadьr —dejə Tamam təklif etdi. Əlaçsьz qalьb mən alaçəhrəni cьqarьb ona göstərdim və nə ysul ilə dutduqumu söjlədim.

— Mən bunu əvvəldən bilirdim. Indi mən sənə o anasьz qalmьş javrularьn halьndan bir necə kəlmə söjləjəçəjəm, qəlbin janarsa, balaça quşçьqazlara jazьqьn gələrsə analarьnь buraqarsan—dejə Tamam elə bir maraqlь, elə bir qəlb jandьrьçь sözlər ilə anasьz qalmьş quşçьqazlarьn halьnь təsvir etdi ki, mən ixtijarsьz avьçьmь acdьm və quşçьqaz da şad bir səs ilə ucub getdi.

Tamam mənim gözlərimdəki jaşь göryb «indidən sonra bir daha quşlara əzijjət verməjəçəjəm» sözlərini eşidib məni quçaqlajьb öpdy.

Bu ittifaqdan sonra mən bu pis adəti tərk etdim. Belə ysul ilə əsla zor etmədən Tamam bir coq cirkin hərəkət və adətləri mənə tərk etdirdi. Indi bu uzun mydd̈ət kecdikdən coçuqluq xatьratьmь jad etdikdə Kyrdystan daqlarьnda bəslənmiş elmsiz, tərbijə görməmiş bir qьzçьqazda bu qədər rəhmdillik, bu qədər coçuqlara tərbijə verməkdə ustad olmaqьna hejran qalьram.

Pajьz jetişdikdə biz coçuqlar ycyn jeni bir məşqulijjət əmələ gəldi. O da baqlarьmьzdan mejvə dərib damlarda asmaqdan ibarət idi. Anam məni həvəsləndirib dejirdi:

— Dur, oqlum, dur. Qьşьn uzun geçələrində buxarьmьzь (soba) jandьraçajьq, onun başьna toplanaçajьq, Tamam da bizə gözəl naqьllar söjləjəçəkdir. Biz də bu mejvələri şirin-şirin jejəçəjik.

Bəli, anam və'də verdiji gynlər gəlib catdь, aq--appaq qar kəfən kibi jeri culqaladь. Sojuq kylək hejvanlarь isti təjlələrə, insanlarь buxarьnьn başьna toplaдь. Geçələr qadьnlar, coçuqlar otaqьmьza jьqьlьb buxarьnьn başьna toplaşьrdьlar. Anam da cərəz gətirib qojardь. Biz də şirin səhbət edərək jejərdik, danьşardьq, gylyşərdik, axьrda da Tamam maraqlь naqьllarьnь başlardь. Jeri gəldikdə özyny el aşьqlarьna oqşadaraq həzin bir səs ilə oqurdu. Bə'zi vaqt səhbət əçinnədən, şejtandan, divdən, hal anasьndan dyşərdi. Hər kəs bunlardan əçajib, qəraib şejlər naqьl edərdi. Gylbənd, baçьsь Tamamьn hər şejdən zijadə xaraba qəbristandan qorququnu səjlərdi. Qadьnlardan bə'zisi ölylərin xortlamaqьndan bəhs edərək, Tamamьn xofunu haqlь bilərdi. Anam biz coçuqlarьn gözlərində qorqu əlamətini gərərək səhbəti dəjişdirərdi. Onun əvəzində xidmətci Baxtьjara qaval caldьrьb bizləri ojnadardь...

Bu il jaj tə'tili mynasəbətilə böjyk qardaşьmla bir jerdə vətənə evdət etmiş dajьm mənimlə göryşdykdə anama đejərdi:

— Bunun da oqumaq zamanь catmьş. Gedəndə özym ilə aparaçaqam.

— Joq, qardaşьm, birini dartьb qərib vilajətə apardьqьn jetər, daha bunu vermərəm,—dejə anam dajьmьn təklifini rədd edirdi.

—Vermәjib nə edəçəksən? Özyn bilirsən ki, oğlunun atasь, əmiləri hamьsь ölyb, böjyk mylkynyz əlinizdən cьqьb çinsli ilxьlarьnьz sahibsizlikdən tələf olub, sən bir dul arvad buna nə tərbijə verəçəksən? Böjydyb cobanmь edəçəksən? Nə ycyn evladьnьn bədbaxt olmaqьna səbəb olursan.

Belə đəjərli sözlər ilə dajьm baçьsьnь jola gətirmək istəjirdi. Lakin anam razь olmajьb dejirdi:

— Evladьmь nə ycyn elmsiz qojuram? Bu ildən mollanьn janьna göndərib oqutduraçaqam.

— Onda bu işi uşaqьn özynə buraq, istər biz ilə təhsilə gedər, istəməz sən anasь və baçьsь ilə burada qalar.

Anam buna razь oldu; çynky ondan ajrьlmajaçaqьma şyhhə etməjirdi. Lakin hər şej dajьm tərəfə kecməjə səbəb oldu. Birisi mollanьn cubuq və fələqqə qorqusu, digəri qardaşьmьn və qejri məktəbli qohumlarьn gözəl formalь məktəb paltarь və söjlədikləri əçajib şejləri idi.

— Mən dajьm ilə oqumaqa gedəçəjəm—dejə razьlьq verđim, anam nacar qalьb bir şej demədi. Lakin jenə də umudunu kəsməmişdi; çynky məktəblərin acьlmaqьna iki aj qalmьşdь, ona kibi mən fikrimi dəjişdirəçəjəm umudunda idi.

Bir gyn Tamam məndən soruşdu:

— Doqrudanmь oqumaqa gedəçəksən?

— Bəli, gedəçəjəm, joqsa sən razь dejilsən?

— Mən razьjam, amma xanьm məni öjrədir ki, səni bu fikirdən daşьndьrьm. Sən hec kəsə qulaq asma, get oqu, böjyk adam ol, gəl burada calьş, ançaq jazьq kəndlilərə əzijjət vermə. Amma bu deviklərimi anana səjləmə, joqsa xanьm məndən inçijər.

Zavallь anaçьğьm, umud baqladьqьn Tamam da sənin bər'əksinə gedir... Axьr ajrьlьq zamanь gəlib catdь. Anamьn və baçьlarьmьn göz jaşlarьna davam edə bilməjirdim; əgər Tamam olmasajdь mən anamdan ajrьlmajaçaqdьm. Tamam mənə janaşьb dedi:

— Hec qyssələnmə, doqquz ajdan sonra jenə gələçəksən, burada şad göryşəçəjik. Sən də gördyjyn şəhərlərdən, oquduqun kitablardan bizə naqьl edəçəksən. Amma burada qalsan hec bir zad bilməjəçəksən.

Bu sözlər ilə Tamam mənə təsəlli verərək sakit edirdisə də ditrək səsindən, aqarmış cəhrəsindən, jaş ilə dolmuş şəhla gözlərindən mə'lum olurdu ki, bu ajrılıq ona da böjyk tə'sir edir.

Axır gözy jaşlı anam və baçım və sajir əqrəbam ilə əlvida edərək jola dyşdym.

***

Vətəndən xariç, qapalı pansijon, dört divar icində jeknəsəq jaşajış, hər bir dutulaçaq işin cınqıraq ilə olmasını bir xəjalınıza gətirin ki, belə bir jerdə, asudə gözəl təbiət icində bəslənmiş bir coçuqun halı neçə olar? Gyndyzlər dərslərə, idmana, ojnamaqa və sajir işlərə məşqul olaraq belə məişətin aqırlıqını bir o qədər hiss eləməjirdim, dərin sykuta dalmış uzun geçələri göz jaşı tökərək xəjal ilə kecirirdim...

Nihajət jaj tə'tili gəlib jetişdi. Bir para joldaşlarımla vaqona minib vətənə yz qojduq. Yc gyndən sonra gəlib evimizə catdıq. Mən, anam, baçım və sajir qohumlarımla göryşdym, öpyşdym. Lakin nə həsrətini cəkdijim Tamam və nə də Gylbənd onların arasında joq idi. Bu isə məni iztiraba salırdı. Soruşmaqa da çəsarət eləməjirdim. Axırda göryşə gələnlər daqıldıqdan sonra anamdan soruşdum:

— Tamam və Gylbənd haradadırlar? Nə ycyn mənimlə göryşməjə gəlmədilər.

Anam caşqın bir hal ilə dedi:

— Bilməjirəm nə ycyn, əlbəttə eşidib gələrlər, göryşərlər... Onlar səni coq istəjirlər.

Anamın belə dolaşıq çavabı məni daha da qorqu və şybhəjə saldı.

—Ana nədən isə doqrusunu demək istəməjirsən, söjlə görym onların başına nə iş gəlmiş?

— Bir şej joq, onlar buradan köcmyşlər... Gylbənd də, Tamam da ərə getmişlər... Sonra başlarına nə qəzijjə gəlmişdir, bilməjirəm.

Anladım ki, anam da, baçım da həqiqəti məndən gizləjirlər. Ona görə artıq sual vermədim və işin həqiqətini bilmək ycyn başqa jollar aramaqa sə'j etdim.

Əmi oqlumun xidmətcisi Məhəmməd Rza coçuqluqundan bu yc ailə icində jaşamaqa görə hamımız ona bir kylfət yzvy kibi baqardıq, ondan gizli bir sirrimiz olmazdı.

Məhəmməd Rza ycyn dynjada qəm, qyssə jaranmamışdı. Həmişə dejən, danışan, gylən, zarafatcı bir şəxs idi. Həmişə də «Bu dynja beş gyndyr, beşi də qara, əbləh odur onu qəm qyssə ilə kecirə...» sözlərini təkrarlarla söjləjirdi. Sabah ertə böjyk baqımızı gəzmək bəhanəsilə Məhəmməd Rzanı janıma salıb getdim. Jol uzunu Məhəmməd Rza məzhəkə söjləjərək məni gyldyryrdy.

Baqımızı sejr etdikdə Məhəmməd Rzadan soruşdum:

— Lələ, səndən bir şej soruşaçaqam, məndən gizləmə, doqrusunu söjlə. Nə ycyn Budaq baba buradan köcmyş? Tamam ilə Gylbənd neçə olmuşlar?

Bu sualımdan Məhəmməd Rzanın gylər yzy qara bulut kibi dutuldu. Bir az fikirdən sonra:

— Bu göj ot ystə oturaq, mən də sənə onların façiələrini söjləjim—dejə təklif etdi.

Oturduq, Məhəmməd Rza da kyrd qızlarının başlarına gələn mysibəti naqıl etməjə başladı. Gylbənd ilə kicik əmi oqluqmun sevişdiklərini bilirdim; lakin onu zor ilə bir kyrd oqluna verib əmi oqlumdan uzaqlaşdırmaqı indi Məhəmməd Rzanın naqılından bildim.

Məhəmməd Rza Tamamın façiəli qəzilləsini naqıl etdikdə mən davam edə bilməjib başımı otların arasında gizlətdim və göz jaşlarım nejsan jaqmırı kibi tökylyb otları islatdı.

Gylbəndin qəzilləsindən sonra Budaq baba bəjyk qızının janına kəcməjə məçbur olur. Jazıq Tamam bizim ailəjə öjrəşdijindən ajrılmaq istəməjirmiş; lakin əmi oqullarının aralarına nifaq dyşməsinə səbəb olmamaq ycyn anam onun getməjinə izn verir.

Sejidli kəndi ona qədər başqa kəndlərlə bitişən iki daqın arasında dyşmyşdyr. Bu kəndlərin mejvə baqları təxminən 12—13 qvadrat kilometr jer dutaraq, uzaqdan baqdıqda bir böjyk meşəjə bənzəjir. Qərb tərəfə uzanan daqlar getdikçə daralıb əskidən bina olmuş Əsgəran qəl'əsinə catdıqda jarım kilometr qədər bir-birlərinə javuqlaşırlar. Bu iki daqın arasında «Qar-qar» cajı aqır. Kəndlilərin baqları, bostanları, tarlaları bu cajdan sulanır. Sejidli kəndinin səkkiz verstlijində Əsgəranın javuqluqunda «Bozdaq» adlı bir otlaq mevçuddur. Bahar fəsli maldar kəndlilər buraja köcyb alacıqlar qurarlar və orada jaja qədər qalıb mallarını otladarlar. Sonra jajlaqlara köcərlər.

Həmin Bozdaqda jol kənarında əski xaraba bir qəbristan vardır. Kəndlilər burada ölylərini dəfn edərlər. Zavallı Tamamçıqazın façiəsi də bu jerlərdə zyhur etmiş. Belə ki, bir mallı, devlətli kəndlinin çavan oqlu şiddətli surətdə dəli olur. Hətta onu zənçir ilə bağlamaqa məçbur olurlar. Nə qədər dua jazdırırlar, pirə aparırlar və bu kibi avamça myaləçə edirlərsə də fajda verməjir. Axırda kim isə «belə dəlijə bir mə'sumə qız gəlin olursa saqalar»—dejə ata anasını inandırır. Onlar da belə bir qız aramaqa başlarlar. Lakin hansı bir fəqir

kəndlijə böjyk paralar və'dəsilə təklif edirlərsə, heç kəs qızını belə dəlijə vermək istəməjir. Axırda arajıb Budaq babanı tapırlar və böjyk para ilə onu razı edirlər.

Zavallı Tamamı «səni bir gözəl devlətli çavan oqlana veririk»—dejə məçburən razılıqını alırlar, kəbinini kəsirlər. Sonra tojsuz gizliçə dəlijə gəlin aparırlar. Tamam baqıb göryr ki, onu aldadıb dəlijə vermişlər. Bunu bildikdə jazıqın bytyn bədəni ditrəməjə başlar. Ittifaqən həmin geçə göj yzyny qara bulutlar dutub şiddətli jaqmır jaqmaqa başlar. Daqlardan aqan sellər alacıqlara dolub bə'zilərini jumarlajıb aparır. Adamların başı buna qarışdıqda Tamam fyrsət tapıb qacır.

Geçənin qaranlıqı, göjyn daqlara səda salan dəhşətli şaqqıltısı, dərələrdən aqan sellərin gurultusu Tamam kibi bir qızı joq, bytyn kişiləri də xofa salar. Baş acıq, ajaq jalın, kylək ilə boğuşa-boğuşa, sellərlə əlləşə-əlləşə Tamam qacır. Dəli onun yrəjinə elə bir qorqu salmışdı ki, zavallı qızçıqaz indiki halına şad imiş. Onun fikiri o imiş ki, adamlar dujuq dyşyncə «Qar-qar» cajını kecib meşədə gizlənsin. Lakin bir qədər qacdıqdan sonra daşlarla jaralanmış ajaqları, jaqmırdan islanmış bədəni, kylək ilə əlləşməkdən tabdan dyşmyş ə'zası daha hərəkətdən qalır. O zaman tam bir pənah jeri arajır ki, gizlənib dinçəlsin, haramı tapır, bilirsinizmi? Hər şejdən artıq xof etdiji qəbristanı.

Tamam ysty kynbədli bir əski məzar tapır və icində gizlənir.

Ittifaqən aqşamlamış bir qoça dilənci joldan kecərkən həmin kynbədli məzarı göryr. Icəri girmək məqsədilə qapısına gəlir. Bu zaman dəhşətli bir qışqırıqdan diksinərək gerijə cəkilir. Qoça hejrətdə ikən Tamam dışarı cıqır və sərsəri qorqunç

bir qəhqəhə cəkərək ildьrьm kibi caja tərəf qacьr. Diləncinin bytyn bədəninə bir lərzə jajьlьr. «Bismillah» dejərək qəbristandan qacmaqa yz qojur.

Səhər olçaq Tamamь aramaqa başlajьrlar. Xejli aradьqdan sonra mejitini «Qar-qar»ьn o biri sahilində tapьrlar.

1923

UMUD CЬRAQЬ

Ilk baharьn son geçəsi idi. Əlvan cicəklər və otlar ilə bəzənmiş, bulutlara qədər jyksəlmiş daq başьnda dyşən Ş... şəhəri əhalisi dərin juquja dalmьşdь. Jalnьz iki balaça otaqdan, janьnda özy kibi balaça baqcalь bir evdən işьq gəlirdi. Pənçərədən cьraqьn zəif şө'ləsi baqcaja dyşərək aranьn zəngin bəçək və pərvanələrini öz tərəfinə cəkirdi. Masa başьnda oturmuş, mytaləəjə məşqul, zəif əndamlь, sarьmtьl bənizli qьvrьçьq saclь bir gənç cənəsinə dirsəklənərək, kitab oqujur. Ara sьra jorqun qara gözləri biixtijar qapanaraq rahatlьq edirdi. O zaman uzun, oq kibi kiprikləri cəhrəsinə kəlgə salьr, başь masa yzərinə əjilir, bir myddət belə myrgylərdi, sonra diksinərək başьnь qaldьrьr, gözlərini ovuçalajьr, qalqьb pənçərəni acьr; başьnь dьşarьja cьqararaq baqcanьn saf havasьnь dərindən tənəffys edirdi.

Qaranlьqda qalmьş pərvanə və byçəklər pənçərənin acьlmaqьndan istifadə edərək otaqa soqulur, cьraqьn ətrafьnda ucuşurlardь. Geçənin dərin sykutu və zylmatь gənçin qəlbinə bir xof buraqьr, onu diksindirir.

— Bu nə coçuqluq?—dejə gənç pənçərəni qapajьr və sonra əvvəlki jerini dutaraq özlərini şө'ləjə atan pərvanələrə baqьr.—Bu hejvançьqlar qaranlьqь sevməzlər. Gər neçə özlərini oda atьrlar? Nə qə-

dər işьqa məftun bir məxluq,—dejə səjlənirdi. Bu zaman nəzəri masanьn ystə durmuş çib saatьna sataşьr.

— Ah, geçə jarьdan kecmiş, lakin mən hazьr dejiləm. Sabah son imtəhanlarьmь verəçəjəm. Or təhsilimi bitirmək bu geçəki sə'j və qejrətimə baqlьdьr. Atam joq, mənə jardьm edəçək kimsəm joq, öz niçat və səadətim öz əlimdədir. Sə'j və qejrət lazьmdьr. Sabah orta məktəbi bitirib ali məktəbə girəçəjəm. Orada bir necə il davam edib həkim olaçaqam, vətənim ycyn mənfəətli bir yzv olaçaqam. Zavallь anamь məişətin bu aqьr zəhmət və əzijjətindən xilas edəçəjəm.

Əlilə o biri otaqa işarə edərək:

— Jat anaçьqьm, rahat ol və gələçək səadətimizə də inan—dejə jenə də mytaləəjə başlajьr.

Gənçin zənni janlьş idi, zavallь qadьn bir necə saat işlədikdən sonra rahat olmaq istədisə də jata bilmədi. Gözlərini oqlunun qapьsьna dikərək uzun və dərin fikrə getmişdi. Aqьr, qara gynly məişəti birər-birər gözlərinin önyndən gəlib kecdi. Budur on səkkiz jaşьnda bir qьz ikən özy kibi bir zəhmətkeşə arvad oldu. Icərisində jaşadьqь evə sahib oldu. Evlad arzьsь cəkərək bir gözəl oqula ana oldu.

— Ah, nə böjyk bir səadət. Lakin rəhmsiz fələk tezliklə bu səadəti jasa döndərdi. Bir il bəxtijar jaşadьqdan sonra istəkli əri xəstə dyşyb vəfat etdi. Onu bir jaşlь coçuq ilə sahibsiz qojdu. O gyndən bədbaxt ana calьşьr, sel tək göz jaşlarь tökyr, lakin körpə oqluna baqdьqça aqьr məişətini unudur, beşijini jьrqalarkən dejir:

— Jat, oqlum jat, jat umud cьraqьm jat, çəmi səadətimi, çəmi ömrymy sənin uqrunda sərf etməjə and icirəm.

Qejrətli ana bu myqəddəs vəzifəni coq gözəl ifa etdi. Oqlunu böjytdy, oqutdu, bu jaşa jetirdi. Indi təhsilini bitirmək ycyn evladь belə calьşьr, zəhmət cəkir, onun inçə ana qəlbi sьqьlьr, evladьnьn əzijjətinə razь olmajьr, onun zəhmətlərinə dözə bilməjirdi. Lakin bu zəhmətin ona səadət qapьsьnь acaçaqьnь da gözəlçə dyşynyrdy.

Ən artьq sьqьlaçaq bir şej varsa o da oqlunun məktəbə getmək məsələsidir ki, bir necə il bir-birindən ajrь dyşəçəklərdir. Bu isə ona qejri-mymkyn bir imtəhan görynyrdy. Jazьq ananьn qəlbini hər dəqiqədə deşən onu rahat buraqmajan bir məsələ vardь, o da bir il bundan əqdəm ərinin qohumlarьndan biri dalaşarkan bir çavanь öldyrməsi idi. Dyşmənləri qatilin həbsə alьnьb syrgyn edilməsinə iktifa etmək istəməjirdilər. Qana-qan japmaq fikri bəsləjirdilər. Bu səbəbdən zavallь qadьn bu ili daima qorqu icərisində jaşar, oqlunu gözlərindən iraq buraqmaq istəməjirdi...

Geçə kecər, oqlu jatmaz, ana axьr buna səbr edəməz, qalqar şala byrynər, oqlunun otaqьna girər, evladьnьn başьnь quçub qьvrьçьq saclarьndan öpər.

— Ana nə ycyn durdun?

— Oqlum jata bilmədim. Qəlbimdə bir qorqu bir iztirab hiss edirəm. Qorquram sənə dyşmən tərəfindən bir xətər doquna.

— Anaçьqьm, xof və iztirabьn əsilsizdir. Öz otaqьmda gözynyn önyndə dərs oqujuram. Mənə nə ola bilər? Mən bir məktəblijəm, kimsə ilə də dyşmənciliјim joq, arxajьn ol, mənə hec bir kimsə tərəfindən xətər doqunmaz. Get ana, rahat ol.

— Bəs sən, oqlum, jatmajaçaqsan? Oquduqun jetər, dur sən də rahat ol, cьraqь söndyr.

— Joq ana, səhərl acsam da sabahki imtəhanlarьmь hazьr etməlijəm. Maraq etmə, bir geçəni jatmamaqla mənə bir şej olmaz, lakin bir ilimi qajib etmək hər ikimiz ycyn fajda verməz. Indi daha mənə mane olma—dejə gənç kitab oqumaqa başlajьr. Anasь da otaqьna cəkilir.

Bir saat belə kecər. Qəflətən bir tyfəng acьlьb daqlara səda salьr, dərin sykutu pozur. Ikinçi bir qadьn hajqьrьqь bu sədajə çavab verər, jatmьş qonşularь ojadьr. Gənç tələbə jerə sərilir. Bir saat bundan əqdəm bəjyk umudlar bəsləjən gənç, bir qəddar dyşmanьn, rəhimsiz dyşmanьn qurşununa qurban oldu.

Sahibsiz ananьn umud cьraqьnь səndyrdy... Jenə zylmət, jenə dərin sykunət... Lakin balaça otaqdan:

— Joq oqlum, sən əlməmisən, ançaq jatmьsan. Jat umudum, rahat ol, sabah jenə duraçaqsan, imtəhanlarьnь verəçəksən, anaçьqьnь bəxtijar edəçəksən... Həzin. qəlbləri oqşajan oqşama sədasь gəlirdi.

1923

QAN-BULAQЬ

Ijulun isti gynlərinin birində daqlarьn arasь ilə uzanan əjri-yjry, əniş-joquş jol ilə iki atlь gedirdi. Bunlarьn biri ijirmi jaşьnda gənç, digəri jetmiş sinninə varmьş bir qoça idi. Bu iki şəxsin jaşlarьnda bu qədər bəjyk fərq olduqu halda zahirlərində bir o qədər fərq gərynməjirdi. Hər birisinin əjnində pişmet, cərkəzi cuxa, belində kəmər, xənçər və qьlьnç, başьnda dəri papaq, cijnində qara japьncь və bojnunda aq başlьq var idi. Qoçanьn at ystyndə əjləşməsi, əzasьnьn hərəkəti, alьçь quş kibi baqьşь gənçdən secilməjirdi. Lakin qoçalьq nişanəsi yzynyn qьrьşьndan və uzun aq saqqalьndan gərynyrdy. Jol, getdikçə daralьrdь. Daqlardan enib indi qaja dəşyi inçə bir jol ilə gedirdilər. Onun juqarь tərəfi divar kibi uçalan sьldьrьm qajalar, alt tərəfi gəz qaraldan ucurum dərələr idi. Bu qorqulu jol ilə səfər etmək qejrilərə namymkyn olduqu halda, Daqьstan əhalisinə və onlarьn atlarьna adi bir şejdir.

Vaqt gyn ortaja javuqlaşmьşdь. Susuzluqdan hər iki syvari janьrdь. Ələlxysus susuzluq gənçə artьq tə'sir eləjirdi. Onun gəzləri səbirsiz və iztirab ilə su arajьrdь. Bu halda gənçin qulaqьna su şьrьltьsь gəldi.

— Baba, muştuluq olsun iləridən su səsi gəlir — dejə çavan atьnь syrdy.

Qoça təbəssym ilə ona nəzər salaraq başьnь jьr qaladь. Gənç bulaqa catdьqda gərdy ki, sujun rəngi qьrmьzьja calьr. Buna baqmajaraq susuzluqunu tezçə rəf etmək ycyn bir qurtum su icər, icməz:

— Bu nə çyr sudur?—dejə ajaqa qalqdь. Bu halda qoça gəlib ona catdь və gylmsəjərək dedi:

— Şusuzluqunu rəf etdinmi, oqlum?

— Xejir baba, bu bulaqьn suju icməli dejil, zəfir dadь verir, rəngi də qana bənzəjir—dejə çavab verdi.

— Elədir oqlum, bu «Qan-bulaqь»dьr; bunun suju dəmir ilə qarьşmьş, bu su qansьzlara və bə'zi naxoşlara dərmandьr...

Çavan sordu:

— Bu «Qan-bulaqь» adьnь nədən almьş, baba.

— Bir az səbr et, oqlum, bulaqьn hekajəsini sənə sejlərəm. Indi isə ardьmça syr, bu jaqьnda icməli su var -dejə qoça atьnь syrdy.

Bir qədər getdikdən sonra gəzəl bir bulaqa rast gəldilər, atdan endilər. Çavan xurçunundan jemək cьqarьb syfrə salmaqa məşqul oldu. Nahardan sonra qoça japьnçьsьnь jerə sərib ystynə uzandь. Çavan onun «Qan-bulaqь» barəsində verdiji və'dəjə myntəzir qarşьsьnda əjləşmişdi. Qoça gəzlərini jumub bir myddət sykuta getdi. Gənç elə fikr etdi ki, qoça və'dəsini unudub juquja daldь. Lakin fikri janlьş idi. Bir azdan sonra qoça gəzlərini acdь, başlьqьnь bykyb dirsəjinin altьna qojdu və dərindən bir ah cəkib dedi:

— Ulu Qafqaz, ulu daqlar! Hər bir daşьn bir tarixdir. Kimlər gəlib sinəndən kecmədi, cajlarьnь qьzьl qana dəndərmədi!..

— Oqlum bu dərə, bu topraqь iki jerə təqsim edir. Belə rəvajət edirlər ki, qədim zamanda bu dərənin o tərəfində bəjyk bir qəbilə, başьnda Mьsьr

xan adьnda bir rəis və bu tərəfində digər bir silsilə, Surxaj xanьn rəisliji ilə sakin olurmuşlar. Ittifaqən bu iki xanьn arasьna qan davasь dyşyr, bunlar bir-birlərini tələf etməjə başlajьrlar. Bir myddət kecmiş Mьsьr xan və Surxaj xan bir də baqьb gəryrlər ki, çəmi oqlanlarь və jaqьn əqrəbalarь bu qan davasьnda qьrьlьb tələf olmuşlar. Ədavət isə jenə jatmajьb, baqi qalьr. Lakin hər iki rəis jeni evladlarьnьn dynjaja gəlməsinə myntəzir olur ki, onlarьn köməkliji ilə dyşməndən intiqamьnь alsьn. Ittifaqən bunlarьn bir geçədə iki evladь təvəllyd edir. Surxaj xanьn oqlu, Mьsьr xanьn qьzь olur. Bu ittifaqdan nə qədər Surxaj xan şad olursa, bir o qədər də Mьsьr xan qəmgin və mə'jus olur. Mьsьr xanьn anasь, oqlunu belə mə'jus və qəmgin gərdykdə dejir:

— Oqlum qəm etmə, bilirəm səni pərişan edən nədir. Məjər qьz tajfasь dyşməndən intiqam ala bilməz? Onlara da oqlan kibi tərbijə versən, ijidlikdə hec kəsdən geri qalmazlar...

Bunu eşitçək Mьsьr xan jerindən sьcrajьb qalqьr və anasьnь quçaqlajaraq dejir:

— Ana, fikrin coq gəzəldir, ançaq de gərym qьzьm olmaqьnь kim bilir?

— Məndən və arvadьndan başqa kimsə bilməjir— dejə anasь çavab verir.

— Coq gəzəl, indi mənim qьzьm olmaqьnь gərək bir adam bilməsin. Sabahdan oqlum olduqunu e'lan edəçəjəm, sən dejən tərbijəni də qьzьma өzym verəçəjəm, lakin bu sirrin gizli qalmasь sənin anasьndan asьlьdьr.

— Arxajьn ol, oqlum, əmrin jerinə jetər—dejə anasь çavab verdi. On gyndən sonra Mьsьr xan qьzьna «Tejmur xan» namьnь verir və bu sirr pynhan qalmaq ycyn həmin bu myqabilimizdəki qajanьn dəşyndə bir köşk bina edib orada sakin olur. Tej-

mur xan atasının nəzarəti altında tərbiyə alaraq naqıl olunan köşkdə böyüməyə başlayır. Onun oyun şeyləri tyfəng, xənçər, qılınç və joldaşları bu qayalar, sakini lacın, qaraquş, tərlan kibi yırtıcı quşlar olur. Belə tərbiyə nəticəsi olaraq on yaşında Tejmur xan at minmədə, tyfəng atmada, qılınç vurmada iyid çavanlardan geri qalmayır. Bunlardan artıq insanları heyrətə gətirən Tejmur xanın vəsfə gəlməyən gözəlliyi olur. Bu tərəfdən Surxay xanın oğlu Paşa xan Tejmur xan kibi iyidlikdə və gözəllikdə məşhur olur.

Bu iki coçuq böyüyüb on səkkiz yaşına catır. Bunların iyidliyi və gözəlliyi ətraf və əknafa yayılır. Bu vaqta qədər göryşmək bunlara mymkyn olmamışdı. Ittifaqən bu iki çavan yekdigərinə rast gələrsə biri və bəlkə ikisi də tələf olmaqlarını hiss edirmişlər. Bununla bərabər göryşmək arzısı hər ikisində gyndən-gynə qyvvətlənir. Oğlum! əçdadımızdan bizə irs qalmış qana qan etmək adətinə qurban olan bu çavanlar axırda bir-birlərilə göryşyrlər. Belə ki, baharın gözəl səhərlərinin birində Tejmur xan av arqasınça sərhədləri olan bu dərəni aşıb o tərəfə kecir. O zaman Paşa xan da ava cıqmış olur. Bu iki aslan gördyyn Qan-bulaqının başında bir-birlərinə rast gəlir. Bir myddət bir-birlərinin gözəl çəmalına heyran olub qalırlar. Paşa xan Tejmur xanın fevqəladə gözəllijinə heyran olur. Tejmur xan isə on səkkiz yılın ərzində qadınlıqa myqayir yırtıcı qan iciçi quş kibi aldıqı tərbiyə onda qadınlıq hissini hala puc etmədijini indi anlayır, eşq odu onun yrəjini jaqıb jandırır. Hər zaman iyidləri xofa salan gözləri indi Paşa xana xumar-xumar baqıb ondan aman gözləyir. Paşa xan heyrətdən ayılıb Tejmur xanın kim olduqunu dujur isə də sorur:

— Sən kimsən?

— Sən özyn kimsən?

— Mən bu topraqın sahibi Surxay xanın oğlu Paşa xanam.

— Mən də o topraqın sahibi Mısır xanın evladı Tejmur xanam.

Bu sual-çavabdan sonra hər ikisi bir-birlərinə dyşmancılıq nəzərilə baqmaqa başlayır. Axırda Paşa xan dejir:

— Çamalın coq gözəldir, buna söz joq, baqalım qılınç vurmaqın neçədir?—dejə qılınçını cıqarır.

Onun çavabında:

— Indi qılınç vurmaqı da göryb bəjənərsən—dejə Tejmur xan da qılınçını cıqarıb Paşa xanın ystynə hyçum edir.

Oğlum, neçə ki, göy yzyndə əvvəl şimşək parlayıb sonra gurultu sədası gələr, elədə bu iki çavanın qılıçı od parladıb bu qayalara səs salar. Xejli myddət carpışırlar, lakin bir-birlərinə zəfər jetirə bilməyirlər. Bu halda gynəş daqın dalından tylu edir. Onun zərrələri Tejmur xanın gözlərinə oq kibi sançılıb qamaşdırır və bu anda Paşa xan fyrsət tapıb qılınçı Tejmur xanın sinəsindən vurur. Tejmur xan yıqılır. Qan ceşmə kibi sinəsindən aqıb baharın təzə və tər otlarını və cicəklərini boyayır. Paşa qılınçını atıb Tejmur xanın jarasını baqlamaq qəsdilə sinəsini acır.

— Aman jarəb, sən qadın imişsən, baqa[illegible] dejə qışqırır və Tejmur xanın başını dizi ystə[illegible] cıqa[illegible] dejir:— Söylə, söylə gözəlim! O soluq nəfəsinlə [illegible]nətini, nifrətini izhar elə—dejə fəryad edir.

Tejmur xan zəif səs ilə çavabьnda:

— Paşa xan, sənə eşqimi izhar edirəm. Bu cirkin adətə lə'nət və nifrət! Ah, təbiət nə gözəldir! Paşa mən gedirəm, əlvida!

— Toqda, bir az toqda gözəlim, Paşa da sənilə gedir. Paşa xan xənçərini cьqarьb öz sinəsindən vurur və sonra Tejmur xanь aquşuna alьb dejir:

— Indi qoj mənim də qanьm sənin kinə qarьşsьn!

Oqlum, o vaqt bu daqlarda zəlzələ zyhur edir və həmin jerdən daq aralanьb iki nevçavanь aquşuna alьr. Bu myddət kecərək gördyjyn qan-bulaqь qaja arasьndan çari olur. Rəvajətə görə həmin bulaqьn suju Paşa xan ilə Tejmur xanьn qanьndan əmələ gəlmişdir.

1923

MOLLA QASЬM

Molla Qasьm öz arvadь Zejnəb ilə «Gyllyçə» kəndində ömyr syryrdylər. Bunlarьn Irandan Azərbajçana hacan kecməsi kəndin ançaq bir necə qoçalarьnьn xatьrьnda idi. Jerdə qalanlarь isə gözlərini acьb onlarь Gyllyçədə görmyşdylər.

Molla Qasьm Irandan gəldiji zaman bir coq böjyk, kicik kəndlərdə dolaşaraq naqьl etdijimiz Gyllyçə kəndini bəjənib secmişdi. Bunda da bir sirr vardь.

Mərkəz uzaq, qьşlaqdan jajlaqa uzanan jolun bir caqьrьmьnda, kol-koslu ilan-cijanlь bir dyzdə Gyllyçə kəndi bina olunmuşdu. Əhalisi isə nihajət dərəçədə avam, dini mevhumat və bytpərəstlikdən qalma adətlər aquşunda boqularaq, həkimsiz, dərmansьz jaşajьrdьlar.

Molla Qasьm anladь ki, belə çəmaətin icində hər nə ki kələji varsa işlədə biləçəkdir. O idi ki, hərif bu kəndi və onun çəmaətini bəjənmişdi. Molla Qasьmьn fikri janlьş cьqmadь. Bir az zamanda o, kəndin həm tiçarət, həm mollalьq, həm də həkimlik və aq saqqallьq və qejri vəzifələrini əlinə kecirərək rahat jaşamaqa başladь. Molla Qasьmьn tiçarət mənbəi olan balaça dykanьna unversal adь versək səhv etmərik; cynky bu dykanda əttar, baqqal, bəzzaz, davaçat və qejri tiçarət şejləri mevçud idi.

Molla Qasьmьn bu «məta» mallarьnьn qьzqьn alьş-verişi el daqa köcən zaman və daqdan enən

zaman olardı. Bu vaqt molla Qasım dykanın mallarını artırardı; cynky bəjyk təçribəsindən bilirdi ki, kəndlilər taxıllarını bicib dəjmyş, ev ycyn azuqə saqlajıb jerdə qalanını satıb nəqd pul etmişlər, coluq-coçuqlarına, gəlin-qızlarına tuman, köjnək, jajlıq, şal və qejri paltarlıq alaçaqlar.

«Gyllyçədə» molla Qasıma borçlu olmajan bir kəndli joq idi. Molla Qasım borçunu tələb edəndə borçluları dejirdilər:

— A molla Qasım, özyn bilirsən ki, bu zaman bizdə pul olmaz.

— Pul joqdur tojuq, ördək, qaz, qax-qoz ki, vardır. Arvadlarınız da çorab, şal, palas toqujurlar, bunlardan gətirin borçlarınıza hesab edək—dejə molla Qasım onları məzəmmət edərdi.

Molla Qasım «Gyllyçə» kəndinə kimin tərəfindən molla tə'jin edilmişdi, bilən joq idi. Əslinə baqsan hec kəs tərəfindən. Başqa vəzifələri kibi bunu da o özy qəsb etmişdi və bu mətləbi də qaldıran bir adam joq idi, molla Qasımın qəsdi avam və nadan kəndlilərə şəriəti öjrətmək, xejr-şərlərini anlatmaq dejildi və özynyn də bu barədə artıq mə'lumatı joq idi. Onun məqsədi jenə də pul qazanmaq idi. Hətta kəndlilər bir məktəb acmaq fikrinə dyşdykdə molla Qasım mane olub demişdi:

— Canım, siz kəndlilərə məktəb nə lazımdır? Uşaqlarınızı oqutsanız öz əkincilik sən'ətini atıb şəhərlərə qacarlar, sizi də köməksiz qojarlar. Bu fikirdən daşının, aqrımaz başınızı bəlajə salmajın.

Molla Qasımın həkimlijinə gəldikdə ondan-bundan bir necə dərman adı öjrənib hər çyr azar olursa-olsun o bildiji dərmanın birini imtəhan edərdi. Xəstə şəfa tapmajıb öləndə dejirdi:—Əçəli jetən adam öləçəkdir, istər həkimi Loqman da ola. Öl-

dyrmək, diriltmək xydavəndi-aləmin əlindədir. Açiz bəndə burada bir şej edə bilməz.

Molla Qasımın arvadı Zejnəb qarı da azarlılara zəli (sylyk) japışdırmaqda bəjyk ixtisas sahibi olub kədin bir erkəji, qadını, çavanı, qoçası, uşaqı joq idi ki, Zejnəb qarının həçəmət və sylyjyny görməmiş olajdı. Uşaqlar onu gördykdə qorqub qacardılar. Kənd əhli bu qarıja «həçəmət» Zejnəb ləqəbini vermişdi. Zejnəb jırtıçı quş gözly, qojduqu həçəmət kibi beli əjilmiş, dilavər, kimsədən qorqmaz və çəkinməz bir qarı idi. Əri xəstə ystə getdikdə ja öly ystə aparıldıqda, o dykanda oturub alış-veriş edərdi. Bundan ilavə kərpə uşaqların həkimliji, kəndin mamaca və elcilji bunun öhdəsində idi. Bir söz ilə molla Qasım «Gyllyçə» kəndini inək kibi saqıb jejirdi.

Hər bir xəsis adamda olduqu kibi bunda da təbiət bəjyk qorxaqlıq jaratmışdı. Hərgah geçə vaqtı həjətdə bir qaraltı, bir səs gəlsəjdi, dışarı çıqmaqdansa, qapıları bərkidib Zejnəb qarını göndərərdi ki, görsyn nə var. Bil'əks Zejnəb qarı coq qocaq bir qadın idi. Ərinə dejirdi:

— Bilməjirəm mən olmasajdım sən bu vəhşi çəmaətin icində neçə jaşaja bilərdin?

Molla Qasımın bir sifətini də söjləməlijik. O da avam kəndlilər kibi mevhumata inanıb qorqmaqı idi. Ələlxysus dostu Zejnal kişi kecən çymə ona bu hadisəni naqıl etməklə çinlərə e'tiqadını möhkəmləşdirmişdi.

— Xəstə olduqum çihətə bu jaj xırmanım hamıdan gerijə qalmışdı. Arvad-uşaqı jajlaqa kəcyryb özym aranda qalmışdım. Işlərimi qurtarandan sonra uşaqlar ycyn bir kisə un və qejri azuqə tədaryk edib boz qatıra jyklədim, jola dyşdym. «Çinli» daqdan coq qorqa-qorqa kecirdim. Bir zihəjat joq idi. Məni

vahimə gətyrmyşdy. Birdən qulaqlıma zurna səsi gəldi. Diqqət ilə baqdıqda iki daqın arasında çəmaət gərdym, jəqin etdim ki, tojdur, Qatırı onlara tərəf syrdym, jaqınlaşdıqda bir çavan oqlan qabaqlıma cıqıb dedi:

— Zejnal kişi, sən coq xoş gəlmisən, bujur burada tojumuz var, bir az rahat ol. Je, ic, sonra gedərsən.

Oqlan qatırın çilovundan dutub joldaşlarına tərəf cəkdi. Onlara catdıqda məni qatırdan dyşyrtdy. Qatırı bir kola baqlajıb məni hazır syfrəjə də'vət etdi. Qonaqlar:—Bujur, bujur Zejnal kişi, sən bizim toja xoş gəlmisən,—dejə salamladılar. Syfrənin başında əjləşdirdilər. Məni hejrətə gətirən bir şej vardı, o da hamı məni tanıdıqda mən hec kəsi tanımajırdım. Plav syfrəjə gəldikdə məni toja təklif edən oqlan dedi:

— Zejnal kişi taama şyru edin, ançaq yrəjinizdəki səzy deməjin. Bunu eşitçək, molla Qasım, sənin səzyn jadıma dyşdy. Jə'ni hər bir şeji başladıqda «bismilla» deməli. Mən də bismilla dejəçək, hamı joq oldu. Gərdym boz qatırın ystyndəjəm. Hejvan bir kolun qabaqında dajanıb dinçini alır. Bunu gərdykdə qan-tər məni basdı. Hejvânı rahat qojmajıb qamcıladım. Bir azdan sonra bu çin məkanından uzaqlaşdım. Indi də bu hadisə jadıma dyşəndə tyklərim biz-biz durur.

Molla Qasım:

— Zejnal kişi çin-şəjatin biz bəni-adəmin dyşmənidir. Hər çildə girib bizləri haq joldan cıqarmaq fikrindədirlər. Ançaq gərək allahdan uzaqlaşmajasan, onda hec şej edə bilməzlər—dejərdi.

***

Hekajəmizin qəhramanları belə əmyr syrməkdə ikən Azərbajçanda Şura həkymətı quruldu. Sair

kəndlər kibi «Gyllyçə» kəndində də kənd şurası dyzəlib jeni şura jaşajışı başlandı. Qızlar və oqlanlar ycyn məktəblər acıldı. Bəjyklər ycyn də savad qursları. Kəndliləri jeni quruluşun qanunu ilə aşna etmək ycyn və onların biliklərini artırmaq ycyn kənd çəmaətinə tez-tez nitq və mə'ruzələr oqujurdular.

***

Xanənişin olmuş molla Qasım bir dəfə əz dostu Zejnal kişi ilə belə jıqınçaqa getmişdi. Natiq din və məzhəbdən bəhs etdi.

«Din və məzhəb joqsulların zənçirləjib aqalara və sərvətdarlara qul etmək ycyn jaradılmışdır.

«Din joqsullar ycyn bir tirjekdir ki, onların həmişə qəflətdə saqlajıb ojanmaqlarına mane olmuşdu. Ruhanilər həkmyranların, sərvətdarların min dyrly zylmynə dəvam etdirmək ycyn joqsullar səbr edin, bəjyklərin ehtiramını saqlajın, onların itaətində olun ki, axirətdə allahın behiştinə nail olasınız. Joqsa əbədilik çəhənnəmin oduna janarsınız»—dejə joqsul sınıfa bu dynjada çəhənnəm cəkdirib onların zəhmətilə əzlərinə bəhişt qurmuşlar...»

Bu nitqi eşitdikdə molla Qasımın bədəninə ditrətmə dyşdy. Qorqudan daha məsçiddə qala bilməjib evinə gəldi.

***

Naqıl etdijimiz zamandan yc il kecdi. Zejnəb qarı hələ umudunu kəsməmişdi. Hej tas qururdu ki, Şura həkymətini jıqsın, amma dinsiz bolşeviklər tilisimə dyşməjib gyn-gyndən məhkəmləşirdilər. Gyllyçə kəndini indi tanımaq belə olmurdu. Bataqlı kycələri dyzəlib, geçələr eleqtrik ilə işıqlanırdı. Çavanlar tərəfindən teatr tərtib olunmuşdu. Qadınlar ycyn qlub acılmışdı.

El jaʃlaqa kөcən zaman idi. Molla Qasьm həjətdə qoz aqaçьnьn altьnda həsir saʃdьrьb uzanmьşdь. Zejnəb qarь da gilas və ərik qaxь qurudurdu. Bu halda darvaza dөjyldy. Zejnəb qarь gedib acdь. Bir çavan kəndli, jedəjində iki at qapьnьn dalьnda durmuşdu.

Zejnəb qarь soruşdu:

— Nə istəjirsən?

— Zejnəb nənə molla əmi evdədirmi?

— Bəli evdədir, icəri gəl.

Kəndli atlarь kycədəki aqaça baqlajьb icərijə girdi. Molla Qasьm başьnь qaldьrьb sordu:

— Qənbər nə var? Xejr ola, joqsa haçь Çə'fər naxoşlamьş?

— Xejir molla əmi, atam səlamətdir. Ançaq uşaqlьqdan bizim evdə tərbijə almьş bir kyrd kөc ystə qəflətən naxoşlajьb өldy. Indi onu dəfn etmək ycyn sizi aparmaqa gəlmişəm. Joldan kənar qəbir də qazьjьb hazьr etmişik.

Molla Qasьm istehza ilə dedi:

— Siz bolşeviklər allaha, pejqəmbərə, imama, şəriətə inanmajьrsьnьz. Daha molla nəjinizə lazьmdьr? Hejvan kibi ystyny toʃ aqlajьn cьqsьn getsin.

— Molla Qasьm, mənə qalsa elə edərəm və sənə də əzijjət vermərəm; cynky əqidəmçə mejit namazь qьlsan da, qьlmasan da təfavyty joqdur. Өly cyryjyb topraq olaçaqdьr, daha ondan bir də nə dirilmək və nə də sorqu sual olaçaqdьr. Ançaq atam onu coq istəjirdi—dejir ki, gərək qajda ilə molla dəfn etsin.

Zejnəb qarь bu sөzləri Qənbərdən eşitdikdə davam etməjib dedi:

— Allah sizin kөkynyzy dibindən kəssin. Dinsiz myrtədlər. Tykəzban kibi allah bəndəsi arvaddan belə kafir oqul tөrəsin?

Qənbər gylərək çavab verdi:

— Aj Zejnəb nənə, mən kafir өləndə nə molla əmi zəhmət cəkib namazьmь qьlsьn, dəfn etsin, nə də sən aqlaşma qurub şaxsej vurasan. Ançaq məni atam gendəribdir ki, molla əmi gəlib Qədiri dəfn etsin. At da gətirmişəm. Zəhmət haqqьnьzь da alaçaqsьnьz. Molla Qasьm pul adьnь eşitçək jumşalьb dedi:

— Atan haçь Çə'fər ilə duz, cөrək kəsmişəm, өzy də coq dindar bir kişidir. Anan da Zejnəbin baçьlьqьdьr. Onlarьn xatьrь ycyn razь oluram.

Molla Qasьm qalqьb gejindi, Qənbərin kөməkliji ilə atь mindi və hər ikisi jola dyşdy. Jolda molla Qasьm Qənbərə nəsihət edirdi. O da çavabьnda dejirdi:

— A molla Qasьm, biz joqsullar bu dynjada odajanmьsьq, bir də sən dejən dynjada jansaq, bu ədalətsizlik olar və sən də dejirsən ki, allah adildir, zalьm dejil.

Molla Qasьm hər nə dəlil gətirdisə, Qənbər çavabьnь verib onu məəttəl qojurdu. Belə bəhs edərək gəlib bir kolluq və qanqallьq jerdə qazьlmьş qəbrə catdьlar.

Orada iki kəndli Rəhim və Kərim qəbrin janьnda oturub bunlarь gөzləjirdilər.

— Kərim, mollanьn atьnь dut,—dejə Qənbər atdan dyşdy. Molla Qasьm өlynyn mejit namazьnь qьlьb qurtardь. Onu qəbrə qojdular. Molla Qasьm өlynyn təlqinini oqujan zaman Qənbər joldaşlarьna dedi:

— Molla duasьnь oqujunça biz də baş daşь gətirməjə gedək. Kəndlilər getdilər. Molla Qasьm qəbirdən cьqan topraqьn ystə cənbəlib ərəb dilində kyrd Qədirə axьrьnçь imtəhanьnь өjrədirdi. Qəflətən ajaqlarьnьn altьndan topraq qacьb qəbrə jьqьl-

dь. Molla Qasьm gördy ki, ölynyn ajaqlarь juqarь qalqdь. Bundan qorqaraq onun ajaqlarьnь əlilə basdь. Indi də ölynyn başь dikəldi. Bunu gördykdə molla Qasьm qьşqьrьb qəş etdi.

Aradan bir on dəqiqə kecmiş kəndlilər yclykdə bir iri daş gətirərək gəlib cьqdьlar, daşь qəbrin janьnda jerə saldьlar.

Kəndlilər qəbrə baqdьqda gördylər ki, molla Qasьm mejiti quçaqlajaraq huşsuz uzanmьş. Rəhim qəbrə enib joldaşlarьnьn köməji ilə molla Qasьmь bajьra cьqartdьlar.

Hər ycy molla Qasьmь huşə gətirməjə calьşьrdьlar. Xejli sə'jdən sonra molla Qasьm özynə gəldi. Yzyndən qan qacьb mejit rənginə dönmyşdy. Qənbər soruşdu:

— Molla əmi sənə nə olmuş? Bu nə halətdir?

Molla Qasьm zəif və ditrək səslə dedi:

— Öly xortlamьş, ajaqa qalqmaq istəjirdi... Məni boqdu... sonra bilməjirəm nə oldu... Məni tez Zejnəbə jetirin...

Bunu eşitdikdə kəndlilər biixtijar qarьnlarьnь dutub qəhqəhə ilə gylməjə başladьlar.

— Bizim e'tiqadlь mollamьz, hec öly də xortlarmь, ölən adam da dirilərmi? Aj alim molla Qasьm, beləmi əqidə ilə biz avam kəndlilərə jol göstəriçi olmuşdun?—dejə Qənbər molla Qasьma məzəmmət etməjə başladь. Molla Qasьm dedi:—Mənə inanmajьrsьnьz, qəbrə girin baqьn.

— Baş ystə molla Qasьm, bu saat qəbrə enib sənə səhih xəbər gətiräçəjəm, ançaq özyn də qorqmajьb qəbrə baqasan—dejə Qənbər qəbrə endi. Molla Qasьm qorqa-qorqa oraja baqьrdь. Qənbər ölynyn ajaq tərəfindən basdьqda mejitin baş tərəfi dikəldi.

— Gördynyzmy?—dejə molla Qasьm ditrəjə-ditrəjə soruşdu.

Qənbər ölynyn baş tərəfindən basdьqda onun ajaq tərəfi qalqdь. Molla Qasьm—Indi mənə inanarsьnьz.

Qənbər əlini mejitin bel tərəfinə soqaraq Rəhim və Kərimə:

— Ikinizə də lə'nət olsun, belə də qəbir qazьlarmь? Qəbirin ajaq və baş tərəfini qazьjьb cuqura salmьsьnьz, amma ortasьnь dik qojmusunuz, əlbəttə mejitə əl dəjdikdə ləngərlənəçəkdir.

Bunu eşitdikdə Kərim gylyb dedi:

—A molla Qasьm, jazьq Qədir xortlamamьş, biz xortlamьşьq. Kəndlilər Qədirin mejitini çьqarьb qəbri dyzəltdilər. Sonra jenə qəbrə qojub basdьrdьlar. Molla Qasьmьn at ystə tək oturmaqa taqəti joqdu, onu Kərimin tərkinə mindirib qurşaqь ilə baqladьlar ki, atdan jьqьlmasьn. Bu tevr ilə Qənbər və Kərim molla Qasьmь evinə gətirdilər. Zejnəb qarь ərini belə gördykdə qьşqьrьq saldь.

— Zejnəb nənə qorqma, molla əmijə hec bir şej olmamьş zəiflijindən atda özy otura bilmədi, onun ycyn belə gətirmişik—dejə Qənbər onu sakit etdi.

***

Bu hadisədən molla Qasьm sarьlьq azarьna dyşyb xəstə jatdь. Bu əhvalat kənd əhli arasьnda jajьldь. Nadinç coçuqlar molla Qasьmьn evinin janьndan kecdikdə baqьrьrdьlar:

— Molla Qasьm, qəc, xortdan gəldi.

Molla Qasьmьn azarь getdikçə artьrdь. Axьrda el daqdan enən zaman aqartьnьn qьzqьn alver çiri, aq saqqalь və şairə vəzifə sahibi molla Qasьm vəfat etdi.

1924

TƏBRIK

Car zamanъ idi... Hymmətəlinin evində qonaqlıq tədarıky gərylyrdy. Həjətin bir tərəfində qojun sojulurdu, o biri tərəfində qazanlar asılmışdı, ortada palaslar salınmışdı, döşəklər dyzylmyşdy. Hymmətəli döşək ystyndə oturub jasdıqa dirsəklənib cubuq çəkə-çəkə qonaqlarını gözləjirdi.

Hymmətəli neçə il jdi ki, jaşadıqı «Meşəli» və ətraf kəndlərə kəndxuda secilərək jazıq kəndlilərin başına min bəla gətirirdi. Bu hərif qara damlarda, aqaç daxmalarda jaşajan kəndliləri həkymət vergisi adına sojaraq özy ycyn bəjyk devlət və bir də aq daşdan bina olunmuş iki mərtəbəli ev dyzəltmişdi.

Ryşvətxor car mə'murları secgi zamanı onun tərəfini saxladıqları ycyn, məzlum kəndlilər hər iki qyvvədən qorqaraq Hymmətəlinin ziddinə getməjə çyr'ət edə bilməzdilər, o da kəndxuda secilərək həkmranlıqını syrərdi.

Son zamanlarda qonşu kənddə jaşajan Xankişi devlətlənmişdi. Secgi zamanında Hymmətəli ilə mybarəzə aparırdı. Xankişinin axırda ona qalib gəlməsini Hymmətəli hiss edirdi. Coq cəkişmədən sonra Hymmətəli bu fikrə gəlmişdi ki, onunla qohumlaşıb öz tərəfinə cəksin. Bu jqlda xejli «tələlər quraraq» axırda məramına najil oldu. Belə ki, Hymmətəlinin qardaşı qızı Məlahət Xankişinin oqlu Qaraoqlana bu gyn nişanlanaçaqdı. Hymmətəlinin

evladı olmamışdı, bunun səbəbini arvadı Xədiçədən gərərək onun ystə jeni arvad almışdı. Lakin ondan da evladı olmadı, buna Xədiçə artıq şad idi; cynky illəti ərində gəryrdy. O idi ki, gynysy ilə jola getməjərək axırda onu boşatmaqa myvəffəq olmuşdu.

Hymmətəlinin qardaşı Səfdərin də Məlahətdən başqa evladı olmamışdı. Atası, Məlahəti coq istərdi və azada bəjydərdi. Məlahət səkkiz jaşına catdıqda atası vəfat etdi. Hymmətəli Məlahəti öz evinə gətirərək onun malına və ixtijarına sahib oldu. Jazıq coçuqun o gyndən də mysibətləri başlandı. Sonsuz Xədiçə ilk gynlərindən Məlahəti sevmədi. Bu gözəl və saqdam qızçıqazı görməjə belə gözu joq idi. Hec bir şej ystə onu danlardı, dəjərdi. Qızrıçıq və topuqlarına qədər sallanan sacları da bicara qızın başına bir bəla kəsilmişdi. Xədiçənin hər bəhanəsi qurtardıqda:

— Gəl başını darajım,—dejə Məlahətin o gözəl saclarını daraq dişlərində qıraraq topa-topa jerə atardı. Hymmətəlijə gəldikdə Məlahət qorqudan onun ətrafına belə dolanmazdı; joldaşları ilə gəzməji, ojnamaqı əmisi ona qadaqan etmişdi. Bu isə azada jaşamış qızçıqaza danlamaqdan, dəjylməkdən artıq tə'sir edirdi.

***

Javaş-javaş qonaqlar toplanmaqa başlamışdı. Hymmətəli xejli mehriban, onlarla salamlaşaraq hər kəsə oturmaqa jer göstərirdi. Lakin kəndlilər harada oturmaqını gözəlçə bilirdilər. Döşəklər devlətlilər, ruhanilər ycyn qojulmuşdu...

Çənnətəli:

— Hymmətəlidən başqa kəndxuda olmaqa kim lajıqdır? O kişi neçə ildir bizim zəhmətimizi çəkmiş, jenə də çəkməlidir.

Hymmətəli özyny biçlijə vurub dedi:

— Xaİır, daha mən jorulmuşam, bəsdir, başqasınıı secək ki, neçə əzijjətli vəzifə olduqunu bilsin. Həkymət vergisi ystə məndən rənçidə olursunuz, onu bilməjirsiniz ki, təçylərin vaqtlı-vaqtında toplanıb xəzinəjə verilməsini həkymət məndən tələb edir... Mən bir həkymət qulujam, əmrə tabijəm, mənə bujururlar, mən də sizdən tələb edirəm.

— Doqrudur, doqrudur—dejə kəndlilər təsdiq etdilər. Qara Hysejin ilavə etdi:—Çanım bir səzlə dinmə ver.

Bu sezə kəndlilər gylyşdylər, Hymmətəli bu çyr tylkylyk ilə kəndlilərin rə'jini ələ alırdı. Xankişinin və dəstəsinin geç gəlməsi Hymmətəlini təşvişə salırdı. Qorqurdu ki, Xankişi fikrini dəjişsin, jenə ona dyşman olsun. Bu halda darvaza acıldı, Xankişi adamları ilə həjətə daxil oldu. Hymmətəli çəld qalqaraq onlarla salamlaşdı.

— Xoş gəlmisiniz, bujurun—dejə onlara juqarı başda jer göstərdi.

Qonaqlar oturdular. Səhbət təzələndi. Bir azdan sonra syfrə salındı, xörək ortaja gəldi. Taamdan sonra caj və şirni mejdana gəldi. Əsil mətləb acıldı. Kəndlilər bu xejir işi alqışlajaraq anladılar ki, Hymmətəlinin cəngəsindən qurtarmaq zamanı hələ gəlməmiş.

Qonaqlar daqıldıqdan sonra, Xankişi Hymmətəli ilə otaqa daxil oldu.

— Qızımı göstərin görym neçə qızdır?—dejə Xankişi soruşdu.

On jaşında gəlin mejdana gəldi.

— Pəh, pəh, maşallah nə göjcək qızdır—dejə Xankişi Məlahətin alnından öpdy. Sonra bir yzyk cıqarıb onun inçə barmağına taqdı. Əhvalatdan xəbərsiz qız Xankişijə baqaraq sanki soruşurdu:

— Bu nə ojunçaqdır?

Xankişi xydahafiz edərək dedi:

— Qızım salamat qal, səni qoça baban bəzəkli-dyzəkli, başı ystə saqlajaçaqdır.

***

Bu hadisədən iki il kecdi. Xədiçənin Məlahətə etdiji zylm getdikcə artırdı. Əmisinə gəldikdə o da Məlahətə başqa çyr əzijjət verirdi. Həjətdən kənara cıqmaqa izn verməjirdi. Qonşuja, ja başqa bir jerə getmək lazım gəldikdə başına cadra ərtərdi. Həmişə əmisindən bu səzy eşidərdi:

— Unutma ki, sən Qaraoqlana nişanlısan, özyny elə ismətli dolandır ki, nə mən, nə də adaxlın xəçalət cəksin. Joqsa səni öz əllərim ilə boqub öldyrərəm.

Qaraoqlan adı gəldikdə jazıq coçuqun bədəninə ditrətmə cökyrdy. O saat Qaraoqlanın vahiməli, pırtlaq gözləri və capıq surəti gözlərinin önyndə durudu.

Məlahət, Xədiçənin və əmisinin min çyr əzijjətinə razı olurdu. Lakin gələcəkdə Qaraoqlana arvad olmaqını bejnınə sıqışdıra bilməjirdi. Uzun geçələri bicara qız göz jaşı tökərək vahimə icində kecirirdi. Gah özyny juquda qaranlıq ormanda, hejbətli bir ajı quçaqında göryrdy. Sonra ajı Qaraoqlana dönyrdy. Gah da özyny havada jırtıcı qartal çajnaqında göryrdy. Bu da sonra dönyb Qaraoqlan olurdu.

Qonşuları Piri babanın naqıllarının sonunda gözəl qızları hejbətli divlər cəngəsindən qəhraman mələkzadələr xilas edərdi. Balaca Məlahət də öz qurtuluşunu elə şahzadələrdən gözləjirdi. Lakin minlərcə Məlahətləri divlərin cəngəsindən xilas edən mələkzadələr dejil, böjyk Oqtjabr inqilabi oldu.

***

Kəndliləri sojmaqa adət etmiş Hymmətəli, Şura həkyməti zamanьnda quzu çildinə girərək min hilə qurdusa da kəndlilər onu hec bir jerə secmədilər. Axьrda jeni bir secgi zamanь bir necə kəndlijə ryşvət və'd etdijinin ysty acьlaraq bilmərrə secmək və secilmək hyqugundan məhrum olundu. Mə'jus qalmьş Hymmətəlijə təsəlli verəçək bir şej vardьsa o da ozy kibi Şura həkyməti dyşmanь və həmməsləki Xankişinin də secgi hyququ əlindən alьnmasь idi. Bu iki hərifin Şura həkymətini gərməjə gəzləri joq idi. Lakin zahirdə ozlərini həkymət tərəfdarь gəstərirdilər. Jeri gəldikdə dejirdilər:

— Şykyrlər olsun ki, zylymkar car həkyməti məhv oldu, indi həkymət biz işçi və kəndlilərindir.

Lakin kənddəki fyqəra qomitəsi bu iki hərifi gəzəlçə tanьjьrdь... onlarь qabaqlajaraq dinç, faraqat oturmalarьna əmr etmişdi. Əks surətdə hər ikisinin syrgyn olaçaqьnь xəbər vermişdi.

Şura həkyməti bərpa olduqu gyndən balaça Məlahətin də jaşajьşь dəjişilərək bir bajram icərisində kecirdi. Buna ymdə səbəb Ismət xanьm idi. Belə ki, Hymmətəlinin evində qadьnlar qlubu acьlmьşdь. Qlub qadьnlar arasьnda savadsьzlьqь ləqv etmək qursu acmьşdь. Bu qursa Ismət xanьm mydirə tə'jin olunmuşdu. Ismət xanьm Hymmətəlinin evində mənzil edərək Məlahəti oz qanadь altьna almьşdь. Onu qursdan ilavə oz otaqьnda xysusi oqudurdu. Kicik vaqtьnda ana məhəbbətindən məhrum qalmьş coçuq həqiqi ana məhəbbətini Ismət xanьmda tapmьşdь.

Ismət xanьm Məlahətin nişanlь olduqunu bilib bu işi pozmuşdu. Məlahət buna artьqça şad idi. Evin alt mərtəbəsində iki qaranlьq otaqa soqulmuş Hymmətəli və Xədiçə Ismət xanьmьn bəjyk dyşmanlarь idi, lakin ona bir şej japmaqь baçarmьrdьlar. Mə-

lahət az bir zamanda savadsьzlьqьnь ləqv edərək başqa talibələri otyb kecmişdi. Ismət xanьm coçuqun belə zəka və sə'jini gərərək, onu darylmyəlliminə hazьrlajьrdь. Buna da Hymmətəli razь dejildi.

— Kəndli qьzьna oqumaq jaraşmaz. Qqumuş qьz ajaqь carьqlь kəndlijə ərə getməz—dejə Hymmətəli şikajətlənirdi. Lakin Ismət xanьm onun sözynə əhəmijjət verməzdi.

Məlahət Ismət xanьmьn tərbijəsi altьnda bəjyjərək on beş jaşьna catdь. Bu gözəl qьzь almaq coq çavan oqlanьn fikrindən kecirdi, lakin həkymətdən qacaq dyşən Qaraoqlandan qorqaraq hec kəs çyr'ət edib Məlahətə elci dyşə bilməjirdi. Bir il əvvəl nəşrə başlanmьş «Şərq qadьnь»nь Məlahət coq sevərdi. Qadьnlar şöbəsinə gələn nymrələri oqujub artьq maraqlanьrdь. Ismət xanьm Məlahətin bu zurnala olan həvəs və məhəbbətini gəryb dedi:

— Məlahət, nə ycyn sən də başqa kənd qьzlarь kibi sevgili zurnalьna myxbirə olmursan?

— Qorquram jazdьqьmь cop etməsinlər—dejə Məlahət çavab verdi.

— Nə ycyn cap etməjirlər? Əhəmijjətli bir şej jazarsansa cap edərlər. Gələçək nymrə, zurnalьn iki illiji mynasəbətilə buraqьlaçaqdьr. Sən də bir şej jaz, göndər...

Bu söz Ismət xanьmьn jadьndan cьqьb getmişdi, lakin Məlahət o gyndən rahat ola bilməjirdi. Həmişə fikir edirdi ki, nə jazsьn və Ismət xanьmdan da soruşmaq istəməjirdi; cynky fikri, məqaləsi cap olunursa sevgili myəlliməsinə göstərərək onu şad etmək idi. Coq fikirdən sonra Məlahət zurnala bir təbriknama jazьb göndərdi. Indi də «Şərq qadьnь»nьn bajram nymrəsini səbirsizliklə gözləjirdi.

***

Bir gyn gynəş qyrubə enən zamanь Məlahət Ismət xanьmla çavanlar qlubundan evlərinə qajьdьrdь. Jol uzunu Ismət xanьm onu gələn il daryl-myəlliminə aparaçaqьndan səjləjirdi. Məlahət buna bir tərəfdən şad, o bir tərəfdən qəmgin idi. Şad idi ki, darylmyəlliminə girib oqujaçaqdь və axьrda myəllimə olaçaqdь. Qəmginlijinə səbəb sevgili myəlliməsindən ajrьlaçaqь idi. Belə şirin səhbət etdikləri zaman qəflətən japьnçьja byrynmyş bir atlь onlarьn önynə cьqdь. Məlahət onun yzyny gərdykdə qьşqьrdь:

— Qaraoqlan.

Qadьnlar bir şej japьnça, Qaraoqlan alьçь quş kibi Məlahətin ystyny aldь. At ystyndən əjilib onu quçaqьna cəkdi və ildьrьm kibi gətyryldy.

Xof və hejrətdə qalmьş Ismət xanьm sanki juquda idi, indi ajьldь. Qacaraq özyny milis mydiri Hejdərqulunun idarəsinə saldь, vəq'əni ona səjlədi.

— Qorqmajьn Ismət xanьm, bu saat Məlahəti burada gərərsiniz—dejərək Hejdərqulu yc milis ilə barabar atlanьb caparaq jola dyşdy.

Qaraoqlanьn fikri daqь aşьb meşədə gizlənmək idi. Kənddən xejli uzaqlaşaraq atьnьn başьnь jьqdь. O fikir edirdi ki, bu tezlik ilə onun arqasьna dyşən olmajaçaqdьr. Atьnь da jormajьrdь ki, daqa cьqa bilsin. Qaraoqlan daqьn ətəjinə catdьqda Hejdərqulu və milislər bir gyllə fasiləsinçə ona jaqьnlaşdьlar. Atьşma başlandь. Qaraoqlan onlara çavab verə bilməjirdi; cynky quçaqьnda Məlahət ona mane olurdu. Ona görə Məlahəti atdan jerə ataraq tyfəngini bojnundan cьqartdь. Məlahət fyrsət taparaq milislərə tərəf qacmaqa başladь. Bunu gərdykdə Qaraoqlan birinçi gyləsini ona boşaltdь. Binəva qьz jerə sərildi, Hejdərqulunun gylləsi də Qara-

oqlanь atdan jerə saldь. Hejdərqulu Məlahətə cataraq atdan dyşdy. Məlahət zarьldajьrdь. Hejdərqulu onun jarasьnь baqladь.

—Qorqma, baçьm, jaran aqьr jara dejil, bir az zamanda saqalьb ajaqa duraçaqsan. Intiqamьnь Qaraoqlandan almьşam. Biz onu coqdan aqtarьrdьq, axьr çəzasьnь aldь.

Hejdərqulunun əmri ilə milislər Qaraoqlanьn mejitini öz atьna sarьdьlar, Məlahəti də Hejdərqulunun quçaqьna qojdular jola dyşdylər. Geçədən saat jarьm kecmiş milis idarəsinə varid oldular. Ismət xanьm Məlahəti belə halda gərdykdə nalə etməjə başladь.

—Ismət xanьm, qorqmajьn, qьzьn jarasь zərərli jara dejil, tez saqalaçaqdьr.

***

Doqtor da Məlahətin jarasьnь qorqulu tapmadь. Lakin onu qorquja salan başqa bir azar idi, belə ki, gətyrylyb qacьrьlan zaman Məlahətə bərk sojuq dəjmişdi.

Doqtor onda zatylçənb əlaməti gərdy. Ismət xanьm Xədiçəjə umud baqlamajaraq xəstəni öz otaqьna gətirmişdi. Vaqtьnьn coqunu Məlahətə sərf edirdi. Vaqtlь-vaqtьnda dərmanьnь verib xərəjini hazьr edirdi. Məlahətin azarь getdikçə şiddətlənirdi. Doqtor bir gyn Məlahətə baqdьqda demişdi:

— Əgər xəstə bu geçə azarьn zərbinə davam edərsə, saqalmaqьna böjyk umud vardur.

O idi ki, Ismət xanьm hər işini atьb Məlahətin janьndan əl cəkməjirdi. Aqşam dyşdykdə xəstənin qьzdьrmasь artmaqa başladь. Geçə jarь olduqda qьrq dərəçəjə qədər qalqdь.

Məlahət böhran icində saŋqlajьrdь:

—«Şərq qadьnь»... «Nə ycyn joq»... «Təbrik edirəm...»

Bu sözlərdən Ismət xanım anladı ki, Məlahət «Şərq qadını» zurnalına məqalə jazıb göndərmiş. Indi onun intizarını çəkir, Ismət xanımın jadına dyşdy ki, bu səhər şə'bəjə qəzetlər ilə bərabər «Şərq qadını» zurnalı da gəlmiş, çəld qalqıb onu gətirdi və ditrək əllərilə vərəqləri kəsdi. Zurnalın son səhifəsində təbriknamalar sırasında belə bir təbrik oqudu:

«Şərq qadını» zurnalına!..

«Ej bəjyk Oqtjabr inqilabının altın qızı, hörmətli «Şərq qadını»! Əsrlərçə jumulan mə'sum gözlərimizi indi iki ildir ki, sən acdın... Mənbəindən doqan işıqlar Azərbajçanın ən uzaq və ən qaranlıq buçaqlarını belə şə'ləvər edir... Qaranlıqdan çıqardıqın mənim kibi kəndli qızları hamı səni alqışlar... Budur mən də qəlbimin saf və səmimijjətləri ilə iki illijini təbrik edirəm.

Jaşa... və şərq qızını hyrrijjətlə jaşat!

Imza kəntli qızı Məlahət.»

Ismət xanım bunu oquduqda ixtijarsız gözlərindən jaş tokyldy.

—Qızım, gözlərini ac, baq, budur sevimli «Şərq qadını»nda təbriknaman cap olunmuş.

Məlahət qan ilə dolmuş gözlərini acdı. Ismət xanım zurnalı ona göstərərək təbriki oqudu. Ismət xanım, təbriknamanı oquduqça Məlahətin solqun dodaqları təbəssym edib əlymyn aqır pənçələri altında didinərək, dərin bir gəjys çəkməsi ilə həjatını bitirdi.

1926

NƏ ÜÇÜN

Aqşam caqı, 1905-nçi il janvarın 8-də Vasilјevski çəzirəsi kyçələrindən birində ucuşan, savrılan qarlarla əlləşərək, şiddətli donduruçu ruzgarlarla boquşaraq işçi bir qadın mənzilinə qajıdırdı. Bu qadının cəhrəsində bir mə'jusluq gərynyrdy; onu gözləjən aç coçuquna bir parca da olsa cərək tapmamışdı, kicik qızçıqazının janına əli boş gedirdi.

Qadın gəlib mənzilinə catdı. Donmuş əli ilə qapını dəjdy. Balaça Lena coq cətinliklə qapının çəftəsini acıb anasını icəri buraqdı.

— Anaçıqım, jemək gətirdinmi?—dejə coçuq soruşdu.

— Toqda balaçıqım, qoj donmuş ə'zamı bir isidim—dejə Vera yst paltarını çıqarıb bir mitil əski jorqana byryndy, lakin qapı və pənçərə arasından soqulan ruzgar rytubətli, sojuq və balaça otaqı elə sojutmuşdu ki, Vera, jorqanın altında da ditrəjirdi. Kyrkynə byrynyb buçaqda myrgyləjən 80 jaşlı Mixajil baba nəvəsinin gəldijini dujdu. Bir qədər sykutdan sonra baba soruşdu:

— Vera jıqınçaqınızda nə qərarə gəldiniz?

Vera ditrək səslə çavab verdi:

—On yc min tə'til edən «Putilov» işçisi başqa zavod və fabrik işçilərilə bahəm belə qət' etdilər ki, sabah arvad-uşaqlar ilə birlikdə car babaja my-

raçəət etsinlər, ona dərdlərini söjləsinlər və imdad istəsinlər.

Bunu eşitdikdə Lena sevinçək soruşdu:

— Anaçьqьm məni də aparaçaqsanmь? Baq mən daha səndən jemək istəməjirəm, sabah car babam bizə hər şej verəçəkdir. Anaçьqьm, qorqma, mən jorulmajaçaqam, açlьqdan da şikajət etməjəçəjəm.

Mixajil baba istehza ilə dedi:

—Car babadan imdad gözləmək; zylm juvasьna myraçəət etmək, nə qədər sadədillik, Romanov xanədanьna altь oqul, beş növə qurban vermişəm, belə xidmət əvəzində bu uzun ömrymdə bir qarьn cörəjə möhtaç olmuşam. Qьzьm qorquram, sabah car babanьz cörək əvəzinə sizləri qurşuna qurban etsin.

— Nə dejirsən baba? Elə iş olarmь? Biz fabrik-zavod sahiblərindən mymkyn olmajan bir şej tələb etməjirik. Gyndə 12 saat zəhmətə işçi qadьnlarьn gyndəlik məvaçibini 70 qəpijə və erkəklərinkini bir manata qədər artьrьlmasьnь rəça edirik, bu bəjyk bir tələbmi? Bir də sabah biz silahsьz, əllərimizdə kilsə bajraqlarь, dəşlərimizdə xac, coçuqlarьmьz ilə bərabər Qapon papasьn rəhbərlijilə gedəçəjik, nə ycyn bizləri qurşuna qurban etsin?

Mixajьl baba dodaqlarь altьnda mьrьldanaraq kyrkyny başьna cəkdi və bir azdan sonra juquja getdi. Lakin balaça Lena açlьqьnь unudub car baba barəsində anasьna dyrly-dyrly suallar verirdi. Vera coçuqunu rahat etmək ycyn car babanьn çah-çalalьndan, ədalətindən, rəijjət ycyn atalьq etməjindən söjləjirdi. Bu dadlь lajlalardan balaça Lena xumarlanьb şirin juquja getdi.

***

9 janvarda Peterburq kycələri işçilər və onlarьn arvad-uşaqlarь ilə dolu idi. Hamьsь myəjjən jerlərdə toplaşmaqa tələsirdi. Getdikçə çəmaət artьrdь. Polis mə'murlarь xalq ilə mehriban rəftar edirdilər. Bu isə işçilərə umud verirdi ki, həkymət onlarьn qət'namasьnь jerinə jetirməjə mane olmajaçaqdьr.

Vasiljeviski çəzirədə qьrq mindən artьq xalq toplanmьşdь. Bunlarьn sьrasьnda Vera və kicik Lena da vardь. Natiqlər kyrsy yzərinə qalqaraq çəmaəti saraj mejdanьna getməjə də'vət edirdilər. Bu təklifi qəbul edərək xalq saraj mejdanьna tərəf aqmaqa başladь.

Aradan bir o qədər zaman kecməmişdi ki, şəhərin bir coq jerindən polislər tərəfindən işçilərin gyllәjə dutulmaq xəbəri gəlib cьqdь. Lakin hec kəs buna inanmajьb jenə də jeriş edirdi. Bu halda mysəlləh atlь qazaqlar və zandarmalar çəmaətin qarşьsьnь alaraq atəş acdьlar. Işçilər gerijə dönmək istədikdə arqadan da onlar gyllәjə dutuldu. Bunu gördykdə adamlar bir-birini basaraq jan kycələrə qacmaqa yz qojdu, lakin sitəmkar carьn qan iciçi qurşunu hər tərəfi almьşdь. Mə'sum coçuqlarьn nalәsi, məzlum analarьn fəryadь gөjlərə səda salmьşdь, lakin daş qəlbli qan icən qazaqlar buna baqmajaraq zavallь işçiləri baçardьqça qьlьnçdan kecirirdilər.

Kicik Lena anasьnь itirmişdi. Ajaq altьnda qalmasьndan qorqaraq özyny bir darvaza buçaqьna soqmuşdu. Zavallь coçuqun qorqudan qanь elə qacmьşdь ki, yzynyn rəngi ajaqlarь altьndakь qardan secilməjirdi. Açlьq, zəiflik bir tərəfdən, jorqunluq və qorqu digər tərəfdən zavallь coçuqu taqətdən salmьşdь. Daha ajaq ystə durmajьb jerə sərildi.

Bir saatdan artьq idi ki, Lena bihuş qalmьşdь. Bu vaqt naqьl etdijimiz kycədə qavqa bitmişdi. Atma, qьrma başqa kycələrə kecmişdi. Kicik Lena bihuşluqdan ajьldь, gözlərini acdь, lakin bir myddət

harada olduqunu, qar ystə sərilmiş mejitlər, onlarьn aralarьndan sьzьldajan, nalə edən jaralьlarьn kim olduqunu və nə ycyn belə hala dyşdyklərini anlamadь. Bu halda onun qulaqьna belə bir səda gəldi:

— Lena, Lena, coçuqum, aç coçuqum, haradasan? Səni də zalьm qazaqlar qanьnla bojadьmь?

— Ah, anamьn səsi, məni caqьrьr. Lena var qyvvəsini jьqьb ajaqa qalqdь, qara bata-bata mejitlər arasьnda anasьnь aramaqa başladь. Bu vaqt jenə də anasьnьn naləsi qulaqьna gəldi. Lena anasьnь gərdy. Ajaqlarь dolaşa-dolaşa ozyny onun quçaqьna atdь. Vera aqьr jaralanmьşdь.

— Anaçьqьm, səni kim belə jaraladь?

— Zalьm carьn qan iciçi saldatь.

— Mən daha car babanь sevməm, o zalьm adam imiş. Ana qalq evimizə gedək.

— Qьzьm mən qajьtmaz bir evə gedirəm, səni babana kim aparsьn?

— Mən sənsiz getmərəm, anaçьqьm, qoj jaranь baqlajьm, sonra evimizə gedək...—bunu dejib zavallь coçuq ditrək əllərilə başьnьn jajlьqьnь acmaqa sə'j etdi. Bu vaqt at ystə əlində nizə bir qazaq kecirdi. Qazaq bunlarь gərdy. Atьnь onlara tərəf cevirdi.

— Car babanьzь zijarət etdinizmi?—dejə qəhqəhə cəkdi.

Vera buna səbr etməjib cara nifrət etməjə başladь, zalьm qazaq nizəni onun sinəsi ystə dutaraq:

— Sus, ysjancь qadьn, bu saat səni də bu jerə sərilmiş kəpəklərin sьrasьna qataram.

Bunu gərdykdə Lena, ufaçьq dəşyn gərərək:

— Qojmaram—dejə hajqьrdь.

Qəddar qazaq al—dejə nizəni zavallь coçuqun sinəsindən vurdu və caparaq getdi. Lena anasьnьn

quçaqьna jьqьldь. Sinəsindən al qan fьşqьraraq aq qarь qьrmьzь rənglə bojadь.

— Aj zalьm, bunun gynahь nə idi ki, belə qanьna bojadьn. Bu zavallь ananьn son naləsi oldu. Evladьnь quçaqlajьb əpərək gəzlərini jumdu.

Lenanьn solqun dodaqlarь «nə ycyn, nə ycyn» dejərək həmişəlik qapandь.

1926

«JOLUQMA XƏSTƏLIK»

Ilk bahar... Majьn gəzəl gynlərindən biri idi. Aqaclar jaşьl paltara byrynyb səhralar cicəklərlə bəzənmişdi. Batumdan Tiflisə syr'ətlə hərəkət edən dəmir jol qatarь miniklərlə dolu idi. Bunlarьn coqu, səfərin bu gəzəl mənzərəsindən istifadə edə bilməjirdi; cynky Qaradənizin cьlqьn qəhqəhə ilə hajqьran fьrtьnalarьndan coq əzijjət cəkmişdilər. Onun ycyn də indi kimisi uzanьb jatmьş, kimisi də myrgyləjirdi.

Bu əzijjəti gənç Çəlil də cəkmişdi. Lakin öz jorqunluquna baqmajaraq, qupe pənçərəsini qaldьrьb baharьn saf havasьnь dərindən tənəffys edirdi. Hər anda mənzərəsini dəjişən təbiət onda başqa hiss və tə'sir buraqьrdь.

Bu gənç jeddi il idi ki, Parisdə tibb fakyltəsini ikmal ycyn sevgili vətənindən ajrь dyşmyşdy. Bu aralьq Oqtjabr inqilabь zyhur edərək, daha sonra Azərbaijcanь da şuralaşdьrmьşdь. Vətəndən əlaqəsi kəsilmiş Çəlil, Paris mətbuatьnda dərc edilən provaqasja xəbərləri mytaləə edərkən mytəəssir olardь. Çəlil hər nə qədər bu xəbərlərə inanmajьrdь, lakin jenə qəlbində bəjyk bir iztirab hiss edirdi. O idi ki, Batuma catdьqda jorqunluquna baqmajaraq, şəhəri gəzməjə başlamьşdь ki, bəlkə bir tanьşa rast gəlsin... Ançaq kimsəjə rast gəlməmişdi.

***

Qatar Tiflis stansijasьna catdьqda miniklər vaqonlardan əçələ ilə enərək özlərini bufetlərə soqmaqa başladьlar. Çəlil də qupedən enərək jerə dyşdy... Lakin jenə də jemək jemədən əvvəl tanьş aramaq fikrində idi. Ançaq qarьnça kibi qajnaşan insanlar sьrasьnda hec bir tanьş tapmadь. Qəzet, məçmuə alьb bufetə girdi və jemək jeməjə məşqul oldu. Qatar hərəkət edərkən, Çəlil jenə vaqona atьldь... Bir qədər Tiflisin mənzərələrinə tamaşa etdikdən sonra qupesinə gəldi. Icəri daxil olduqda pənçərə səmtində qьsa bojlu, zəif ən̈amlь, jatьq ordlu, cal saclь bir şəxsi oturmuş gördy. Bunun simasь Çəlilə tanьş gəldi. Bu şəxs də diqqətli bir nəzərlə ona baqьrdь.

Çəlil bunun qarşьsьnda oturaraq soruşdu:

— Siz myəllim mirzə Xəlilmisiniz?

— Bəli.

— Məni tanьjьrmьsьnьz?

— Jəqin əski tələbələrimdən birisiniz... Lakin adьnьzь unudmuşam.

— Bəli, mən sizin əski tələbənizəm, adьm Çəlildir.

— Doqru, doqru indi tanьdьm.

— Siz Parisdəmi təhsil edirdiniz?

— Bəli, təhsilimi bitirmiş, indi vətənə qajьdьram.

— Coq gözəl... Artьq şadam—deiə mirzə Xəlil əlini uzatdь. Çəlil jerindən qalqaraq iki əlilə onun əlini sьqdь.

— Məhtərəm myəllimim, sizi saq və salamat görməjimə mən də artьq şadam.

Qupedə bunlardan başqa iki minik daha vardь. Lakin onlar yst jataçaq jerlərini qaldьrьb uzanmьş-

dьlar. Bunlarьn söhbətlərinə mane olan bir şej jox idi.

Çəlil qohum-əqrəbasьnьn, dost-aşьnalarьnьn saq və salamat olmaqьnь bildikdən sonra söhbəti Azərbajçanьn sijasi və içtimai vəzijjətindən acmьşdь. Mirzə Xəlilin verdiji mə'lumata təəççyb edərək dejirdi:

— Bizə catan xəbərlər bysbytyn bunun əksini anladьrdь. Məhtərəm myəllimim! Mən hənuz Parisdə tibb fakyltəsində təhsil alarkan, qət' etmişdim ki, təhsilimi bitirdikdən sonra vətənə evdət edəm. Bakьda qalmajьb Azərbajçanьn ən uzaq və mədənijjətçə geridə qalmьş qəzasьnda oturaraq əhalisinə tibbi jardьmь edəm. Indi, söhbətinizdən sonra bu fikrimdə daha möhkəm qalmaqь sizə söz verirəm.

Mirzə Xəlil dedi:

— Fikriniz coq gözəldir, cynky Azərbajçanda təhsillərini bitirmiş gənç təbiblərimiz qəzalara getməkdən cəkinirlər, hamьsь Bakьda qalmaq istəjir.

— Mirzə, kecmişdə Azərbajçanda isitmə xəstəliji coq artьq dərəçədə idi, indi nə haldadьr?

— Indi azalmaqdadьr. Şura həkyməti sihijjə işlərinə artьq diqqət verir. Lakin Azərbajçanda jeni bir «joluqma xəstəlik» pejda olmuş. Bu əçib fəqət coq gözəl «xəstəlik» bytyn Azərbajçanь byryjyr... erkək, qadьn, coçuq, qoça hamьsь bu «mərəz»ə mybtəla alurlar.

Çəlil təəççyblə soruşdu:

— Məhtərəm myəllimim, o joluquçu xəstəlijə bir «gözəl» kəlməsi də ilavə etdiniz... Buna mən təəççyb edirəm.

Mirzə Xəlil gylymsəjib dedi:

— Bəli, bu «xəstəlijə» mybtəla olan şəxslər coq gözəlləşirlər, ruhlarь jyksəlir, zehinləri itiləşir...

Çəlil təəççyblə dedi:

— Bu mərəzin bə'zi nişanələri vərəm xəstəlijinə bənzəjir. Lakin ymumijjətlə indijə kibi gərynməmiş bir mərəz... Şura həkyməti bu xəstəlijin qabaqьnь almaq ycyn nə təşəbbysdə bulunur?

— Onun daha da artmasьna sə'j edir.

Çəlil bu sözləri eşitdikdə gylərək dedi:

— Məhtərəm mirzə, zarafat etdijinizi indiçə anladьm.

— Xejir, zarafat etməjirəm, lakin geçə kecmiş, söhbətimizi bitirək... Sonra Bakьda göryşyb barabarlьqda bu «mərəz» haqqьnda danьşarьq, indi isə rahat olaq.

Bir azdan sonra mirzə Xəlil və Çəlil qupenin acьq pəncərəsindən icəri təkylən quçaq-quçaq əlgyn aj ьşьqlarь altьnda ujujurlardь.

***

Doqtor Çəlil Bakьda idi. Necə illərdən bəri uzaq dyşdyjy Bakьnь gəzər, dolanar və bu gynky jeniliklərə çiddən sevinirdi. Bir gyn mirzə Xəlil ilə göryşərkən gylmyş və demişdi:

— Məhtərəm mirzə, vaqonda dedijiniz və həm də mybhəm saqladьqьnьz gözəl «mərəz»i özym aqtarьb tapdьm. Hali-hazьrda onun miqrobunu təhlil edirəm ki, asan bir ysul ilə daha şiddətli inkişaf etdirərək Azərbajçanьn ən qaranlьq guşələrinə nəşr edəm, hətta bu gözəl «mərəz»in adьnь da öjrəndim. Istərsəniz söjləjim.

Mirzə gylərək:

— Hansь «mərəz»dir?

— O, məarif cicəjidir ki, qoçadan dutmuş coçuqlara qədər jajьlmьş və jajьlmaqdadьr.

— Indi mən də bunu pejvənd edəçəjimə söz verir və çiddi calьşaçaqam.

1926

SONA XALA

... On doqquzunçu ildə, majın axırında, jaj tə'tili mynasibətilə Bakıdan vətənə qajıdırdım. Bir neçə ildən bəri ajrıldıqım qohum-əqrəbam ilə tez gəryşmək arzısı, Kicik Qafqas daqları başında jajılmış gözəl ab-havalı və mənzərəli, «Ş» şəhərini jenidən bir də gərmək şevqi mənə isti və tozlu jolun əzijjətini unutdurdu. Gynəş daqlar arqasına kecərək qajib olduqda mən də şəhərə varid oldum.

***

Səhər saat 9-da Sona xalanın qapısını dəjdym. Sona xala qapını acdı. Məni gərçək bojnuma sarıldı.

— Xoş gəlmisən oqlum, nə əçəb bizi jad etdin? Bujur, bujur—dejə məni icərijə saldı.

— Bəşir evdədirmi?

— Xajır, bazara gedibdir, bu saat gələr. De gərym, caj harada icəçəksən? Baqcada, ja balqonda?

— Sona xala, zəhmət cəkmə, caj icmişəm.

— Onda sən sevgili baqcana bujur mən də bu saat gəlirəm.—Bunu dejərək Sona xala otaqa girdi. Mən də baqcaja getdim.

Həqiqət bu baqcanı mən coq sevirdim. Bu gözəl baqcanı bir qədər sejr etdikdən sonra jasəmən xəjabanında qojulmuş sqamjada oturdum.

***

Sona xala jalan, jaltaqlıq, alcaqlıq sevməz, saqlam, erkək təbiətli, uça qamətli, iri çəsədli bir qadın idi. Hər kəsin cirkin əməlini şax yzynə dejərdi. Bunun belə xasijjətini bilib ondan cəkinərdilər. Sona xalanın Bəşirdən başqa evladı olmamışdı. Bu tək oqluna nihajət dərəçədə məhəbbət baqlamışdı. Sona xalanın birçə dərdi vardı, o da oqlunu evləndirmək idi. Bəşir isə bu işdən bojun qacırırdı; cynky orta təhsil gərmyş bir çavan oqumamış qız almaq istəməjirdi. Belə qız da o zaman joq idi.

Sona xala əlində bir padnos, icində bir istəkən caj, myrəbba, qajmaq, jaq, jaqlı fətir, qolunda syfrə baqcaja daxil olaraq şişəbənd otaqda masaja syfrə salıb məni oraja təklif etdi.

— Je, oqlum, naharımız bir az geç olaçaqdır. Bəşiri göndərmişəm bazardan turaç alsın, plav bişirəçəjəm... Ona kibi aç qala bilməzsən.

Burada Sona xala öz jaşajışından söhbət acıb bucaqaçan Bəşirin evlənməməsinin ondan ötry bəjyk bir dərd olduqunu da janıqlı-janıqlı söjlədi.

— Jaqşı, Bəşir indi nə bahana gətirir, daha ali məktəb təhsilindən əl cəkdi ki.

— Haman dedijini jenə də dejir: mən oqumuş, acıq gəzən tyrk qızı alaçaqam. Mən belə qızı haradan tapım? Mollanın qorqusundan hansı mysəlman çyr'ət edib qızını oquda bilər? Hələ acıq gəzmək kənarda qalsın... Bu ildən də Bəşir bir söz araja atmış, dejir mən jeni «pejqəmbərin» zyhurunu gözləjirəm o gələr, mysəlman qadınlarının cadralarını başlarından atar, onları oqutmaqa əmr edər, hyququnu erkəklərlə bərabər edər, onda mən də özym ycyn qız bəjənib sevərəm, alaram. Buna biz

arvadlar dejərik: «ölmə eşşəjim, ölmə, jaz gələr jonça bitər».

Bu halda qapı dəjyldy. Sona xala çəld ajaqa qalqaraq:

— Jəqin Bəşirdir. Mənim başım plav bişirməjə qarışaçaqdır; sən calış onu jola gətir.—Bunu dejərək Sona xala getdi. Bəşir mənim adımı eşitcək qacaraq janıma gəldi. Öpyşdyk, göryşdyk.

— Nə gözəl oldu gəldin, məktubundan belə görynyrdy ki, jajda myaləçə ycyn sulara gedəçəksən. Bu xəbərdən coq mə'jus olmuşdum. Bilməjirdim bu jajı nə tevr kecirəçəjəm.

Bəşirin solqun bənzinə baqdıqda dedim:

— Əzizim, sənin də sular myaləçəsinə ehtijaçın vardır.

Bəşir gylymsynərək dedi:

— Mənim azarımın dərmanı joqdur...

— Demək jeni «pejqəmbərin» zyhurunu gözləməli.

Bəşir bunu eşitçək əvvəl təəççyblə yzymə baqdı, sonra gyldy—Görynyr janamla uzunça söhbət etmisən,—dedi.

— Bəli, özyn də bilirsən nə barədə. Hər hiləni işlədib indi də zavallı qadınə jeni «pejqəmbərin» zyhuruna aldadırsan.

Bəşir dedi:

— Bu fikir mənim dejil, bu gynlərdə burada göryşdyjym səjahətci bir almanın dyşyncəsidir: belə ki, bir gyny daqın başında oturub dəhşətli qajalarımıza və onların arasından şaqqıltı ilə aqan cajlaqa tamaşa edirdim. Bir də gördym janımda səjahətci libasında bir şəxs durbin ilə qajanın dəşyndəki əski imarətə baqır. Bir qədər baqdıqdan sonra yzyny mənə tərəf cevirib tyrkçə soruşdu·

— Əfəndim, bu əski imarətin tarixini bilirsinizmi? Kim tərəfdən bina olmuş? Oraja getməjə jol varmı?

Mən onun tarixini səjlədim və səjjahı oraja apardım. Mənimlə dost oldu. Ömrynyn coqunu şərq aləminin səjahətində kecirmişmiş. Mənə coq şejlər söjlədi. Onu da hər şejdən artıq hejrət və dəhşətə salan şərq qadınının çəhalət zylmatında boqularaq bəşər hyququndan məhrum qalması idi.

Səjahətci dejirdi:

— Gənç dostum, bytyn millətlər öz tarixində çəhalət devrini syrmyş. Indi də vəhşi halında jaşajan bir coq tajfalar var, lakin hec bir millət öz qadınını islam qadını kibi torbaja salıb gynəşin işıqından məhrum etməmişdir. Mənçə hyrr jaranmış şərq qadınını bu haldan xilas etməjə jeni bir pejqəmbər zyhuru lazımdır.

— Indi əzizim, eşitdin ki, bu mənim hiləm dejil, alman aliminin fikridir.

Bu söhbətdən sonra evlənmək məsələsinin nə qədər cətin olduqu jenə də aralıqa gəldi. Mən dedim:

— Nymunə ycyn özyndən başla, bir çavan qız al, tərbijə ver, cadrasını at, özynlə acıq gəzdir. bilirəm coq cetinliklərə dycar olaçaqsan, lakin davam etmək lazımdır.

Bəşir bir qədər fikirdən sonra dedi:

— Məsləhətin bəd dejil, əqlimə jatır, anam da məni rahat qojmajır. Qoj sən dejən olsun, gərək axırı nə göstərər.

Bu halda Sona xala gəldi. Suallı nəzər ilə yzymə baqdı. Mən dedim:

— Sona xala, oqlunu jola gətirmişəm. De görym mənə nə xəl'ət verəçəksən?

— Hər nə istəsən, oqlum, qorquram Bəşir sözyndən qaca.

— Hec vaqt qaca bilməz, burada ikilikdə qət' etmişik. Sənə söz verirəm ki, bu ƒaj Bəşirin tojunu etməmiş buradan getməjim. Arxajьn ol. Bəşir bu işə razьsanmь?

— Razьjam.

— Sona xala, daha uzaqa qoƒmaq lazьm dejil. Sabahdan qьz aqtarmaqь başlarsan.

— Nə coqdur qьz. Hansь bir bəƒin, dövlətli taçirin qapьsьna getsəm, coq şadlьqla məni qəbul edəçəklər.

Bəşir dedi:

— Ana mənim də şərtim var, mənə nə bəj və nə də dövlətli taçir qьzь lazьm dejil, arajьb bir kasьb qьzь taparsan, arqasьz olsa daha mynasibdir; cynky fikrim onu oqudub, tərbijə verib acьq gəzdirməkdir. Hərgah bu fikrə mənimlə şəriksənsə, işə başla, joqsa hec kəsin qapьsьna getmə.

Sona xala dedi:

— Bu əmrini coq şadlьqla qəbul edirəm oqlum, mənə dövlət lazьm dejil. Arvadьnь acьq saqlajaçaqsan, ona da bir sözym ola bilməz.

Sonra yzyny mənə dutub dedi:

— Mənim bu şadlьqьma səbəb sən oldun, oqlum. Ölənə kibi jadьmdan cьqarmaram.

***

Haman jaj Sona xala arzьsьna catdь. 18 jaşlь, həlim təbiətli gözəl bir gəlin qajьn anasь oldu. Bəşir də gənç arvadьnь özy oqutmaqa və tərbiƒə verməjə məşqul olaraq jeni bir həjat kecirməjə başladь. Hər dəfə məni gördykdə arvadьnьn oqumaqa olan həvəsindən, sə'jindən, zəkasьndan, hər şeji tez göryb gətyrməsindən söjlərdi və atəşli dejərdi:

— Miljonlarça belə zəkalarь dört divar icərisinə salaraq hənuz acьlmamьş qyncə kibi saraldьb-soldurub qəbrə göndərən insanlara lə'nət və nifrət etməjə haqlь dejilmijəm? Baq kecən çymə Syrəƒanь şəhərin erməni hissəsinə gəzməjə aparmьşdьm. Zavallь qadьn burada doqulub on jeddi il jaşadьqь halda şəhərin bu hissəsini indijə qədər görmədijini mənə söjlədi.

***

Avqustun axьrьnda bu bəxtijar ailə ilə əlvida edərək Bakьja qajьtdьm. Hər on, on iki gyndən bir Bəşirdən məktub alьrdьm o; gənç arvadьnьn dərslərində hər anda iləriləməsindən, gələn il onun gözlərini acьb mə'lumatьnь artьrmaq ycyn səƒahətə aparmaq fikrindən, özynyn və anasьnьn Syrəƒadan artьqça razь olmalarьndan jazьrdь. Ara-sьra arvadьnь acьq gəzdirmək səbəbinə avam çəmaət tərəfindən onlara edilən əzijjəti də qejd edirdi. Get-gedə Bəşirin məktublarь bir şikajətnamaƒa dönyrdy. Avam çəmaət tərəfindən onlarьn yzərinə acьlan mybarəzəjə bir daha davam etməjəçəjini və artьq dərəçədə əsəbiləşdijini mə'lum edirdi. Son məktubunda:

— Qьşьn cьqmaqьnь gözləjirəm ki, arvadьmь götyryb başqa vilaƒətə gedim—dejə şikajətlənirdi.

Axьrda Bəşirin məktubu bilmərrə kəsildi. Mən fikir etdim ki, Bəşir baharь gözləməjib başqa jerə köcmyş, lakin gələn façiəli xəbər məni mə'jus və pərişan etdi. Belə ki, bir geçə Bəşir arvadь ilə şəhərin Avropa hissəsində japьlmьş mysamərədən qajьtdьqlarь zaman iki çahil çavanlara rast gəlirlər. Çavanlar naiƒəq sözlərlə Bəşərin arvadьna sataşmaqa başlarlar, axьrda:

— Bu java matьşqanь haraja aparьrsan? Qoj bir qədər biz ilə gəzsin—dejə onlarьn önyny alьr-

lar. Bəşir buna səbr etməjib qavqa edir. Syrəjja qəşş edib jerə dyşyr. Çahillər isə bicarə Bəşiri xəncər ilə əldyryb qacьrlar.

***

Şuralaşmьş qьrmьzь Azərbajçan, içtimai inqilabьnьn il dönymyny təntənəli surətdə bajram edirdi. Neft pajtaxtь Bakь adi boz libasьnь tərk edərək, zinətli al donunu gejmişdi. Evlər, balqonlar, gəmilər hamьsь qьrmьzь bajraq və qijmətli xalьlar ilə bəzənmişdi. Hər jan gylşəndə lalələr tək qьzarьrdь. Saat 8-dən başlamьş, ittifaqlar əz bajraqlarь altьnda, başda musiqi dəstələri, nizam ilə hyrrijjət mejdanьna tərəf jeriş edirdilər. Bu sel kibi aqan myxtəlif dəstələr sьrasьnda hamьnьn nəzərini əzynə çəlb edən tyrk qadьnlarь dəstəsi idi. Bu dəstəni təşkil edən yzvlərin kimisi jeniçə cadrasьnь atmьşdь, kimisi hələ buna çyr'ət etməmişdi, kiminin yzyndə şadlьq və çyr'ət, kimisində qorqu və hejrət gərynyrdy. Içtimai işlərə jeniçə qədəm qojmuş bu qadьnlar dəstəsinin başьnda duran bajraqdar uça bojlu, iri gevdəli, sadə milli libaslь qoça bir qadьn idi. Xejli qajda və nizam ilə dəstəni aparьrdь. Bizim dəstə bu qadьnlar dəstəsi arqasьnça gedirdi. Qadьnьn jerişi, ə'zasьnьn hərəkəti mənə tanьş gəlirdi. Bu vaqt qadьn yzyny cevirərək:

— Geridə qalma, nizamь pozma, çərgəni dyzəlt—dejə uça səslə qomanda etdi.

Qadьnьn yzyny gərdykdə Sona xala olduqunu bildim və onun kecmiş façiəli həjatь jenidən xatьrьmdan birər-birər gəlib kecdi.

***

Bəşirin façiəli vəfatьndan yc aj kecərək arvadь Syrəjja uşaq doqururkən vəfat edir, bu isə Sona

xalaja jeni bir daq olur. Bicarə qadьn bu hadisədən sonra jeniçə dynjaja gəlmiş qьz nəvəsini gətyryb başqa qəzadə jaşajan qohumugilə kəcyr. O zamandan bəri Sona xaladan xəbərim joq idi. Indi onunla tezçə gəryşməjə yrəjim tələsirdi.

Dar kycələrə gəldikdə dəstələr əz hərəkətlərini jatьrmaqa məcbur olurdular. Bu zaman masqalar gejmiş aqtijorlar, mənhus car mə'murlarьnь, ruhaniləri, bəj-xanlarь, burzujlarь təqlid edərək ojun cьqarьb adamlarь gyldyryrdylər. Ittifaqən aqtijorlarьn avtomobili qadьnlar dəstəsi myqabilində dajanmьşdь. Molla roluhu ojnajan aqtijor Sona xalaja sataşmaq məqsədilə:

— A, qoça qarь, hec həja etməjirsən ki, yzyny acьb bu namahrəm kişilərə göstərirsən, o əlindəki al bajraq çəhənnəmdə bir qьzьl ilan olub səni mydam sançaçaqdьr...—dejə zarafat etməjə başladь.

— Kəs səsini qoça kaftar, siz mollalarьn zylmyndən biz qadьnlar o çəhənnəmi burada cəkmişik, ixtijarьnьz mənim əlimdə olsajdь hamьnьzь topljb bu Qaspi dənizinə atardьm!—bunu dejib Sona xala bajraqьnь uzadьb mollanьn əmmaməsini jerə saldь. Hər tərəfdən qəhqəhələr uçaldь.

Bu çyr'ətli qarь kimdir?—dejə suallar verilirdi.

— Bu bizim Sona xalamьzdьr—dejə qadьnlar fəxr ilə çavab verirdilər.

Hyrrijjət mejdanьnda 26 Qommunar qəbirləri janьnda rəsm keciddən sonra nitqlər başlandь. Nitqlər bitdikdən sonra dəstələr jenə də nizam ilə myəjjən jerlərinə tərəf jeriş etməjə yz qojdular. Mən xəbər dutdum ki, Sona xala aqşam qadьnlar qlubunda tərtib olunmuş jьqьnçaqda olaçaqdьr. Aqşam olduqda Sona xala ilə göryşmək məqsədilə qadьnlar qlubuna getdim. Salona daxil olduqda Sona xalanь kyrsydə nitq söjləjən gördym. Sona xala dejirdi:

— Baçılar! sözümü qurtararaq deyirəm: Biz indiyə kimi barama içində dustaq yatan ipək qurduna bənzərdik. O əlsiz, ayaqsız, gözsüz qurda topal deyərlər. Axırda o topal qanadlanıb pərvanə olar, baramanı deşib işıqa çıqar. Biz dilsiz, aqılsız topalları da əsarət zənçirini qırıb işıqlıqa çıqaran Oqtyabr inqilabı yaşasın, bir də yaşasın.

Sürəkli alqışlar ilə Sona xala kürsüdən endi. Mən onunla göryşdüm, dərdini mənə söylədi. Axırda bir ah çəkərək dedi:

— Kaş oğlum Bəşir saq olaydı, bu azadə qadınları görəydi.

1926

ZARAFAT

Şaki qırq yaşlı bir aqtiyor idi. 15 yaşından başlamış gönüllü sifətilə teatrolarda, müsamirələrdə iştirak etmişdi və hər növ əziyyətə qatlaşıb indi isə 25 illik sə'y və zəhmətilə iqtidarlı bir aqtiyor olmuşdu. Yoldaşları Şakinin xatırını istərdilər, onunla zarafat etməyi sevərdilər. Lakin Şaki son zamanlarda çox əsəbi olduğuna görə zarafatdan xoşu gəlməzdi, inciyirdi. Yoldaşları isə buna baxmayaraq zarafatlarını, daha da şiddətləndirirdilər.

Şaki nənəsi ilə bərabər bir balaça otaqda yaşardı. Püstə nənə 70 yaşlı bir qarı idi. Çoçuqluqdan yetim qalmış nəvəsi Şakini bəsləyib böyütmüşdü. O Şakini çox istərdi. Yalnız birçə narazılığı Şakinin aqtiyorluq etməsindən idi. Dindar qarı çox sə'y etdi ki, nəvəsini bu işdən daşındırsın, ançaq baçarmadı. Bu əməl üstə Şakinin axirətdə çəhənnəmdə yanmasına bərk inanmışdı, ona görə məhərrəmlikdə təkyə saqlardı, ildə bir ay əvəzinə üç ay oruç dutardı. Məsçidə, pirə, seyidə nəzr edərdi ki, bəlkə allah onun taqsırından keçə. Püstə nənə mətbəxdə yatardı. Hər geçə Şaki teatrodan gələnə kimi ayıq qalıb onun yeməyini hazır edərdi, sonra özü rahat olardı. Axır vaqtlar Şaki yuqudan qalqıb öz-özünə danışardı, gözlərinə dürlü-dürlü şəkillər görünüb qışqırardı. Bu zamanlar Püstə nənə otaqa gəlib deyərdi:

— Görürsən? Baq, allahın qəzəbi səni dutmuş, tövbə elə, jola gəl, bu şejtan sən'ətini buraq.

— Nənə, get rahat ol. Mənə hec zad olmamış. Mən öz rolumu öjrənirəm. Qarışqırmaqıma fikir vermə.

Belə sözlərlə Şaki Pystə nənəni sakit edərdi.

Pystə nənənin tərbijəsi altında böjymyş Şaki mevhumatdan hələ bysbytyn özyny xilas edə bilməmişdi. Bunu aqtijor joldaşları bilirdilər.

***

Bir dəfə Şaki teatroda olduqu zaman joldaşları zarafat ycyn qəfəs icində bir papaqanı (tutu quşu) gətirib onun otaqında gizlədirlər. Şaki geçə jarısı mənzilinə gəlir. Pystə nənənin jemək hazır etdijini göryb dejir:

— Nənə, hec zad jeməjəçəjəm, sən get rahat ol, mən də jorulmuşam tez jataçaqam.

Pystə nənə gedib jatır, lakin Şaki nə qədər sə'j edirsə də jata bilməjir. Öz-özynə söjləməjə başlajır:

— Ah, jenə bu fikir bejnimi dəlir, məni bir az rahat qojmajır. Mən kiməm? Nəjəm? Nə ycyn jaranmışam? Axırda cyryjyb bir avıç topraq olmaq ycynmy? Insana bu məşəqqət, bu əzijjət, bu çəfalar nə ycyndyr? Jejərmiş, icərmiş, jatarmış, durarmış. Insanda bu ədavət, bu rəzalət, bu kin-kydurət, bu byxl-həsəd nə ycyndyr? Bir necə il ömr syrəçək insana, bu toplar, tyfənglər, nizələr, oqlar, partlajan bombalar nə ycyndyr? Həq birdir əgər bu mysəlman, bu xristijan, bu gəbr, jəhudi nə ycyndyr? Ah, bu fikir bejnimi deşir, mənə bir an rahatlıq verməjir... Kyreji-ərz jarandıqdan bəri tarixi-bəşər qan, çinajət ilə tam doludur. Ej özy gizli,

adı haq, çihanda olaçaqmıdır elə zaman ki, insan daha qan tökməjəçəkdir?

Bu halda papaqan Şakinin səsindən ojanıb bu öjrəndiji kəlməni dejir:

— Joq, joq, joq.

Bunu eşitdikdə Şaki hejrət və tələş ilə qalxır. Yrəji elə bərk döjynyr ki, səsini özy eşidir. Su tökyb icir, nihajət başını dutaraq otaqda dəli kibi gəzməjə başlajır.

— Mən ja dəli olmuşam ki, qulaqıma səs gəlir ja da ki, həqiqətən qejibdən «joq» çavabını aldım. Demək insan qan tökməkdən ötry jaranmış?

Papaqan—Bəli, bəli, bəli!—dejə qışqırır. Bunu eşitdikdə xəstə aqtijor həqiqi dəli kibi elə bir dəhşətli qəhqəhə çəkir ki, bytyn qonşuları juqudan ojadır. Sonra jerə jıqılıb yrəji gedir. Pystə nənə bu səsdən diksinib jerindən qalxır və çəld özyny otaqa atır. Şakini jerə sərilmiş göryb qışqırıq salır. Qonşular onun harajına çəm olurlar və coq sə'jdən sonra Şakini özynə gətirirlər.

1926

IKI DOST IKI DYŞMAN

Avqustun isti gynlərindən biri idi. Mədəncilərin istirahət evində nahardan sonra xəstələrin bir taqьmь baqcada kəlgəli aqaçlarьn altьnda oturub səhbət edirlərdi. Bunlardan Rəhman adlь bir işçi vətəndaş myharəbəsində zyhur etmiş bir vəq'əni joldaşlarьna naqьl edirdi. Onlar da oturub artьq diqqətlə onu dinləjirlərdi. Bu dəmdə istirahət evinin həkimi əlində qəzet, odasьndan cьqьb baqcaja gəldi. Onu gərdykdə Rəhman səsini kəsdi.

— Joldaşlar, nə ycyn istirahət evinin qanununu pozursunuz? Taxtьnьzda uzanьb rahat olmalьsьnьz—dejə həkim onlarъ məzəmmət etdi.

Qoça işçi Salman dedi:

— Joldaş Fəxrəddin, biz sykutu pozmajьrьq, juqumuz da gəlməjir. Joldaş Rəhman vətəndaş myharəbəsindən qajət maraqlь şejlər səjləjir, rəça edirik ona mane olmajasьnьz.

Həkim izn verdi. Өzy də sqamjada oturub qəzet oqumaqa məşqul oldu. Rəhman naqьl etməjə başladь. Səjlədiji doqrudan da maraqlь şej idi. Hətta Fəxrəddinin də fikrini çəlb etmişdi. O qəzet oqumaqь buraqьb dinləjirdi. Rəhman naqьlь bitirdi. Araja bəhs dyşdy. Çavan işçi Nijazi dedi:

— Jəqin oqlu atasьnь əldyrdykdə kim olduqunu bilməmiş.

Qoça Salman dedi:

— Burada təəççybly bir şej joqdur. Vətəndaş myharəbəsində belə ittifaqlar coq olmuşdur. Ata oqulu, oqul atanь, qardaş qardaşь əldyrmyşlər.

— Nijazi bu ildən firqəjə namzəd jazьlmьşdьr, onda qommunizm qajəsi hələ məhkəmləşməmişdir, onun ycyn də şybhə edir.

— Joldaş Mərdanьn bu səzynə mən də şərikəm —dejə Fəxrəddin təsdiq etdi.

— Vətəndaş myharəbəsi qejri myharəbələrə bənzəməz. Bu sьnьf myharəbəsi, məfkurə mybarəzəsidir. Burada ata, oqul, qardaş, hərgah başqa-başqa məsləklərə mənsub isələr, adi bir dyşmandьrlar.

— Qommunizmi dərin dyşynsəniz, onun qajəsini jaqşь anlasanьz ata, ana, qohum, dost-aşina hissi sizə qalib gəlməz. Indi izniniz ilə mən də başьma gələn bir vəq'əni səjləjim...

— Səjləjin—dejə rəça etdilər.

Işcilər onun əski bir qommunist olduqunu bilirdilər. Həkim qutusunu cьqarьb papirosunu jandьrdь, cəkdi. Sonra hekajəjə şyru edərək dedi:

— Səjlədijim ajdьn olmaq ycyn bir kecmişə əl atmalьjam. Mən kəndli evladьjam. Kəndlinin əlində bir parca əkin jeri olar, onu beçərib məhsulu ilə əz coluq-coçuqlarьnь açlьqdan saqlar. Mənim atam Səfərəlinin elə bir parca jeri də olmamьş. Həsənqulu-aqaja rənçbərlik edərək min məşəqqət ilə əz ailəsinə cərək qazana bilmiş.

Həsənqulu-aqa tyndməzaç bir mylkədar idi. Atam ondan artьq əzijjət cəkərdi. Anam da aqalьqda qaravaş idi. Binəva gəz jaşьndan başqa, xanьmlardan bir hədijjə almazdь. Mənim də vəzifəm aqalьq qapьsьnda kətək jemək idi. O vaqt mənim doqquz jaşьm var idi. Bir ittifaq mənim bu dəjyş-

-səjyşymyn qabaqьnь almaqa səbəb oldu. Həsənqulu-aqanьn evladь joq idi. On jaşьnda qardaşь oqlu Şahbaz bəj onun vahid varisi idi.

Bu uşaq atasьz, anasьz bir jetim idi. Şəhərdə lejli məktəbdə tərbijə alьrdь. Naqьl etdijim il jaj tə'tili mynasəbətilə Şahbaz əmisigilə gəldi. Nəkərlər, qaravaşlar onun başьna fьrlanьrdьlar. Nə etsinlər? Gələçək səadətləri onun əlində idi. Şahbaz özy həlim bir coçuq idi, lakin jeri gəldikdə həkmyran bir sьnьf yzvy olduqunu byruzə verirdi. Birinçi qədəmdən biz dostlaşdьq, birlikdə ojnardьq, birlikdə gəzərdik. Şahbazьn qorqusundan hec kəs məni inçidə bilməzdi. Onun bu bəjyk jaqşьlьqьnь mən hec bir vaqt unutmam. Şahbaz həmin jaj mənə rusça əlifbanь öjrətdi. Bu isə gələçək səadətimə səbəb oldu. Amma Həsənqulu-aqanьn xьlafi-rə'ji idi. Jalьnьz Şahbazьn xatirəsi ycyn bir söz deməjirdi. Bir ittifaq mənim məhəbbətimi Şabhaza daha da artьrdь. Bir gyn cajda cimərkən dərin jerə dyşyb boqulurdum. Şahbaz özyny atьb məni cьqartdь. Onun özy jaqşь yzmək bilməjirdi. Bu isə dutduqu əməlini bir qədər də qijmətləndirirdi.

Jaj bitdi, Şahbaz oqumaqa getdi. Bizim ycyn jenə məşəqqət gynləri başlandь. Atam buna səbr etməjib şəhərə köcdy. Bir myddət işsiz qaldь. Axьrda neft zavodunda fə'lə oldu. Gərək Salman əminin jadьna gələ.

— Bəli, bəli, jaqşь jadьmdadьr.— dejə Salman təsdiq etdi.

— Tyrkdə bir məsəl var, dejərlər: «jaqьşdan cьqdьm jaqmьra dyşdym» biz də Həsənqulu-aqanьn zylmyndən xьlas olduq, zavod sahibi haçь Səlimin cəngəsinə dyşdyk. Axьrda atamьn sol qolunu maşьn kəsib atdь, azarxanaja dyşdy. Atam nə qədər azarxanada idi, haçь Səlim onun məvaçibini

kəsməjirdi ki, şikajət etməsin. Saqalandan sonra bir şej verməjib atamь kycəjə atdь. Məhkəməjə dyşdylərsə də, nəticədə məhkəmə işi zavod sahibinə tərəf kəsdi. Əlil atam aralьqda xьrdavatcьlьq edərək artьq əzijjət ilə gyndəlik cörejimizi qazana bilirdi. Burada mən məktəbə daxil olub sonra «Məarif» çəmijjətinin jardьmi ilə orta təhsil bitirərək Leninqrada getdim. Orada darylfynunun tjibb fakyltəsinə girdim. Şahbaz bəj ilə göryşdyk. Əski dostluqumuz jenə təzələndi. O vaqt Şahbaz inistitutda me'marlьq oqujurdu. Məni Şahbaz bəjdən ajьran bir şej var idisə, o da sьnьf ajrьlьqь idi. Get-gedə bu ajrьlьq dərinləşirdi. Mən orta təhsildə oqujan zaman bolşevik firqəsinə girmişdim. Buraja gəldikdə firqə təşkilatьnda calьşmaqa başladьm. Bunu Şahbaz bilirdi. Bir dəfə bu barədə mybahəsəmiz oldu.

— «Qommunizm utopjadьr»— dejə Şahbaz mən ilə bəhs etdi.

— Proletariat həkymət qurmaqa qadir dejil, o vurar, daqьdar, bəlkə də padşahlьqь jьqar, lakin yc gyn də olsa həkymət apara bilməz...

— Nə ycyn?

—...Cynky tarixdə işci-kəndli həkymət syrdyjy görylməmişdir.

— Görylməmişdir, indi isə görylər— dejə mən çavab verdim.

— Sən bir coçuq kibi bəhs edirsən— dejə Şahbaz hajqьrdь.

—Şahbaz, hirslənmək lazьm dejil, mənə məntiqli sybutlar gətir. Kecmişdə coq şejlər görynməmişdi, indi görynyr. «Tarixdə görynməmişdir. ona görə olmaz» bu bir dəlil dejil ki, sən gətirirsən. Mənçə sən həqiqəti gizlədirsən, qəlbindəkini acьb demə-jirsən.

— Mən nəji gizlədirəm?— dejə Şahbaz sordu.

— Sən həkym syrən bir sьnьfa mənsubsan, aqalьqdan dyşmək istəməjirsən, mətləb buradadьr.

— Doqru dejirsən, fəqət mən fikrimi gizlətməjirəm; cynky ajdьn inanьram ki, həkymət siz qommunistlərin əlinə dyşsə insanlarь bəjyk fəlakətə salaçaqsьnьz. Iş silah gyçynə gəlirsə, məni öz sьranьzda joq, myqabilinizdə gərərsiniz.

Bu bəhslərdən sonra mən Şahbazdan cəkilməjə başladьm.

Bir geçə firqə joldaşьmьzьn mənzilində gizli myşavərə edirdik. Qəflətən qapь dəjyldy. Biz təşvişə dyşdyk, kim isə məni səslədi. Qapьnь acdьq. Şahbaz içəri girib dedi:

— Tez olun kaqьzlarьnьzь tələf edin, zandarmalar gəlirlər...

Biz çəld kaqьzlarь sobaja atьb jandьrdьq. Bir azdan sonra zandarmalar evi ihatə etdilər. Içərijə soqulub aramaqa başladьlar. Ələ hec bir şej dyşmədi. Zandarmalarьn biri Şahbaza diqqətlə baqьb dedi:

— Bu studenti mən buraja gələn gördym. Jəqin bunlara bizim gələçəjimizi xəbər vermiş.

Şahbazь dutub apardьlar. Hərcənd əldə bir sybut joq idi, mən jenə təşvişə dyşdym. Şahbazь bir geçə həbsdə saqlajьb buraqdьlar. Mənim ilə göryşdykdə gylərək dedi:

— Həkymət əlejhinə işləjənlər siz, həbsə alьnan mən. Bu ittifaq joldaşlar arasьnda Şahbazьn ehtiramьnь artьrdь. Mən ycynçy qursda olanda ata və anam vəfat etmişdi. Sağ qalan baçьm Tahirə idi. O da ali ibtidai məktəbi bitirmişdi. Onu hazьrlaşdьrьb özym ilə Petirburqa gətirdim, mamacalьq qursuna qojdum.

Şahbaz Tahirəni tez-tez teatrolara, qonsertlərə apararդь. Onun namuslu bir çavan olduqu mənə

mə'lum idi. Ona görə də baçьm ilə gəzmələrinə mane olmazdьm. Get-gedə Şahbaz ilə Tahirə aramasьnda məhəbbət törədi. Bunu bildikdə qorquja dyşdym; cynky bunlarьn evlənməsi qejri-mymkyn idi. Hərgah Şahbazьn özy və əmisi Həsənqulu-aqa da Tahirə'j versejdi, mən razь olmazdьm. Ona görə Tahirəni ondan ajьrьb göryşməjini qadaqan etdim. Bu ittifaq bizim dostluqumuzu pozdu. Tahirə mamacalьq qursunu bitirib vətəninə qajьtdь. Bu vaqt Fevral inqilabь başlandь. 4-çy qurs tibb tələbələrinə şahadətnamə verib Almanja çəbhəsinə göndərdilər. Göndərilənlər sьrasьnda mən də var idim. Çəbhədə əsgərlər arasьnda bolşivizm və myharəbəni jatьrmaq propaqandasь apardьqьm ycyn məni dutub həbsxanaja saldьlar. Oqtjabr inqilabь məni həbsdən azad etdi. Sonra vətəndaş myharəbəsi başlandь. Yc il Sibirdə, axьrda çənub çəbhələrində Qьzьl ordu icərisində həkimlik vəzifəsini içra edirdim. Ijirminçi ildə Qьzьl ordu ilə Azərbajçana daxil olduq. Ijun əks-inqilabi isjanda mən hərbi lazaretdə həkimlik, baçьm Tahirə isə şəfqət baçьsь vəzifəsini ifa edirdi. Baçьm Tahirə joldaş Nijazi kibi həmin il bolşevik firqəsinə namzəd olmuşdu. Bir gyn jaralьlara baqьb jeniçə odama girmişdim ki, bir qədər istirahət edəm, Tahirə daxil olub dedi:

— Jeni bir jaralь gətirmişlər, gəl baq,

— Jaqşь, get bu saat gələrəm—dedim.

— Xəstənin jarasь aqьrdьr, hər dəqiqəsi xətərlidir—dejə baçьm jalvarьçь bir nəzərlə yzymə baqdь. Qalqьb getdim. Jaralь bihuş idi. Yzyndən qan qaçьb mejit rəngini almьşdь. Jarasьna diqqətlə baqdьqda xətərsiz bir jara olduqunu bildim, lakin xəstənin bədəni qajət zəif idi. Jeni azardan durmuş adamьn vyçuduna bənzəjirdi. Jaranь jujub baqla-

dьm. Sonra ymumi odaja almaqь əmr etdim. Bu vaqt baçьm mənə jaqlaşьb javaş dedi:

— Xəstəni tək odaja qojmaqь əmr et.

— O nə ycyn?

— Sonra dejərəm.

Mən xəstəni xysusi odaja aparmaqь əmr verib mənzilimə qajьtdьm.

Tahirənin jaralьja tə'çili surətdə baqmaq tə'kidi, myəmmalь təklifi məni şybhəjə salmьşdь. Burada bir sirr var—dejə fikrə getdim. Aradan on dəqiqə kecmiş Tahirə də daxil oldu.

— Jaralьnь tanьdьnmь?—dejə sordu.

— Joq kimdir?

— Şahbaz bəj...

Məni hejrət gətyrdy. Dərt il icərisində nə qədər dəjişiklik... «Qommunizmi silah gyçy ilə jyrytmək istəsəniz, məni sьranьzda joq, myqabilinizdə gərərsiniz» sözy jadьma dyşdy.

— Şahbaz bəj kəpryny dinamit ilə ucurmaq istədikdə, qaravulcu əsgər gyllə ilə vurmuş—dejə Tahirə ilavə etdi.

— Xəstənin halь indi neçədir?

— Huşə gəlmiş, ançaq bəhran icindədir.

— Hərarəti necədir?

— 39,5

— Həkimlərdən kim baqьr?

— Joldaş Ivanov.

— Gedək—dejə qalqdьm.

Qəlbimdə bir iztirab ilə Şahbazьn janьna gəldim, nəbzini aldьm.

— Jəqin malareja ilə xəstələnmiş. Indi də bu hərarət onun hərarətidir.

— Jararsьndan hec bir qorqu joqdur. Kaş aqьr bir əldyryçy jara olajdь.

— O nə ycyn?—dejə Tahirə iztirab ilə sordu.

— Qьzьl ordu ilə myharəbə edən əks-inqilabcь aqanьn, kəpry daqьtmaqa qəsd edən bir myhəndisin çəzasь nə ôlduqunu bilirmisən? Bunu eşitdikdə Tahirənin rəngi yzyndən qacdь. Əski məhəbbət qəlbindən hələ cьqmadьqьnь byruzə verdi.

— Xəstəjə baqmaqa joldaş Ivanov kimi tə'jin etmiş?

— Məni.

— Sən jaramazsan.

— Nə ycyn?

— Məsləhət belədir. Get baçь Marqovanь göndər.

Tahirə mə'jus və pərişan odadan cьqdь. Bir azdan sonra Şahbaz gəzlərini acdь. Zəif səslə sordu?

— Mən haradajam?

Mən sandalja alьb janьnda oturdum. Şahbaz bəhranlь gəzlərini yzymə dikdi, diqqətlə baqdь.

— Fəxrəddin, mən nə ycyn buradajam?

— Şahbaz sən jaralьsan, bura da xəstəxanadьr.

— Dyşynyrəm... Dyşman əlindəjəm.

— Qəm etmə, jaran jyngyl jaradьr. Tezliklə saqalarsan...

— Sonra da gyllə qabaqьnda...

— Biz xəstə ilə myharəbə etməjirik. Daha danьşmaqa izn verməjirəm—dejə mən ajaqa qalqdьm. Bu halda Marqova daxil oldu.

—Joldaş Marqova, bu xəstəjə siz baqaçaqsьnьz. Xəstəjə jaradan artьq malareja əzijjət verir. Kinə tə'jin edirəm. Gyndə yc dəfə verərsiniz. Coq su icməjə izn verməjiniz, əvəzində caj veriniz. Mən qapьja tərəf jənəldim. Qapьdan cьqdьqda qulaqьma Şahbaz tərəfindən—iki dost iki dyşman sədasь dəjdi.

***

Şahbaz syr'ətlə saqalıtdı. Bu isə onu şad etməjirdi. Bir dəfə Marqova onun jarasına jod syrtyb baqlajıtmış. Şahbaz fyrsət tapıb jod şişəsini qapıb icmək istədikdə baçı əlindən alıt. Şahbazın halı məni dərin dyşyndyrdy. Saqaldıqdan sonra əvvəl hərbi tiribunal, sonra gyllə qabaqında. Onun ycyn niçat jolu joq idi. Məndən hec bir jardım gözləməjirdi,. cynky bilirdi ki, mən qommunizm uqrunda hər bir şejdən kecirəm, O bilirdi ki, mən onun ilə şəxsən səmimi dostam, lakin məfkurəçə dərin dyşmən. «Iki dost iki dyşmən» mə'nası bu idi.

Son zamanlar Şahbazda dəjişiklik gərynyrdy. Qəlbi acıq, danışıb gylyrdy. Hətta şuxluq tərzi ilə bəhs də edirdi:

— Fəxrəddin dedijmi gerijə alıram. Mən sizin hökm syrmənizə yc gyn vaqt vermişdim, amma siz yc ildir ki, həkymət aparıtsınız. Lakin ömrynyzə az qalmışdır...

— Sənlə mənim ömrymə catar—dejə mən çavab verdim.

***

Bir səhər nevbətci baçı qabinəmə daxil olub dedi:

— Joldaş Fəxrəddin, Şahbaz bəj odasından joq olmuş. Bu xəbəri eşitdikdə sanki başıma bir ildırım caqdı.

— Nevbətci həkim kimdir?—dejə sordum.

— Joldaş Ivanov.

— Buraja caqıtnız.

Baçı getdi. Mən bəjyk iztirabda idim. Xəjalıma dyrly-dyrly şybhələr gəldi. Ivanov daxil oldu.

— Joldaş Ivanov, xəstə Şahbaz bəj neçə olmuş?

— Joldaş mydir, hər jeri arajıb aqtarış etmişəm. Gördym dejən joqdur. Mənim zənnimçə Şahbaz bəj dynən çymə gyny qacmışdır; cynky xəstə əsgərlərin göryşynə jaqın adamları ançaq o gyny buraqılır, o da qomandanın buraqılış vəsiqəsilə.

— Fikriniz mənçə doqrudur, lakin Şahbazın janına bir kəs buraqılmamış. Buradan da mənim imzam ilə vəsiqə yzrə buraqılır, bu da olmamış.

— Şahbaz bəji buradan qacırmışlar—dejə Ivanov mə'nalı nəzərlə yzymə baqdı.

— Kim qacırmış? Bunu sizdən tələb edirəm — dejə səsimi uçaltdım.

— Onu ərkan-hərb tərəfindən tə'jin olunmuş Fevqyladə qomisijon arajıb tapar!..

Şybhəsiz Ivanov bu işdə məni myqəssir edirdi, etməjə də haqlı idi; cynky məmin Şahbaz ilə əski dostluqum, onu jyngyl jaralı olarkən ajrı odaja buraqdıqım və sonra da ona artıq diqqət etdijim, bunların hamısı mənim əlejhimə idi.

Həmin fikrə Fevqyladə qomisijon da gəldi. Qomisijon tərəfindən aparılan istintaq jeni bir şej acdı, o da çymə gyny xəstəxanadan mənim imzam ilə bir qadının dışarıja buraqılması, o qadın təqjiri-libas etmiş Şahbaz bəj imiş.

Əlbəttə qomisijon məni danışdırdıqda imza saxta olduqunu asanlıqla isbat edəçəkdim, lakin məni xof və şybhəjə salan baçım Tahirə idi. Bu ittifaq dyşəndən bəri onun ilə göryşməmişdim. Bu halda Marqova qabinəjə daxil olub dedi:

— Joldaş mydir, Tahirə dynən axşam şəhərə getmiş, indijə kibi qajıtmamış... Bunu eşitdikdə bygtyn bədənimə bir lərzə jajıldı. Tahirənin Şahbazın dalınça qacmaqı mənə aşkar oldu. Ditrək bir səslə Marqovaja dedim:

— Jəqin tanışgildə geçikib qalmışdır, gəlib cıqar. Indi vəzifəniz dalınça olunuz. Marqova getdi. Bir azdan sonra qomisijon məni danışdırdı.

— Joldaş. Fəxrəddin, çymə gyny sizin izininiz ilə dьşarьja buraqьlan kimdir? — dejə qomisijon sədri sordu.

— Ejlə ittifaq olmamьş.

— Bu imza sizindirmi?—dejə vəsiqəni mənə uzatdь. Mən alьb diqqətlə baqdьm, xətt Tahirənin olduqunu bildim.

— Bu imza mənim dejil, saxtadьr.

— Kimin xətti olduqunu bildinizmi?

— Bəli baçьm Tahirənindir.

— Bu çinajəti japmaqa Tahirəni nə və bəlkə kim vadar etmişdir?

— Əskidən Şahbaz bəjə baqladьqь və burada gəryşdykdə təzələnən məhəbbət.

Bu barədə mən myfəssəl mə'lumat verdim. Qomisijon bir neçə sual çavabdan sonra istintaqь bitirdi.

***

Mənim ycyn hərbi məhkəmə quruldu. Qomisijona verdijim şəhadəti burada təkrar etdim. Bu vaqt məhkəmə sədri:

— Şahidi gətirin—dejə əmr etdi.

Baçьm Tahirə daxil oldu.

Sədr—vətəndaş Tahirə, bu iş barəsində nə bilirsiniz? Söjləjiniz.

Tahirə—saxta vəsiqəni imza edən, Şahbaz bəji öz libasьma gejindirib qacьrdan mənəm. Sonra mən özym də japdьqьm çinajətdən qorqub qacdьm. Indijə kibi şəhərdə gizlənmişdim. Qardaşьmь myqəssir etdijinizi bilib gəlmişəm. Qardaşьmьn bu işdə hec bir əlaqəsi və xəbəri joqdur, hamьsьnь mən tək özym etmişəm.

Sədr—Şahbaz bəji qacьrtmaqdan məqsədiniz nə idi?

Tahirə—onu əlymdən xьlas etmək.

Sədr,—nə ycyn?

Tahirə—mən onu sevirəm.

Sədr on dəqiqə tənəffys e'lan edib yzvlərlə myşavərə odasьna getdilər.

Bu zaman Fevqyladə qomisijonun sədri janьma gəlib dedi:

— «Joldaş Fəxrəddin, mən istintaq apardьqьm zamandan sizin bu işdə myqəssir olmadьqьnьza inanmьşdьm. Lakin şybhəjə salan imzanьz idi. Onu da eqspetrlər tədqiq edib ajdьna cьqardьlar. Baçьnьzьn joq olmasь qomisijon yzvlərinin bir neçəsini şybhəjə salmьşdь. Indi o da ajdьnlьqa cьqdь.»

Bu vaqt sədr yzvlərlə məhkəmə salonuna daxil oldular. Sədr məhkəmənin qət'namasьnь oqudu. Mən azad olub Tahirə həbsə alьnьb jeni məhkəmə qurulaçaqьnь e'lan etdi. Lakin binəva baçьm jeni məhkəməni gərmədi. Qət'nama oqunduqdan sonra özy ilə gətirdiji sylejmanь icib jerə jьqьldь. Saqaltmaq mymkyn olmadь. Çanьnь Şahbaz bəjə baqladьqь eşqə fəda etdi.

1927

MYALƏÇƏ

Mənim rəfiqim hər çihətdən jaqşь bir insandьr, lakin atalarьmьz: «Ejibsiz gəzəl olmaz» demişlər. Mənim də rəfiqimin birçə ejbi vardьr, o da qajət əsəbidir. Əslinə baqsan, bu da ejib dejil, modalь bir xəstəlikdir.

Ilk jbaharьn sonunda rəfiqim təbiblərdən bir qonsiljom japdьraraq xəstəlijinə carə diləmiş. Həkimlər ona belə bir myaləçə təklif etmişlər: Bu yc aj jajь gəzəl ab-havalь və az şənlikli bir kənt tapьb orada jaşamaqь sizə məsləhət göryryk. Bilmərrə oqu, jazь ilə məşqul olmajaraq vaqtьnda jejib, vaqtьnda istirahət etməlisiniz. Umudvarьq ki, belə bir myaləçə ilə xəstəlijiniz sizdən dəf' olar.

Rəfiqim Azərbajçan kəndlərini bir-bir nəzərdən kecirtdikdən sonra baçьsь jaşadьqь kənddə dajanьr. Jaj fəsli girdikdə baçьsьna bir məktub jazьb həkimlərin qərarьnь ona bildirir. Bir necə il sevgili qardaşьndan ajrь dyşmyş baçь xejli şadlьqla mə'lum edir ki; «qardaş durmajьb tezliklə gələsən və özyn ilə hec bir şej gətirməjəsən; cynky hər şejimiz vardьr».

Bu xəbəri aldьqdan sonra rəfiqim baçьsьnьn qabaqlamasьna baqmajaraq, öz adəti yzrə jorqan-döşək, purzunlu carpajьdan dutmuş diş fьrcasьnadək malaqan furqununa doldurub jola dyşdy.

***

Furqun ilə səjahət etmək ləzzətini qələmə almaqdan vaz kecirik; cynky hər bir azəri oqlu əmryndə

bir dəfə də olmuş olsa o «ləzzəti» cəkməsinə şybhə etməjirik. Bundan ilavə doqrusu o səjahəti lajьqьnça təsvir etmədə özymyzy açiz göryryk. Ançaq bunu ilavə etmək istəjirik ki, furqun ilə səfər edən şəxsə mənzil başьna catan kibi «sym sykut» oruçu dutmaqь əmr bujurmuşlardьr. Danьşmaq istəjənlər lallarьn barmaq ysuli ilə danьşmalarьna bələd olmalьdьrlar; cynky adi dil ilə danьşdьqda elə bir dil mejdana çьqьr ki, onu anlajan bir dilci bu bəjyk dynjada hələ tapьlmamьş. Rəfiqim birinçi dəfə furqun ilə səfər etdijinə görə (coçuqluqda etdiji səjahəti hesaba almajьrьq) «sym sykutu» pozub furquncn malaqan ilə danьşmaq istəmiş, lakin iki kəlmə deməjə myvəffəq olmamьş, o da belə surətdə: «...i hьqq, van... vaj, da... oji... ji...»

Neçə ki, göryrsynyz rəfiqim ançaq «Ivan dajь» dejə bilmiş ki, o da furqoncunun adьdьr. Rəfiqim «i» həçasьnь dedikdə furqun daşa doqunaraq mətləbə dəxil olmajan bir «hьqq» kəlməsi mejdana cьqьr. «Van» dedikdə araba jьrqalanьb rəfiqimin pensinəsini jerə atьr o da daş ystə dyşyb parca-parca olur. Bu vaqt rəfiqimdən bir «vaj» nidasь cьqьr. Dalьnça furqun cuqura dyşyb rəfiqimi juqarь elə atьr ki, bicarənin başь kibitqaja doqunub əzilir və «uj»... etməsinə səbəb olur. Indi özynyz də göryrsynyz ki, «sym sykutu» pozanьn cəzasь nə qədər bəjyk imiş.

Gynəş daqlara enən zaman Ivan dajьnьn «avtomobili» gurultu ilə kəndə varid olur. Rəfiqimin pişvazьna cьqmьş bir syry baçьsь uşaqlarь «Dajьm gəldi» dejə arabanь ihatə edir. Rəfiqim isə furqunun icindən isti paltosunu, qaloşunu gejib şarfьnь bojnuna dolajьr və cətiri əlinə alьb xejli vyqar ilə arabadan enir. Coçuqlar onun ətrafьnь ihatə edirlər.

— A, qьrьlmьşlar nə coqsunuz? Sizi yrkytməsək sanamaq olmaz. Coçuqlar gylyşyrlər.

— Həsən necə qardaşsınız?

— Dajı çan bizə jeddi qardaş dejərlər. Hamımız qulluqunda hazırıq, əmrini gözləjirik.

— Onda şejlərimi gətyryn gedək.

— Bu saat dajıçan,—dejə Həsən furquna qalqıb şejləri bir-bir endirir.

Jeddi qardaş jyklənəndən sonra furqunda rəfiqimin bir məfrəş jorqan-döşəji, camadanı və carpajısı qalır.

— Uşaqlar gedək, jerdə qalan şejləri də gəlib Ivan dajı ilə gətirərsiniz—dejə rəfiqim karvanın başını çəkir. Bu vaqt rəfiqimin baçısı jeddi jaşar qızı Gylnaz ilə darvazanın aqzında durub qardaşını gözləjirdi. Onun qorqusu bu şimarıq coçuqda idi; cynky jeddi qardaşın bu tək baçısı və özynyn son beşiji coq əzizlənib azada bəjymyşdy.

— Baq qızım dajın xəstədir, səs-kyj sevməjir, gərək bilmərrə nadinçliji atasan. Onda dajın sənə coq şej alar, səni də sevər. Bu halda jykly qardaşlar həjətə daxil olurlar. Gylnaz dajısını isti paltona və şarfa byrynmyş göryb qəhqəhə ilə gylməjə başlajır.

— Nejə gylyrsən, a şejtan qız...—dejə rəfiqim soruşur.

— Belə sənə gylyrəm, qoj gedim evdən jorqan gətirim, byryn.

Gylnazın bu sözlərinə gylyşyrlər. Rəfiqimin baçısı onun bojnuna sarılaraq:

— A qardaş, Gylnaz demişkən, bu istidə nə ycyn belə byrynmysən?

— Baçı, halımı hec sorma, lə'nət malaqan furqununa da, ona minənə də, jolda mənə bir qədər soyuq dəjmiş və furqun da məni elə əzmiş ki, ajaq ystə durmaqa taqətim joqdur—dejərək rəfiqim şikajətlənir.

— Gəl icəri sojun, rahat ol, qorqma buranın elə havası vardır ki, ajaqsız gələn ajaqlı qajıdar. Nə ycyn özynə jyk edib bir belə şej gətirmisən? Mən səni xəbərdar etməmişdimmi?—dejə baçısı soruşdu.

— Anaçan dajımın şejinin coqu furqunda qalmış—dejə Həsən gylyr.

— A baçı, özyn bilirsən ki, mən coq vasvasıjam... Gərək öz jorqan-döşəjimdə jatam ki, rahat olam.

— Hələ səni bu gynə salan o dejilmi? Gəl icəri sojun, ajaqlarını isti su ilə jujum, rahat ol.

Rəfiqim və baçısı palas ilə döşənmiş otaqa daxil olurlar.

— Baq, bu otaqı sənin ycyn hazır etmişəm. Bir adam buraja girib çıqmajaçaqdır; uşaqların gynləri baqda, bostanda kecir, qulaqların bir səs eşitməjəçəkdir—dejə baçısı rəfiqimi arxajın edir.

Rəfiqim jujunub, camaşırının dəjişinçə jeddi qardaş anaları ilə bərabər onun otaqının döşəjib, purzunlu carpajısını qururlar, rəfiqim də sojunub jerinə girir və səfərin şiddətli əzijjətindən jorqun dyşdyjynə görə tezçə juqlajır.

Jeddi qardaşın anaları:

— Baq dajınız jatmış, səs olmasın,—dejə uşaqların onun otaqından uzaq edir.

***

Aradan təxminən bir saat kecmiş gynəşin son zərrələari yfyqdən qajib olduqda, «qızıl» inək darvazanın aqzında elə bir böjylty salır ki, sanki imdad bəkləjən bir vapor baqırır.

— Aj uşaqlar tez qapını acıb inəji icəri salın, joqsa dajınız bu saat juqudan ojanar—dejə anaları baqırır.

Uşaqlar qızıl inəji icəri buraqıb balasını janına salırlar ki, səsini kəssin. Əfsus ki, bu tədaryk səmərəsiz qalır; cynky inəjin birinçi mələməsindən

rəfiqim jerindən dik atılıb qalqır və dejir: «budur kənd məişətinin ləzzəti» başlanır.

Rəfiqimin baçısı qardaşının balqonda gəzən göyrüb badjada köpüklənən syd ilə icərijə girir.

— Coq jaqsı vaqt durmusan qardaşım, cajımız hazırdır.

— Mən özüm durmamışam baçım, sizin azancının durduzmuş—dejə rəfiqim ah çəkir.

Baçısı gülərək:—Sənə söz verirəm ki, sabahdan bir də o azancının səsini eşitməjəçəksən. Hər səhər, aqşam sənə bu jeni saqılmış syddən verəçəjəm, icərsən, gör bir ajın ərzində kökəlib janaqların neçə lalə kibi qızaraçaqdır. Bunu dejə rəfiqimin baçısı otaqa girib cıraqı jandırır və sonra badjanı syd ilə jerə qojub kasa gətirməjə gedir və syddən bir qədər kasaja doldurub qardaşına uzadır ki:

— Al bunu ic!

— Baçı, toqda, də görüm bu sydy neçə saqmısan?

— Bunun neçəsi joqdur ki, badjanı iki dizimin arasına qojub inəjin əmçəklərini barmaqlarım ilə dutub aşaqı çəkmişəm, syd də çeşmə kibi aqıb badjaja tökülmüş. Belə ki, şo'qun var, səhər saqanda gəl tamaşa et.

— Mən onun üçün soruşmadım, inəji saqan vaqt döşlüjün vardımı?

— Joq.

— Əllərini sabın ilə jumuşdunmu?

— Əllərim tər-təmiz, gül kibi, nə üçün jujum?

— Onda baçı, sənin bu sydunun icində bu saat miljonlarla miqrablar qarınça kibi qajnaşırlar. Mən onu icə bilmərəm, məni əfv edəsən; çünki buna hökimlər razı dejil.

— A qardaş, elə həkimlərin sözünə baqıb bu günə düşmüsən, vasvası olma, je, ic, gör neçə saqalarsan.

— Baçım, onlardan kecib mənim üçün caj gətir. Səhərdən mən dejən kibi inəji saqarsan, sydy bişirərsən, mən də icərəm...

***

Mə'lumdur ki, kənd əhli erkən jatıb erkən də juqudan qalqmaqı adət etmişlər, o idi ki, rəfiqim də şamdan sonra bu qanuna tabe olmaq istədi, lakin bir tərəfdən hələ erkən jatmaqa adət etməmişdi. Digər tərəfdən də qızıl inəjin səsindən həjçana gəlmiş, əsəbləri qajdasınça rahat olmamışdı. Ona görə də təbiblərin əmrindən çıqaraq oturub bir qədər kitab mütaləsinə məşqul oldu. Sonra sojunub çıraqı faraqat etdi və jerinə girib rahat olmaq istədi. Elə jeniçə juquja gedirdi ki, qulaqına inçə bir həzin səs gəldi. Fikir verdikdə görüdü, səs otaqın icindən gəlir. Getdikçə səs ona jaqınlaşırdı. Bir azdan sonra digər bir səs də ona qoşuldu. Bu anda rəfiqimin yüzünü bir şej sançdı. O çəld qalqıb lampanı jandırdı və onu sançan hərifi gördü.

Rəfiqim şəhərdən tədarüksüz gəlməmişdi. Camadanı acıb çunajını çıqartdı və yüzünü onunla örtdü ki, hünülər ona əzijjət verməsin.

— İndi hərflər «Şuri-şahnazı» başlajın—dejə rəfiqim lampanı söndürüb jerinə girdi və bir azdan sonra juquja getdi. Bu vaqt üfüqdən aj ahəstə-ahəstə çıqmaqa başladı. Boz köpək bunu gördükdə rəfiqimin pəncərəsi altında başını gəjə qaldırıb hejbətli səsi ilə ulamaqa başladı. Bicarə rəfiqim hövlnak jerindən sıçrajıb qalqdı və jenə lampanı jandırdı, sonra pəncərəni acıb baqırdı:

— Quduz dəjmiş səsini kəs.

Boz köpək pəncərədən bir qədər uzaqlaşıb jenə ulamaqa başladı. Həsən dajısının səsinə ojanıb həjətə çıqdı və bir odun qapıb boz köpəjə atdı. Odun köpəjə üçün təhər dəjdisə hejvan özünü cardaqının altına soqub uzun-uzadı zingilləməjə başladı,

axьrda sakit oldu. Lakin iş işdən kecmişdi. Boz köpəjin ulamaqьnь eşidib qonşu itlər də aqьz-aqьza verib ulaşmaqa başladьlar.

Rəfiqim jorqana byrynyb pənçərədən bu musiqini dinləjərək səjləjirdi:

— Bir az şənlikli bir kənd tapьb da orada bu yc aj jajь istirahət etməlisiniz ki, əsəbləriniz rahat olub məhkəmləşə. Bəli, əsəblərim məhkəmləşir, məhtərəm təbiblərim.

***

Geçə jarьdan kecmişdi, köpəklərin səsləri kəsilmişdi, kənd sykuta dalmьşdь. Rəfiqim ycyncy dəfə lampanь sөndyryb jerinə girdi, lakin jata bilmədi; cynky bu səfər də otaqa dөşənmiş xalьlardan birələr jerinə daraşьb onu rahat olmaqa qoimadьlar. Jenə lampanь jandьrьb paltarьnь gejdi və otaqda o baş-bu başa getməjə başladь. Axьrda taqətdən dyşyb paltarlь jerinin ystə uzandь. Jorqun bədən rahatlьq tələb edirdi. Rəfiqim nə vaqt juquja getdijini өzy də bilmədi.

Sybhyn tyluunda geçələmiş cil xoruz ojanьb uça və zil səsilə banladь:

Qu-qu-riqu

Son həjəçanь cil xoruz өzynə maxsus bir tərz ilə bitirdi. Ikinçi «qu-qu-riqu»da rəfiqim dik atьldь.

Zavallьnьn yrəji elə atlanьrdь ki, sanki bu saat partlajaçaqdьr. Rəfiqim otaqь aradьqda өz cəkməsindən başqa əlinə bir şej kecmədi, cəkmənin bir tajьnь əlinə gөtyryb pənçərəni acdь. Cil xoruzu ejvanьn syrahьsь ystə banlajan gördy. Var qyvvəsilə cəkməni cil xoruza atdь, cil xoruz qьqьltь ilə ejvandan jerə jьqьldь. Bunun səsinə tojuqlar qьşqьrьq saldьlar. Bunlarьn səslərinə qonşu xoruz-tojuqlar da qarьşdьlar, jatmьşlarь ojatdьlar.

***

Rəfiqim paltosunu gejib qaloşlarьnь ajaqьna taqaraq, ejvanda o baş-bu başa gedib dəli kibi өz-өzynə danьşьrdь. Baçьsь əlində badija qьzьl inəji saqmaqa getdikdə qardaşьnь ejvanda gördy.

— Nə erkən durmusan, a qardaş?

— Təbiblərin əmrini jerinə jetirirəm baçьm. Sizin bu gözəl kəndinizin saf havasьnь uduram, baçьm—dejə rəfiqim jenə də hirsli o baş-bu başa jeriş edirdi.

— Cөq gözəl fikrdir, qardaşьm, inşaallah bir həftənin ərzində janaqlarьn qьzarьb cьraq kibi janaçaqdьr. Baq, gөryrsən dөşymə dөşlyk taqmьşam, əllərimi də sabьn ilə təmiz jumuşam. Daha arxajьn ol—dejə baçьsь qьzьl inəji saqmaqa məşqul oldu. Bu vaqt Həsən həjətə cьqdь və dajьsьnь ejvanda gөryb dedi:

— Sabahьn xejir dajьçan.

— Aqibətin xejir baçь oqlu, ançaq bilməjirəm cil xoruzun aqibəti nə haldadьr, xejirdir ja şər.

Bu haldа Həsən cil xoruzu ejvanьn altьna girmiş gөryb dejir:

— Dajьçan, cil xoruz çanьnь sizin jolunuzda fəda etmiş.

— Demək intiqamьmь cil xoruzdan almьşam, cənbələn dəjmiş sybh tylundan məni ojadьb jatmaqa qojmamьş; gөrynyr cəkməm onu bөrk dutmuşdur.

— Dajьçan, cəkmәniz burada joqdur.

— Aqtar, gөr haradadьr?

Həsən aqtarmaqa başlajьr, axьrda cəkməni köpəjin hinində parcalanmьş tapьr. Köpək isə işi dujub həjətdən qacьr.

— Dajьçan, boz köpək cəkməni parcalajьb bu hala salmьş—dejir və cəkməni göstərir.

— Demək boz köpək də məndən intiqamını almış. Həsən bu geçə bütün kəndiniz mənə müharəbə e'lan etmişdi, düzü özümü məğlub sanıram. Ona görə də hərb meydanından qaçıram. Caj içəndən sonra gedib karvansaradan Ivan dajını buraja çağırarsan.

— Nə üçün dajıçan?

— Mənə lazımdır.

— Baş üstə dajıçan. Amma cil xoruzun xatasını çəkəçəksən; çünki Gülnazın sevgili xoruzudur.

— Eybi joqdur, pul verərəm ona bir gözəl xoruz alarsan. Indisə cil xoruzu göz önündən uzaq et.

Həsən cil xoruzu aparıb bağçada basdırır və sonra əhvalatı anasına söjləjir.

Rəfiqimin baçısı caj zamanı qardaşına dejir:

— Baçın sənə qurban olsun, görünür bu geçə narahat olmusan, hər nə şej ki, səni narahat edir, söjlə hamısını rədd edim.

— Aj baçı, şair demiş:

Düşman bir olsa dəf'ini asandır ejləmək,
Vaj ol zaman ki, yz qoja dört bir kənardan.

Indi sən zavallı, bunların hansına carə edəsən: birəjə, hünüjə, köpəklərin, caqqalların ulamasına, xoruzun banlamasına və qejri, qejri...

Bu halda Ivan dajı daxil olub salamlaşır.

— Ivan dajı, hacan şəhərə qajıdaçaqsan?

Bu saat furqunu qoşub buraja gəlmişəm.

— Miniklərin varmı?

— Xajır.

— Neçə məni buraja gətirmisən elə də şəhərə qajtaraçaqsan.

— Baş üstə.

— A qardaş, nə edirsən? Belə də iş olarmı? Tanışlarımız məni məzəmmət edər ki, qardaşını bir gün də saqlamadı. Sənə baçın qurban olsun bir az

səbr et, iki günün ərzində elə öjrənəçəksən, janında top da atsalar juquдan ojanmajaçaqsan.

— Baçı, hərgah məni ölümə göndərmək istəjirsənsə qalım.

— Allah eləməsin, qardaş nə danışırsan.

— Onda mənə mane' olma..

***

Cajdan sonra jeddi qardaş dajılarının şejlərini Ivan dajının furqununa daşıjırdılar. Cil xoruzun ölümündən bixəbər Gülnaz, rəfiqim ilə bərk dost olmuşdu; çünki dajı onun üçün coq şejlər gətirmişdi. Ona görə onu buraqmaq istəməjirdi.

— Gülnaz qızım, yc ajdan sonra Həsənə jazaçaqam səni şəhərə gətirsin, orada səni məktəbə qojaçaqam, gələn jajda sənlə bərabər buraja gəlәçəjəm.

Şejlər furquna qojulduqdan sonra rəfiqim əlvida edərək furquna mindi və «sym sykut» oruçunu dutub jola rəvan oldu.

1927

NAMUS

Aqşam vaqtı idi. Ijirmi jaşlı bir gənç həjəçanlı bıqlarını gəmirərək otaqda o baş-bu başa gəzinir, öz-özünə söjlənirdi.

— Joq, daha səbr kasam dolub daşmış,... Öldyrməsəm yrəjim sakit olmaz, dyşmanlarımın tə'nəli baqışlarında, dostlarımın istehzalı təbəssymlərində bunu ajdın oqujuram. Qocu Sadıqın oqlu Rəşid, qejrətin, namusun harada qalmış?..

Gənçin anası janaşı otaqda aqşam ycyn jemək hazır edib syfrəjə qojurdu. Jarım acıq qapı arasından oqlunun sözlərini eşidirdi. Öldyrəçəji kim olduqunu dujurdu. Onu sakit etmək ycyn otaqa girdi.

— Oqlum, xörəjin sojujur, gəl otur, je—dejə anası Rəşidi jemək otaqına təklif etdi.

— Ana, sənin o duz, cörəjin, bu məmələrindən əmizdirdijin sydyn mən oqluna haram olsun.

— Aj oqul, nə dejirsən, nə ycyn belə qəzəbə gəlmisən? De görym sənə nə olmuş?

— Daha bundan bədtər nə olaçaqdır? Baçım Lejla mənim bu qejrət papaqımı o dikdaban çəkməsi altına salıb tapdalajır... Bu qədər qardaşlar tərəfindən öldyrylən baçılardan ibrət almajır. Joqsa o elə fikir edir, ki, mən Şura hökymətindən qorqub bu binamusluqu qəbul edəçəjəm? Xam xəjal... Hamı taqsır sən anamdadır...

— Rəşid, mən bədbaxt nə etmişəm?

— Onu etmisən ki, Lejlanı, o biqejrət Kamilə verməjə mən razı dejildim, sən məni vadar etdin. Dedin: Kamil oqumuş çavan oqlandır, özynyn də jaqşı qulluqu var. Onun elmi, oquduqu başına dəjsin. Mənə qejrəti, namusu lazımdır, o da ki, onda joqdur. Dejirəm, Kamil bu arvadının ipini çək, səhərdən aqşama kibi bulvarda java qızlar kibi acıq gəzib onunla-bununla mırt vurub gylyr, bizi rysvaj edir. Dejir sənə borç dəgil, arvad mənimdir, nə sajaq saqlajaçaqam, özym bilərəm.

— Oqlum, açıqın dutmasın, Kamil doqru dejir; indi hamı Lejla kibi acıq gəzir. Qorqma baçın namuslu, ismətli qızdır. O elə iş dutmaz ki, sənə, ja ərinə alcaqlıq gətirə. Oqlum qocubazlıq zamanı getdi. Indiçə asudə olmuşuq. Atan zamanı nə gyn çəkdijimizi bilirsən? Gyndyzlər dyşmanların qorqusundan rahat bajıra cıqa bilməzdik, geçələr bir hənirti gəldikdə hamımız dik atılardıq. Sən özyn kecmişdə indiki kibi belə arxajın gəzə bilərdinmi?

Belə sözlər ilə anası oqlunu sakit etməjə calışırdı. Rəşid anasının dedikləri sözdə həqiqəti hiss edirdi. Doqrudan da atası zamanı bytyn ailənin gyny qara idi. Həmişə qorqu altında jaşajırdılar. Onun özy məktəbli bir coçuq olduqu halda atasının əmrilə belinə tapança baqlamaqa məçbur idi. Baçısının gyny daha qara idi. O atasının qorqusundan, ki «sənə naməhrəmin gözy sataşar» otaqından kənara cıqa bilməzdi. Anası onu da doqru dejirdi ki, o indi Şura hökyməti zamanı arxajın gəzə bilir. Lakin sabiqdən irs qalmış tərbijənin tə'siri onda dərin kök salmışdı. Qadınların acıq və azadə gəzməjinə o razı ola bilməjirdi; cynky nadan atasından və çəmi qohum-əqrəbasından aldıqı janlış tərbijə yzyndən «acıq gəzən qadında qejrət, namus olmaz» kibi sözlərə möhkəm inanmışdı.

Anasы oqluna etdiji nəsihətin tə'sirini göryb dedi:

— Oqlum, hec vaqt unutma ki, dyşmanlarымыz atanы gudaza verən kibi səni də vermək istəjirlər. Onlarын vəsvəsəsinə inanma, bəjyk bir ailədən bir kişi sən qalmыsan. Sən də tələf olsan mən kycələrə dyşərəm. Dur oqlum, gedək xərəjin sojujur.

Anasыnы sə'ji ilə Rəşid bir qədər sakit olub jemək otaqыna kecdi.

***

Rəşidi joldan cыqaranlar atasыnын dyşmanlarы idi. Anasы Gylsym bunu jaqşы bilirdi. Onlar köhnə ədavəti unudmamыşdыlar, lakin Şura həkymətindən cəkinərək aşkar cыqыş edə bilməjirdilər. Hilə ilə Rəşidi tələf etmək istəjirdilər. Onun baçьsьnы əllərində intiqam aləti etmişdilər.

Anasыnын nəsihətindən sonra Rəşid sakit olub baçьsьna əzijjət verməjirdi. Bir ittifaq da buna daha artыq səbəb olmuşdu. Belə ki, Rəşid son zamanlarы tibb fakyltəsində təhsil alan bir jəhudi qьzьna məhəbbət baqlamьşdы. Lija adьnda bu gənç qьz qoça anasilə Lejla olan həjətdə jaşajьrdьlar. Bu kasьb ailə ançaq bu iki nəfərdən ibarət idi. Lija özy oquduqu halda myəllimələk edib xysusi dərs vermək ilə həm özyny və həm də anasьnы saqlajьrdы. Lija Lejla kibi qaraqaş, qaragöz bir qьz idi. Onlarын bədənləri, bojlarы da bir bicimdə idi. Lija tyrk dilini gözəlçə bilirdi. Lija Lejlaja rusça dərs verirdi.

Rəşid Lija ilə göryşmək qəsdilə baçьsьgilə tez-tez gəlib gedərdi. Lejla buna artыqça şad idi ki, qardaşы, ona Lija ilə gəzməjə mane olmajьrdы.

***

Rəşidin dyşmanlarы rahat olmajьrdьlar. Onlar Gylsymyn evini sahibsiz qojmaq fikrində idilər. Rəşidi tələf etmək ycyn jeni planlar cəkirdilər. Lejla-

nьn dalьnça pusqucular salьb onun hara getdijindən və nə iş dutduqundan mə'lumat toplajaraq Rəşidə adsыz məktublar jazьrdьlar, min dyrly iftiralar dyzəldirdilər. Lijanы da əllərində alət etmişdilər. Onu mysamərələrə də'vət edib Lejlanы oraja cəkmək istəjirdilər. Lakin Lejla ja getməjir, ja da gedəndə Kamil ilə gedirdi. Bu isə onlarын planlarыны pozurdu.

Axьrda bir hadisədən istifadə edərək dyşmanlar Rəşidi tələjə salьb məramlarына najil oldular. Belə ki, bir qьş geçəsi qlubda qastijumlu və rəqsli mysamərə verilirdi. Kijev şəhərindən gəlmiş Lijanьn nişanlьsы bu mysamərəjə namzədilə bərabər Lejlanы da təklif etdi, lakin o razьlьq edib gedə bilməjəçəjinə yzr istədi. Lija mysamərəjə hazьrlanaraq əntiq qastijum arajьrdы. Lejla, çehiz gətirdiji əski tyrk bicimi ilə tikilmiş ipək libasьnы ona göstərib sordu:

— Lija bu paltar jararmы?

Lija bu əski cəfgən, kyrdy katibi, byzmə darajы tumanы və qejrilərini gördykdə gözləri parlajaraq, dedi:

— Ah, nə gözəl paltardьr, mən ömrymdə belə şejlər görməmişəm. Jəqinimdir ki, mysamərədə hamынын gözy məndə olaçaqdьr.

Lija şadlьqьndan Lejlanы quçaqlajьb öpməjə başladы.

— Indi, gej görym, əjninə neçə gələçəkdir?—Lejla paltarы ona uzatdы

Lija gejdi, sanki bu libas onun bojuna bicilmişdi. Bu paltarda Lija Lejlajə o qədər bənzəjirdi ki, secmək belə olmajьrdы.

— Bəs başыma nə örtym?—dejə Lija soruşdu.

— Bu saat onu da dyzəldərəm—dejə Lejla başqa sandьqdan bir əski Iran tirmə şalь cыqarьb onun başына saldы.

Saat doqquz jarьmda Lija nişanlьsь ilə mysamərəjə getdi. Dyşmanlarьn adamlarьndan birisi oradа hazьr idi. O Lijanьn tanьşь idi. Onu belə libasda gərdykdə əvvəl tanьmadь. Sonra onun paltarьnь tə'rif edib belə gözəl libasьn kim verdijini soruşdu. Lija naqьl etdi və əfsus etdi ki, Lejla gələ bilmədi. O bir qədər Lija ilə söhbət etdi. Sonra qlubdan cьqьb getdi.

O geçəsi Rəşid anasь ilə naxoş xalasьnь joqlamaqa getmişdi. Xalasь bərk xəstə idi. Lejlajə də xəbər verilmişdi, amma o hələ gəlib cьqmamьşdь. Anasь Rəşidi evə göndərib, özy baçьsьnьn janьnda qaldь. Saat on tamamda Rəşid sojunub jerinə girdi. Geçənin bir vaqtь qapь dəjyldy. Rəşid dik atьldь. O fikir etdi ki, xalasь kecinir, onu caqьrьrlar. Paltonu cijninə atьb qapьnь acdь. Kyrkə byrynmyş namə'lum bir şəxs ona bir məktub verib çəld getdi. Rəşid otaqa qajьdьb məktubu acdь, oqudu. Rəngi qacdь. Kaqьz əlində pajьz japraqь kibi əsirdi.

— Jenə dyşmanlarьmьn iftirasьmь? Joq, bəhtana cqşamajьr... «gəl öz gözynlə gör» dejirlər. Binamus baçь. xalasь evdə çan verir, onu son göryşə caqьrьr, o qlubda aşnabazlьq edir... Ej biqejrət, baçь, əgər bu məktubda jazьlan doqru olursa, sənin sabahki gynəş zijasьnь görməjəçəjinə and icirəm— bunu dejə Rəşid çəld gejinib tapançasьnь paltonun qoltuq çibinə qojdu; qapьnь acьb kycəjə cьqdь. Hava ajaz idi. Rəşid paltonun bojnunu qaldьrьb jola dyşdy. Fikir və xəjal onu elə aparmьşdь ki, jolu azьb kycələrdə dolaşьrdь. Özy-özy ilə danьşьrdь: «Baçьmь, öldyrməjə mənim ixtijarьm varmь?» dejə özynə sual verirdi. Nə ycyn Kamil ona inanьb başьna buraqьr. Məjər onda hec namus hissi joqmu?.. Jaqşь olmazmь ki, aparьm məktubu ona göstərim... Joq əvvəl məktubda jazьlanь təhqiq etmək lazьmdьr. Rəşid başьnь qaldьrdьqda, özyny qlubun qabaqьn-

da gördy. Acьq qapьdan musiqi səsi gəlirdi. Qluba daxil olmaq istədikdə gözy qoridorda bir çavan oqlan ilə şərq libasьnda bir gənç qadьna sataşdь. Qadьn saq divara bənd olunmuş ajinənin qabaqьnda durub başьnьn tyklərini dyzəldirdi. Rəşid onun yzyny tamam görə bilməjirdi, lakin əjnindəki əski şərq libasь baçьsь Lejlanьn olduquna şybhə etməjirdi. Bu vaqt oqlan ondan ajrьlьb paltar saqlajan xidmətcinin janьna getdi. Xidmətci paltolarь qarmaqdan cьqarьb ona verdi. Oqlan paltonu alьb qadьna tərəf getdi. Onu kyrsy ystynə qojub şalь əlinə götyrdy və qadьnьn başьna saldь. Rəşidin bədəninə lərzə dyşdy. O Lejlanьn bu əski tirmə şalьnь tanьdь. Bu vaqt qapьcь gəldi. Ondan icəri girməjə də'vətnama istədi.

—Mən icəri girmək istəməjirəm, joldaşmь gözləjirəm—dejə Rəşid çavab verdi.

—Burada durmaq olmaz, kycədə gözləjə bilərsiniz—dejə qapьcь qapьnь örtdy.

Rəşid kycəjə cьqdь. Qlubun qapьsьndan bir qədər uzaqlaşьb pusquda durdu. Aradan bir az kecmiş oqlan ilə qadьn qlubdan cьqdьlar. Oqlan göz gəzdirib fajton aradь, tapmadь. Sonra qolunu qadьnьn qoluna salьb jola dyşdylər. Rəşid özyny bir darvazaja qьsьb, onlarь iləri buraqьb arqalarьnça dyşdy. Onlar tinə catdьqda durdular. Rəşid çəld bir sytunun dalьnda gizləndi. Kycədə bir kəs joq idi. Bu zaman jan kycədən fajton qaraltьsь göryndy oqlan bir qədər iləriləjib: «Fajton, fajton» dejə səslədi. Rəşid bundan istifadə edərək tapançasьnь cьqarьb özyny qadьnьn ystynə atdь. Gyllənin atьlmasь, qadьnьn jerə sərilməsi bir anda oldu. Oqlan özyny itirib qьşqьraraq qacmaqa başladь. Rəşid istədi ki, gyllənin birisini də onun başьna sьqsьn; Lija zəif bir səslə dedi:

— Rəşid nə ycyn məni əldyrdyn? Mən sənə nə etmişəm?

Tapança Rəşidin əlindən dyşdy.

— Lija sənmisən,—dejə hajqьrdь. Lakin Lijadan səs cьqmadь. cynky onun çavan əmry bir çəhalət gylləsinə qurban olmuşdu. Rəşid əjilib ona baqdь.

— Şybhəsiz zavallь Lijadьr əz əlim ilə sevdijim gynahsьz qьzь qanьna bojadьm—dejə fərjad etdi.

Gyllənin səsinə, Lijanьn nişanlьsьnьn qьşqьrьqьna, kycələrdən milislərin fitləri qalqmaqa başladь.

Rəşid qacmaq fikrində dejildi. O, baçьsьnь əldyrmək qəsdinə dyşən gyndən qət' etmişdi ki, xahişini əmələ gətirdikdən sonra əz ixtijarь ilə həkymətə təslim olaçaqdьr. O idi ki, milislər əllərində silah onu ihatə etdikdə, Rəşid qacmajьb dedi:

— Bu jəhudi qьzьnь baçьm bilib səhvən əldyrmyşəm, sizə təslim oluram. Məni milis idarəsinə aparьn ki, şəhadətimi verim—bunu dejə tapançasьnь onlara uzatdь.

Onu həbsə aldьlar. Dyşmanlar məramlarьna catdьlar. Iki qoça qadьnьn umud cьraqlarьnь səndyrdylər.

***

Beş ajdan artьq idi ki, Rəşid həbsxanada jatьrdь. Bu gynlərdə onun myhakəməsi olaçaqdь. Bu myhakəməni Rəşid bəjyk iztirab və təlaş ilə gəzlərdi. Lakin onun bu həjəçanьna səbəb qorqu hissi dejildi, onu təşvişə salan o idi ki, şajəd məhkəmədə indiki jeni nəzərlərini, dərin dyşyncələrini, onda əmələ gəlmiş bəjyk ruhani təqjirlərini son sözyndə çəmaətə lajьqьnça jetirə biləçəkdirmi? Ona inanaçaqlarmь? Ja inki işini jyngylləşdirmək ycyn bir hilə sanaçaqlarmь? Rəşid son fikirlərindən qorqmajьrdь;

cynky özyny qurtarmaq məqsədində dejildi. Bil'əks məhkəmədən özy ycyn ən aqьr çəza tələb edəçəkdi. O japdьqь silinməz çinajətdən sonra jaşamaq təmənnasьnda dejildi. Lakin əlymə gedərkən indijə kibi fəxr ilə dutduqu jolun janlьş olduqunu əz həmfikir və həmməsləki olan gənç joldaşlarьna sybut etmək istəjirdi. Onda zyhura gəldiji təqjirlər dyz və səmimi olmaqь onlara anlatmaq istərdi.

Bu təqjirlər Rəşiddə birdən əmələ gəlməmişdi. Əvvəlləri həbsxanada jatarkən sevdiji qьzь əldyrməsinin baisi baçьsьnь sanьb ona dyşmənciliji artmьşdь.

— Lijanьn əsil qatili mən dejiləm, baçьmdьr— dejə, ondan intiqam almaq istərdi. Anasьna gəldikdə ona da ədavət baqlajьb gəryşmək istəməzdi... Bu isə kəməksiz qalmьş zavallь ananьn geçə, gyndyz gəz jaşь tökməjinə səbəb olurdu.

Hər çymə gyny, başqa analar və arvadlar kibi Gylsym həbsxananьn qabaqьnda saatlarça durub oqlu ilə gəryşmək istəjirdi. Lakin nevbə ona catdьqda xəbər verərdilər ki, myqəssir anasilə gəryşmək istəməjir, hətta Rəşid anasь gətirdiji şejləri də qəbul etməjirdi. Bicarə ana həbsxananьn divarьna sökənib saatlarça yrək jaqьçь göz jaşlarьnь tökərdi. Başqa gəryşə gəlmiş analar, arvadlar onun halьna açьjьrdьlar. Zavallьnь bir tevr sakit edib evinə aparardьlar. Buna baqmajaraq Gylsym hər çymə jenə gəlirdi ki, bəlkə bu dəfə oqlu fikrini dəjişdirib, onunla gəryşəçəkdir, ja gətirdiji şejləri qəbul edəçəkdir. Umudu puca cьqardь. Onun halьna həbsxananьn qapьcьsь janьrdь.

O, bir çymə gyny Gylsymdən Rəşidin dostlarьnьn adlarьnь öjrənib belə bir hilə japdь: gələn çymə nevbə Gylsymə catdьqda qapьcь dedi:

— Ana, oqlun şejləri qəbul edir, ver aparьm.

Bicarə arvad sevindijindən özyny itirmişdi. Əllə-ri əsə-əsə qəzetə bykylmyş cajь, qəndi, papirosu və özy bişirmiş olduqu halva və kylcəni ona uzatdь.

—Oqlum, bunu Rəşidə verəndə de ki, onun dər-dindən belim bykylmyş, aqlamaqdan gözlərimin nu-ru getmiş. Bu gyn sabah bu qəm və qyssədən öləçə-jəm. Birçə mən ilə göryşsyn ki, qəbrə rahat gedim.

— Jaqşь, anam, dejərəm. Qorqma, oqlun sənin-lə göryşəçəkdir, ançaq bir az səbr ejlə. Coq çavan dustaqlar sənin oqlun kibi əvvəl vaqtlar hec kəsi görmək istəməjirlər, sonralar özləri qohumlarь ilə göryşməjə tələsirlər.

Qapьcь şejləri ondan alьb dedi:

— Indi, get ana, umudunu kəsmə.

Gylsym ondan razьlьq edib getdi. Qapьcь şejləri Rəşidə dostlarьnьn birisinin adь ilə verdi. Beləliklə qapьcь bir myddət həm anasьnь və həm də oqlunu aldadaraq, hər ikisini razь etdi.

Rəşidi həbsxanada ajrьca qameraja salmьşdь-lar. Buna, onun özy də şad idi; cynky halь elə sy-kut və təkliji tələb edirdi:

Rəşid bytyn gynləri saatlarça jerində uzanьb də-rin fikirlərə dalьrdь. Azadəlijin nə böjyk səadət ol-duqunu indi dyşynyrdy... Uça və kicik pənçərədən dyşən gynəşin işьqьnьn neçə böjyk bir ne'mət ol-duqunu indi anlajьrdь.

—Mən nə ycyn baçьmь bu iki böjyk ne'mətdən məhrum etmək istəjirdim? Bizim arvadlarьmьz, ana-dan olandan qəbrə gedənə kibi belə həbsxanalarda cyryjən dustaqlar dejildirlərmi? Insafь, viçdanь olan şəxs belə ədalətsizlijə razь olarmь?

— Acьq, azadə gəzən qadьnlarda namus, ismət olmaz... Bu fikir dyzdyrmy? Demək bytyn mədəni millətlərin qadьnlarь namussuzdur... Bu nəzərijjə

doqrudurmu? Carşaf, javalьqьn qarşьsьnь alar, bu haqlь bir tədbirmidir?

Rəşid özy-özynə belə suallar verib həqiqət hara-da olduqunu dərin dyşynçələrdən sonra arajьb ta-pьrdь. Uzun geçələr, japdьqь çinajətin qanlь mən-zərəsi gözlərinin qarşьsьnda böjyjyrdy. Sevgili Lija-şьnьn solqun dodaqlarьndan cьqan «Rəşid, məni nə ycyn öldyrdyn; mən sənə nə etmişdim?» səsləri qu-laqlarьndan cьqmajьrdь. Bə'zən də baçьsьnьn pə-rişan yzy, myztərib gözləri, anasьnьn zəif, qansьz simasь, məzlum baqьşlarь gözlərinin önyndə çan-lanьrdь. Bə'zən də juqusunda anasьnь kycələrdə di-lənən göryrkən diksinib ojanardь. Bu zaman Rə-şidin jadьna anasьnьn bu sözləri dyşyrdy.

«Oqlum, dyşmanlarьn vəsvəsəsinə qulaq asьb məni kycələrə salma, əsil biqejrətlik budur, oqlum»

Rəşid bu açь həqiqəti indi anlajьrdь.

— Doqrudan da dyşmanlarьmьn bir saxta mək-tubuna inanьb yc ailəni bədbaxt etdim, buna namus-mu dejərlər? Gynahsьz Lijanьn qoça anasьnь ky-cələrə atdьm, belə qatil baqьşlanmaqa lajьqmь? Joq, joq—dejə Rəşid suallarьna çavab verirdi.

***

Rəşid daha anasьnьn göryşyndən bojun qacьr-majьrdь. Hər çymə, gylər yzlə onu qəbul edib meh-riban söhbətlər edərdi. Ona təsəllilər verərdi. Gyl-sym oqlunun belə təqjirinə artьq şad idi. Bir dəfə Rəşid soruşdu:

— Ana, nə ycyn baçьm məni görməjə gəlməjir?

— Oqlum, səndən qorqur. Sən dutulan gyndən bəri baçьn evdən hec bir jerə cьqmajьb, geçə-gyn-dyz aqlajьr, bir an rahat olmajьr. Gördyjyn saq-lam Lejla, ərijib cöpə dönmyşdyr. Dejir:—«Qarda-şьmьn bədbaxt olmasьna bais mən oldum. Kaş o janьmda olajdь. Başьma carşaf salib evdən bajьra

cьqmaqьma izn verməjejdi. Mən onun əmrini şadlьqla qəbul edərdim».

Rəşid gylymsəjib dedi:

— Qorqmasьn, mən ilәriki Rəşid dejiləm. Bu gyndən sonra daha hec bir kəsdən cəkinməjərək acьq azadə, gənly istəjən jerə getsin. Ana, onlara çəlladlьq etdijimiz jetər, belə həbsxanalarda saqladьqьmьz bəsdir, onlarьn hyquqlarьna, mal və çanlarьna, namuslarьna, doqunmaqlarьmьz bir namussuzluqdur. Qadьnlar hər çihətçə, erkəklərlə mysavidirlər. Bu sadəçə şeji mən burada uzun myddət dərin fikirləşib, dyşynyb anladьm. Burasь mənim ycyn həbsxana jоq, bir tərbijə, bir niçat evi oldu. Mən buraja girdikdə fikir, nəzər, dyşynçə çihətçə paslanmьş bir dəmir idim. Buranьn qьzqьn kyrəsindən kecib xalis polat oldum.

Gylsym, oqlunun dediji sözlərin coqunu anladьsa da, onda olan bəjyk dəjişikliji hiss edirdi.

— Ana, bu dediklərimi baçьma jetir və gələn çymə də mənim gəryşymə gətir. Ona dejəçək sözlərim coqdur. Daha durma, get, baçьmь şad et...

Gylsym şadlьqьndan özyny elə itirmişdi ki, oqlu ilə belə salamatlaşmajьb çəld getdi.

***

Yc gyn idi ki, vilajət məhkəməsinin çinajət şө'bəsi tərəfindən Rəşidin işinə baqьlьrdь. Başqalarьna ibrət olmaq ycyn məhkəmə çiddi və təntənəli bir surətdə qurulmuşdu. Bəjyk məhkəmə salonu maraqlanan tamaşacьlarla dolu idi. Bu gyn məhkəmənin sonu olduqu ycyn gələn adamlarьn sanь iki qat artmьşdь. Salonda qadьnlar şө'bəsinin yzvlərindən başqa, qejri carşaflь qadьnlar da coq idilər. Onlar məhkəmədən qatil ycyn e'dam cəzasь tələb edirdilər. Bu isə Gylsymyn və Lejlanьn yrəklərinə oq kibi sançьlьrdь.

Qadьnlar şө'bəsi tərəfindən tə'jin olunmuş natiqin odlu cьqьşь çəmaətə bəjyk tə'sir buraqmьşdь. Rəşidin həkymət tərəfindən tə'jin olunmuş vəkili bu tə'siri pozmaqa sə'j edirdisə də, myvəffəq olmadь. Rəşid başьnь aşaqь salьb hec kəsə baqmajьrdь. Dərin-dərin fikirlərə dalьb özynyn harada olduqunu dujmajьrdь.

— Vətəndaş myqəssir, söz sizindir,—dejə sədr e'lan etdi. Salonda elə sakitlik əmələ gəldi ki, milcək ucsajdь qanadlarьnьn səsi eşidilərdi. Rəşid qalqdь. Jyzlərçə gözlər, onun zərif, gözəl lakin solqun simasьna, coçuq baqьşlь gözlərinə, uça inçə bojuna, qьvrьçьq saclarьna dikildi.

Rəşid həjəçana gəlmiş əsəblərini, şiddətli carpan qəlbini sakit etmək ycyn su istədi. Verdilər; icdi. Sonra zəif, ditrək, xoş səslə son sözlərini başladь. Tərçiməi-halьnь, icərisində jaşadьqь myhiti, qocu atasьndan aldьqь tərbijəni doqru, dyzgyn təsvir edərək japdьqь çinajətə keodi. Onun nitqi gəldikçə jandьrьçь oda, kəsgin qьlьnça dənyrdy. Həbsxanada cəkdiji bəjyk ruhi əzijjətdən sonra, özyndə əmələ gəlmiş təqjirləri elə saï və sədaqətlə isbat etdi ki, kimsədə bir şybhə izi belə qalmadь. Hamьnьn rəhmini, məhəbbətini qazanmaqa myvəffəq oldu. Indi onun ölymyny hec kəs tələb etməjirdi, bil'əks azad olmasьnь dilәjirdilər. Bir az bundan əvvəl e'damьnь tələb edən qadьnlarьn gözlərində mərhəmət və şəfqət jaşlarь gərynyrdy.

Rəşid nitqini bitirərək yzyny qadьnlara tərəf cevirib:

— Baçьlar, mənim kibi azad olmaqьnьza mane olan qara fikirli çavanlar və bytyn ərlər aradan gətyrylməlidir. Mən də sizin rə'jinizə şərik olaraq məhkəmədən özymə ən aqьr çəza tələb edirəm—dejib Rəşid oturdu.

Qadьnlar tərəfindən «joq, joq, istəməjirik» sədasь qalqdь.

Məhkəmə yzvləri myşavərə otaqьna kecdilər. Salonda səslər uçaldь; qьzqьn bəhslər başlandь. Qadьnlardan bir necəsi Gylsym və Lejlanь ihatə edib:

— Qorqmajьn, baçьlar, bu işdə əlym joqdur— dejə təsəllilər verirdilər.

Aradan jarьm saat kecmiş sədr, yzvlərlə bərabər salona daxil oldular. Hamь ajaqa qalqdь. Bəjyk sykut icərisində sədr qət'namanь oqudu.

— Myqəssir dərt il myddətinə azadəlikdən məhrum edilir. Lakin onun çavan və səmimi bir insan olduqunu nəzərə alaraq çəzasь iki il azaldьlьr.

Salonda şadlьq sədasь jyksəlmiş, adamlar sevinç dalqalarь arasьnda aqьn-aqьn bajьra cьqьrdьlar.

1927

MISTER QIREJIN KƏPƏJI

Paun-qaj, Xan-qou şəhərinin Nan-si cajьnьn sahilində əski bir daxmada qoça anasilə jaşardь. Bu gənç, kycə aqtijoru idi. Öz şəjirdi balaça Sen-o ilə bazarlarda, şənlikli kycələrdə, cajxanalarda ojun cьqartmaq, məzhəkə jaratmaq və mahnь oqumaqla, gyndəlik məişətini qazanardь.

Bəxti gətirib 60—70 cox qazananda, o aqşamı cərək, soqamdan ilavə balьq da alьb şad evlərinə gələrdi və kycədən həjətə daxil olduqda «Ana çan, juj... juj...» dejə onu səslərdi.

Puan-qajь cinlilər səvərdilər, lakin avropalьlar onu gərmək belə istəməzdilər; cynky Puan-qaj onlarьn fəna xasijjətlərini, məqrurlьqlarьnь, cinlilərə edilən zylmy pontamim tərzilə gözəlçəsinə göstərib xalqь gyldyryrdy. Bunun ystə Puan-qaj avropalьlar tərəfindən necə dəfə kətək jemişdi. Lakin jenə də onlarьn təqlidini cьqartmaqdan saqьnmazdь. Ançaq şəhərin Avropa hissəsinə enməkdən çəkinərdi.

Bir səhər Puan-qaj kycədə həsir salьb yst paltarьnь sojunub ojun cьqarьrdь. Adamlar jьqьlьb ona tamaşa edirdilər. Bu zaman mister Qjirejin aşbazь bazardan azuqə alьb evə qajьdьrdь. Misterin məşhur köpəji «Bollu» da onun arqasьnça gəlirdi. Bu ingilis (bulduqu) sahibi kibi qajət kinli, dəhşətli bir köpək idi. Bollunun qapdьqь iti və insanь əlindən almaq mymkyn dejildi. Ta ystynə su tökməjinçə

dutduqunu buraqmazdı. Bu köpək cinlilərə coq əzijjət verirdi. Lakin mister Cjirejin qorqusundan kimsə onu vura bilməzdi.

«Bollu» adamların dəstəsinə jaqınlaşdıqda coçuqlar: «mister Cjirejin köpəji gəlir» dejə qacmaqa başladılar. Böjyklər də kənara çəkildilər. Bu zaman Puan-qaj arqası ystə uzanıb ajaqları ilə Sen-onu tez-tez juqarı atıb duturdu. Köpəjin diqqətini çəlb edən Puan-qajın həsirin ystə ilan kibi uzanan kəkili idi. Sen-o onu gördykdə qışqırdı. Puan-qaj, Sen-onı jerə buraqıb çəld qalqdı. Bu vaqt köpək Puan-qajın arqalıqını qapıb qacmaqa başladı. Puan-qaj öz şejlərini şəjirdinə tapşırıb köpəjin dalınça qacdı. Kycədən daş jıqıb köpəjə atırdı. Lakin «Bollu» daşların dəjməjinə baqmajaraq arqalıqı dişindən salmajırdı. Daşın biri «Bollu»nun ajaqına bərk dəjmişdi. Lakin həçət köpək jenə də arqalıqdan əl çəkməjirdi. Kycəni dönərkən bir Cin polisi onun qabaqını aldı.

— Nə ycyn köpəjə daş atırsan?

— Görmyrsənmi köpək arqalıqı aparır...

— Göryrəm və köpək də mister Cjirejin olduqunu bilirəm.

—Demək mister Cjirejin köpəji ycyn qanun joqdur....

— Puan-qaj, özyn də bilirsən joqdur, nə ycyn soruşursan? Ja arqalıqından əl çək, ja da çyr'ətin varsa get misterdən al.

— Gedərəm və arqalıqımı da alaram—dejə Puan-qaj jola dyşdy. O daha qacmajırdı, ahəstə gedərkən dərin fikrə dalmışdı. Böjyk və ulu vətəni azqın, qudurmuş imperialistlər cəngəsi altında boqularaq, sızlajaraq məhv olduqunu dyşynyrdy.

— Bizim ycyn niçat jolu joqmu? Hacana kibi dört jyz miljonlu Cin, vəhşi avropalılar əlində cjur çaq olaçaqdır—dejə öz-özynə sual verirdi.

— Var, lakin biz biqejrətlər, hamımız inqilabcı Qanton ordusuna qarışıb vətənimizi imperialistlər əlindən xılas etmək əvəzinə, inqilabcıların qarşısına çıqıb bunlarla myharəbə edirik. Puan-qaj başında belə fikirlə gəlib mister Cjirejin darvazasına catdı və çyr'ət ilə içəri girdi. Bu zaman mister Cjirej balqonda oturub qəzet oqumaqa məşqul idi. O itin ajaqınan Puan-qaj tərəfindən jaralanmasından xəbərdar idi. Indi qəzəbli və səbirsiz onu gözləjirdi.

Mister Cjirej başını qaldırıb Puan-qajı gördy və ajaqa qalqaraq açıqlı soruşdu.

Mənim itimi sənmi vurmusan?

— Bəli mən vurmuşam. Arqalıqımı gətyryb qacdı, mən də daş atdım ki, jerə salsın, lakin buraqmadı.

— Sən bilirsənmi ki, ingilis köpəji dutduqunu buraqmaz?

—Bəli ingilislərin köpəkləri sahiblərinə oqşamışlar, dutduqlarını buraqmazlar.

— Doqrudur, sən yc böjyk çinajət japmısan, ona görə çəza alaçaqsan. Birinçisi budur ki, mənim sevgili köpəjim «Bollu»nu jaralamısan...

—Mister, sizin papaqınızı və ja başqa bir şejinizi köpək götyryb qacsa nə edərsiniz?

— Tapançamı çıqarıb vuraram jerində qalar.

— Mən ki, hələ itinizi öldyrməmişəm.

— Sənin həddin nədir ki, elə iş japa biləsən. Ikinçi taqsırın baq budur—dejə mister Cjirej ona bir məktub göstərdi.

— Bu sənin arqalıq çibindən çıqmış, bilirsənmi nədir?

— Qanton əsgəri, dostumdan gəlmiş məktubdur.

— Jalan, qommunist firqəsi tərəfindən nəşr olunmuş proqlamasijadır, sən o firqənin gizli yzvysən

və ojun cьqarmaq ilə onun fikrini burada jeridirsən, bəlkə də bolşeviklərin xəfijjəsisən...

Bunu eşitdikdə Puan-qaj səbr edə bilməjib dedi:

— Elə ki, siz imperalistlər biz cinlilərlə rəftar edirsiniz axьrь ona gələçəjik. Ycunçy çinajətimi səjləjin.

— Ycunçy çinajət odur ki, izinsiz mənim həjətimə girmisən, o qapьda jazьlanь oqumadьnmь?

— Xajьr, orada nə jazьlmьşdьr?

— Orada bu jazьlmьşdьr: «Cinlilərə və kəpəklərə daxil olmaq jasaqdьr».

— Mister o qanunmu?

— Bəli qanun.

— O qanunu alihəzrət Çorçmi vermiş?

— Sus, qanmaz kəpək, onu mən vermişəm, hər bir ingilisin əmri siz vəhşi cinlilər ycyn qanundur.

— Onlarь verənləri inqilabcь Qanton tezliklə məhv edəçək.

Bunu eşitdikdə qan mister Qjirejin başьna sьcradь və elə hajqьrdь ki, bytyn xidmətcilər səsinə tökyldy.

— Bu kəpəji alьn, o uzun sacьndan talvardan asьn, mən əmr etmədikçə xьlas etməzsiniz, hajdь!..

Zavallь Puan-qajь dutub talvarьn altьna gətirdilər. Mister Qjirej də balqondan enib oraja gəldi.

— Indi ajь kibi baqьrarsan—dejə «mədəni, nəçib» Qjirej, Puan-qaja səjməjə başladь.

Puan-qajь asarkən bozarmьş, dodaqlarьndan bir kəlmə belə buraqmadь. Lakin qanlь gəzlərindən qəzəb atəşi sacьlьrdь. Qjirej çənablarь ingilis «ədalətini» japdьqdan sonra jenə balqona qalqьb qəzet oqumaqa başladь. Aradan xejli kecmiş xidmətci cinli ona caj getirirkən Puan-qajь azad etməjini jadьna saldь. Mister saata baqьb dedi: «Hələ iki dəqiqə qalmьş». Sonra qəzeti masanьn ystə qojub caj ic-

məjə başladь. Hərgah mister Qjirej o zaman dənyb xidmətcinin yzynə baqsajdь, onun baqьşьnda özynə qarşь nifrət əlamətlərini ajdьn oqujardь.

Mister Qjirej cajьnь icib aşaqь endi və Puan-qajь xьlas etməjə əmr verdi. Onu azad etdilər. Sonra mister Qjirej qajcь gətirtdi və öz əlilə Puan-qajьn o uzun saclarьnь kəsib ona uzatdь.

—Bunu al saqla, ta ki, dutduqun çinajəti unutmajasan.

Sonra əmr etdi ki, onun arqalьqьnь versinlər. Puan-qaj illərlə bəslədiji sacьnь alьb dedi:

—Mister, mən də and icirəm ki, hec bir an bu gyny unutmajaçaqam, bu gynə kibi mən inqilabcь dejildim, siz bu saclarь kəsməklə öz əliniz ilə məni inqilabcь qantonlar sьrasьna göndərirsiniz, sizdən artьqça təşəkkyr edirəm,—dejə Puan-qaj gətyryldy.

Altь ajdan artьq idi ki, Puan-qaj Qanton inqilabcь ordusunda şyçaətlə də'va edirdi. Imperialistlərin umudu olan Şimal ordusu Qьzьl Qanton ordusunun dəhşətli hyçumlarь qarşьsьnda davam edə bilməjib əllərində olan kənd və şəhərləri boşaltmaqa məcbur olurdu.

Nevbə Puan-qajьn vətəni Xan-qou şəhərinə catmьşdь. Puan-qaj iləridə gedən bəlyjyn sьrasьnda idi. Şəhərə hyçum başlandь. Puan-qaj qьzmьş şir kibi myharəbə edirdi. Ən atəşli jerə özyny atьrdь. Şəhərə girən birinçi Puan-qaj oldu. Gynorta olduqda Xan-qou Qanton əsgərləri tərəfindən alьndь. Lakin kycələrdə ara sьra gyllə səsi gəlirdi.

Puan-qaj, mister Qjirej sakin olan kycə ilə evlərinə anasьnь joluqmaqa gedirdi. Birdən qarşьsьna misterin köpəji «Bollu» cьqdь. Sanki qəza Puan-qajьn intiqamьnь jerdə qojmaq istəməjirdi. Puan-qaj çəld tyfəngi dəşynə alьb iti nişanəjə götyrdy. Gyllə acьldьqda köpək jerə sərildi. Puan-qaj gedib onun

qujruqundan dutdu və syryklәjәrәk mister Qjirejin darvazasы aqzьna gәtirdi. Misterin darvazasы, qapьlarы, pәnçәrәlәri baqlы idi. Hәjәtdә, evdә bir insan gөrynmәjirdi. Puan-qaj kәmәrini acьb itin başьna kecirtdi vә xejli cәtinlik ilә darvazadan asdы. Sonra çib kitabcasьnы cьqarьb bir vәrәq çьrdы, jazdы, darvazaja bәnd etdi. Sonra fәxr ilә oqudu: «Ingilislәrә vә kөpәklәrә icәri daxil olmaq qadaqandьr».

— Mister Qjirej! Indi Puan-qajы әlәnә kibi unutmazsan—dejә jola dyşdy.

1927

BAQ MƏN BUNA JOQAM

Ibrahim cadra, papaq vә әski әlifba әlejhinә tәşkil olunmuş mәdәni hyçum qampanjasьnda iştirak edәrәk coq calьşdьqь ycyn artьq jorulmuşdu. Mәnzilinә qajьdarkan, rәfiqi Qjulamgildә bir qәdәr dinçini almaqь vә onun xәstә oqlunu joluqmaqь qәt' etdi.

Qapьdan icәri daxil olduqda Qjulamdan başqa, qьsa bojlu orta jaşlь başьnda 60—70 manata dejәn bir papaqь olan hәkimi masa yzәrindә oturub, resept jazan gөrdy. Qjulam ilә salamlaşьb xәstә coçuqunun halьnь sordu.

— Mәdәni hyçum qampanjanьz nә çyr kecdi—dejә Qjulam sordu.

— Coq gөzәl vә şәnlikli kecdi—dejә Ibrahim çavab verdi. Doqtor yzyny ona cevirib dedi:

— Mәnçә kyçәlәrә dyşyb «cadra daloj» demәjin hec mә'nasь joqdur. Belә şejlәr өz-өzynә mәhv olub gedәsidir. Burada inqilab joq, tәkamyl jolu ilә getmәk lazьmdьr. Jetişmәmiş bir mejvәni dәrmәkdәn mәnfәәt әvәzinә zәrәr vә bәlkә dә xәta gәlә bilәr. O ki, qaldь, papaq mәsәlәsinә, bunda mәn hec joqam. Ymumijjәtlә bir tajfanьn milli libasьnь dәjişdirmәji mәn tarixi sәhv hesab edirәm. Istәr onu dәjişdirәn dәli Petro olsun. Istәr Mustafa Kamal.

Ibrahim:

— Mөhtәrәm doqtor,—dedi:—fikrinizdәn coq әskilik qoqusu gәlir! Mәnim az da olmuş olsa nәbatat

elmindən bir qədər mə'lumatım vardır. Min ildən zijadə meyvəsi dəyməjən nəbat eşitməmişəm. Hərgah elə meyvə varsa, onun dəyməsi coq uzun və bəlkə də myşgyl olduqu ycyn dərib heyvanlara atılmasın lazım gəlir. O ki, qaldı papaq məsələsinə, həkimlərdən papaq tərəfdarı olan şəxsi indijə kibi eşitməmişdim, bil'əks onlar papağın zərərindən söjləmişlər...

— Joldaş, onlar da sizin kibi mətləbə dərin, geniş və ətraflı baqmamışlar. Libas hər topraqın təbiətinə gərə jaranmışdır. Ərəbistanda—aba, əmmamə; Daqıstanda—japınçı, başlıq; bizim Azərbajçanda—siz dejən josma papaq, cuxa. Həmin josma papaq—kəndlilərimizi jaqmır vaqtı jaqışdan, qış vaqtı qardan qoruduqu kibi jeri gəldikdə jastıq vəzifəsini də ifa edir. Bu papağı kepqa və ja şiljapa ilə əvəz etmək mymkyndyrmy?—dejə həkim—dəjərli—mə'lumatını isbat etdi.

Qulam doqtora çavab verərək:

— Nə ycyn mymkyn dejil,—dedi, jaj fəsli Muqan və Mil dyzlərinin təndir kibi yzy qarsan istisində josma papağın altında tər ceşmə kibi aqıb tyrk kəntlilərini oda jaqarkən həmin jerdə malaqanlar jyngyl kyləş papaqla başlarını gynəşin jandırıcı şə'ləsindən myhafəzə edirlər.

Doqtor məsələjə ançaq praqtiki tərəfdən janaşır dı, onu da sybuta jetirə bilməjirdi. Ibrahim Qulama myraçəətlə dedi:

— Doqtor, papağın zərərini, kəsafətini bizdə ona bir «namus» və «myqəddəs» kibi baqılmağı və eqonomija çihətinçə kəndlijə əlverişli olmadığını unudub, fəqət bir millətcilik nəqteji-nəzərindən baqır...

Söhbətin bu jerində doqtor saata baqıb:

— Joldaşlar, söhbətimiz coq maraqlıdır, fəqət naxoşlar məni gözləjir—dejə ajağa qalqdı və xydahafiz edib, getdi.

Bu vaqt Səlimə nənə padnosda yc istəkan caj icəri girdi.

— Xoş gəlmişsən oğlum, coqdan bəri bizi jad etməjirsən,—dejə Səlimə nənə Ibrahimi məzəmmət etdi.

— Səlimə nənə, şyqlum coqdur, vaqt tapmajıram ki, gəlib sənlə söhbət edəm...

— Əlbəttə vaqtınız joqdur... Gyndə bir hoqqa çıqardırsınız...

Bunu eşitdikçə Qulam gylməjə başladı.

— Hec bu gyn anamın başına gələn qəzijjədən xəbərin varmı?

— Səlimə nənə, nə olmuş? Söjləjiniz—dejə Ibrahim rəça etdi.

— Nə söjləjim? Abır, haja çıqdı getdi...

— Səlimə nənə, birçə mənim bu janımda otur, bu cajı da icə-icə mənə naqıl et, gərym bu gyn başına nə iş gəlmiş? Joqsa sənin çanına, bu saat durub gedərəm.

— Otur, otur, oğlum söjlərəm. Bu səhər uşaqlar ycyn jumurta almağa dykana getmişdim. Jumurtaları alıb carşafımın uçuna bykdym. Evə qajıdanda sizin dəstələrə rast gəldim. Onlar janımdan keçəndə bir dəçəl uşaq «cadra daloj» dejə carşafımı başımdan dartıb jerə saldı. Jumurtalar çilik-çilik oldu. Ağzıma gələni dedim. Hajasız adamlar da—cadra daloj—dejə gylməjə başladılar...

Bunu eşitçək Ibrahim qəhqəhə ilə gylməjə başladı. Qulam da ona qoşuldu. Sonra Səlimə nənə dedi:

— Dediniz: padşah olmasьn.
— Dedik: olmasьn.
— Dediniz: devlətli olmasьn.
— Dedik: olmasьn.
— Dediniz: bəj, xan, aqa, xozejin olmasьn.
— Dedik: olmasьn.

Indi də dejirsiniz ki, cadra olmasьn. Baq, mən bunda joqam!...

Bu vaqtь həjətdə qьşqьrьq qopdu.

— Jenə məşədi Səfər arvadьnь dəjyr. Haraja gedim—dejə Səlimə nənə həjətə cьqdь.

— Qulam, məşədi Səfər kimdir?—dejə Ibrahim sordu.

— Məşədi Səfər bu evin sahibidir. Özy də quzu çildinə girmiş bir qurddur. Danьşanda dejirsən ki, əski bir qommunistdir. Ləqəbi də «Sijasətci»dir. Jəqin ki, bir azdan sonra özy buraja gələçəkdir; cynky hər bir belə ittifaqda mənim janьmda özyny safa cьqarьb arvadь Səkinəni taqsьrlandьrьr.

Doqrudan da bir azdan sonra məşədi Səfər səjlənə-səjlənə icəri girdi. Çavanlarla salamlaşdь. Ibrahimə işarə edərək:

— Jəqin joldaş da fikir edəçəkdir ki, mən davakar, arvad inçidən bir adamam. Əsla, joq. Mirzə Qulam təsdiq edər ki, mən kəhnəpərəst dejiləm. Oqlum da onun janьnda oqujur, qьzьmь da bu ildən uşaq baqcasьna qojmuşam, ançaq bu evi jьqьlmьş arvad evini-eşijini atьb kycələrə dysybdyr ki, mən mollanьn təqlidini cьqaranlara tamaşa edəçəjəm. Mən deməjirəm ki, tamaşa etməsin, lakin qabaqça evini, həjətini sypyrsyn, xərəji hazьr etsin, uşaqlarьn qarnьnь dojdursun, sonra hansь çəhənnəmə istəjirsə, itilib getsin. Mirzə Qulam bilir ki,

mən bu arvaddan nə əzijjət və məşəqqət cəkirəm. Nə ycyn? Cynky bu bədbaxt qьzь bədbaxt, elmsizdir, aj kaş bu Şura həkyməti otuz-qьrq il bundan ilәri gəlmiş olajdь! Onda biz də oqumuş, tərbijəli ailə sahibi olmuşduq.

Burada məşədi Səfər bir nəfəsini alьb kyrsydə oturdu.

— Mirzə Qulam, məni joldaşla tanьş etmədin. Joldaş nə iş sahibidir?

— Aj məşədi Səfər, qurma saat kibi aramsьz cinqorovunu calьrsan. Hec fyrsət verirsənmi ki, tanьş edim?—dejə Qulam çavab verdi. Sonra məşədijə mə'nalь baqьşla:

— Bizim joldaş jazьcьdьr!

Məşədi Səfər, bunu eşitçək, çəld jerindən qalqьb iki əl ilə Ibrahimin əlini sьqaraq:

— Joldaş, sizin ilə tanьş olmaqa coq şadam! Mən jazьcьlarь artьq dərəçədə sevirəm. Bəlkə artьq-əksik söz danьşdьm, məni əfv edəsiniz. Mən özym coq basavad adamam; qəzet-zurnal geçə və gyndyz əlimdən dyşmyr. Ələlxysus sijasəti coq sevirəm. Ləqəbim də «Sijasətci»-dir. Ançaq, joldaş, Şura həkymətinin bir sijasətini mən başa dyşə bilmədim. Bu barədə fikrinizi bilmək istərəm.

— Dediniz: allah joqdur.
— Dedik: joqdur.
— Dediniz: pejqəmbər, imam joqdur.
— Dedik: joqdur.
— Dediniz: din, məzhəb, şəriət, qur'an, oruç, namaz joqdur.
— Dedik: joqdur.
— Dediniz: məsçid, mollа, sejid, mərsijəxan joqdur.
— Dedik: joqdur.

— Dediniz: ynas ilə zykur mysavidir.

— Dedik: mysavidir.

— Axьrda dediniz: əskidən bizə miras qalmьş cadra jоq olsun.

— Dedik: jоq olsun. Indi də dejirsiniz ki, papaq da jоq olsun. Baq, bunda mən joqam!..

Bunu eşitdikdə Ibrahim gylymsynərək, dedi:

— Məşədi Səfər, bir belə «myqəddəs» şejdən əl cəkə bildin, nə ycyn bu «namus» papaqьndan əl cəkə bilməjirsən?

— Joldaş, gərynyr ki, mətləbə dərindən fikir vermədiniz. Mənim sözym papaqda dejil, sijasətdədir. Istəjirsiniz, bu saat bu papaq əvəzinə başьma nə inki kepqa, lap lodraqan (lyteran) qalpaqь qo'um. Mən kəhnəpərəst dejiləm. Mirzə Qulam təsdiq edər; ançaq bir mənə dejin gərym, Azərbajçanda nə qədər çan var?

— Təxminən iki miljon jeddi jyz min—dejə—Qulam çavab verdi.

—Atan oldu rəhmətlik, bu miqdarьn jeddi jyz mininі papaq gejməjənlərə cьqaq, jarьsьnь ynas tajfasьna, jerdə qalar bir miljon. Demək, papaq gejən bir miljon çandьr. Orta hesab ilə ildə on min dəri lazьmdьr. Dərinin birini 30 manatdan gətyrsək, hökymətimiz ildə 3 miljon manat itirir. Baq, mən bu sijasəti başa dyşə bilməjirəm, indi fikrimi anladьnьzmь?—dejə məşədi Səfər sordu.

— Məşədi Səfər, nə ycyn tiçarət sijasətinizə qadьnlarьn cadralarьnь daxil etməjirsiniz?

— Onun bu mətləbə dəxli joqdur. Mən kəhnəpərəst dejiləm, cadranьn atьlmasь tərəfdarьjam. Mən arvadьm Səkinəjə min dəfə demişəm ki, arvad, bu mirasь at getsin, lakin o özy atmajьr. Qadьnlara zor etməji viçdanьm qəbul etməjir—dejə məşədi Səfər mejdana caqьrьçь bir nəzərlə baqdь.

— Məşədi Səfər, qadьnь dəjməjə viçdanьnьz neçə jol verir?

— Joldaş, o lazьmdьr; cynky qadьn tajfasь uşaq tajfasь kibidir. Onlara quru söz kar etməz, jeri gəldikdə dəjmək lazьmdьr. Joldaş, mətləbdən kənara cьqdьq. Sualьma çavab gəzləjirəm.

Qulam dedi:—Məşədi Səfər, siz, neçə ki, bir alьşverişci...

— Rəça edirəm, səhvinizi dyzəldiniz, mən sən'ətkaram.

— Bəli, siz sən'ətkarsьnьz, ançaq siz hökymətin hər bir tədbirindən sandьqcalara para toplamaq gözləjirsiniz; bu janlьş bir nəzərdir. Hökymət; məarif, sihhijjə və qejri mədəni işlərə miljonlar sərf etdikdə öz para sandьqlarьnь gydməjir, dəri və cadradan gələn paranь öz bəjyk məqsədinə qurban edir.

— Məşədi Səfər, izninizlə bir sual da mən vermək istəjirəm.

— Bujur, joldaş jazьcь.

— Sizin sən'ətiniz nədir?

— Mənim?.. Sən'ətim?... Nə ycyn soruşursunuz? Onun mətləbə dəxli joqdur.

— Hec, bilmək istəjirəm.

— Mən... papaqcьjam.

— Onda mətləb ajdьn oldu... Məşədi, hökymətin bu jeni tədbirindən nə ycyn xofa dyşmysynyz, o da ajdьn oldu.

— Joq joldaş viçdanьm haqqь səhv edirsiniz... Mən elə adam dejiləm. Mirzə Qulam təsdiq edə bilər...

— Jənə zalьm qьzьnьn səsi gəlir. Gedim gərym uşaqlarь inçitməjir ki,—dejə məşədi Səfər qalqьb getdi.

Ibrahim sordu:

— Qulam, sən nədə joqsan?

— Mən də cadra ilə papaqьn indijə kibi jaşamasьnda joqam.

19

1929

TƏMƏHKAR

Beş pərdəli qomedja

1899-çu il

Bakь

IŞTIRAK EDƏNLƏR:

Haçı Murad. 60 jaşında bir qoça
Imran. 25 jaşında bir gənç.
Gylzar. Haçı Muradın qızı. 18 jaşında.
Məhərrəm bəj. 55 jaşında. Xəsis bir mylkədar.
Haçı Saleh. 48 jaşında bir taçir.
Şərəf. Haçı Muradın həmşirəsi.
Əhməd. Şərəfin oqlu; 10 jaşında.
Nabat. Haçı Muradın xidmətcisi; 25 jaşında.
Qulu. Haçı Muradın nökəri.
Əliqulu. Məhərrəm bəjin sabiq nökəri.
Nijaz, Qurban } Qulunun joldaşları.

BIRINÇI PƏRDƏ

Haçь Muradьn otaqь. Iki qapьsь və iki pənçərəsi var. Otaq fərş ilə döşənmiş. Sol tərəfdə Haçь Muradьn paltarь və saq tərəfdə pul və çavahir sandьqlarь qojulmuş. Qapь tərəfdə bir dolab. Janьnda bir əl aqaçь.

Pərdə acьldьqda Qulu otaqь sypyrərkən өz-өzynə səjlənir.

Q u l u

Dejən gərək a qoça kaftar, bu pullarь kimə jьqьrsan, nejə jemirsən? Arvadьn joq, oqlun joq, bir qьzьn var o da bu gyn-sabah cьqьb allah bəndəsinin birinə gedər. Jenidən evlənməjə өmryn joq: cynky jaşьn altmьşdan өtmyşdyr. Bəs bu pullarь kim ycyn jьqьrsan? Adam pulu qazanar ja bu dynja ycyn, ja axirət ycyn. Bu dynjada jejər, icər, aşna dosta xərçlər, kef elər. Axirət ycyn də məsçid, mədrəsə tikdirər. Fəqirə pul verər. Jetimə paltar alьb qarnьnь dojdurar. Amma bu zalьm oqlunda bunlarьn hec biri joqdur. Nə dejim, allahьn sirrinə təəççyb qalmalьdьr... Pulu gətyryb belə xəsisə verir ki, sandьqa doldurub geçə-gyndyz keşijin cəkir. Və mənim kibi baş-burunlu oqlanь da ona nөkər edir. Jə'ni belə malь jeməzin malьnь jemək haramdьr? Vallahь mənə gөrə halaldan da halaldьr. Ançaq acarlarь əlimə sala bilmirəm. Və өzy də nə duјursa məni otaqьna qojmur. Indi gəlib məni burada gөrsə

həşirimi qataçaqdьr. (Pənçərədən baqьr.) Odur gəlir dədəmin evi jьqьldь. (Sypyrgəni jerə atьb tez qacьr. Haçь Murad o biri qapьdan daxil olur.)

H a ç ь M u r a d

Bu sypyrgə burada nə gəzir? Joqsa jenə zalьm oqlu Qulu burada imiş. Qulu! Qulu! Kar olasan. Nabat! Nabat!.. (Nabat daxil olur).

N a b a t

Nə bujurursan aqa!

H a ç ь M u r a d

Qulu haradadьr? Bu sypyrgə burada nə gəzir?.

N a b a t

Qulu indiçə əlində sypyrgə buraja girdi.

H a ç ь M u r a d

Kafir uşaqlarь kafir, min dəfə demişəm ki, mənim otaqьma ta өzym caqьrmasam girməjəsiniz. Sizin əlinizdən rahat bajьra da cьqa bilmirəm. Bəs Qulunun өzy haradadьr?

N a b a t

Aqa bilmirəm.

H a ç ь M u r a d

Get bu saat harada isə tap buraja göndər. (Nabat gedir.)

H a ç ь M u r a d

Axьrь bu zalьm oqlu Qulu mənim başьma bir iş gətirəçəkdir. Murdar oqlunu gөrmək istəmirəm. Yzyndən, gөzyndən oqurluq jaqьr. (Qulu daxil olur.)

Haçь Murad

Qulu, harada idin? Səni caqьrьram hec səs də vermirsən.

Qulu

Aqa, baqcada carhovuza su buraqmьşdьm.

Haçь Murad

Bu sypyrgə burada nə gəzir?

Qulu

Aqa gəldim, şəndən izn alьb evi sypyrəm, gərdym evdə joqsan, cьxdьm. Θzyn bujurubsan ki, izinsiz sənin otaqьna girməjəm.

Haçь Murad

Jaxşь itil get. (Qulu cьqьr.) Durum sandьqь joqlajьm. Joqsa Quluja e'tibar eləmək olmaz. Xoş o adamьn halьna ki, pulu əl catmaz və məhkəm jerdədir. O gyn də Məhərrəm bəj dejir ki, mən pullarьmь banqa verirəm. A kişi adam da gəzy gərə-gərə pullarьnь əzgəjə verərmi. Bu dynja elə dynjadьr ki, adama bir qəpik də e'tibar etmək olmaz. Jaqşь, birdən o banqda pullar itdi ja vermədilər, onda mən kimdən alьm? Joq səfeh işdir.

(Papaqьnьn icindən əsgijə dyjynly acarlarь cьqardьr, dərt tərəfinə baqa-baqa sandьqьn icindən myçryny cьqardьb pullarь sanajьr.)

Gərək burada əlli min manat ola. Dynən də məşədi Ismajьl istədi ki, myamilədən kəsə, gərdy ki, xejir mən o adamlardan dejiləm. (Bu halda Nabat daxil olur. Haçь Murad çəld myçryny altьna qojub ystyny cuxasь ilə ərtyr.) Jenə nə var?

Nabat

Haçь Aqa, Gylzar xanьm hamama gedəçəkdir pul istəjir.

Haçь Murad

Hamama gedəçəkdir. Coq qələt edəçəkdir. Evdə su da var, od da var, qab da var, qazan da var. Su qьzdьrsьn cimsin. Gələniniz əlini acsьn pul ver, gedəniniz pul ver. Pul, pul, pul. Haradan alьm? Dejəsən xəzinə ystə oturmuşam. Nejə dajanmьsan? Itil get.

Nabat
(gedə-gedə kənara))

Qoça kaftar pullarь sandьqlarda gizlədib bir tək balasьna da qьjmьr.

Haçь Murad
(jalnьz)

Joq evdə bir bu qədər pulu saqlamaq olmaz. Hec olmasa myçryny bir başqa jerdə gizlədim. Joqsa sandьq elə şejdir ki, oqru əvvəl onun ystə jygyrər. (Fikir edir.) Tapdьm. Haçь Saleh də pulu gətirsin onu da bunlara qatьb basdьrьm. (Myçryny jenə sandьqa qojur.) Gərəsən nə oldu ki, haçь Saleh belə geç gəldi? Şəhərdə bərk səs var ki, haçь Saleh banqurotdu.

(Bu halda haçь Saleh pərişan bir halda daxil olur.)

Haçь Saleh

Salam əlejkym.

Haçь Murad

Əlejkyməssəlam. Haçь bujur əjləş. Nə var? Coq pərişansan? Xejir ola.

Haçь Saleh

Haçь əmi, dynjanьn hansь işinə baqьb pərişan olmajьm? Insanda insaf, rəhm, sədaqət qalmajьbdьr. Vaqtь ki, işin sazdьr sənə ehtijaç var, hamь sənin qulundur. Amma elə ki, işin bir balaça əjdi, hamь ystynə ajaq basьb sənə qьlьnç vuraçaqdьr. Sənə mə'lumdur ki, bu şəhərin sevdagərlərinin əksərini mən pullu etmişəm. Necələrini dar gynyndən qurtarmьşam. Necələrinin vəksillərini çьrьb atmьşam. Illər ilə myamələsiz pul borç vermişəm. Xylasə hansьnь dejim? Өzyn bilirsən.

Haçь Murad
(kənara)

Bu myqəddəmədən hec gyzym su icmir.

Haçь Saleh

Haçь əmi, Mosqvadan gətirdijim mal tamamilə durur satьlmamьş, barama da zərər cьqartdь. Alьş veriş belədir ki, beşinə sən borçlu olursan, beşi də sənə. Mal satьlьb qurtarar borçlar verilər. Indi mənim işim bir az dolaşьqdьr, devlətli etdijim adamlar mənə maçal vermir. Sənin beş min manatьnь hazьr etmişəm, ançaq altь jyzynə bir həftə mohlət ver; cynky onu məşədi Nijazquluja verəçəjəm. O gəzləjə bilmir. Doqrudan da əlində hec zadь joqdur. Joqsa onun pulunu nə qədər saqlasam istəjən adam dejil.

Haçь Murad

Joq haçь Saleh, dyz səz, gəzləjə bilməjəçəjəm. Pul өzymə coq lazьmdьr.

Haçь Saleh

Haçь, sən şəhərimizin birinçi devlətlilərindən hesab olursan. Sən nejə pula məhtaç olasan?

Haçь Murad

Elə orada evim jьqьlьbdьr ki, xəlq məni devlətli qələminə veribdir. Hansь borçlunun ystynə gedirəm, dejir: Haçь sən devlətlisən gəzlə. Baba haradan devlətli oldum. 40 il kylynk calьb bir çyz'i pul əlimə salmьşam. O da onda, bunda.

Haçь Saleh

Haçь bujur bu dərt min dərt jyzy al, jerdə qalan altь jyzə də bir həftə vaqta kaqьzь təzələjib mənə məhlət ver. Ejbi joqdur. Myamiləni də artьr.

Haçь Murad

Xejir, xejir hec vaqt qəbul edə bilmərəm. Gərək beş mini tamam qabaqьma qojasan, baq kaqьzьn vaqtьndan iki gyn də kecibdir. Mən təəççyb edirəm ki, nejə mənim pulumdan kəsib məşədi Nijazquluja verirsən; cynky məni jumşaq tanьjьrsan.

Haçь Saleh

Haçь Murad bu səzləri mənə dejirsən? Mənə bir həftə vaqt vermirsən? Necə dəfə səni dar gyndən qurtarmьşam? A biinsaf kişi. Səni ilan aqzьndan qurbaqa kibi borçlulardan xilas etmişəm. Imdi mənə aman vermirsən?

Haçь Murad

Onlar kecmiş əhvalatdьr. Mən də sənə az etməmişəm, Kөhnə palan ici acmaq lazьm dejil. Daha bir gyn də gəzləjə bilmərəm. Dynja əlym-itimdir və bundan ilavə də Kərbəla zijarətinə gedəçəjəm. Pul lazьmdьr.

Haçь Saleh
(rişxənd ilə)

Haçь Murad, zijarətin qəbul olsun, ançaq soruşmaq ejib olmasьn, hansь əməl ilə gedirsən?

Haçь Murad

Nejə? Mən nə pis əməl etmişəm ki, zijarətim də qəbul olmasьn.

Haçь Saleh

Hələ çyr'ət edib soruşursan da? Sənin jedijin ic-dijin it qanьndan da murdardьr; cynky oqurluqla qacaqcьlьq ilə, jetimin malьnь mənimsəməklə jьqьlьbdьr. Hansь əməlini dejim. Imranьn atasьnьn pulu ilə mal-devlət sahibi olduqunu hamь bilir və jetim Imranь nə tevr saqladьqьn çymləjə mə'lumdur. Amma onun atasь sən cəldə qalmьşь əz oqlu kibi xəz paltolu saqladьqь hamьja mə'lumdur.

Haçь Murad

Babam mən ilə davaja gəlmisən? Bir qəbeh iş gərmyrəm ki, əz pulumu istəjirəm də.

Haçь Saleh

Kaqьzь ver buraja, bihəja kişi. Bujur bu sənin beş min manatьn. (Pullarь verir.) Sən elə zalьm dejilsən ki, adama rəhm edəsən. Bojnuma torba salьb dilənməjə hazьram. Nə inki sənin kibi adamdan minnət gətyrmək. (Vəksili haçь Muraddan alьb cьqьr.)

Haçь Murad
(pullarь sajarkən)

Jaqşь cьqartdьm, haçь Saleh az qalmьşdь ki, Imranьn qəjjumu olub Şejx Əlinin malьnь məndən iddia edə. Dynjada qəribə adamlar var. Bir də gəryrsən ki, səndən iddia edir ki, mənim babam sənin babanь filan qərinədə əsirlikdən azad edibdir. Indi gərək sən də mənə qul olasan. Durum myçryjə jer qazьm. Qulu, Qulu. (Qulu gəlir.).

Qulu

Nə bujursan aqa?

Haçь Murad

Get mətbəxdə bir xənçər tijəsi var, onu buraja gətir. (Qulu gedir). Bu dəşəkcənin altьnь qazaram və basdьrьb ystyndə oturaram, ançaq Quludan və Nabatdan həmişə sərvaraq olmalьjam. Ələlxysus o şejtan Quludan. Hər bir şejə diqqət edir. Indi soruşaçaqdьr ki, bu xənçər tijəsini nejlirsən? (Qulu daxil olur.)

Qulu

Aqa bunu nejlirsən?

Haçь Murad

Çanьna dərd edəçəjəm; səfeh oqlu səfeh! Indi durub mənnən silist edəçəkdir. Nə edəçəjəm dьrnaqlarьmь kəsəçəjəm.

Qulu

Aqa bunnan mən ət dəjyrəm. Bu dьrnaq kəsməz.

Haçь Murad

Sarsaq oqlu sarsaq, itil çəhənnəmə.

Qulu

Aqa nejə açьqьn dutur. Bu elə kytdyr ki, hec jer də qazmaz.

Haçь Murad

Nə dedin? (kənara) Allah divarlarьn da qulaqь var. Bu zalьm oqlu hardan bildi ki, mən tijəni nə ycyn istəjirəm.

Q u l u
(kənara)

Bəli, mə'lum oldu ki, tijə nə ycyndyr.

H a ç ь M u r a d

Qulu, indi başьmь sandьqa qojub juquja getmişdim, juquda gərdym ki, sən surətdə bir adam evə girib istəjir ki, mənim pul sandьqьmь jarьb... belə boqub məni o boş sandьqa saldь. Coq vaqt juqu doqru oluɣ. Indi onun ycyn bunu səndən istədim ki, janьmda silah olsun.

Q u l u

Bəli aqa, adam gərək ehtijatlь olsun. Janьnda silah saqlasьn (kənara.) Amma neçə inandьm, məni hec şejtan da aldada bilməz, istəjir bu aldatsьn. (Haçь Murada.) Aqa mən gedim joqsa tojuq oçaqda janar.

H a ç ь M u r a d

Aj gədə tojuq nədir? Nə dejirsən kim sənə izin veribdir ki, tojuq kəsirsən. Bu zalьm uşaqlarь axьrь məni dilənci edəçəklər, elə bu saatda dilənci halьndajam. Kafir oqlu kafir bu dəqiqə o tojuqu mənə dirildərsən.

Q u l u

Aqa mən nejlijim, Imran aqa bujurdu ki, axşam pulov bişir, iki tojuqu da kəs qoj aşьn altьna, qonaqьm var.

H a ç ь M u r a d

A kafir oqlu mənəm sənin aqan, joqsa Imran? O haradan aqa oldu. Bir jetim gədə idi, rəhmim gəlib saxlamьşam. Indi mənim evimi daqьdьr? Get bu

saat onu buraja caqьr. (Qulu gedir.) Evin jьqьlsьn Imran. Jaqşь evimi daqьdьrsan. Hejf sənə cil tojuq. Hamь tojuqlardan jumurtlajan idi. (Imran daxil olur.) Atam belə ki sən başlamьsan tezlik ilə mənim bojnuma torba saldьrьb diləndirəçəksən.

I m r a n

Nə olmuş?

H a ç ь M u r a d

Atam bu nə qonaqlьqdьr? Bu nə tojuq pulovdur? Atam jaq, dyjy myftə dejil. Hamьsьna pul vermişik. Axьr mənə dejən gərək aj ahmaq nejə evə jaq, dyjy alьrsan ki, gədə-gydə hər gyndə aş bişirib jesin. Bu xərçə hec Sylejman padşahьn xəzinəsi də dəvam edə bilməz.

I m r a n

Sən evə nə jaq alansan nə dyjy. Bu gynky pulovun xərçi də mən ilədir. Budur on iki ildir ki, mən bu evdə oluram, burada bir qonaq yzy gərməmişəm və özym də sənin qorqundan caqьrmamьşam. Amma indi bazardan gəlirdim, bir fəqir qəribə rast gəldim. Bu geçəlijə qonaq olmaqь rəça etdi, naəlaç qalьb razь oldum. Bir də qəribə kəmək etməji allah, pejqəmbər bujurmuşlar.

H a ç ь M u r a d

Indi də durub mənə şəriət öjrədəçəkdir. De gərym aqa Imran o hansь tatьn kitabьndadьr ki, toza topraqa batьb min əzijjət ilə pul qazanasan, verəsən tojuq pulova, onu da gəlib gedən lotu-potu jesin. Onda da cil tojuqun əti ilə.

I m r a n

Daha mən sənə nə deʒim? Sənin ycyn allah, peʒqəmbər, qur'an şəriət hamьsь puldur ki, jьqasan sandьqlara, nə өzyn xərçləjəsən nə də başqasьna verəsən.

H a ç ь M u r a d

Kəs səsini nadyryst, namərbut. Budur on iki ildir ki, sən ata, anasьz jetimi өz oqlum kibi bəsləjib paltar, cərək verib bu boja catdьrmьşam. Onun əvəzində mənə dediji səzə baq. Cərəʒim sənə haram olsun.

I m r a n

Sənin məndə hec bir həqqin joqdur. Mənim səndə var. Hələ atam Şeʒx Əli sənə eʒlədiji jaqşьlьq və qoʒduqu devlət dursun kənarda. Mən өzym geçə və gyndyz calьşьb sənə pul qazanmьşam. Amma bu vaqta kibi hec bir şeʒə ixtijarьm joqdur ki, əl vuram. Jьq, ʒьq gərək kimə qojaçaqsan... (Cьqьr.)

H a ç ь M u r a d

Umud ol sənə qojaçaqam. Coq tələsmisən. Joq dəxi dajanmaq jeri deʒil. Lazьmdьr tezlik ilə Gylzarь bir devlətli jerə verib Imranь qovmaq. Baqaq, gərək şəhərimizdə arvadsьz devlətli kimdir. Kərbəlaʒь Çə'fər. Jaqşь devləti var. Amma iləriki arvaddan beş oqlu var, dərt də ajь kibi qьzь. Heʒf bunlardan mənə hec şej dyşməz. Haçь Imanqulu, malь, devləti coq, өzynyn də sil azarь var. Bu gyn, sabah təşrif aparaçaqdьr. Amma bu bədbəxt də molla, seʒidin kələʒinə dyşyb çəm'i devlətini məsçidə vəqf etmiş. Bəs kim qaldь. (Fikirləşir.) Tapdьm, Məhərəm bəj, jaqşь pulu, mylky var. Qapьsьnda nökər,

qulluqcunum saʒь, hesabь joqdur. Hec bir evladь da, qohum əqribasь da joqdur. Sinni də mənə jovuqdur. Qulu, Qulu. (Qulu daxil olur.)

Q u l u

Nə bujurursan aqa.

H a ç ь M u r a d

Qulu, bir az naxoş kibijəm, tezdən jataçaqam, hec kəsi buraja qoʒmazsan. Gələn olsa deʒərsən ki, aqam azarlьdьr jatьb. De get.

Q u l u

Aqa bəs pulov jeməʒəçəksən?

H a ç ь M u r a d

Xeʒir. Aqan Imran jesin. (Qulu cьqьr.) Durum myçry ycyn jer qazьm. (Durub qapьlarь baqlajьr, tijəni gətyryb jeri qazьr.) Indi oqrular, tapьn gərym Muradьn pulu haradadьr? Hec şeʒtanьn da əqlinə gəlməz ki, mən burada pul basdьrmьşam. Qulu demiş tijə elə kytdyr ki, jeri də qazmьr. (Myçryny basdьrьb ystyny topraq ilə өrtyr.) Daha təşvişdən qurtardьm. Gөr yrəjim neçə atdanьr.

(Bu halda Qulunun papaqь şişəni sьndьrьb pəncərədən icəri dyşyr, haçь Murad diksinib qalqdьqda ajaqьnь tijə kəsir. Bərkdən qьşqьrьr. Sonra Qulunun papaqьnь gөryb.)

Bu jenə zalьm oqlu Qulunun işidir. (Durub qapьnь acьr və Qulunu caqьrьr.) Qulu, Qulu. (Qulu baş acьq daxil olur.)

H a ç ь M u r a d
(papaqь göstərib)

Bu nədir, a kafir oqlu?

Q u l u

Aqa vallah taqsır məndə dejil, Nabatdadır. Ajdınlıq geçədir. Həjəti sypyrməjə başladım. Nabat gəlib birdən başıma bir qapaz salıb qaçdı. Mənimdə əlimə bir şej dyşmədi, papaqı dalınça atdım, gəlib pənçərədən içəri dyşdy.

H a ç ı M u r a d

Kafir uşaqları kafir. Jejin mənim jaqlı-jaqlı xərəklərimi, sonra qızışıb şıllaqa durun. Goryn sizin başınıza nə gətirəçəjəm. Elə indiçə juquja getmişdim, şişənin səsindən diksinib qalqdıqda tijə ajaqımı kəsdi.

Q u l u
(kənara)

A.. indi basdırdıqı jeri də bildim.

H a ç ı M u r a d

Get zirzəmidə divarın catlaqında pambuq gizlətmişəm və kynçdə əski var, tap buraja gətir. (Qulu gedir.)

H a ç ı M u r a d

Bu zalım uşaqlarının əlindən bir saat da rahatlıqım joqdur. Gərək adamın arvadı ola ki, çanı da rahat ola. Joqsa arvadsız kişinin gyny it gynydyr. Jə'ni bir tərəfə də baqanda arvada da e'tibar joqdur. Evin baş oqruları onların özləridir. (Qulu axsaja-axsaja daxil olur.) Tez gəl tənbəl oqlu tənbəl. Məni göryb ajaqı da axsamaqa başladı.

Q u l u

Aqa mən də sən dyşən gynə dyşdym. Ajaqıma mıx batdı.

H a ç ı M u r a d

Çoq jaqşı oldu. Əlbəttə aqasına xəjanət edəni allah elə edər. Indi gəl ajaqımı sarı.

Q u l u

(Haçı Muradın ajaqının baqlarkən kənara)

Xəssis kaftar, it symyjy jıqan kibi ambarı doldurubdur mıx ilə, nal parcası ilə, kəndir qırıqı ilə, əski ilə, əlinə hər nə dyşybdyr sıcan kibi juvasına jıqıbdır.

H a ç ı M u r a d

Indi həkim olsajdı bir parca pambuqdan ətry əptejə göndərib məndən xejli pul cıqartmışdı. Adam belə olmasa pul jıqa bilməz.

Q u l u

Aqa, vallah mən belə pul jıqısajdım, indi mənim də sənin kibi devlətim vardı.

H a ç ı M u r a d

Sən nəjə zəhmət çəkəsən? Aqanın min əzijjət ilə qazandıqından jejib eşşək kibi şıllaq atırsan. Mən olmuşam bir leş, siz olmusunuz bir aç qurd. Hərəniz bir tərəfdən soqulub çəmdəjimi didirsiniz. Ha qurtardın? Indi get orada dur. (Caqırır.) Nabat, Nabat. (Nabat daxil olur.) Xanım indi də papaq aldı qac ojnujursan?

N a b a t

Aqa vallah Qulu jalan dejir, nahaq jerdən gəlib məni sənə cuqullajır.

Q u l u

Jə'ni gyndə hər səhər, axşam samavarı tazələjib xanım kibi altı, jeddi istəkan salma caj icdijini də jalan dejirəm.

N a b a t

Aqa vallah jalan dejir, inanma Quluja. Mən də sənin kibi gizlin gyndə oçaqda jumurta bişirib jejirəm.

Q u l u

Aqa Nabat qəndi doqrajanda çiblərinə doldurur.

H a ç ь M u r a d

Dajanьn kafir uşaqlarь kafir, siz mənim evimə quldurluqa gəlmisiniz, mənim evimi tar-mar etmişsiniz. Mənim xəbərim joqdur, bu saat sizin divanьnьzь edəçəjəm:

(Qalqьb istəjir ki, aqaçьna tərəf getsin Qulu və Nabat qacьrlar. Haçь Murad da ajaqьnьn aqrьsьndan ufultu ilə jerə jьqьlьr.)

PƏRDƏ

IKINÇI PƏRDƏ

Səhnə Imranьn otaqьnь göstərir. Otaqьn divarlarь pəhlivanlar rəsmi ilə mysəvvərdir, otaqьn pənçərəsi baqcaja baqьr. Ortada bir masa, ystyndə kitablar, janьnda bir neçə kyrsy. Gylzar pənçərəjə sevkənib. Imran isə gəzinir.

I m r a n

Joq Gylzar, daha səbr edə bilmirəm. Bu on iki ildə atan mənə etdiji zylmə davam edib səbr etdim. Amma indi sənə etdiji sitəmə tab gətirə bilmirəm. O gyny jadьndadьrmь göz aqrьsьndan nalən ərşə cьqmьşdь. Gedib dejirəm, Haçь əmi pul ver həkim gətirim. Dejir həkim zad lazьm dejil.

Ikiçə gyn aç qalsьn sapa-saq olsun ajaqa dursun. Hamь azar, dejir jeməkdəndir. Az jesin qanь da az olsun. Onda hec vaqtь gözləri aqrьmaz. O vaqtь məndə də pul joq idi. Gedib özgədən borç alьb həkim gətirdim. Sənə də demədim ki, yrəjin sьqьlar. Nə dejim, allahьn belə birəhm ata jaratdьqьna təəççyb edirəm.

G y l z a r

Imran, bir ata ki, öz qьzьnь bu mal, devlət ilə on iki il baçь evində qoja ki, xərç cьqmasьn, daha ondan nə ummaq olar?

I m r a n

Gylzar, əbəs jerə indijə kibi umud baqlamьşьq.

Gylzar

Neçə, atam sənə nə dejib?

Imran

Nə dejəçək? Vaqtiki karvansarajь və dykanlarь satmamьşdь, oqlumsan və qьzьm da sənindir dejə məni əlindən buraqmьrdь, amma elə ki, onlarьn hamьsьnь satьb pul elədi və sandьqlara doldurdu daha mənə ehtiyaçь qalmadь. Indi sözyny dəjişdirib dejir ki, mən hec vaqtь öz qapьmdakь nökərimə qьzьmь vermərəm.

Gylzar

Jə'ni bu sözləri özy dedi?

Imran

Xajьr, sən azarlь olan vaqtь bazarda Haçь Qəhramanьn dykanьnda oturubmuş. Haçь Qəhraman məni tə'rif edirmiş, haçь Murad sən coq xoşbaxtsan ki, Imran kibi kyrəkənin var. O vaqtь o da həmin çavabь vermiş. Bundan ilavə özym də göryrəm ki, məni coq inçidir ki, təngə gəlib gedəm.

Gylzar

Xudaja, ata, anaja ehtiram edib sevməji evlada vaçib etmisən. Mən belə atanь neçə sevim?

Imran

Indijədək mənim adьm sənin ystyndə olmaqa görə hər kəsin qabaqь alьnmьşdь. Bundan sonra buradan elcilərin ajaqlarь kəsilməz.

Gylzar

Imran, səhv edirsən. Belə iş ola bilməz. Çəm'i şəhər bilir ki, mən sənə ad olmuşam. Hec kəs çyr'ət edib bu qapьja gələ bilməz.

Imran

Gylzar, o səni mənə hec vaqt verməjəçəkdir. Onun fikri odur ki, səni bir devlətli adama verə ki ondan nəf'bərdar ola.

Gylzar

Imran, buna hec inana bilmirəm. Jə'ni atamьn fikri odur ki, mən ilə alьş-veriş edib, qazanç ejləsin?

Imran

Inanmamaqa həqqin var; cynky sən atan ilə az olmusan. Onu jaqşь tanьja bilməzsən.

Gylzar

Imran, atam o qədər zalьm ola bilməz. Bizim məhəbbətimizə rəhmi gəlib bir birimizdən ajьrmaz.

Imran

Gylzar, özyn bilirsən ki, məni burada saqlajan məhz sənə olan məhəbbətimdir. Amma bunu ataja qandьrmaq mymkyndyrmy? Onun mə'şuqəsi isə puldur. Onun namazь sandьqdьr ki, gyndə beş dəfə durub baş çəksin. Onun Kə'bəsi myçrydyr ki, gyndə jeddi dəfə başьna dolansьn. Gylzar coq çəkməz ki, atan səni bir devlətlijə verməji aşkar edər və hec bir qanlь göz jaşь onun qət' etdijini poza bilməz. O vaqtь mənim ilə getməjə razьmьsan?

Gylzar

Əlbəttə razьjam. Sənsiz mənə dirilik joqdur. (Nabat daxil olur.)

Nabat

Xanьm, Dyrrə xanьm gəlib səni görmək istəjir. (Gylzar və Nabat cьqьrlar.)

I m r a n
(jalьnьz)

Zavallь qьz, coq bəjyk mysibətdir ki, atan ola, əzyn jetim sajьlasan. Devlətin ola, kasьb kibi hər şejə məhtaç olasan. (Haçь Murad əlində əsa daxil olur.)

H a ç ь M u r a d

Əhvalьn neçədir Imran aqa? Nə qəm dərjasьna batmьsan?

I m r a n

Sizdən rəça edirəm ki, mənlə rişxənd ilə danьşmajasьnьz. Mən aqa olsajdьm, sənin ycyn nökər, dalandar olmazdьm.

H a ç ь M u r a d

Açьqьn nejə dutur, adam əzy ycyn pul qazanmaqa coban da olar. Arabacь da olar. Hətta hambal da olar. Gərmyrsənmi mən qoça kişi neçə calьşьram? Indi bu saat bazardan gəlirəm. Aç, susuz altь saatdьr o taçirin, bu taçirin dykanьnьn qabaqьnь kəsdirib borç jьqьram. Bunlarьn hamьsь sənin işindir. Lakin sən əlini aqdan qaraja vurmaq istəmirsən. Dejirsən qoj haçь Murad zəhmət cəkib qazansьn axьrda mənimdir. Əlbəttə sənindir. Mənim daha kimim var. Amma jenə də lazьmdьr ki, əzyn də calьşьb qara gyn ycyn pul qazanasan.

I m r a n
(kənara)

Gərəsən jenə nə kələji var. Xejir hijləsinə aldanma. (Haçь Murada.) Xajьr məni əfv edəsiniz. Indijə kibi calьşdьqьm bəsdir.

H a ç ь M u r a d

Oqlum, əqlini başьna çəm elə, jenə ilərikі kibi işə, gyçə get. Joqsa səni danlajьb nəsihət etdijimdən

inçijirsən. Mən sənin xejrindən ətry calьşьram. Istəjirəm ki, əqilli, kamallь adam olasan ki, mən də ələndə bu dynjadan arxajьn gedim.

I m r a n
(kənara)

Aj ilan, dilin baldьr, dişin zəhər. (Haçь Murada.) Təəççyb edirəm ki, bazarlarda mənə nökər adь verib, dykanlarda danьşьrsan. Amma evdə olduqda oqlumsan, malьm, çanьm hamьsь sənindir dejirsən.

H a ç ь M u r a d

Nökərimsən? Əstaqfyrulla belə söz mənim aqzьmdan cьqmamьş. Inanma oqlum, bunlar dyşman bəhtanьdьr. Onlar istəjir ki, ata oqul arasьna inçiklik salьb ondan nəf'bərdar olsunlar. (Bu halda Məhərrəm bəj daxil olur.)

I m r a n
(kənara)

Zalьm oqlu nə pis jerdə gəldi.

M ə h ə r r ə m b ə j

Salam əlejkym haçь. Kefin neçədir? Imran oqlan, xoş gərdyk.

H a ç ь M u r a d

Salam əlejkym Məhərrəm bəj, bujur, bujur, nə əçəb biz tərəflərə də qədəmi-şərifinizi basdьnьz. Qədim dostunuzu jada saldьnьz?

M ə h ə r r ə m b ə j

Aj haçь, işlər olub coq, əzym də tək, əgər gədə-gydə umuduna qojursan hərəsi bir tərəfə cəkib evimi daqьdьr. Hanь kecən vaqtlar, hanь qədim adamlar? E'tibar, hyrmət, izzət, insanijjət, hamьsь onlarnan getdi.

I m r a n
(kənara)

Jaqşь tapьşmьşlar. Xəsislikdə bir-birlərindən qalmazlar.

H a ç ь M u r a d

Bəli, bəlj coq jaqşь bujurursan. Zəmanəmiz coq pis zamanədir. Qoçalar əmr cyrydyr, pul qazanьrlar, çavanlar isə əllərini bellərinə qojub ver jejim, ərt jatьm dejirlər.

M ə h ə r r ə m b ə j

Aj haçь, sənin nə dərdin var? Imran kibi işləjən, çan jandьran kəməkcin var. Dərd mənim dərdimdir ki, hec kəsim joqdur. Əzym də gyny-gyndən geri gedirəm, kənd-kəsəji dolandьra bilmirəm.

H a ç ь M u r a d

Doqru bujurursan, Imran coq çan jandьran oqlandьr. Ançaq bu axьr vaqtlarda əlini aqdan qaraja vurmaq istəmir. Indi sən gələndə onun ystə danьşьq edirdik. Imranьn atasь rəhmətlik Şejx Əli coq jaqşь, rəhimli adam idi. Ölən zaman Təbrizdə coq pullarь batdь. Ələ bir şej gəlmədi. Coq adama pulu kaqьzsьz vermişdi. Kaqьzь olanlar da fəqir adь ilə jedilər getdi. Taçir başь haçь Əlinin o zaman bir pirkeşiji vardь. Məhəmməd Sadьq adlь. Şejx Əli vəfat edəndə iki min manatь o şəxsdə qalmьşdь, pulu olmadь ki versin. Ondan bəri o pul onda qalьbdьr. Öldy qaldьsьndan da xəbərim joqdur. Indi istəjirəm Imranь onun dalьnça Irana göndərəm həmi özy ycyn, sijahət etsin, həm də o pullarь alьb gətirsin.

I m r a n
(kənara)

Ha, indi bildim ki, mənə etdiji bu qьlьqlar nə ycyn imiş. Məni Gylzardan ajьrmaq fikrindədir.

M ə h ə r r ə m b ə j

Coq jaqşь fikirdir. (Kənara.) dejəsən işim əvvəldən jaqşь gətirir. (Haçь Murada.) Indi aj haçь qardaş evdə sandьqь acьb köhnə kaqьzlara baqьrdьm. Atamьn sijahь dəftəri əlimə dyşdy. Baqьb gördym ki, çymlə borçlarьn ystynə öz xətti ilə qələm çəkilmişdir. Ançaq mərhum atanьza jyz manat borçu var imiş. Onun ystə qələm çəkilməmişdir. Dərhal durub gəldim ki, o borçu sizə verib atamьn bojnundan saqit edəm. Bujurunuz. (Haçь Murad alьb sajьr.)

I m r a n
(kənara)

Burada bir sirr var. Onsuz dejil, joqsa xəsislikdə bu ondan qalmaz.

H a ç ь M u r a d

Mərhəba, mərhəba, a kişi bu zamana adamь belə iş edərmi?

M ə h ə r r ə m b ə j

Aj haçь, indiki adamlarda halal, haram nədir? Borç vermək nədir.

H a ç ь M u r a d

Doqru bujurursunuz, bu saat bazardan gəlirəm, səhərdən o dykanьn, bu dykanьn qabaqьnь kəsdirib myamələsiz zadsьz verdijim borçlarь ala bilmirəm. (Imrana.) Imran qadan alьm, zəhmət cək Quluja de caj gətirsin (Imran cьqьr).

M ə h ə r r ə m b ə j

Indi de görym qardaş, sən nə tevr gyn kecirirsən?

Haçь Murad

Hec soruşma, mənim gynym it gyny. Adamьn bişirib dyşyrəni gərəkdir, qulluq edəni gərəkdir, joqsa nökər, qulluqcudan nə rahatlьq olaçaqdьr?

Məhərrəm bəj

Haçь nəjə evlənmirsən? Bir az ömryn var, evlən gynyn rahatlьq ilə kecsin.

Haçь Murad

Aj saq olmuş mənim ömrym kecmişdir, qoçalьqda nə jorqalьq. Mən sənə təəççyb edirəm ki, indijə kibi nə ycyn evlənməmisən? Allaha şykyr nəjin əksikdir? Altь, jeddi məđaxil gətirən mylkyn var. Banqlarda da pulun. Özyn də bəjzadə. Bir gözəl, gojcək qьz al gətir evinə qoj, geçə-gyndyz başьna dolansьn.

Məhərrəm bəj

Haçь doqru bujurursan. Özymyn də xahişimdən kecir, ançaq hanь elə qьz?

Haçь Murad

Qьza nə gəlibdir. Ançaq sən məni vəkil elə gər sənə neçə qьz alьram.

Məhərrəm bəj

Mən hazьram və səni də o işdə vəkil edirəm, ançaq bəjzadələrdən olmasьn. Özyn bilirsən ki, mənim onlarnan qədimdən aram joqdur.

Haçь Murad

Jaqşь bəjlərə qələm cəkdik. Qaldь sevdəgər sьnьfь. Onlarda necə qьsьmdьr. Indi de gərym yzymy hansь tərəfə dutum.

Məhərrəm bəj

Sevdəgər qьsmьndan hamьdan artьq həqiqi dostum sənsən. Mən özymy coq xoşbaxt hesab edərdim ki, sənin ilə qohumlaşmaq mymkyn olajdь. O da ki, mənim bəxtimdən mymkyn dejil. Xylasə bir dəfəlik səni vəkil edirəm nə tevr istəjirsən elə et.

Haçь Murad

Coq əçəb. Indi ki sənin xahişin mənlə qohum olmaqdьr, dəxi nə ycyn özgə qapьsьna gedək? Əvvəl evin ici, sonra bajьrь.

Məhərrəm bəj

Haçь, hərgah öz qьzьnьzь bujurursunuz mən onu Imrana nişanlь bilirəm.

Haçь Murad

A pir olmuş, aslan mejdanьna tylky cьqa bilərmi? Tərlan jerini sar duta bilərmi? Və bir də öz qapьmdakь gədəjə qьz vermək mənə ejib gətirər.

Məhərrəm bəj
(kənara)

Kəməndimə jaqşь dyşdy, bu gyn sabah təşrif aparar, pullarь da mənə qalar (Haçь Murada.) Ançaq haçь, bir iş var, bəlkə qьz mənə gəlmək istəmədi?

Haçь Murad

Nə danьşьrsan a kişi? Atanьn xahişi olanda qьzьn nə ixtijarь var razь olmaja (kənara.) Jaqşь dyşdy toruma, bu gyn, sabah təşrif aparar pullarь mənə qalar.

Məhərrəm bəj

Haçь əmi, indi işi qət' olunmuş hesab edək?

Hаçь Murad

Bəli, bəli. Ançaq özynyz bilirsiniz ki, mənim heç zadьm joqdur, gərək hər bir xarç siz ilə ola və sonra da mən qoçanь nəzərdən salma.

Məhərrəm bəj

Əlbəttə hər bir xarçь əhdəmə gətyryrəm və sonra da mənim evimin və qejri şejimin ixtijarь sənnən olaçaqdьr.

Hаçь Murad

Coq gözəl, coq jaqşь. Allah bu qohumluqu qajim qədim etsin. (Qulu padnosda yc stəkən caj gətirir, verəndə birini salьb sьndьrьr.)

Hаçь Murad

Aj ajь oqlu ajь, ysullu tərpənə bilmirsənmi, stəkən nəjə ycdy? Biz ki iki adamьq.

Qulu

Aqa elə bildim ki, Imran aqa da buradadьr.

Hась Murad

Coq qələt etdin. Adam gəlib əvvəl qonaqьn hesabьnь bilər sonra da ona görə caj gətirər.

Qulu

Baş ystə aqa. Bundan sonra buraja qonaq gəlsə cajь qonaqьn sajьna görə gətirərəm.

Hаçь Murad

Bəs nəjə qənd gətirməmisən?

Qulu

Aqa qənd salmьşam.

Hаçь Murad

Jenə də qələt etmisən. Bəlkə biri cajь şirin icməjəçəkdir. Dişləmə icəçəkdir.

Qulu

Aqa dedim janьnda qonaq var, bəlkə salma icəçəksiniz.

Hаçь Murad

Zalьm oqlu, hər şejə çavab verməsə olmaz. De itil get.

Qulu
(gedərkən kənara)

Dejəsən Məhərrəm əmi də ava cьqьbdьr.

Hаçь Murad

Göryrsən bu zalьm uşaqlarь mənim başьma nə iş gətirir?

Məhərrəm bəj

Bəli, jaqşь nökər adamьn çanьnь rahat edər, amma pisi əmryny azaldar. Haçь bu gynlərdə əlimə bir həmşəri dyşybdyr, nökər dutmuşam, bir dyzgyn jaqşь qulluq jetirən fəqirin biridir. Göndərim gəlsin pulsuz, zadsьz sizə qulluq etsin.

Hаçь Murad

Coq saq olun. Mərhəmətin artьq olsun. Göndər gəlsin, ta Qulunun murdar yzyny görməjim. Məhərrəm bəj, bujur caj ic. Aqzьnь şirin et. Caj özy də şirni kibi bir şejdir. A kişi dejirlər ki, cajьn əsli jerində, ki ibarət olsun Cindən, cajь qəndsiz icirlər. Amma bizim adamlar myəllimlərindən əqilli cьqmьşlar. Qəndi stəkənə doldurub doşab edirlər. Nədi nədi mən caj icirəm. Jə'ni əslindən bir şej dejil. Artьq xarçdьr da...

Məhərrəm bəj

Ondan ilavə, bədənə də zərərdir, yrəji bişirib tərk edir. Bəli bir coq bu kibi izafə xarçlar aramьzda adət olmuşdur. Məsələn: toj işində, vaj işində məsrəf olan xarçlar kibi.

Haçь Murad

Joq, onlar da dədə babadan qalma adətlərdir. Tərk etmək lazьm dejil. Ançaq bu kyrsy, cəngəl-bьcaq və qejri izafə şejlər ki, jenilər adət etmişlər, qьzьn çehizində verilsin, baq bu bir şej dejil. Allah əl veribdir, jeməjə, diz veribdir əjləşməjə.

Məhərrəm bəj
(kənara).

Bəli, işarəsini anladьm (Haçь Murada). Haçь indi qulluqunuzdan myrəxxəst olum və əzym də tədarykdə olum.

Haçь Murad

Coq əçəb, get mən də vaqtьnda sənə mə'lum edərəm.

Məhərrəm bəj
(qalqьr).

Haçь, xydahafiz.

Haçь Murad

Xydahafiz. Get allah amanьnda olasan. (Məhərrəm bəj cьqьr.) Afərin sənə Haçь Murad, işi elə dutdum ki, Məhərrəm bəj əzy gəlib qьzьma elci dyşdy, amma o da hərifdir, əzyny o jerə qojmuşdu ki, guja hec bir zaddan xəbəri joqdur. Indi qaldь Imranьn bir çyr başьnь əkib Irana göndərmək. Qulu, Qulu! (dejə caqьrьr.)

Qulu
(daxil olur)

Nə bujurursan aqaçan?

Haçь Murad

Çanьna dərd bujururam. Məni Məhərrəm bəjin janьnda bijabьr etdin.

Qulu

Aqa mən nə elədim?

Haçь Murad

Hələ nə elədin? O nə çavab idi verirdin? Caj verməkdə də qabilijjətin joqdur.

Qulu

Aqa, adam gərək doqru danьşsьn, sən soruşursan mən də dyzyny dejirəm. O ki qaldь cajьn tökylməji, onda da taqsьrьm joqdur; cynky padnos elə köhnədir ki, ortasь qozbel adamьn beli kibi qalqьbdьr. Icində stəkən də durmur.

Haçь Murad

Səsini kəs, ajь oqlu ajь. Hər şejə baq belə çavab verirsən. Daha məni təngə gətirmisən. Sənə söz kar eləmir. (Aqaçь gətyryb.) Ajьnь baq bunnan öjrədərlər (dəjyr, Qulu da qьşqьrьr.)

PƏRDƏ.

YCYNÇY PƏRDƏ

Səhnə Haçь Muradьn otaqьnь göstərir.

Haçь Murad
(jalьnьz)

Hərcəndi Məhərrəm bəjə söz verdim ki, qьz mənim itaətimdən cьqa bilməz, amma göryrəm cətin olaçaqdьr; cynky Gylzarьn konlu Imrandadьr. Görym Məhərrəm bəjin mal devlətinə aldada bilərəmmi? Hərgah bu mymkyn olmasa, atalьq ixtijarьmь əlimə alaram.

Qulu
(daxil olur)

Aqa bir həmşəri gəlib səni soruşur.

Haçь Murad

De gəlsin. Məhərrəm bəj göndəribdir. Mənə qulluq edəçəkdir. Daha bu gyndən murdar yzyny hər saat görməjəçəjəm.

Qulu

Aqa mənim yzym hec olmasa aqdьr, amma onunki qap-qaradьr.

Haçь Murad

De itil get. Jenə cərənnəməjə başlama. (Qulu cьqьr.) Gərək Məhərrəm bəj göndərdiji nökər neçə

adamdьr. O da Qulunun tajь isə hec cörək vermək lazьm dejil. (Əliqulu daxil olur və əllərini döşynə qojub qajda ilə haçь Murada tə'zim edir.)

Haçь Murad

Bujur əjləş.

Əliqulu

Çənabьnьzьn hyzurunda əjləşməji bəndə özynə çyr'ət edə bilməz.

Haçь Murad
(kənara)

Baq nökər belə olar nə inki Qulu kibi, zalьm oqlu yc saat cərənnəməsə adamdan əl cəkmir (Əliquluja.) Bujur əjləş izn verirəm. (Əliqulu ədəbanə diz ystə əjləşir.)

Əliqulu

Bəndənizi sərkar Aqa Məhərrəm bəj göndəribdir ki, çənabьnьza xidmət edəm.

Haçь Murad

Pulsuz-zadsьz, dynən bəj özy belə bujururdu.

Əliqulu

Bəli, məvaçibim Məhərrəm bəjdən cataçaqdьr.

Haçь Murad

De gərym jeməkdə pərgarsan ja joq?

Əliqulu

Xejir aqa, coq kəmxorəjəm. Bir necə xurma ilə dolanmьş adamam.

Haçь Murad

Coq jaqşь. Mənim coq jejən adamdan açьqьm gələr; cynky adam gərək hejvandan fərq olsun. O da ançaq jemək ilə olar. Indi de gərym əlin-zadьn təmizdirmi?

Ə l i q u l u

Aqa, bəndə uşaqlıqdan bəyiklər evində tərbijə almışam. Yst-başım həmişə təmiz olar.

H a ç ı M u r a d

O mə'nada demədim. Jə'ni oqurluq-zad əlindən gələrmi?

Ə l i q u l u

Aqa, əlhəmdullah, mən mysəlmanam, mysəlman olan şəxs də oqurluq edərmi?

H a ç ı M u r a d

Bəs onda bizim Quludan xəbərin joqdur. İndi qulaq as, gör işin nə olaçaqdır. Bu otaqı ki gəryrsən, buraja səndən başqa qejri nökər, qulluqcu girməjəçəkdir. Oçaqları qalamaq, samavarı qojmaq, nahar bişirmək bunların hamısı sənin işindir. Xylasə qulluquna baqaram, jaqşı olsan evimin hər ixtijarını sənə verəçəjəm.

Ə l i q u l u

Umud varam ki, çani-dil ilə quluq edib əmrinizi jerinə jetirəm.

H a ç ı M u r a d

Adın nədir? Özyn də haralısan?

Ə l i q u l u

Adım Əliquludur, özym də Tehran əhlijəm.

H a ç ı M u r a d

Səni bu şəhərdə tanıjan varmı?

Ə l i q u l u

Xejir, buraja iki həftədir ki, gəlmişəm və Məhərrəm bəjdən başqa hec kəsi tanımıram.

H a ç ı M u r a d

Coq əçəb. Bu gyndən sən öz işində ol. (Caqırır.) Qulu, Qulu. (Qulu daxil olur.)

Q u l u

Nə bujurursan, aqa?

H a ç ı M u r a d

Qulu, bu gyndən sənin ev işinə qarışaçaqsın olmajaçaqdır. Onların hamısının Əliqulu görəçəkdir. Sənin işin su daşımaq, baqcanı sulamaq, həjəti sypyrmək. bazara getmək olaçaqdır. Xylasə bajır işi sənnəndir ev işi ilə Əliqulu məşqul olaçaqdır. Daha bundan sonra, qab-qaçaq ilə, qənd-caj ilə, pəndir-cörək ilə, mətbəx ilə bilmərrə işin olmasın, qandın ja joq?

Q u l u

Bəli aqa qandım.

H a ç ı M u r a d

Elə dejirsən ki, başa dyşdym, amma işi dutanda tərsinə edirsən. Təkrar et görym, nə edəçəksən?

Q u l u

Məsələn, elə ki, gördym it girib icəridə cərəji jejir, gərək gedib Əliqulu əmini tapam gəlsin onu qovsun. Ja da oçaqda syd daşır.

H a ç ı M u r a d

Dajan kafir oqlu kafir. Demədinmi ki, hər şeji tərsinə anlajırsan. A məsəl gətirən köpək, bunu bir balaça uşaq da başa dyşər ki, gördyn it cərəji jejir qov getsin. Burada nə Əliqulu, nə Vəliqulu. Daha nə?

Q u l u

Məsələn, elə ki, gördym oqru evə girib sandьqlarь jarьr gərək gedib Əliqulu əmini durquzam ki, gəlib onu tyfəngləsin.

H a ç ь M u r a d

De eşit a kişi, jeddi ildir ki, bu həçət ajьnь saxlajьram. Gör mənim səbrim Əjjub pejqəmbərin səbrindən artьqdьnь, daha sənə nə dejim? Axьrda o misal gətirdijin oqru özyn olaçaqsan. Get şələ-şyləni jьqьşdьr, bundan sonra bir saat da səni burada saqlamaram. Nejə dajanьbsan?

Q u l u

Aqa, getməjə hazьram. Ançaq bu necə ildə mənə bir qəpik də verməmisən. Həqqimi ver, baş ystə gedim.

H a ç ь M u r a d

Sənə nə verəçəjəm. Hec bir qara qəpik də verməli dejiləm. Həqqin tamamilə sənə catьbdьr. Əslinə baqsan, sən mənə borçlusan.

Q u l u

Bəli myftə qulluq etdijimiz bəs olmadь hələ borçlu da cьqdьq. İndi ki belə oldu, ja sən and ic əl çəkim ja mən and icim həqqimi ver.

H a ç ь M u r a d

İndi də saqqalьmьn aq vaqtьnda durub sənə and içəçəjəm. Itil çəhənnəmə. Joqsa durub səni qolu baqlь qazamata göndərərəm.

Q u l u
(cьqarkən)

Haçь Murad xydahafiz. Sənə göstərərəm, mənə Qulu dejərlər. (Cьqьr.)

H a ç ь M u r a d

Axьrь zalьm oqlunun əlindən qurtardьm. Kişi məni təngə gətirmişdi. Özyn göryrdyn ki, mənə nə tevr çavab verirdi. İndi dur get mitbəxə caj-zad hazьrla və özyn də hər şejdə qənaət gözlə. Hər vaqt caj-qənd lazьm olsa gələrsən özym verərəm. (Əliqulu cьqьr.) Hər əsərindən dyz adama oqşajьr. Amma jenə insanь tanьmaq olmaz. Jaqşьsь budur ki, elə bu saat imtəhana çəkim. Joqsa sonra peşimancьlьqьnь çəkərəm. Jaqşьsь budur ki, jerə pul atьm, qьzьl pul atьm ja gymyş? Elə bu abbasьnь ataram. Aza təməh edən coqa da edər. (Abbasьnь jerə atьr.) Əliqulu, Əliqulu. (Əliqulu daxil olur.)

Ə l i q u l u

Nə bujurursan aqa?

H a ç ь M u r a d

Mən baqcaja gedirəm, gələnə kibi bu otaqь sypyr.

Ə l i q u l u

Baş ystə aqaçan. (Haçь Murad cьqьr.)

Ə l i q u l u
(jalьnьz)

Coq calьşdьm ki, Məhərrəm bəj məni kəndə göndərsin orada ona baqban ja bostancь olum, razь olmadь. Dedi gərək sən şəhərdə qalasan. Burada da mənə qulluq edəsən, ev işində qabilsən. Amma mən də şəhərdə qalmaqdan qorquram; cynky burada coq Iran əhli var. Məni tanьjьb qonsula mə'lum edər dutdurar, onda qolu baqlь Tehrana syrgyn olub həbsxanada cyryjəçəjəm. Joq, burada jaşamaq mənim ycyn qorquludur. Tezlik ilə puldan şejdən əlimə salьb qacmaq lazьmdьr. (Abbasьnь gətyryb.)

Bu kimin ola. (Fikir edir.) Hə bildim, jəqin Haçь Murad məni imtəhana cəkib onda da bu abbasь ilə. Aj qoça kaftar, mənə Tehran lotusu Səftər dejərlər, belə abbasь ilə mənim əlimdən qurtara bilməzsən. Pullarьn, qьzьllarьn jerini gəstər. Allah mənimkini jetiribdir. Haçь Murad, Qulunun əlindən qurtarьb Əliqulunun cəngəsinə dyşdyn.

Haçь Murad
(daxil olur)

Otaqь təmiz etdinmi?

Əliqulu

Bəli aqa, sypyrəndə bunu tapdьm, bujurunuz. (Abbasьnь verir.)

Haçь Murad

Mərhaba, mərhaba. Gəryrəm sən dyz adamsan, sənə arxajьn ola bilərəm. Bunu Qulu tapsajdь, hec vaqtь verməzdi.

Əliqulu

Aqa, bajaq ərz etdim ki, mənim dynja malьnda tamahьm joqdur.

Haçь Murad

Çoq jaqşь. Get Gylzar xanьmь buraja caqьr. (Əliqulu cьqьr.) Hec bu zamana adamьna oqşamьr. Amma Gylzar tərəfdən yrəjim rahat dejil. Gərək nə təhər olaçaqdьr. Bu geçə də bir pis juqu gərmyşəm, allah axьrьnь xejir etsin. Məni o gərdyjym şejtanьn şərindən hifz etsin. (Gylzar qorqa-qorqa icəri girir.) Qьzьm nəjə qorqa-qorqa girirsən? Irəli gəl əjləş. Bir az ata-bala dərdləşək. Hec qьzьm gəlib əhvalьmь soruşmursan. Demirsən ki, bir qoça atam var, qoj gedim gərym dərdi nədir, səri nədir.

Gylzar
(kənara)

Xudaja gərəsən nə var. Bu məni əbəs jerə caqьrmaz.

Haçь Murad

Qьzьm səni həmişə qəmgin, bikef gəryrəm, nəjə dinmirsən? Danьşmьrsan, nəjin əksikdir. De alьm.

Gylzar

Aqa hər şejim var. Şykyr allaha hec bir zaddan kəsirim joqdur.

Haçь Murad

Bəs nəjə hec qaş-qabaqьn acьlmьr? Elə bil ki, gəmilərin dərjaja batьb qərq olubdur. Allaha şykyr mənim kibi atan var, sən nəjə qəm cəkəsən?

Gylzar

Xejir aqa, bir qəmim joqdur. Hərgah danьşmьram ona da səbəb joldaşsьzlьqdьr.

Haçь Murad

Doqru dejirsən. Joldaş lazьmdьr. Çan joldaşь. Axirət joldaşь, bəs elə bilirsən aqan sənin fikrini cəkmir? Sənə joldaş axtarmьr? Bu qoça atan sənə bir elə joldaş tapьbdьr ki, cьraq gətyryb çəmi dynjanь axtarsan, tajь bərabəri tapьlmaz.

Gylzar

Xajьr aqa mən elə joldaş demirəm.

Haçь Murad

Bilirəm qьzьm, atan bir o qədər də qoça dejil ki, çavan qьza nə təhər joldaş lazьm olduqunu bilməsin. Ah qьzardьn. Ha-ha-ha. Indi tap gərym kimi

dejirəm. Tapa bilmirsən? Əlbəttə elə şəxsdir ki, jatsan juquna da girməz. Dövləti, pulu həddən aşıbdır. Qapısında xidmətcinin sajı, hesabı joqdur. Özy də şəhərimizin birinçi bəjidir. Jenə tapa bilmirsən? Nökəri də qapımızda xanıma myntəzirdir. (Gylzar təşviş ilə).

Gylzar

Məhərrəm bəj.

Haçı Murad

Afərin qızım, jaxşı tapdın hec belə nişanlı əqlinə gələrdimi? Özy gəlib mənə elci dyşdy.

Gylzar

Aqa, mən hec kəsə ərə getmək istəmirəm.

Haçı Murad

Bilirəm qızım, məni coq istəjirsən. Məndən ajrılmaq istəmirsən. Doqrudur mənim ycyn də cətindir, ançaq göryrsən ki, mən də gyny gyndən geri gedirəm. Bir ajaqım buradadır, bir ajaqım gorda. Səni belə qojub getsəm, qəbirdə rahat olmaram. Amma indi arxajınam. Bilirəm ki, qızım bir elə şəxsə vermişəm ki, hər bəjyk məclisdə hamı xanımlardan baş əjləşəçəkdir. Zərif paltarlar gejib çavahirləri ystynə taqıb janında qul, qaravaş ilə qonaqlıqa gedəndə çəmi arvadlar ona həsrət araçaqlar. Hə qızım, göryrəm yrəjin tələsijir. Məhərrəm bəj bu saat tədarykdədir. Dejir ki, gərək elə toj eləjəm ki, misli bu şəhərimizdə olmamış ola.

Gylzar

Aqa, hərgah bunları mənə deməkdən qəsdin odur ki, məni onun malına, puluna aldadasan, onda səhvin var. Mənim dynja malında tamahım joqdur.

Haçı Murad

Qızım, sən hələ çavansan, dynja görməmisən. Xoşbaxtlıq ibarətdir maldan, devlətdən.

Gylzar

Aqa, əgər mənim xoşbaxtlıqımı istəjirsənsə bu fikirdən daşın. Mən hec vaqt Məhərrəm bəjə getməjəçəjəm.

Haçı Murad

Qızım dejəsən şadlıqından dəli oldun. Sən xejir-şərini anlamırsan. Uşaqa ata, anası açı dərman verəndə onu özynə zəhər, ata, anasını da zalım hesab edər və hal onki onlar balasının istədijindən edirlər.

Gylzar

Jenə təkrar edirəm ki, zəhər icib özymy öldyrəram, Məhərrəm bəjə getmərəm.

Haçı Murad

Bu sənin axırıncı sözyndyr?

Gylzar

Bəli.

Haçı Murad

Coq əçəb. Mən sənin xoşbaxtlıqını istəjirəm. Məhərrəm bəjdə gənlyn joqdur, bəs Imranda neçə?

Gylzar
(sevinçək)

Aqa mən səndən utanırdım, mənim ondan başqa bir kəsdə gənlym joqdur. Amma Imran inanmajırdı ki, sən məni ona verərsən. Mənim məhəbbətim onadır.

Haçь Murad

Paho, siz mənsiz səz verib qurtarmьşsьnьz, mənim xəbərim joq imiş. (Rişxənd ilə.) Xejir işiniz mybarək olsun, Gylzar xanьm. Siz mən haçь Muradь jaqşь tanьmamьsьnьz. Daha bəsdir, mən elə bilirdim ki, sən өz xejrini başa dyşə bilərsən. Qanmazь qandьrarlar. Səzsyz-zadsьz dur get. Өzyn də tədarykdə ol.

Gylzar

(atasьnьn dizlərini quçub aqlaja-aqlaja)

Ata, jazьqьn gəlsin, məni bədbəxt etmə. Bu tөkylən gөz jaşьma rəhmin gəlsin. Iki çavanьn ahьndan qorq.

Haçь Murad

Joq, joq mən dedijimdən dönmərəm. Arvadьn gөz jaşь, ja bir şeh, gyn cьqar qurudar.

Gylzar

Ata allahdan qorq. Məhəbbət jolunda tөkylən gөz jaşьnь hec zad quruda bilməz.

Haçь Murad

Cəkil. Məhəbbət nədir, zad nədir? Sənə hər nə hөkm edirəm əmələ gətir.

Gylzar

(ajaqa qalqьb)

Məhəbbət nədir? Məhəbbət oduna jammajana onu qandьrmaq mymkyn dejil. Məhəbbəti dynja malьna almaq olmaz. Məhəbbətə hөkm joqdur.

Haçь Murad

Məhəbbət odur ki, adamь dəli, əhməq edib allah göndərən ne'məti əlindən buraqьr. Gөryrəm sən dəli

olmusan. Amma dəlini də aqьllь etmək mymkyndyr. Sənə yc gyn möhlət verirəm. And olsun allaha hec bir şejlə dedijimdən dönmərəm. De get jaqşь fikir elə.

Gylzar

Indi ki, belə oldu mən də and icirəm o məhəbbətə ki, daşь jumşaldьb fəhmə gətirərdi səni gətirmədi, ja Imran ja ölym.

Haçь Murad

Imran. Bir o qalmьşdь ki, çəmi şəhərdə bijabьr olub өz nөkərimə qьz verəm. Get Imrandan bilmərrə əlini yz.

Gylzar

Jaqşь, dynjadan bilmərrə əlimi yzərəm. (Cьqьr.)

Haçь Murad

(tək)

Bilirdim ki, belə olaçaqdьr. Joq. Imranь qovmasam iş dyzəlməjəçəkdir. Imran gedəndən sonra umudu kəsilib razь olar, qьzьn dedijinə baq. Məhəbbət dynja malьna aldanmaz. Məhəbbətin həkmy joqdur. Məhəbbət baq budur ki, ystyndə oturmuşam. Bunsuz nə məhəbbət? Bu məhəbbət, məhəbbət dejənləri verələr dama salam, aqzьnь da baqlajam. Gөrərsən neçə açьndan, suzundan bir-birinin ətini jejib qanьnь icərlər.

Nabat

(təngnəfəs icəri jyjyryb)

Aqa, muştuluqumu ver, Şərəf xanьm gəldi.

Haçь Murad

Səfih qьzь səfih. Elə jyjyryr ki, dejəsən janqь var. Coq bəjyk iş olubdur. Gələndə dejəsən mənə quş başь gətiribdir.

Nabat

Aqa, doqrudan da dərt dənə qьrqovul gətiribdir.

Haçь Murad

Tək gəlibdir ja uşaqlarьnь da gətiribdir.

Nabat
(kənara)

Zalьm oqlu qabaqça adamьn hesabьna gedir. (Haçь Murada.) Janьnda bir balaça oqlu Əhməddir. Bir də nökəri Çə'fər.

Haçь Murad
(kənara)

Öz jejib icənimiz az idi, bunlar da artdь. (Nabata.) Sənin muştuluqun odur ki, gəz-qulaq olasan, o nökər şeydən-zaddan oqurlamasьn. De get dajanma.

Nabat
(gedərkən kənara)

Mənə dejən gərək aj ahmaq qьzь bundan sən nə istəjirsən? O öz hajьndadьr ki, onlar burada qalьb cörək jejəçəklər.

Haçь Murad
(tək)

Indi də işlər tərsinə gedir. (Şərəf xanьm, Əhməd və Gylzar daxil olurlar. Şərəf xanьm haçь Muradьn bojnunu quçaqlajьr).

Şərəf xanьm

A qardaş, nə zəif dyşmyşsən, nə qoçalmьsan?

Haçь Murad

Nəjə qoçalmajьm, nəjə zəif dyşməjim. Bu gyny ki, mən cəkirəm, hər kəs olsajdь jeddi kəfən cyrytmyşdy.

Şərəf xanьm

A qardaş, sən nəjə pis gyn cəkəsən, nəjin əksikdir? Malьn var, pulun var, Gylzar kibi qьzьn, qapьnda da xidmətcilərin. Sən otur qoj sənə qulluq eləsinlər.

Haçь Murad

Elə ki onlar mənə qulluq edirlər etməsələr ondan jaqşьdьr. O ki Imrandьr əlini aqdan qaraja vurmur. Az qalьbdьr ki, məndən xanlьq iddiasь etsin. Gylzar xanьm da atam joqdur dejir. Aqa xanьm belə olanda, nökər qulluqcudan nə ummaq.

Şərəf xanьm

Imran gərək elə oqlan olmasьn. Onun tə'rifi hər jerdə söjlənir. Gylzardan narazь olmaqьna təəççyb edirəm. Mən ona elə tərbijə verməmişəm ki, atasь əmrindən cьqa, zəhmətindən inçinə.

Haçь Murad

Gəryrəm coq jaqşь tərbijə vermisən.

Şərəf xanьm

Hec vaqt inanmaram, sənin xasijjətin pisdir. Mənim özym də qьz vaqtь nə qədər sənə jaqşь qulluq edirdim, jenə razь qalmьrdьn. Gylzar bu nə işdir? (Gylzar başьnь aşaqь salьb aqlajьr.) Oьzьm aqlajьrsan? (Haçь Murada.) Gəryrəm qьzь nə hala salmьsan. Saralьb hejvaja döndərmisən, on səkkiz jaşьnda çavanь qoçaldьb qarь eləmisən.

Haçь Murad

Mən ona nə edirəm ki, sarala. Durub təzədən ona nənəlik edə bilmərəm ki? Nökəri var, qulluqcusu var jesin, icsin, gejsin gəzsin. O ki qaldь qoçalmasьna ona da bais özydyr. Məhərrəm bəj kibi adam özy

gəlib mənə elci dyşyb qьzьmь istəjir, Gylzar xanьm dejir ki, ozymy əldyrərəm, ona getmərəm. Daha mən nə dejim. Adam da bu dərəçədə dəli ulub elə mal devlətdən əl cəkərmi?

Ş ə r ə f x a n ь m

A qardaş nə danьşьrsan? Sən təmiz əqlini itirmisən. Dynja malь gəzlərini pərdələmişdir. Məhərrəm bəj nədir, zad nədir? Qьzьnьn nişanlьsь on iki ildir sənə zəhmət cəkib pul qazanьbdьr. Indi nə olubdur ki, əhdindən dənyb qьzьnь öz jaşьnda joldaşьna verirsən? Eşidənlər nə dejərlər?

H a ç ь M u r a d

Bujur bu da əqillimiz. Jaqşь dejiblər ki, arvadьn əqli olmaz. Eşidənlər mənə dəli dejər ki, qьzьmь Imrana verib, Məhərrəm bəj kibi adamь əlimdən cьqaram.

Ş ə r ə f x a n ь m

Eşidənlər sənə əqilli dejərlər ki, qьzьnь Imrana verib ata jurdunu abad edirsən.

H a ç ь M u r a d

Əçəb bujurursan Şərəf xanьm. Məhərrəm bəj mənim atamьn jurdunu tar-mar edər, amma gedənin biri abad edər. Arvadlarьn əqli belədir. Mən qьzьmьn xoşbaxtlьqьnь istəjirəm.

Ş ə r ə f x a n ь m

Jaqşь, hərgah qьzьn gənly Məhərrəm bəjdə joqdur, onun malьna təmə' etmir, onda o neçə xoşbaxt ola bilər?

H a ç ь M u r a d

Qьz hec jedijini, icdijini başa dyşə bilmir. O xoşbaxtlьqь nə anlajaçaqdьr? Arvad mal devlətin

qədrini onda anlajьr ki, uşaqlarь artьb ana mənə cörək ver dejəndə təknədə cörək olmaja.

Ş ə r ə f x a n ь m

A kişi sənin puluna, devlətinə nə gəlibdir ki, qьzьn, Imranda cörəksiz qala? Və bundan ilavə Imran elə oqlandьr ki, öz əlinin zəhməti ilə arvadьnь xandan, bəjdən jaqşь saqlar.

H a ç ь M u r a d

Pulum hardadьr, malьm hardadьr? Zurna calьb aləmə səs salmьsьnьz ki, haçь Muradьn pulunu sandьqlar dutmur. Bilmirəm bu pulu mənə kim qojubdur. Atam qojubdur, babam qojubdur.

Ş ə r ə f x a n ь m

Sənin aqlamaq qədmi xasijjətindir. Bir şeidən kəsrin olmaz, amma özyny diləmci jerinə qojarsan. Xylasə Məhərrəm bəi fikrindən bilmərrə daşьnarsan. Mən hec razь ola bilmərəm ki, Gylzarь bədbaxt edib altmьş jaşьnda qoçaja verəsən.

H a ç ь M u r a d

Bujur, bu da aq bircək bibisi. Əqil öjrətməkdən aqzьna dil verir. Aj qьz ej, mən dedijimdən dənmərəm. Imranь bilmərrə unudarsan. Bilmirəm bu mənə nə Imran oldu. And olsun allaha onu bundan sonra bir saat da evimə qojmaram, qoj getsin, gör onu da neçə Qulu kibi qovaram.

Ş ə r ə f x a n ь m

Elə bir o qalmьşdь ki, qьzьnь bir qoça xəsis kaftarьn puluna satasan.

H a ç ь M u r a d

Bilmirəm bu hardan gəlib cьqdь. Nejə qoça olur? Nökər dalьnda, qьzьl quş əlində atdanьb ova

cьqanda elə bil ki, bir lacьndьr. Daha bəsdir. Indi de gərym sən өzyn neçə dolanьrsan?

Şərəf xanьm

Nə dejim? Allah dərd, qəm jaradanda bizim ycyn jaradьbdьr. Uşaqlar artьbdьr. Kişinin də əli aşaqь dyşmyşdyr. Geçə, gyndyz işləməkdən əllərim qabar olmuşdur.

Haçь Murad

Bujur bu da sənin өz başьna gələn. Daha Gylzara neјə razь olmursan? Rəhmətlik atama dedim ki, kişi Şərəfi bu kasьba vermə, necə devlətli istəjir onlarьn birinə ver. Dedi joq. Bu əqilli, kamallь adamdьr. Bunda Şərəf xoşbaxt olar.

Şərəf xanьm

Xajьr, atam səhv etməjibdir. Mən ərimdən coq razьjam. Өzym də coq xoşbaxtam ki, allah məni bu çyr adama qismət edibdir. Dynja malь bir puc şejdir. Gedər də gələr də. Ər odur ki, qara gyndə arvad ilə joldaş olub bir-birinə çan dejib çan eşidələr.

Ə h m ə d

Ana, bəs sən dejirdin ki, đajьn sənə qənfet verəçəkdir? Bəs nəjə vermir?

Haçь Murad

Oqlum qənfet pis şejdir. Adamьn boqazьnь aqrьdar. Sən jekə oqlansan. Qənfeti nejlirsən?

Ə h m ə d

Ana, Gylzar baçьmgilin baqcasьnda elə coq alma var ki, gələndə gərdym.

Haçь Murad

Joq oqlum, dəjmə, jetişəndə jьqьb sənə gondəraçəjəm.

Ə h m ə d

Mənim өzym burada olaçaqam. Dəjəndə jьqaram.

Haçь Murad
(kənara)

Bunda jaqşь xəbər var. Dejəsən Şərəf coq qalaçaqdьr.

Şərəf xanьm

Sizin dərdiniz өz dərdimi də jaddan cьqartdь. Əhməd bəjyjybdyr, oqumaq vaqtь kecir, dedim gətirim sizdə qojum həm məktəbə getsin, həm də Gylzara hajan olsun.

Haçь Murad
(kənara)

Mazandaranda caqqal az idi, biri də gəmi ilə gəldi. (Şərəfə.) Joq, joq saqlaja bilmərəm. Өzgə uşaqьnь saqlamaq bir xata şejdir. Bunun korluqu var. Azarlamasь var. Aqaçdan jьqьlmasь var. Anasьz ona kim baqaçaqdьr?

Şərəf xanьm

Əhməd dinç uşaqdьr. Hec kəsə korluqu olmaz. O ki qaldь azarlamaqь, onda da arxajьn ol. Gylzar ona analьq edər.

Gylzar

Bibi arxajьn ol. Onu өzymdən jaqşь saqlaram.

Haçь Murad

Joq, joq Gylzar bilmir. Uşaqьn tarpьna dəzmək olmaz. Imranda gərmyşəm. Məni qoçaldan o olmuşdur. Evimi daqьdan o olmuşdur.

G y l z a r
(kənara)

Allah xəçalətimdən bibimin yzynə baqa bilmirəm.

Ş ə r ə f x a n ь m

A qardaş, bir uşaqьn jeməji, icməji nə olaçaqdьr ki, bu sənin evini dağьda.

H a ç ь M u r a d

Xylasə mən razь dejiləm.

Ş ə r ə f x a n ь m

A qardaş, baçьnьn əli aşaqь dyşəndə köməjə qardaşь ystə jygyrər. Indi mən də qardaş adь ilə evimi jeiəsiz qojub jaпьna gəlmişəm. Ejbi joqdur. Uşaq səni inçidər apararam. Ançaq səndən bir təvəqqəm var məni ondan naumud qajtarma. Ərimin beş jyz manat borçu var, borç sahibi bir pis adamьn biridir. Gyndə qapьmьza gedib gəlməkdən bizi təngə gətiribdir. Kişijə dedim ki, qardaşьmь görməjə gedirəm, amma əsil fikrim o idi ki, səndən alьb aparьb verəm. Abrьmьz acьlmasьn.

H a ç ь M u r a d

A baçь sən ki özgəsi dejilsən, məjər mənim var joqumu bilmirsən? Məndə pul hardandьr ki, sənə verim?

Ş ə r ə f x a n ь m

Qardaş, burada xəsislik jeri dejil. Burada baçь namusu var. Razь olma ki, baçьnьn paltarlarь bazarlarda tökylyb satьlsьn və bir də mən səndən borç istəjirəm. Sən gözləjə bilərsən. Amma özgəsi gözləjə bilmir.

H a ç ь M u r a d

Axь nə ycyn inanmьrsan, sənə dejirəm ki, özym pul yzynə həsrətəm.

Ş ə r ə f x a n ь m

Atamdan qalan pul və özyn qazandьqьn pullar neçə olmuşdur ki, mənə beş jyz manat tapьlmьr. Sandьqlarьn aqzьnь bərk baqla.

H a ç ь M u r a d

A kişi, bu zalьm uşaqlarьnь inandьrmaq olmaz ki, bujur bu mənim çiblərim bu da mənim sandьqьm. (Durub paltar sandьqьnь acьr.) De gəl baq gör burada əski-yskydən başqa nə var. (Qorqa-qorqa o biri sandьqa baqьr.)

Ş ə r ə f x a n ь m

O biri sandьqьn aqzьnь ac.

H a ç ь M u r a d

Sən mənim evimə pristav gəlmisən? Asmotr edirsən? Coq da var, nəjə verim. Cəldən tapmьşam?

Ş ə r ə f x a n ь m
(ajaqa qalqьr)

Daha sənə nə dejim? Qarqьş etməjə də jerim joqdur; cynky bura mənim atam evidir. Çə'fər, Çə'fər. (Çə'fər daxil olur.)

Ç ə ' f ə r

Nə bujurursan xanьm?

Ş ə r ə f x a n ь m

Çə'fər, bu saat fajtonu qoşdur gedəçəjəm.

Ç ə ' f ə r

Xanьm, gyn kecibdir gedib catmaq olmaz.

Ş ə r ə f x a n ь m

Ejbi joqdur. Harada geçələrik orada qalarьq. Burada qala bilmərəm. Gərək gedək.

Ç ə ' f ə r

Baş ystə xanьm. Ançaq faytoncunun pulu qalьbdьr istəjir.

Ş ə r ə f x a n ь m

Өzyndə varsa ver, joq isə ala bu yzyjy apar sat ver. (Barmaqьndan yzyjyny cьqardьb verir.)

Ç ə ' f ə r

Xanьm lazьm dejil, məndə var verərəm. (Cьqьr.)

G y l z a r
(aqlaja-aqlaja)

Bibi başьna dənym bu geçə vaqtь getmə.

Ş ə r ə f x a n ь m

Joq Gylzar, qala bilmərəm. Bu ev mənim ycyn çəhənnəmdyr. Dur oqlum gedək.

G y l z a r

Bibi məni də apar. Burada qojub getmə.

Ş ə r ə f x a n ь m

Səni hara qojub gedirəm. Belə zalьmьn evində bir saat da qojmaram. Dur gedək.

H a ç ь M u r a d

(Gylzarьn əlindən dutub өzy tərəfə cəkir)

Haraja aparьrsan? Qojmaram.

Ş ə r ə f x a n ь m

Cəkil kənara. Өrymcək kibi jazьq qьzьn qanь sorub bu hala salmьsan. Belə kafir ataja gözəl balanь vermərəm.

DƏRDYNÇY PƏRDƏ

Səhnə haçь Muradьn baqcasьnь göstərir. Ajdьnlьq bir geçə. Imran gəzinərkən səjlənir.

I m r a n

Aj zalьm, ej biinsaf kişi, əhdindən dönyb səni devlətli edəni evindən qovursan. Dynja malьndan ötry Gylzar kibi qьzь bir qoçanьn puluna satьrsan? Joq zor ilə də olsa gərək bu geçə aparam. Nabatdan bir xəbər cьqmadь. Joqsa qoça kaftar gyç ilə Gylzarьn nikahьnь oqutdu. Ja Gylzar naəlaç qalьb razь oldu. Joq, joq, elə iş ola bilməz. Gylzar өzyny өldyrər, Məhərrəm bəjə getməz... Dejəsən qaraltь görynyr. Arvaddьr (Nabat gəlir.)

N a b a t

Imran aqa, başьna dönym javaş danьş hamь ojaqdьr. Qoça kaftar jenə sandьqlarьnь joqlajьr. Qara köpək də sən gedəndən bəri Haçьnьn hökmynə görə nə mənə, nə də Gylzar xanьma göz verib işьq vermir. Bir az səbr elə gərək bir jerə gedərmi ki, Gylzar xanьmь qacьrdam.

I m r a n

Joq Nabat, daha təngə gəlmişəm. Səbr edə bilmərəm. Bu saat zor ilə də olsa aparaçaqam.

Nabat

Qurbanın olum Imran aqa, məni xataja salma. Bu geçə nə tevr olsa Gylzar xanımın əlini əlində gərəçəksən. Ançaq bir az səbr elə. Gylzar xanım Əliquludan fyrsət tapan kibi buraja qacaçaqdır.

Imran

Dajan, xışıltı gəlir...

Nabat

Odur, odur Gylzar xanımın özydyr. (Gylzar qacaraq gəlir.)

Imran

(tez onun əlindən dutub)

Gylzar sənsən?

Gylzar

Imran, daha dajanmaq vaqtı dejil qacaq. Nabat, ala bu yzyk məndən sənə jadigar olsun. (Verir.)

Imran

(Nabata pul verir)

Ala Nabat, allah qojsa jenə bir jerdə olaçajıq. Gylzar gedək. Nabat xydahafiz.

Nabat

Gedin allah sizi salamat etsin. Xoşbaxt olasınız. (Imran və Gylzar gedirlər.)

Nabat

(tək)

Qoçanın murdar yzyndən jaqşı qurtardılar. Qaldım mən bədbaxt. Bundan sonra şəksiz məni də qovaçaqdır. Indi bir allah bəndəsi tapılajdı, məni də bu ilanın aqızından qurtarajdı. (Qulu aqaçın dalından çıqır.)

Qulu

Bu allah bəndəsi mən.

Nabat

Uj kimsən?

Qulu

Nabat xanım dejəsən məni tanımırsan. Paltarımın dəjişilməsinə baqma. Yrəjim jenə sənnəndir.

Nabat

Qulu sənsən, nə hejbətli olmusan. Lap quldura oqşajırsan. Bu xənçər nədir?

Qulu

Səfih qızı hələ soruşur da. Gərmyrsən ki, səni gətyryb qacmaqa gəlmişəm.

Nabat

Hec zarafatdan əl gətyrməjəçəksən? Buraq gedirəm. Gylzar xanım məni axtarar.

Qulu

A hillə mətənə. Mənə kələk gəlirsən? Indi Gylzar xanımı Imrana qacırtmadınmı? Mən gözləjirdim əvvəl jol xanımındır. Sonra qulluqcunun. Ançaq mən onlar kibi səfih dejiləm ki, tədaryksyz gedəm. Gərək qabaqça gedib haçı Muraddan jeddi illik məvaçibimi alam, sonra səni aparam.

Nabat

Qulu sən allah doqru dejirsən? Joqsa məni aldadırsan.

Qulu

Vallah doqru dejirəm. Mən gedəndə sənə nə demişdim, məjə jadından çıqarmısan? Tez get nə şejin varsa jıq. Ucuq hamamın janına get. Məni orada gözlə.

N a b a t

Bəs sən nə edəçəksən?

Q u l u

Mən də gedib haçı Muradı qorqudaçaqam, pularımı alaçaqam. De vaqtı itirmə tez get. (Nabat qacaraq gedir.) Arvadın əqli ja uşaqın əqli, hər şejə o saat inanır. (Fit ilə joldaşlarını caqırır. Bu səsə Nijaz ilə Qurban ystlərində əslihə gəlirlər.)

Q u r b a n

Qulu, nə coq ləngidin?

N i j a z

Bir şej bildin ja joq?

Q u l u

Joldaşlar işimiz coq rast gətiribdir. Evdə bir haçı Muraddan və bir də Əliquludan başqa hec kəs joqdur. Qızı bu saat Imrana qoşulub qacdı. Quliuqcunu da mən aldatmışam ki, səni də mən gətyryb qacaçaqam. Indi gedib jolumu gözləjir.

N i j a z

Bəs Əliquluja nə tədbir cəkmisən? Qulu doqrusu mənim ondan gəzym su icmir. Coq usta hiləgər adama oqşajır. Qorquram bizi aldadıb divana mə'lum edə. Hamımızı dutdura.

Q u r b a n

Nijaz doqru dejir, coq şybhəli adama oqşajır.

Q u l u

Joldaşlar mən elə iş dutmaram ki, ondan bizə xata gələ. Əliqulu divandan elə qorqur, neçə ki, it dəjənəkdən. Bu barədə arxajın olun. Əliqulu bu işdən qaca bilməz.

N i j a z

Səjlə gərək, onu haradan bildin?

Q u r b a n

Əlbəttə səjlə, joldaşımızın neçə adam olduqunu gərək biz də bilək.

Q u l u

Joldaşlar indi onun vaqtı dejil. Sonra sizə danışaram.

N i j a z

Bəs nəjə dajanmışıq? Haçı Muradın qulluquna gedək də.

Q u l u

Joq, gərək gözləjək. Əliqulu özy buraja gələsidir. Odur gəlir. (Əliqulu gəlib catır.)

Ə l i q u l u

Haçı Muradın əziz qonaqları xoş gəlmişsiniz. Ançaq ərbabın bir balaça nəqahəti var. Sizi qəbul edə bilməjəçəkdir.

Q u l u

Əliqulu zarafatı buraq. Nejə belə geç gəldin. Bir şej var?

Ə l i q u l u

Joldaşlar gərək işi sabaha qojaq.

Q u l u

Nə səbəbə?

Ə l i q u l u

Cynky Haçı Murad Məhərrəm bəjgilə gedəsi olmadı. Özy Məhərrəm bəji gözləjir və çvdəkilərin hamısı da ojaqdır. Amma sabah aqşam Məhərrəm bəjə qonaqdır. Otaqın hacarı da məndə olaçaqdır.

Q u r b a n

Joldaşlar, nahaq jerə vaqt itiririk. Indi Məhərrəm bəj gəlinçən mən min ev jarmışdım. O ki qaldı haçı Murada, boqazından elə basaram ki, bir də qijamətdə ojanar.

Ə l i q u l u

Xaĵır, mən buna razı dejiləm. Iş gərək tədbir ilə ola. Joqsa icindən xata cıqar.

N i j a z

Gərynyr Əliqulu işdən baş qacırır. Əmma Qulu bizə özgə çyrə demişdi.

Q u l u

Nijaz doqru dejir, Əliqulu əmi başqa fikirə dyşybdyr, amma bilsin ki, baş dutası iş dejil. Onun fikri bu geçə haçı Muradın pullarına jaqşıça qulluq edib Araz cajını aşmaqdır. (Yzyny Əliquluja dutub.) Belədirmi? Səftər əmi.

Ə l i q u l u
(diksinmiş)

Nə dedin, mən Səftər...

Q u l u

Bəli, Tehran həbsxanasından qacmış oqru başı Səftərsən. Mən də Qulujam. Jaqşı tanı. Məni aldatmaq olmaz.

N i j a z v ə Q u r b a n

Oqru başı.

Q u l u

Indi Tehran lotusu Səftər bizə joldaşmısan?

Ə l i q u l u

Joldaşam. Hər nə bujursanız əmrinizə tabejəm.

Q u l u

Ha beləçə, Əliqulu əmi. Joldaş joldaş ilə tən gərək. Tən olmasa gen gərək. Indi de gərym Gylzarın Imran ilə qoşulub qacmaqından xəbərin varmı?

Ə l i q u l u

Bəli var.

Q u l u

Bəs Nabat hardadır?

Ə l i q u l u

Göndərmisən gedib jolunu gözləjir.

Q u l u

O da dyzdyr. Hərif olmaqını bəgənirəm. Indi bir sual qaldı. De gərym doqrudanmı Haçı Murad Məhərrəm bəji gözləjir?

Ə l i q u l u

Bəli, gyndyzdən məni göndərmişdi ki, Məhərrəm bəji bu aqşama məsləhətə caqırım. Ançaq bəj dedi ki, Haçıja de qonaqlarım var geç gələçəjəm.

Q u l u

Bu daha jaqşı oldu. Indi joldaşlar hazır olun haçı Muradın qulluquna gedək. Əliqulu əmi sən aq saqqalsan. Qabaqa dyş. (Gedirlər.)

PƏRDƏ

BEŞINÇI PƏRDƏ

Səhnə haçь Muradьn otaqьnь göstərir.

Haçь Murad
(jalnьz)

Imranь qovdum getdi, amma qьz jenə də razь olmur. Məhərrəm bəj gəlsin gərək işə nə ənçam çəkərik. Imran da istədi ki, atasь Şejx Əlidən qalan malь məndən istəsin, gərdy ki, xajьr o girən gəl dejil. Elə hesab verdim ki, papaqьnь da götyryb qaçdь. Durum Şejx Əlidən qalan çəvahьr və qьzьllarь joqlajьm. (Durub sandьqь acьr.) Pəh, pəh pəh... almaslarьn şəfəqi gözlərimi qamaşdьrьr. Bu irllikdə mirvarь, bu rəngdə jaqut hec Xəta padşahьnьn xəzinəsində də tapьlmaz. (Qulu, Nijaz, Qurban daxil olurlar.)

Q u l u

Sənin kibi xəsis təməhkar da dynjada tapьlmaz.

Haçь Murad
(sandьqьn qapaqьnь saibb)

A zalьmlar, siz kimsiniz? Məndən nə istəjirsiniz?

Q u l u

Haçь Murad, nökərin Qulunu tanьmьrsan? Nə tez jadьndan cьqarmьsan?

Haçь Murad

Qulu, sənsən? Bujur əjləş. Joldaşlarьn da xoş gəlibdir. Mənə görə nə qulluqun var. Jəqin məvaçibinin dalьnça gəlmisən mən özym də səni axtarьrdьm ki, haqqьnь verəm.

Q u l u

Haqqьm coq aqьrdьr, qorquram öz ixtijarьn ilə verməjəsən. (Sandьqa tərəf gedir.)

Haçь Murad
(onun əlindən dutub)

Nə istəjirsən, qojmaram.

Q u l u

Demədimmi öz ixtijarьn ilə verməjəçəksən. Qurban dut. Nijaz qollarьnь baqla.

Haçь Murad

Aj aman qojmajьn. Məni öldyryrlər.

Q u r b a n
(xənçəri sivirib)

A kişi səsini kəs, joqsa qarnьna soqaram. (Əllərini baqlajьr.)

Haçь Murad

Aj haraj. Aj aman, aj Əliqulu.

Əliqulu
(daxil olur)

Nə bujurursan aqa çan. (Joldaşlarь gylyşyrlər.)

Haçь Murad

Tez get divana mə'lum elə.

Əliqulu

Aqa çan, indi sənin hakimi-şər'in bunlardьr, bu saat divan edəçəklər. Çəza-fəza etmək artьqdьr.

Haçь Murad

Əliqulu sən də bunlarьn joldaşь imişsən? Aj aman qojmajьn.

Qurban

A kişi qojsanьz ha xənçəri soqum rədd olsun.

Qulu

Joq əldyrmə. O gərək əlymdən artьq çəza cəkə. Aqzьnь baqlajьn. Səs cьqartmasьn. (Haçь Muradьn əl-ajaqьnь baqlajьb jerə qojurlar.)

Qulu

Qurban, gəl sandьqьn qapaqьnь dut. (Qurban dutur, Qulu myçryny cьqarьb Nijaza verir.) Nijaz bunu al. Indi joldaşlar gəlin buraja. Əliqulu əmi de gərym bundan xəbərin var idi ja joq? Nijaz o dəşəkcəni, palazь qaldьr. (Nijaz qaldьrьr.) Qurban gəl xənçər ilə bu jeri qaz. (Qurban qazьr Qulu bir başqa myçry cьqardьr). Əliqulu əmi bu sirri bilirdinmi?

Əliqulu

Bəli, dujmuşdum ki, orada bir şej var; cynky haçь Murad oranь tez-tez joqlajьrdь.

Haçь Murad

(başьnь qaldьrьb xьrьltьlь səs ilə dejir).

Evim jьqьldь.

Qurban

Sus.

Qulu

Joldaşlar, daha dajanmaq jeri dejil. Indi o biri kaftar da gəlib cьqar.

Nijaz

Eibi joqdur onu da haçьnьn gynynə salarьq.

Qulu

Haçь Murad xydahafiz. Hərgah aqa Qulunu, axtarsan Şama gəl. Siz ələsiz nə inki Şama hətta Hindistana da gəlib cьqar. (Hamь gedir, pərdə bir myddət acьq qalьr sonra Məhərrəm bəj daxil olur.)

Həhərrəmbəj

Evdə, həjətdə hec kəsi tapmadьm, bunlar neçə olmuşlar. Bu palazь, dəşəkcəni nəjə buraja cəkibdilər? Joqsa evə oqru gəlmişdir. Elədi ki var. Bəs haçь Murad haradadьr? (Buçaqdan haçь Muradьn xьrьltьsь gəlir.) Budur burada. Bunun əl ajaqьnь kim baqlamьş. (Acьr.)

Haçь Murad

Məhərrəm bəj evim jьqьldь.

Məhərrəm bəj

Haçь əmi de gərym sənə nə olub? Əl-ajaqьnь kim baqlajьb?

Haçь Murad

Qulu zalьm oqlu. Əliqulu da ona joldaş idi. Evim jьqьldь tarmar oldu. Gedib sandьqa baqьr. Hanь şəfaqьn gəzəl çəvahir, haradasan zərif qьzьllar? Məhərrəm bəj tez get divana mə'lum et. O quldurlarь dutdurub mənim pullarьmь qajtar. (Nabat tənginəfəs daxil olur.)

Nabat

Aqa, Imran Gylzar xanьmь gətyryb qacdь. (Məhərrəm bəj və Haçь Murad mat qalьrlar.)

Məhərrəm bəj

Əlimdən mali-devlət cьqdь.

PƏRDƏ

DİBDAT BƏJ

Bir pərdəli iki şəkilli məzhəkə

1906—Bakъ

IŞTIRAK EDƏNLƏR

S ə f d ə r q u l u b ə j—mylkədar bəj. Uça boylu, dolu bədənli, yzy qьrqьq, cərkəz libasьnda, əlli jaşьnda sadədil bir şəxs. Danьşanda tez-tez «vot tebe na» sözyny təkrar edir.

M e h d i b ə j
V ə l i b ə j
R y s t ə m b ə j
S a ş a b ə j
} Səfərqulu bəjin qumar joldaşlarь.

M ə ş ə d i S ə m ə d. Dykancь.
A z a d b ə j. Doqtor.
N ə b i. Səfdərqulu bəjin nökəri.
Ç ə b i. Mehdi bəjin nökəri.
O v a n e s. Saşa bəjin nökəri.
R ə h i m. Tarzən.
K ə r i m. Oqujan.

BIRINÇI PƏRDƏ

Səhnə Səfdərqulu bəjin otaqьnь gəstərir. Otaq jarь Âsja, jarь Avropa qajdasь ilə bəzəьmiş. Ortada girdə stol. Ystə şamdan, qart və qejri qumar şejləri. Sandaljalar, qajdasьz halda durmuşlar. Acьq qapьdan jemək otaqь gərynyr. Pərdə qalqdьqda Nəbi otaqь qajdaja salarkən əz-əzynə səjlənir.

Nəbi

Vaj sizin evinizi allah jьqsьn, a belə aqalar. Bir belə də qumar ojnamaq olarmь? Hər gyn səhərə kibi ojnajьrlar. Coq vaqtь geçəni gyndyzə qatьb o biri gynə kibi qart vururlar. Vallah mən nəkər belə rahatsьzlьqa davam edə bilmərəm. Amma bizim bu nəcib bəjlərimiz davam edirlər. Əzgə vaqtь «o jana dur» ystə xənçər, tapançaja cьqьrlar. Amma qumarda bir-birlərinə itə dejilməz sözləri dejirlər. Jenə də kecir gedir. Amma lotular mənim bu səfih aqamь jaqşь tovlajьb tapьblar. Geçə-gyndyz cərəjin jejib cajьn icib əzyny də qumarda saqmal inək kibi saqьrlar. Ha-ha-ha-... (Bir az dajanьb jenə də.) Ha-ha-ha... A kişilər bu lotularьn hər kələkləri qurtarmьşdь, qalmьşdь elə bu. Indi də dutublar ki, Səfdərqulu aqa, səni çəmi bəjlər tərəfindən dibdad (deputat) seçəçəjik. Gedib Fitilbərkdə (Peterburq) dum dejirlər nə dejirlər orada vəzirlər janьnda danьşasan. Ha-ha-ha-ha... Səfdərqulu bəj vəzirlər janьnda danьşaçaq? Vaj o jazьqlarьn halьna. «Vot tebe na»dan başqa bir şej başa dyşə bilməjəçəklər. (Çəbi daxil olur.) Xoş gərdyk a Çəbi lələ. Mənə qulluq.

Çəbi

Geçə aqamьn papiros qutusu burada qalьbdьr. Ona gəlmişəm.

Nəbi

(Papiros qutusu qabьnь ustolun ystyndən gətyryb verir).

Çəbi sən eləsən bu geçə aqan Mehdi bəji təmiz oyngə cəkiblər. Jaqşь ki, hələ papaqьnь da jaddan cьqartmajьb.

Çəbi

Mənim aqam qartьn həçətinə gedəndir.

Nəbi

Odur ki, bu geçə on bir əl dal-ba-dal onluqa vuruldu. Axьrda hirsindən qartь çьrьb atdь.

Çəbi

Mən Mehdi bəjin jerinə olsajdьm, onluqa vurulanda qacardьm doqquzluqa. Ona da vurulanda səkkizliji qojardьm. Getdikçə bir xal azaldardьm.

Nəbi

Ha-ha-ha-ha... afərin sənə Çəbi lələ. Sən lap qart (qoça) qumarbaz imişsən. Onda mənlə bir əl qoncuna ojnamaqda neçəsən.

Çəbi

Coq jaqşь ojnaram. Bəs Səfdərqulu aqa evdə dejil?

Nəbi

Qorqma, elə jatьbdьr ki, top da atsan xəbəri olmaz.

Çəbi

Bu geçə udubdur, joqsa uduzubdur.

Nəbi

Hec gərynməz iş!.. Udubdur! Çəbi jaqşь jadьma saldьn aqa tapşьrmьşdь ki, onu tezdən durquzam. Gynorta olubdur amma o hələ jatьb. Çəbi bu geçə bizdə bəjyk qonaqlьq var. Oqujanlь calanlь, icgili.

Çəbi

Səfdərqulu aqanь vəkil secəçəklər. Onun ycynmy?

Nəbi

Bəli. Bunu sən haradan bilirsən?

Çəbi

Bu bəjlərin kələjidir. Onu ələ salьrlar. O gyny bəjlərin hamьsь bizdə idi. Gylməkdən qəşş edirdilər. Mehdi bəj də dejirdi: nə var, zəhməti mən cəkim. qonaqlьqь Səfdərqulu bəjin bojnuna mən qojum, lamь kələji mən qurum kefi siz cəkin.

Nəbi

Bu bəjlərin kələji olduqunu mən də dujmuşam. Ançaq nə işim var, aqa mənə bir cuxa və'də edibdir. Təki o catsьn.

Çəbi

Gərək qabaqçan alasan. Sonra kələk acьlanda verməz. Bəlkə jadьna salanda səni də kətəkləjə.

Nəbi

Elə mən də onun fikrindəjəm. Gedim durquzum. Amma daş kibi bərk jatandьr. Bilmirəm hec durquza biləçəjəmmi? (Gedib jataq otaqьnьn qapьsьndan caqьrьr.) Səfdərqulu aqa, Səfdərqulu aqa. Indi gəl bunu ojat. Paltarlь taxta jьqьlьb xoruldajьr. (Səsini ucaldьr). Səfdərqulu aqa, Səfdərqulu aqa. Əstaqfyrulla əgər veçinə isə.

Çəbi

Ədə gedib əlin ilə durquzsana.

Nəbi

Jaqşь bujurursan. Çəbi aqa. Sən ələsən durub atama od vurar. O gyny helə etmişdim. Diksinib atlandь və mənə elə sillə cəkdi ki, gəzlərimdən od parladь. Dedi ki bundan sonra məni hec vaqtь əlinlə durquzma. (Qьşqьrьr.) Səfdərqulu aqa! Səfdərqulu aqa! Allah əkbər, mən nə edim? A Çəbi sən də kəmək elə gərək bu dibdad bəji ojada bilərikmi?

Çəbi

A balam mən nə kəmək edim? Belə ki, Səfdərqulu aqa jatьbdьr, hec Koroqlu da calsan duran dejil.

Nəbi

Vaj sa q ol Çəbi, jaqşь jadьma saldьn, (cьrtьq vura-vura o biri otaqdan bir qaval və bir tar gətirir.) Indi durarsan. sənə bir elə mejmun havasь calьm ki, sьcrajьb dik atlanasan. Al qavalь kəhnə lotu. (Qavalь Çəbijə verir və özy calьr və oqujur.)

Mən bu dərədən kecmərəm,
Cadramь jellətmərəm,
Aq saqqala getmərəm,
Gəl, gəl aj evi jьqьlmьş,
Tez gəl aj evi jьqьlmьş.

(Gedib qapьdan baqьr) Çəbi sən ələsən hec halьna təfavyt etmir.

Çəbi

Indi sən bir sallama bojatь cal, gər mən neçə ojadьram. (Nəbi calьr.)

Çəbi

Əzizim ulu daqlar
Ceşməli sulu daqlar
Burda bir qərib əlmyş
Gəj kişnər bulud aqlar.

(Nəbi gedib qapьdan baqьr)
Xajьr a.

Çəbi

Adə bəlkə kişi ələyb.

Nəbi

Hardan ələybdyr, xorultusun eşitmirsən. Aj Çəbi nə edək? (Fikrə gedir.) Ha tapdьm, jaqşь tapdьm

Çəbi

De gərym nə tapdьn?

Nəbi

Qumarbazь qumar ojadar, Çəbi lələ indi gəl bəjlərin qumar ojnamaqlarьnьn təqlidini cьqardaq. Onda gərərsən neçə durar. Kyrsyny cək otur. (Otururlar.) Baq mən Vəli bəjəm, sən aqan Mehdi bəj. Ah bir adam da olsajdь işimiz dyzələrdi. (Ovanes daxil olur.)

Ovanes

Nəbi, Saşa bəjin aqaçь burada qalьb. Ona gəlmişəm.

Nəbi

Kirvə jaqşь vaqtda gəlmisən bir adamьmьz catmьrdь. (Durub onun əlindən dutub stola tərəf cəkir.) Hələ bujur otur.

Ovanes

Joq, kirvə mən qumar ojnamьram.

Nəbi

A kişi otur.

Ovanes

Mən qumarь toba etmişəm.

Nəbi

Otur, pul ilə ojnamьrьq. Zarafat edirik.

Ovanes

Kela qabaqda da məni o çyr öjrədib evimi jьqdьlar.

Nəbi

Adə qumar ojnamьrьq ojun cьqardьrьq. Sən otur bu saat dejim. (Ovanes oturur.) Baq, sən Saşa bəj,...

Ovanes

Mən Ovanesəm.

Nəbi

Adə a qanmaz ajь, mən bilirəm ki sən Ovanes kirvəsən. Biz aqalarьn qumar ojnamalarьnьn təqlidini cьqardьrьq. Baq Çəbi Mehdi bəjdir, mən Vəli bəj, sən də aqan Saşa bəj... indi başa dyşdynmy?

Ovanes

Kela başa dyşdym, ançaq bu nə icindir?

Nəbi

Sonra dejərəm.

Çəbi

Baq Ovanes Saşa bəj kibi ojna.

Ovanes

Arxajьn ol, kela lap özy kibi ojnajaçaqam.

Çəbi

Nə ojnajaq?

Nəbi

Ştos (gedib Səfərqulu bəjin qapьsьnь acьr, sonra gəlib bir qalod qartь əlinə gətyryr. Vəli bəj rolunda.) Baq qosbada, bu jyz manat banqdьr qart dejin.

Çəbi

(Mehdi bəj rolunda)

Xejir olmaz, gərək tuz vuraq kimə cьqsa o banq qojsun.

Ovanes

(Saşa bəj rolunda)

Mehdi bəj dyz dejir gərək tuz vuraq.

Nəbi

Pəh, jenə Mehdi həççətə saldь. Jaqşь tuz vururam.) Qartь bir-bir yc jerə pajlajьr, tuz Nəbijə cьqьr.) Gərdynyz tuz mənə cьqdь. Jamanlьq özynyzə qaldь.

Çəbi

Pravilo, belədir, əzizim.

Nəbi

Indi qart qojun.

Çəbi

(Stolun ystəki başqa qaloddan qart cəkib yzy ystə qojur).

Xalь beş manat.

Ovanes

Qart on manat.

Nəbi

(qartь cevirib)

Beşlik yzdədir qartьnьzь acьn. Vəli bəj sənink yzdədir. Iјirmi manatь banqa at qadanь alьm. Saşa bəj bu saat sənin ycyn də bir onluq gətirərəm. (Qartь saqa və sola pajlajьr.) Sən vurdun, bujur Saşa bəj, bu da sənin on manatьn.

Ovanes

Qoj banqda dursun. Uqol gedəçəjəm.

Nəbi

Coq jaqşь get. (Qartь calьr.) Bujurun kəsin. (Ovanes kəsir.)

Çəbi

Xalь yc manat.

Ovanes

Uqol kela xalьna da on manat.

Nəbi

Pəh, Saşa bəj jenə azartnь elədi xajьr vermirəm. Sənə xalь yc manatdan artьqa xod joqdur.

Ovanes

Qartьn təpədir.

Nəbi

Onda ejbi joqdur. Mehdi bəj şahid ol ki, Saşa bəjin qartь təpə olmasa pul verməjəçəjəm. (Qartь cevirib saq-sola pajlajьr.) Saşa bəj bu da təpə.

Ovanes

O dejil, ejbi joqdur, o olmasьn-bu olsun. Xalь yc manatdan elər altь manat. Banqdan istərsən dort manat. Vəli bəj qartьnьn yzyny ac.

Çəbi

Surət gətir.

Nəbi

(saqa və sola pajlajьr)

Bu da surət.

Çəbi

O dejil.

Nəbi

Bujur bu da surətin o birisi.

Çəbi

O da dejil.

Nəbi

Mehdi bəj, qartьnь ac. Joqsa getmərəm.

Çəbi

Ho qartьn dalьnь cək dejim.

Nəbi

(səsini uçaldьr)

Vallah cəkmərəm. Çanьm sufətin ikisi cьqьbdьr.

Çəbi

Sən el o qarţьn dalьnь cək göstərim.

Nəbi

Pəh, Vəli bəj jenə höçətə saldьn. Ibişin çanьna cəkmərəm. De inan.

Səfdərqulu aqa

(o biri otaqdan)

Vəli bəj, tuz gətir, Mehdi həmişə onu qojar.

Nəbi

Ha beləçə... Zalьm qartьn gyçyny gördynyzmy. Uşaqlar çəld kyrsyləri kənara qojun. Qartь gizlədin, indi siz bajьra cьqьn məni gözləjin. (Çəbi, Ovanes cьqьrlar.)

Səfdərqulu bəj

(başь aşaqь çibindən pul cьqarьb)

Vəli bəj qьz da, bu on manat (Başьnь qaldьrьr.) Nəbi.

Nəbi

Bəli.

Səfdərqulu bəj

A gedə bəjlər hanь?

Nəbi

Aqa, bəjlər joqdur.

Səfdərqulu bəj

Aj gədə nə dejirsən. Vot tebe na. Indiçə səsləri gəlirdi. Qumar ojnajьrdьlar.

Nəbi

Aqa bəlkə juqunda gərmysən.

Səfdərqulu aqa

Aj gədə nə dejirsən? Vot tebe na. Başьna at təpibdir nədir? Indiçə burdan Vəli bəjin, Mehdi bəjin səsləri gəlirdi. Pijan saldat kibi vot tebe na. Evə gəlib gedəndən də xəbərin joqdur. O biri otaqa baq. Gər oradadьrlarmь?

Nəbi

Bu saat oradan gəlirəm hec kəs joqdur.

Səfdərqulu bəj

Allahyəkbər, vot tebe na. Aj gedə mən dəli olmamьşam ki, indiçə bu qulaqlarьmla eşitdim ki, vot tebe na. Vəli bəj Mehdi bəjə dejirdi ki, qartьnь acmasan getmərəm.

Nəbi

Aqa, and icginən ki, sənə açьqьm dutmajaçaq dyzyny dejim.

Səfdərqulu bəj

Jaqşь açьqьm dutmaz de görym.

Nəbi

Xajьr, Mələk Nisə xanьmьn goruna and ic dejim.

Səfdərqulu bəj

And olsun Mələk Nisə xanьmьn goruna vot tebe na. Açьqьm dutmaz. Indi de.

Nəbi

Aqa, özyn bujurmuşdun ki, məni tez ojat. Aqşama qonaqlarьm var, gərək bazarlьq edəm. Mən də

nə qədər caqьrdьm, qьşqьrdьm, ojanmadьn. Axьrda naəlaç qalьb Çəbi və Ovanes ilə bəjlərin qumar ojnamaq təqlidini cьqartdьm ki, bəlkə onlarьn səslərinə ojanasan. Dyzy budur.

Səfdərqulu bəj

Ha-ha-ha... Aj gədə Nəbi sən nə lotusan. Bəs Çəbi, Ovanes hanь?

Nəbi

Aqa onlar səsini eşitçək qorqub bajьra qacdьlar.

Səfdərqulu bəj

Caqьr buraja gəlsinlər.

Nəbi

(qapьnь acьb caqьrьr)

— Joq, daha səni orada qojmaq olmaz. Mən azarlьjam. Durmaqa taqətim joqdur. Səni o iki şejtanьn şərindən myhafəzə etməji baçarmьram. Oqlum gərək tezliklə şəhərə Baharьn janьna qajьdasan. Joqsa tələf olarsan; indi get mən də gərym nə carə taparam ançaq sərvəqt ol. Əmir Aslanьn səzynə əsla inanma.

Imamverdi baba Nurəddini quçaqlajьb opdy. Zavallь kişinin gəzlərindən jaş dolu kibi jaqьb yzyny, aq saqqalьnь islatdь.

Nurəddin coq qəmgin evə qajьdьrdь. Jol uzunu başьna gələn qəza-qədərdən fikir edirdi.

— Indi anlajьram ki, Əmir Aslan nə məqsəd ilə məni gah uça nazik budaqa cьqardьrmьş, gah dərin suja salьrmьş və gah da ilanь korar adьna əlim ilə dutdururmuş. Bəli mənim əlməjimi istəjirmiş. Ançaq burasьnь anlamьram ki, mən ona nə etmişəm ki, mənim əlymymy istəsin və bundan ona nə mənfəət ola bilər. Bu barədə fikirdə ikən birdən Baharьn bu səzy jadьna dyşdy: «Qorqma aqam, nə qədər sən saqsan Gylpəri sənin bir qəpijinə də əl vura bilməz».

— Demək ki mən əlsəm malьm Gylpərijə dyşəsidir. Əlbəttə belədir, bu sadə fikri mən indijə kibi nejə anlamamьşam.

Nurəddin evə qajьdanda həjətdə Əmir Aslana rast gəldi.

— Harđan gəlirsən?

— Baqcadan gəlirəm,—dejə Nurəddin çavab verdi və qьzarьb başьnь aşaqь saldь. Cynky Nurəddin əmryndə əvvəlinçi dəfə idi ki jalan dejirdi.

Bunun halətindən jalan deməjini dujub Əmir Aslan açьqlь jenə sordu:

— Dyzyny de gərym harada idin?

— Imamverdi babanь joqlamaqa getmişdim.

— Sən nə çyr'ət edib mənim əmrimdən cьqьrsan? Əmir Aslan bunu dejə qьşqьrdь və Nurəddini comaq ilə dəjyb ambara saldь və aqzьnь kilidləjib getdi.

Bu ittifaqdan iki gyn sonra Imamverdi babanьn filiç azarьndan dili dutulmaq xəbəri gəldi. Gylpəri və Əmir Aslan çəld gejinib getdilər, amma Nurəddini aparmadьlar. Ilan fəqərəsindən bəri Əmir Aslan Nurəddin ilə mehriban dolanmaqь bilmərrə buraqьb hər bir çyz'i şeji bahana edərək onu tez-tez dəjyb ambarda dustaq edirdi. Geçə Əmir Aslan ilə Gylpərinin səhbətindən Nurəddin anladь ki, Imamverdi babanьn dili dutulubsa da hələ əlym halәti joqdur. Bu xəbərdən Nurəddin şad olub əz-əzynə dedi:

— Joq Əmir Aslan məni əldyrsə də səhər sybhdən qacьb babamь joqlamaqa gedəçəjəm. Bu fikir ilə Nurəddin jatdь. Nurəddin Pystə nənə ilə bir otaqda jatьrdь. Səhər gəzlərini acanda gərdy ki, Pystə nənə otaqda joqdur. Bundan şad olub çəld gejinməjə başladь. Sonra sərcəsini gətyryb baqcaja girdi ki, gizlinçə baq arasь Imamverdi babagilə getsin. Nurəddin nar koluna catdьqda qəflətən onun dalьndan Əmir Aslan ilə Gylpərinin səsini eşitdi. Çəld və ysulluça kolun icinə girib gizləndi. Əmir Aslan Gylpərijə đejirdi:

— Sənə jenə dejirəm ki, zəhər verməkdən başqa carəsi joqdur.

— Jazьq baba, bu zalьmlar sənə zəhər vermək istəjirlər. Joq qojmaram nə jaqşь oldu ki, bunlarьn fikrini bildim. Nurəddin bu fikirdə ikən Əmir Aslan başladь:

— Indi jaqşь fyrsətdi. Əmimin dili dutulub xəstəlikdə jatьr. Baharda ki, uzaqdadьr. Kimə nə gərəkdir ki Nurəddin nə azardan əldy.

Bu sözləri eşidəndə Nurəddinin rəngi qacьb tykləri biz-biz durdu. Jazьq uşaq qorqusundan nəfəsini elə icinə cəkmişdi ki, dejəsən biruh idi.

Gylpəri dedi:

— Joq Əmir Aslan, buпu baçarmajaçaqam. Mən dejirəm ki, bu işdə əldyrmək olmasьn.

— Elə isə hec carəsi joqdur. Nə şəriət ilə, nə zaqon ilə Nurəddin saq ikən onun malьnь sənə vermək olmaz. Indi ki, sən baçarmьrsan. Mən baçararam. Qulaq as gor bu fikir neçədir?

— Nurəddini göndərəçəjəm ki, həjətdə qujudan su cəksin. Özyn də bilirsən ki qujunun dərinliji qьrq arşьndan artьqdьr. Nurəddin su cəkdiji halda daldan itələjib qujuja salaçaqam. Hamьja dejərik ki, qujudan su cəkdiji jerdə özy dyşyb boqulmuşdur. Hər gah razьsansa de bu aqşam əmələ gətirim.

Gylpəri bir dəqiqəjə kibi dajanьb çavab vermədi. Bu bir dəqiqə Nurəddinə bir il göryndy və yrəjindən kecirtdi ki, hərgah Gylpəri bu əmrə razь olmazsa bytyn mənə etdiji zylmy jadd'an cьqarьb өmrymyn axьrьna kibi onu өz anam kibi sevməjə söz verirəm...

— Razьjam,—dejə Gylpəri çavab verdi.

Əmir Aslan çavab verdi:

— Onda gedək. Mən səni əmimin janьnda qojub aqşam evə qajьdaram. Sən də geçə orada qalarsan. Daha hec kəsin sənə gymanь gəlməz.

Əmir Aslan və Gylpəri getdilər. Bir azdan sonra Nurəddin koldan cьqdь. O jan-bu jana baqьb qorqa-qorqa jola dyşdy.

— Indi daha mən Imamverdi babanьn janьna nəjə gedim. O özy əlym halьnda ikən məni bu zalьmlarьn əlindən neçə xilas edə bilər? Joq, joq qacьb özymy Bahara catdьrmaqdan başqa bir carə joqdur. Bunu dejə Nurəddin syr'ətlə meşəjə tərəf yz qojdu. Ançaq meşəjə girib gözdən itəndə bir az yrəji sakit oldu.

— Hərgah jolu azmazsam aqşama kibi gedib şəhərə cataram.

Nurəddin meşə ilə iki saata qədər gedəndən sonra bir caja rast gəldi. Geçə gyçly jaqьş jaqdьqьna görə cajda su coq idi. Nurəddin dajaz jer ararkən gəlib bir jerə catdь ki, orada bir uzun aqaş sьnьb köpry kibi cajьn ystynə dyşmyşdy. Nurəddin bu aqaçьn ysty ilə kecdiji zaman, ajaqь syryşyb caja dyşdy. Bu jerdə caj xejli dərin və kənarlarь da hyndyr idi. Nurəddin qol atdь ki, yzsyn, gördy ki, paltarlь yzmək coq cətindir. Bir necə dəfə batьb cьqandan sonra bir sallanmьş şax əlinə kecdi. Bu saxdan dutub bulanlьq su ilə islanmьş halda papaqьnь itirmiş kənara cьqdь və bihuş bir halda xejli uzanьb qaldь. Bir az rahat olandan sonra Nurəddin paltarьnь cьqarьb sujunu sьqdь və gynyn qabaqьnda sərdi ki qurusun. Paltarь quruiandan sonra gejinib caj aşaqь xejli getdi ki, bəlkə papaqьnь tapsьn, lakin nə ondan, nə də sərcəsindən ki suja duşəndə cijnində oturmuşdu, bir əsər tapmadь. Bunlardan əl cəkib jenə şəhərə getməjə başladь. Ançaq bu səfər jolu azьb meşədən cьqa bilmədi. Iki saat, yc saat dolanьb jenə haman jerə cьqьrdь. Bunun ilə belə çyr'ətli uşaq jolu tapьb meşədən cьqmaqdan umudun kəsmirdi. Axьrda gyn batan zaman Nurəddin jolu tapdь və bir qədər gedəndən sonra joldan bir az kənar bir şaxlь-budaqlь aqaç tapьb ystynə cьqdь ki, orada geçə jatsьn. Javuq budaqlarь əjib japraqlarьn arasьnda Nurəddin özynə jer qa-

jьrdь və coq jorqun olduquna gərə aç və susuzluqa baqmajьb tez juquja getdi. Geçənin bir vaqtь hejbətli bir səsdən Nurəddin diksinib qalqdь, və az qaldь ki, aqaçdan ƀqьlsьn. Zavallь uşaqьn yrəji elə atlanьrdь ki, dejəsən bu saat partlajьb cьqaçaqdьr. Bir azdan sonra jenə səs təkrar oldu. Ançaq bu səfər Nurəddin qorqmajьb dedi:

— Bajquşdur, ulajьr. O vaqt kəndə gedəndə də bizi qorqutdu.

Bu ittifaqdan sonra daha Nurəddin jata bilmədi. Bytyn bədəni aqrьjьrdь. Geçənin qaranlьqь, meşənin vahiməsi jalьnьz uşaqa dejil, hətta bəjyk adama da qorqu hissi gətirirdi. Amma Nurəddin bu halətə şykr edirdi.

Hərgah Əmir Aslan ilə Gylpərinin danьşьqьnь eşitməsəjdim, indi mejitim qьrq arşьn qujunun dibində idi. Ah birçə өzymy Bahara catdьrsajdьm, yrəjim sakit olardь. Nurəddin fikrə getdi. Bytyn keçmişi gөzynyn qabaqьndan bir-bir gəlib keçdi. Budur balaça uşaqdьr. Ata və anasь ona hər gyn bir şej baqьşlajьrlar ki, onu şad etsinlər. Budur əvvəlinçi dəfə məktəb formasьnь gejib məktəbə gedir, anasь onu quçaqlajьb şirin-şirin өpyr və sevindijindən aqlajьr... Ah, bu gөzəl gynlər nə tez keçdi, qara gynlər başlandь. Anasь өldy, Gylpəri gəldi. Atasь өldy, Imamverdi gəldi. Sonra Bahar... Kөc... Əmir Aslan... Jenə Imamverdi... Jenə Əmir Aslan... Gylpəri... Pystə qarь... Qəm və qyssə zavallь jetimin yrəjini elə aldь ki, daha səbr eləməjib həkyrty ilə aqlamaqa başladь. Bu aqlamaq Nurəddinin yrəjini boşaldьb sakit etdi. Bir azdan sonra Nurəddin jenə juquja getdi. Ikinçi dəfə Nurəddini qarqalar juqudan ojatdьlar.

Demə Nurəddin jatan aqaçьn başьnda bir qarqa juvasь varmьş. Sybh vaqtь ana qarqa balalarь yçyn

jem dalьnça ucanda qəflətən aqaçda bir qaraltь gördy. Qarqa əvvəl səssiz budaq-budaq atьlьb diqqət jetirdi ki, gөrsyn bu qaraltь nədir. Elə ki, dyşmanь olan insan olduqunu jəqin etdi bir elə qaqqьltь saldь ki, bir iki dəqiqənin ərzində meşənin qarqalarьnь juvasьnьn başьna çəm etdi. Kөməjə gələn qarqalar bunun səsinə səs verib elə qaqqьltь saldьlar ki, dejəsən bu saat meşəni daqьdaçaqlar. Nurəddin əvvəl gөzlərini acanda harada olduqunu bilmədi. Sonra huşu өzynə gəlib aqaçda jatdьqь jadьna dyşdy. Nurəddinin tərpənməsi qarqalarьn qьşqьrtьsьnь artьrdь. Ələlxysus ata və ana qarqa Nurəddinin başь ystyny alьb elə həşir saldьlar ki, dejəsən bu saat onu dimdikləjib jerə salaçaqlar. Nurəddin işi belə gөrəndə aqaçdan enməjə başladь. Qarqalarьn səsinə jol ilə gedən bir qoça diləndi oraja gəldi. Nurəddin bunu gөryb aqaçdan dyşmək istəmədi. Jolcu dedi:

— Oqlum, quşun juvasьnь daqьtmaq gynahdьr.

— Mən juva daqьtmьram əmi,—dejə Nurəddin çavaƀ verdi.

— Bəs bu səhər ertəsi oraƀa nə qajьrьrsan?

— Mən bu geçə burada jatmьşdьm.

— Nə ycyn aqaçda jatmьşdьn oqlum.

— Gyndyz jolu azьb meşədə qaldьm, onun ycyn burada jatmьşdьm.

— Aqaçdan dyş oqlum, mən səni evinizə apararam, Nurəddin bu təklifdən qorqub ditrəjə-ditrəjə belə çavaƀ verdi:

— Mənim evim joqdur əmi. Mən atasьz, anasьz bir jetimәm.

Dilənci Nurəddinin ditrəməsini gөryb dedi:

— Məndən qorqma oqlum, mən də elsiz, obasьz bir qoça jolcujam. Kəndlərdə dilənirəm. Indi şəhərə gedirəm.

Jolcunun acıq yzyndən və mehriban danışıqından Nurəddin yrəklənib aqaçdan dyşdy.

— Indi səjlə gərym oqlum sən kimsən və haraja gedirsən?

— Əmi açından əlyrəm, qabaqça bir şejin varsa ver jejim sonra əhvalatımı sənə naqıl edərəm.

Dilənci daqarçıqından bir qədər quru cörək və soqan cıqarıb, Nurəddinə verdi, Nurəddin alıb şirin-şirin jeməjə başladı. Nurəddinə əmryndə hec bir xörək belə ləzzət verməmişdi.

Açlıqnı bir qədər rəf edəndən sonra Nurəddin bəlalı başına gələn hadisələri tamamilə jolcuja naqıl etdi.

— Əmi, məni evimizə catdırsan, Bahar sənə hər nə istəsən verər,—dejə Nurəddin jolcuja jalvardı.

— Qorqma oqlum, səni aparıb evinizə verərəm. Ançaq gərək səbr edəsən. Sizin şəhər buradan xejli uzaqdır, pul da joqdur ki, vaqon ilə gedək. Buranın iki jyz verstlijində bir böjyk şəhər var. Orada mənim bir qohumum var. Onun janına gedərik, bəlkə ondan pul tapdıq; indi gedək.

Bu halda jolcunun nəzəri Nurəddinin paltarına dyşdy.

Joq, belə jaramaz, gərək ystyny dilənci ystynə oqşada,—bunu dejə jolcu qoltuqundakı köhnə paltarı, ki ona allah pajı vermişdilər, Nurəddinə gejindirdi və bir çındır jajlıq ilə başını örtdy.

Ha indi hazırsan gedək.

Hər ikisi jola dyşdy. Jolcu paltarı Nurəddini elə dəjişdirmişdi ki, onu tanımaq mymkyn dejildi. Jol ilə bir saata qədər getmişdilər ki, daldan bir caparaq atlı göryndy. Nurəddin dönyb baqanda çanına ditrətmə dyşdy.

— Əmi, bu gələn Əmir Aslandır. Məni axtarır. Dürma qacaq. Nurəddin qacmaq istədikdə, jolcu onun əlindən dutub qojmadı.

— Əqilsiz nə etmək istəjirsən? Elə jaramaz, qorqma. O səni bu paltarda tanıja bilməz.

Əmir Aslan bunlara catıb qoçadan soruşdu:

— Kişi, bir on jaşında, o janındakı bojda, başında nişanlı papaq, əjnində boz mahıtdan paltar, bojnu jaşıl məxmər paltolu uşaq gördynmy?

— Joq aqa görmədim. Budur nəvəm ilə səhər ertədən bu jol ilə gedirik, amma elə uşaqa rast gəlməmişik.

Əmir Aslan bir az fikirli dajanıb atın başını geri döndərdi və qamcılajıb gözdən itdi. Nurəddinin ançaq indi yrəji sakit oldu.

— Əmi nə jaqşı ki, paltarımı dəjişdin, joqsa Əmir Aslan məni öldyryb bu meşəjə ataçaqdı. Jolcu dedi:

— Oqlum indi gərək adını da dəjişdirəsən; cynky Əmir Aslan sənin itməjini jəqin divana mə'lum edəçəkdir. Hərgah səndən sual etsələr ki, kimsən, adın nədir. De ki, Əla'ətdindir və özym də dilənci-jəm anladınmı?

— Bəli baba anladım,—dejə Nurəddin çavab verdi.

Gyn ortaja bir saat qalmış meşənin qurtaraçağında Çənnətəli ilə Nurəddin oçaq qalajıb meşədən jıqdıqları göbələji bişirib dadlı morux ilə jeməjə başladılar. Nahardan sonra uzanıb bir qədər rahat oldular. Aqşama bir saat qalmış jolcular gəlib şəhərə çıqdılar və geçə orada qalıb səhər jola rəvan oldular. Kənd-bə-kənd dilənə-dilənə on iki gyndən sonra jolcular gəlib Çənnətli dejən böjyk şəhərə catdılar.

Bədəninin və ysty-başьnьn cirkindən və pasьndan indi o gözəl və zərif Nurəddini tanьmaq olmazdь. Zavallь uşaq qьzdьrma azarьndan jeni qalqmьş adam kibi ajaq ystyndə dajana bilmirdi.

Çənnətəli Nurəddin ilə barabar beş gyn qohumunu axtardь amma gördym dejən olmadь. Axьrda bir adam iki aj bundan əqdəm ölməjini və hec bir şeji olmadьqьna görə çamaat pulu ilə basdьrьldьqьnь onlara xəbər verdi. Bundan umudlarь kəsildi.

Bir dəfə Çənnətəli xəstə olduquna görə kycənin bir tinində oturub, Nurəddini dilənməyə göndərdi. Nurəddin indijə kibi hec vaqt əl acьb dilənməmişdi: cynky qoça həmişə özy dilənib jьqardь. Bir, iki kycə dolandь isə də Nurəddin həja edib bir kəsə əl uzada bilmədi. Bu tərəfdən də əli boş qajьtmaqa qoçadan xəçalət çəkirdi. Axьrda Nurəddin bir geniş kycəni kecərkən ajaqь bydrəjib jьqьldь. Bu halda daldan fajton icində bir adam jti gəlirdi. Fajtonçu atlarь saqlaja bilməjib Nurəddini basdьrdь. Bunu görçək adamlar qьşqьrьb jygyryşdylər. Nurəddini hərəkətsiz və qan icində gördykdə birisi dedi: jazьq dilənci öldy. O birisi dedi:

— Hərgah zəfərli jerindən basьlmajьbsa hec zad olmaz.

Bu halda adamlar geri cəkilib Rəhimə tə'zim etdilər.

— Boş-boş danьşmaqdan isə bu jazьq uşaqa kömək vermək jaqşь dejildirmi, çəld götyryb bunu fajtona qojun.

Bir neçə adam Nurəddini götyrdylər və Rəhimin qaretinə qojdular. O da minib dedi: Tez syr evə.

Evə catan kibi Rəhim şəhərin məşhur çərrahьnь caqьrtdь. Həkim Nurəddini sojundurub hər jerinə baqdь. Sonra jaralanan jerlərini jujub sarьdь və dedi:

— Qorqulu jarasь joqdur. Beş-on gynə kibi saqalьb durar, ançaq uşaqьn özy coq zəif və bədəni də coq cirklidir. Bunlara əlaç etməlidir. Hələlijə nə hamama göndərmək və nə də vannaja salmaq olmaz. Ançaq jerinin icində bulud və sabun ilə bədənini təmizləmək lazьmdьr.

Həkim gedəndən sonra Rəhim arvadь Rəhiməni caqьrьb dedi:

— Arvad, evə qajьdarkan bu uşaqь basdьrьb ölym halьna salmьşam.

Bu halda Nurəddin gözlərini acьb təəççyb ilə ətrafьna baqьrdь və harada olduqunu anlamajьrdь. Rəhimə onun başьnь sьqallajьb dedi:

— Oqlum adьn nədir?

Rəhim dedi:

— Arvad, hələ o lazьm dejil, uşaq coq zəifdir danьşdьrma. Tez ol isti su, sabьn və bulud hazьr et. Uşaqьn bədənini jumaq lazьmdьr. Həkim belə əmr edibdir.

Qulluqcu bunlarь hazьr etdi. Uşaqь sojundurub jumaqa məşqul oldular. Rəhimə Nurəddinin bojnundan parcaja tikilmiş bir dua cьqartdь. Bu duanьn parcasь həm cirkli və həm də köhnə olduqundan bunu təzə parcaja tikmək məqsədilə çьrdь. Icindən bir balaça kitab cьqdь.

— Kişi gör bu nədir,—dejə Rəhimə kitabь Rəhimə uzatdь. Rəhim ona baqьb dedi:

Şykr olsun, axьrda tapdьm. Sonra yzyny uşaqa tərəf dutub dedi:

— Sənin adьn Nurəddindirmi oqlum?

— Bəli,—dejə Nurəddin zəif səslə çavab verdi.

Bunu eşidən Rəhimə soruşdu.

— Kişi sən bunun adьnь haradan bildin?

— Rəhimə, bu uşaq axtardьqьmьz haçь Nəsirin

oqhu Nurəddindir. Bu əlimdəki də sənə naqıl etdijim Gylystandır.

— Bunu allah bizə evlad göndərmişdir.

— Afərin Rəhimə jaqşı anlamısan,—dejə Rəhim Rəhimənin sözyny təsdiq etdi. Rəhim və Rəhimə Nurəddini jujub qurtardılar. Nurəddin rahat olub juquja getdi.

***

Rəhim Nurəddinin atası mərhum haçı Nəsirdən aldıqı puldan maja dutub ildən ilə alış-verişinin dajirəsini artırmışdı. Sonralar dəri alış-verişinə girişmişdi. Işinin xatırı yçyn Buxaraja köçmyşdy. Orada da dəri alış-verişindən ilavə ipək işinə də girişmişdi. Yç-dört ilin ərzində Rəhimin işi dutub jaqşı qazanmışdı, ançaq evlad'arı qırılıb vərəsəsiz qalmaqına görə özyny xoşbaxt hesab etmirdi. Axırda arvadının tə'kidi və təklifinə görə altı aj idi ki, almalısını alıb, satmalısını satmışdı. Rəhimənin vətəni olan bu şəhərə köçmyşdy. Burada işi rast gətirib tərəqqijə başlamışdı.

Həkim tə'jin etdiji vaqtdan da ilәri Nurəddin saqalıb ajaqa durdu. Rəhim və Rəhimə Nurəddindən bu dilənçilik halına dyşməjinin səbəbini ançaq indi soruşdular. Nurəddin başına gələni tamamilə naqıl etməjə başladı. O naqıl etdikçə rəhmdil qoçalar ah çəkirdilər. Nurəddin naqılının tamam edib Rəhimdən təvəqqe elədi ki, onu evlərinə Baharın janına göndərsin. Rəhimə Nurəddini öpyb dedi:

— Oqlum Nurəddin, budur bir həftədir sən bizdə sən, mən o qədər şadam ki, özymy gəjdə his edirəm. Oqlum hər nə istəjirsən verək ançaq bizi atıb getmə. Kim bilir jenə başına nə gələçəkdir.

Rəhimə sözyny qurtarmamışdı ki, Rəhim Nurəddinin kitabının əlinə götyryb dedi:

— Oqlum, bu kitabın əhvalatını bilirmisən?

— Bəli atam söjləjibdir,—dejə Nurəddin çavab verdi.

— Indi al onun çilidində jazılan jazını oqu.

Nurəddin alıb oqudu.

«Jaqşılıq elə balıqı at dərjaja, balıq bilməsə xalıq bilər» imza: Rəhim.»

— Oqlum o Rəhim mənəm. O zaman yc jyz manat itirib körpy ystyndə aqlajan Rəhimәm. Sənin atan haçı Nəsir mənə bir jaqşılıq etmişdi, indi onun borçunu qajtarıb sən oqluna verirəm—dedi. Bizim evladımız joqdur. Hərgah səni indi evinizə göndərsəm, Gylpəri qəjjum olduquna görə səni jenə janına aparaçaqdır. Bahar, səni myhafəzə edə bilməz; cynky o bir qulluqcu adamdır. Indi sən razı olsan Baharı da jazaram gələr.

Nurəddin coq şadlıq ilə bu təklifi qəbul etdi. Bu gyndən Nurəddin yçyn jeni bir məişət başlandı. Rəhim Nurəddini e'dadı məktəbinə qojdu. Nurəddin bu gyndən atasının saqlıqında olduqu kibi hər gyn dərsə getməjə başladı. Bir dəfə dərsdən qajıdarkan Nurəddin kyçədə Çənnətəlini gördy.

Coq sevindi, onunla göryşdy. Ondan ajrılandan sonra başına gələni jol uzunu naqıl etdi.

— Baba sən mənə jaqşılıq etdin, indi də mən sənə edəçəjəm.

Rəhim Nurəddinin bu hərəkətindən şad olub, dedi:

— Həmişə belə ət oqlum. Fəqir-fyqəranı jaddan çıqartma.

Çənnətəlijə təzə libas gejindirib baqcaja baqban etdilər.

Rəhim Nurəddinə verdiji sözə əməl edib Baharın dalınça adam göndərmişdi. Bir aqşam Nurəddin Rəhim və Rəhimə ilə caj icdiji zaman Bahar qapıdan içəri girdi və Nurəddinə təəççyblə və caşmış bir halda baqıb dajandı. Nurəddin çəld qalqıb dedi:

— Bahar məni tanımırsanmı? Bu sözy dejib özyny onun ystynə atdı. Bahar ançaq indi ajıldı dedi:

— Vaj Nurəddin saq imiş.—Bunu dejib Nurəddini bərk quçaqladı. Bunların bu qajda ilə göryşmələri iki qoçanın gözlərini jaşartdı. Bahar bir az rahat olandan sonra dedi:

— Nurəddin bilirsənmi ki, səni hamı hətta divan da əlmyş bilir. Sən itəndən yc gyn sonra kəndcilər papaqını cajdan tapıb Əmir Aslana vermişlər. O da divana mə'lum edib sənin əlməjini təsdiq etdirmişdir. Bir azdan sonra bir də gördym ki Əmir Aslan ilə Gylpəri budur gəldilər evin jerdə qalan şejlərini jıqışdırıb kəndə göndərdilər və mənə də dedilər:

— Bahar indi sən bizə lazım dejilsən. Haraja istəjirsən gedə bilərsən. Bu vaqt mən bir ilin ərzində yrəjimə jıqılanın hamısının aqlaja-aqlaja və qışqıra-qışqıra boşaltdım. Qonşular səsimə çəm olmuşdular.

«Çəmaət, Nurəddinin əlymynə bais bu iki şəxsdir» dejə qışqırdım. Axırda Əmir Aslan qaradovoj caqırıb məni qovdurdu. Indi gərək saq olmaqını divana mə'lum edib onlardan hesab alasan.

Rəhim buna razı olmajıb dedi:

— Joq Bahar, hələ bunlar lazım dejildir. Öz vaqtında bunlar olaçaqdır. Indi mənim var-joqum Nurəddinindir. Onun pula, devlətə ehtijaçı joqdur.

Cajdan sonra ər və arvad Bahar ilə Nurəddini söhbət edən qojub o biri otaqa kecdilər: Nurəddindən çəmi əhvalatı biləndən sonra Gylpəri ilə Əmir Aslandan intiqam almaq qəsdi Baharın yrəjində daha da möhkəmləşdi. Baharın xasijjətini, ləjaqətini və

evdarlıqını Rəhimə bəjənib evin çəmi ixtijarını ona verdi.

***

Bu naqıl etdijimiz zamandan on il kecdi. Baharın axırı idi. Rəhimin evində səhər tezdən böjyk qonaqlıq tədaryky görylyrdy. Bu qonaqlıq Nurəddinin e'dadı elmini birinçi dərəçədə təhsil edib qurtarmaq mynasəbətilə joldaşlarına verdiji zijafət idi. Bahar Rəhimə və Rəhim syfrənin zinətinə məşqul idilər. Hətta Çənnətəli də baqcadan öz əlinin zəhməti ilə bitirdiji gyllərdən dərib syfrəni bəzəməkdə onlara şərik idi. Bu qonaqlıqın baisi olan Nurəddin isə o biri otaqda təzə student libasını gejib gyzgynyn qabaqında özynə zinət verirdi. Bir azdan sonra Nurəddin təzə patlarını göstərmək qəsdi ilə jemək otaqına girdi. Rəhim, Rəhimə, Bahar hər ycy hejrətə gəlib Nurəddinin gözəlijinə valeh və hejran qalmışdılar.

— Allah səni bəd-nəzərdən saqlasın oqlum—dejə Rəhimə Nurəddinin bojnunu quçaqladı. O da onu əllərinə götyryb körpə uşaq kibi gəzdirdi.

Saat ikj tamamda otaq gənç qonaqlar ilə dolmuşdu. Bir azdan sonra Nurəddin qonaqlarının jemək otaqına təklif etdi.

Indijə kibi Rəhimin evi belə şad dejib danışmaq, oqujub gylmək, çavan səslər eşitməmişdi. Səsdən, gylmədən nahar vaqtı calınan tarın səsi eşidilməjirdi. Aqşama iki saat qalmış qonaqlar daqılmaqa başladılar. Nurəddin də özyny bir qədər havaja vermək ycyn şəhər baqına gəzməjə getdi. Aqşam vaqtı kylfət hamısı caj syfrəsində hazır olan vaqt Nurəddin icəri girib dedi:

— Ata, sizə bir qonaq gətirmişəm. təvəqqe edirəm qəbul edəsiniz.

— Sənin qonaqlıq bizə həmişə əzizdir oğlum—dedi Rəhim cavab verdi.

— Bilirəm ata, ancaq qonaq elə şəxsdir ki, qorquram qəbul etməyəsiniz.

— Edərəm oğlum, de içəri gəlsin. Nurəddin cıqıb bir dilənci arvadın əlindən dutub içəriyə saldı. Dedi:

— Ana, bilirsənmi bu dilənci arvad kimdir?

— Gülpəridir,—dedi Bahar qışqırdı və gözlərində intiqam odu parladı.

— Bəli Bahar, Gülpəridir, ancaq tamaşa et gör ondan intiqamımı neçə alıram. Bu sözü dedi Nurəddin Gülpəriyə tərəf döndü və dedi:

— Gülpəri, indiyə kibi mənə etdiyin zülm və cəfanın əvəzində mən sənin bütün taqsırından keçib bağışlayıram. Mənim yerimdə indi sən bədbaxta rəhmdən başqa çeşri şey yoqdur.

Bunu eşitçək Gülpəri ağlaya-ağlaya Nurəddinin ayağına yıqıldı və dedi:

— Nurəddin, rəhimli çavan allah tala sənə etdiyim zülmün əvəzində məni bir elə bəlaya ducar etdi ki, yemək cörək tapmayıb küçələrə düşdüm.

Nurəddin, Gülpərini qaldırıb oturtdu.

Gülpəri başladı:

— Doğrudur sənin devlətinə malik olmaq istəyirdim, ancaq ölümünü istəmirdim, məni yoldan çıqardan o şeytan Əmir Aslan oldu. Axırda Əmir Aslan sözü bu yerdə qoydu ki, səni quyuya salıb öldürsün.

Bahar bunu eşidib dedi:

— Onun üçünmü məni min bahana ilə şəhərdə qoydun ay zalım?

Nurəddin dedi:

— Bahar sakit ol qoy naqıl etsin.

Gülpəri dedi: Papaqın sudan çıqandan sonra yəqin etdik ki, cayda boğulub ölmüşsən, yazıq atam bu xəbəri eşidən kibi vəfat etdi.

Nurəddin bunu eşidib ah çəkdi, Gülpəri dedi:

— Sonra sənin malına sahib olduq...

— Amma yeyə bildinmi?—dedi Bahar sordu.

— Yoq, bir-iki ilin ərzində Əmir Aslan qumara uduzub qurtardı. Sonra əvvəl şəhərdəki və ondan sonra kənddəki evləri satıb tələf etdi.

Hər şey əldən çıqandan sonra Əmir Aslan məni qoyub özü də qacaq dəstəsinə qoşuldu. Bir neçə müddət quldurluq edəndən sonra divan tərəfindən dutulub asıldı...

Bahar dedi:

— Məşhur məsəldir deyərlər: «su canaqı suda catlar.»

Gülpəri:

— Məni də bir kişi alıb bu şəhərə gətirdi və bir azdan sonra məni atıb yoq oldu. Indi o gündən küçələrə düşüb dilənçilik edirəm. Bu yolda nələr çəkdiyimi bir allah bilir...

Gülpəri başını aşaqı salıb yenə ağlamaqa başladı. Rəhim dedi:

— Gülpəri ağlama, sən haçı Nəsirin arvadı və Nurəddinin analıqı olmuşsan. Bunların xatırı üçün və Nurəddinin özü sənin günahından keçdiyi üçün burada qalıb rahat olaçaqsan. Sonra üzünü Nurəddinə tərəf dutub dedi:

— Oğlum indi rahat ola bilərəm; çünki sənə verdiyim tərbiyənin meyvəsini bu gün gördüm. Mən səni oğulluqa götürmək ilə bir böyük hünər etməmişdim; çünki mən ancaq yaqşılıqa yaqşılıq etdim. Bu isə hər kişinin işidir. Amma sən yamanlıqa yaq-

şьlьq etdin. Bu isə ançaq sənin kibi ər kişinin işidir. Bunu dejə Rəhim Nurəddini quçaqlajьb ərdy.

Səməd naqьlьnь tamam edib soruşdu:

— Indi dejin gərym evladlarьm kimin naqьlь jaqşьdьr.

— Əlbəttə sənink, sənink jaqşьdьr,—dejə Məhəmməd və Fatma çavab verdilər.

1912

IV

Q A R A Ç A Q Ь Z

Qafqas şəhərlərinin birində usta Zejnal adlь bir sərraç öz arvadь Şərəfnisa ilə jaşajьrdь. Bunlar Iran əhli idilər, öz vilajətlərində məişətləri məşəqqət ilə kecməjə görə vətənlərini buraqьb, buraja gəlmişdilər. Usta Zejnal sərraçlьq etməklə kylfətini bir tevr dolandьrьrdь.

Usta Zejnalьn evladdan jalьnьz altь jaşьnda Tutu adlь birçə qьzь vardь. Tutu coq qara və cirkin idi. Anasь ona kərpə vaqtьndan «Qaraça qьz» dejib, əzizlədijinə görə əsil adь unudulub, hər kəs onu bu ad ilə caqьrьrdь. Qaraça qьz coq nadinç idi və özy qьz uşaqь ikən qьzlarla ojnamaqь sevməzdi; həmişə oqlan uşaqlarь ilə ojnardь. Uşaqlar Qaraça qьzdan qorqardьlar; cynky o coq çyr'ətli idi və jumruqunun da qabaqьnda hec kəs dura bilməzdi. Qaraça qьz həmişə zəifin tərəfini dutardь. Hər zaman anasь onun nadinçlijindən qonşulara şikajət edib dejərdi:

— Qaraça qьzь su batьrmaz, od jandьrmaz.

Bununla belə Qaraça qьz coq rəhimdil və səxavətli qьz idi: hər nə əlinə dyşsəjdi joldaşlarь ilə bəlyşərdi.

Usta Zejnal jaşadьqь şəhərdə tez-tez zəlzələ olardь. Bir qьş haman şəhərdə böjyk zəlzələ olub coq ev ucurtdu. Zəlzələ geçə jarьsь, xalq şirin juquda ikən ittifaq dyşdyjənə görə coq adam cəkmyş

evlərin altında qalıb tələf oldu. Səhər açıldıqda ətrafdan xalq tökülüb şəhərə köməjə gəldi. Adamlar, dəstə-dəstə olub əllərində kürək, bel, külüng uçuqları qazmağa başladılar. Ata oğulu, oğul ananı, qardaş bacını səsləjə-səsləjə daş topraqlı ajırırdılar. Bir dəstə də usta Zejnalın evini qazıjırdı. Əvvəlçə Şərəfnisanın bunun dalınça usta Zejnalın mejiti çıqdı. Bir az da qazıjandan sonra bir deşik açıldı. Buradan çıplaq bir balaça qız çıqdı. Bu qız haman Qaraça qız idi. O, ata-anasının mejitlərini görüb ağlamağa başladı. Hər kəs öz qohum-əqrabasını aramağa məşğul olub, Qaraça qızın qejdinə qalan joq idi.

Zəlzələdən iki gün qabaq, bir dəstə qaraçı bu şəhərin kənarında cadır qurub düşmüşdü. O dəstədən bir qaraçı arvadının Qaraça qıza jazığı gəlib cadırlarına apardı və paltar verib oçağın qıraqında oturtdu. Qaraçılar Qaraça qızın jetim qalmağını və onun heç bir kəsi olmajıb qərib olduqunu bilib öz janlarında saqlamağa məçbur qaldılar.

Qaraça qız qızlığa götürən qaraçı arvadı Jasəmən iyirmi jaşında, gözəl, jumşaq təbiətli, şad yrəkli bir qadın idi. Xasijjətinin jaqşılığına görə Jasəməni hamı sevərdi; amma onun əri Jusyfy heç kəs sevməzdi; çünki o, coq bədxasijjət, tündməzaç, zalim bir şəxs idi. Jasəmən qaval calıb oqumaq və oynamaq ilə pul qazanıb dəstəjə coq mənfəət verirdi. Onun əri Jusyf də qapı-qapı gəzib ajı oynadardı.

Jasəmən Qaraça qızı cadıra gətirən zaman Jusyf orada joq idi; çünki dəstənin bir hissəsi onunla bərabər səhər tezdən buradan çıqıb jo'a dyşmüşdü. Jerdə qalanı da getməjə jığışırdı. Jasəmən ərindən coq qorqurdu; çünki bilməjirdi ki, o,

Qaraça qızı qəbul edəçək ja joq. Bunun üçün Jasəmən iztirabda idi.

Qaraçı dəstəsinin jerdə qalanı da jola düşdü. Jasəmənin iztirabı bihudə dejilmiş, çünki geridə qalmış dəstə gəlib joldaşlarına catdıqda, Jusyf bu işdən xəbər dutub coq açıqlandı və bir kəndə catan kimi Qaraça qızı orada qojub gedəçəjini söjlədi. Jasəmən ərinə jalvardı ki, belə iş etməsin, lakin Jusyf onu dinləmək belə istəmədi. Qaraça qız isə yrəjində bu işə şad idi, o Jusyfdən qorqurdu və qorqmağa da haqlı idi; Jusyfun hejbətli sifəti hələ —qara və pırtlaq gözləri nə inki uşaqlı, hətta böjük adamı da qorquja salırdı. Jasəmən ərinin təmahkarlığını bilirdi, ona görə Qaraça qızın gələçəkdə onlara böjük mənfəət verəçəjini söjlədi:

— Jusyf, bilirsənmi mən nə fikirdəjəm? Mən Qaraça qıza mahnı oqumaq, özüm kimi oynamaq öjrədəçəjəm və üst-başını bəzəjib, kəndlərdə, şəhərlərdə oynadaçaqam, sənin üçün pul jığaçaqam.

Bu fikri Jusyf bəjənib, Qaraça qızın dəstədə qalmasına razı oldu.

***

Qaraçıların məişətini Qaraça qız coq bəjənirdi və bu gün burada, sabah bir təzə jerdə, caj qıraqında, meşə kənarında mənzil edib cadır qurma, naqıl söjləmə—bunların hamısı Qaraça qıza coq xoş gəlirdi. Əvvəl vaqtlar Qaraça qız Jusyfun ajısından qorqurdu. Amma sonralar öjrəşib onunla coq dost olmuşdu. Ajı da onun ilə oynamağı sevirdi.

Jasəmən Qaraça qızı ərinə söz verdiji kimi jaqşı gejindirib oqumaq və oynamaq öjrətmişdi. Tamaşacılar Qaraça qızın gözəl səsinə və oynamasına təəççüb edib hejrətdə qalırdılar. Qaraça qız balaça qavalını açıb tamaşacılara tərəf dutanda dərhal

onun ici pul ilə dolurdu. Bu isə Jasəməni artıq şad edirdi. Jusyf bu barədə arvadından və Qaraça qızdan razı idisə də, jenə xasijjətinin pislijindən hər ikisini coq inçidərdi.

Qaraça qızın təbiətində inadcıllıq vardı. Bu xasijjətinə görə Jusyfdən nə qədər kətək jejirdisə də, jenə tərslijindən əl gətyrməzdi. Qaraça qız ançaq Jasəmənin sözyndən çıqmazdı. Cynky Jasəmən onunla mehriban dolanırdı. Jusyf Qaraça qızın tərslijinə təəççyb edib arvadına dejərdi:

— Bu zorbalıqda ajı mənim qamcımın qorqusundan hər çyr ojun cıqarır, amma bu balaçalıqda qızın əlində açiz qalmışam.

Jasəmən ona belə çavab verərdi:

— Bunun səbəbi odur ki, ajı hejvandır, bu isə insandır. Hejvan ilə edilən rəftar insan ilə edilməz. Hejvana joqun cubuq lazım isə, insana mehriban rəftar, mylajim söz lazımdır.

Jusyf aravdının bu doqru sözynə inanmajıb dejərdi:

— Joq, bu səbəb dejildir, sən olmasan mən onu iki gynyn ərzində mum kibi edərəm.

Ər ilə arvadın arasında olan belə söhbətin nəticəsi o olardı ki, Jusyf Qararaça qızı daha da artıq kətəklərdi. Qaraça qız bu zylmdən xilas olmaq ycyn necə dəfə qacmaq fikrinə dyşmyşdysə də, lakin qacmaqa hec vəçilə imkan tapa bilməmişdi.

***

Iki ildən artıq idi ki, Qaraça qız qaracı dəstəsində jaşajıb, mahnı oqumaqı və ojnamaqı ilə ətrafda məşhur olmuşdu. Jusyf Qaraça qızı coq inçidəndə Jasəmən onu qorqudub dejərdi:

— Bu zavallı qıza nə coq əzijjət verirsən. Axır təngə gəlib qacar və sənin də əlin belə böjyk mənfəətdən cıqar.

Bu sözlər həmişə Jusyfə tə'sir edib, Qaraça qızı dəjməkdən bir myddət çəkinərdi.

***

Jajın orta ajı idi. Gynyn istisindən insanlar, hejvanlar və quşlar, kolgə jer və sərin su arajırdı. Qaracı dəstəsi bir daq yzərindən aqan cajın kənarında cadırlarını qurub mənzil etmişdi.

Gynorta vaqtı idi. Qaracılar hərəsi bir işə məşqul idi. Jusyf ajısını gətyryb jaqın kəndə getmişdi. Jasəmən cajın qıraqında su qızdırıb paltar jujurdu. Qaraça qız da cajda cimirdi. Caj daq dəşyndən gəldijinə görə xejli iti və xarıldaja-xarıldaja aqırdı; amma suju az olduqundan Qaraça qız ycyn qorqusu joq idi.

Jasəmən paltarı jujub kolların ystynə qurumaqcın sərmişdi. Özy də başını jumaq fikri ilə qara uzun saclarını hərykdən acıb dəşynə tökdy. Jasəmən Qaraça qızı səslədi ki, gəlib onun başına su töksyn. Qaraça qız iki arşın uçalıqdan tökylən şəlalənin altında durub cimdijinə görə Jasəmənin səsini eşitmədi. Bir azdan sonra Jasəmən Qaraça qızı caqırdı. Bu dəfə də çavab almadı. Jasəmən saclarını dəşyndən jıqıb belinə atdı. Bu halda qulaqına caj tərəfdən sel gurultusu gəldi. Bunu eşitcək Jasəmən dik atılıb caja tərəf jygyrdy. O vaqt Qaraça qız şəlalənin altında idi. Jasəmən cajın juqarısından daşları və kolları jumalaja-jumalaja, gurultu və nərilti ilə gələn seli goryb var gyçilə qışqırdı:

— Qızım, tez ol, qac, sel gəlir.

Qaraça qız Jasəmənin səsini eşidib, şəlalənin altından cıqdı, ançaq bir necə addım atmamışdı ki, sel onun ystyny çəllad kibi aldı. Jasəmən işi belə gördykdə alıçı quş kibi özyny caja atdı. Jasəmən özyny Qaraça qıza jetirinçə sel qızı go-

tyrdy və bir neçə saniyə suda itirdi. Bir az sonra qızın başı göryndy. Jasəmən özy də bir neçə dəfə suja batıb çıqandan sonra yzyb Qaraça qıza catdı və saclarından dutub cijninə atdı. Hərcəndi Jasəmən coq yzyçy idi, amma bu iti aqan daşları və böjyk kolları jumalajan seldə yzmək mymkyn dejildi. Qaracılar Jasəmənin qışqırtqını eşidib kəməjə tökyldylər; sel getdikcə artırdı. Axırda sel bunları bir böjyk daşa çırpdı. Qaraça qız Jasəmənin əlindən çıqıb daşın ystyndə qaldı. Amma Jasəməni sel götyryb yzy aşaqı aqıtdı. Qaracılar caja tökylyb hər ikisini sudan kənara çıqratdılar. Bunların ikisi də bihuş qalıb jerə sərilmişdi. Yzlərinin rəngi öly rəngi kibi idi. Qaracılar xejli calışdıqdan sonra hər ikisini huşə gətirdilər. Qaraça qızın bədəni daşlara dəjib bir neçə jerdən qaralmışdı, amma qorqusu joq idi. Zavallı Jasəmənə gəldikdə başı bir neçə jerdən jaralanmışdı. Lakin rəhimdil arvad özynə gələn kibi jaralarını unudub, tez zəif səslə Qaraça qızı soruşdu. Qaracılardan biri Qaraça qızı quçaqına gətyryb Jasəmənə göstərdi.

— Baq Jasəmən, budur, Qaraça qız saqdır. Arqajın ol.

Jasəmən bir qədər ona baqdı sonra jenə bihuş olub gözləri jumuldu. Qaracılar Jasəmənin jaralarını baqlajıb Qaraça qız ilə bir jerdə cadırlarına apardılar və hər ikisinə jer salıb rahat etdilər.

Aqşam caqı Jusyf gəlib evə çıqdı və joldaşlarından bu xəbəri eşidib coq qəzəbləndi və dedi:

— Mən bilirdim ki, bu ucuqdan çıqmış qız axırda bizim başımıza bir bəla gətirəçəkdir.

Qaracılar Jusyfy sakit edib dedilər:

— Qorqma, hec bir şej olmaz. Indi onlara rahatlıq lazımdır; durun bajıra çıqalım, səs kyj olmasın. Burada jalnız Jasəmənin dostu Hysnijə qalar, ona qulluq edər.

Qaracıların hamısı Jusyf ilə barabar bajıra çıqdılar. Cadırda ançaq Hysnijə qaldı.

Qaraça qız tamam geçəni ufultu və zarıltı ilə kecirib sybhə javıq juquja getdi. Amma Jasəmən qızdırma icində bir dəqiqə rahat olmadı. Vəfalı Hysnijə rəfiqəsinin janını kəsdirib sybhə qədər gözlərini jummadı. Jasəmənin qızdırması getdikcə artırdı. Səhər acıldıqda hərarəti 40 dərəçəjə catdı.

Jazıq Jasəmən qızdırmanın tə'sirindən tora dyşmyş quş kibi jerində capalajırdı. Onun gözləri həmişə jumulu idi. Geçə jaqış jaqdıqına görə səhərin havası coq saf və təmiz idi. Dynənki bəlanı tərəfdən cajlaqın suju indi enib əvvəlki həddinə dyşmyşdy. Onun həzin şırıltısı, quşların cəh-cəh və nəqməsinə qarışmışdı. Qaraça qızın sevgili şəlaləsi gynəşin qırmızı şö'ləsindən parlajırdı. Axırda Jasəmən gözlərini acdı. Bicarənin lalə kibi janaqları solub zənbəq rənginə dönmyşdy. Jasəmən Hysnijəni tanıdı. Zəif səslə ona dedi:

— Hysnijə, Jusyf haradadır?

— Bajırdadır, baçım caqırtmı?

— Caqır, hamını caqır... ölyrəm...

— Qorqma, baçım, olməzsən. Bu gyn haradan olmuş olsa sənin ycyn həkim tapıb gətirəçəjəm

Bunu dejib Hysnijə bajıra çıqdı və bir azdan sonra Jusyf başqa qaracılar ilə bərabər icəri girdi. Qaracılar Jasəmənə yrək verirdilər, Jasəmən dedi:

— Joq, əzizlərim, mən ölyrəm... Jusyf, əlini mənə ver... Vəsijjətimə qulaq as.. Əmələ gətirməjə söz ver...

Bir az dajanıb jenə təzədən başladı:

— Jusyf, budur dört ildir ki, sənə arvadam. Bu vaqta kibi səndən dəjyşdən, səjyşdən başqa bir şej

gərmədim. Çavan ömrymy cyrytdym... Mənə min çyr zylm və çəfa etdin, bunlarьn hamьsьnь baqьşlajьram. Ançaq sən də mənə söz ver ki, bundan sonra Qaraça qьz ilə mehriban rəftar edib onu inçitməjəçəksən...

Jasəmən səsini kəsdi, cadьrda bir myddət sakitlik oldu. Sonra Jusyf dedi:

Joldaşlarьmьn qarşьsьnda vəsijjətini əmələ gətirməjə söz verirəm.

Jasəmənin yzyndə şadlьq zyhur etdi və Hysnijəjə dedi:

— Baçьm, Qaraça qьzь sənə tapşьrьram. Ondan myqajat ol. Ah, gözlərimə qaranlьq çökyr... Məni boqurlar... Jusyf... Hysnijə... Qaraça qьz...—dejə Jasəmən sajьqlaja-sajьqlaja vəfat etdi.

***

Jasəmənin vəfatьndan sonra Jusyf bir myddət verdiji əhdə vəfa etdi; lakin sonralar təbiətində olan fəna sifətləri jenə aşkar olmaqa başladь. Hysnijə baçardьqь qədər Qaraça qьzь Jusyfyn zylmyndən myhafəzə edirdi. Ançaq iş orasьnda idi ki, Jusyf Jasəmənin vəfatьndan sonra Qaraça qьz ilə pul qazanmaq ycyn hər gyn səhər mənzildən cьqьb bir də aqşam qajьdьrdь. Hysnijə zavallь jetimin yzynə baqdьqda sualsьz da anlajьrdь ki, o bicarə Jusyfdən nə qədər zylm və əzijjətlər çəkir.

Axьr vaqtlarda Jusyf bir fəna əmələ də myrtəkib olmuşdu: belə ki, əlinə dyşən pulu icgijə verib tez-tez məst olurdu.

Jusyfyn belə vaqtlarьnda Qaraça qьzьn gyny daha da qara olurdu.

Bir dəfə Jusyf və Qaraça qьz jol ilə gedirdilər. Bunlar bir dəstə atlь çavan oqlanlara rast gəldilər. Bu çavanlar şəhərə toja gedirdilər. Bunlar Jusyfgilə təklif etdilər ki, bir az calьb oqusunlar. Jusyf razь

oldu. Qaraça qьzьn oqujub ojnamaqь çavanlara coq xoş gəldi. Onlar bir-birinin bəhsinə Qaraça qьzьn qavalьnь aq və qara pul ilə doldurdular.

— Saq ol, coq jaşa, Qaraça qьz,—dejə çavanlar atlarьnь syrdylər.

Jusyf sevinçək Qaraça qьzdan pullarь alьb çibinə tökdy və dedi:

— Gəl qьzьm, sən ajь ilə o kolluqda otur, dinçini al, mən də gedim o görynən kəntdən cörək və sənin ycyn də fьndьq, kişmiş alьm.

Bu sözdən Qaraça qьz əsla şad olmadь, cyнky bilirdi ki, oraja icməjə gedir. Amma bununla belə bir söz demədi.

Bunlar joldan kənara cьqьb kolluqa tərəf yz qojdular. Jusyf bir böjyk kol secib ajьnь oraja baqladь və Qaraça qьza dedi:

— Əqilli qьzьm, burada otur, bu saat gələçəjəm.

— Jusyf getdi, Qaraça qьz da kəlgədə uzandь və bir azdan sonra şirin juquja getdi, ajь bir myddət sakit uzandь. Sonra durub zənçirini dartmaqa başladь. Kolun budaqь ajьnьn gyçynə dəvam etməjib Kolun budaqь ajьnьn gyçynə dəvam etmədь. Ajь özyny asuda göryb bir myddət kolluqda qopdu, gəzdi, sonra yzyny meşəjə tərəf dutub getdi.

Jusyf iki saatdan coq idi ki, kəndə getmişdi. Qaraça qьz juqudan hələ ojanmamьşdь. Axьrda Jusyf sərxoş halьnda o tərəfə bu tərəfə jьrqalana-jьrqalana gəlib cьqdь. Qaraça qьzь jatmьş göryb və ajьnь baqladьqь jerdə tapmajьb ajaqь ilə qьzь elə bərk vurdu ki, bicarə dik atьldь.

— De görym, ajь hanь? Myrtəd qьzь myrtəd.

Qaraça qьzьn qorqudan dili dutulub çavab verə bilmədi.

— Hələ dajan. Qoj ajьnь tapьm sonra sənin pajьnь verəçəjəm. Jusyf kola diqqət ilə baqьb gördy ki, ajьnь baqladьqь budaq qopubdur və özy də joqa

dur. Bundan anladь ki, ajьnь oqurlamamьşlar, ozy kolu qoparьb meşəjə qacmьşdьr.

— Dyş qabaqьma, ajь meşəjə qacmьşdьr, gedək tapaq.

Qaraça qьz ditrəjə-ditrəjə jola dyşdy. Jusyf jol uzunu gah Qaraça qьzь səjyb qorqudurdu, gah da øz-øzynə danьşьrdь. Bunlar meşəni xejli dolandьlar amma ajьdan bir əsər gørmədilər. Birdən Qaraçа qьzьn qulaqьna ajьnьn baqьrtьsь gəldi.

— Eşidirsənmi əmi, bu tərəfdən ajьnьn baqьrtьsь gəlir

— Hec zad eşitməjirəm, jalan dejirsən.

— Baq, baq jenə baqьrьr. Bu dəfə Jusyfyn øzy də eşitdi.

— Doqru dejirsən, baqьran ajьdьr.

Hər ikisi səs gələn tərəfə yz qojdular. Ançaq səs meşəjə dyşdyjynə gørə ajьnьn jeri javuq gorynyrdy, amma həqiqətdə xejli uzaq idi. Axьrda gəlib ajьnь tapdьlar. Ajь zənçirilə aqaça dolaşьb dartьnьrdь və baqьrьrdь. Jusyf ona catan kibi hirsindən və açьqьndan ajьnь azad etmədən əvvəl əlindəki aqaç ilə onu dəjməjə başladь. Ajьnьn baqьrtьsь meşəni başьna gøtyrmyşdy. Axьrda ajь dartьnьb xəltanь başьndan cьqartdь və ildьrьm kibi øzyny Jusyfyn ystynə atdь. Bir dəqiqə kecmədi ki, qьzmьş ajь sahьbьnь parcaladь. Qaraça qьz bunu gørdykdə dəhşətli bir hal ilə qacmaqa başladь. Ançaq qorqudan øzyny itirib jol əvəzinə meşənin ortasьna tərəi qacdь. Bir azdan sonra ajь Jusyfyn mejitini buraqьb Qaraça qьzьn dalьnça dyşdy. Bunu gørdykdə zavalь qьzьn bədəninə ditrəmə dyşdy və var gycilə qacmaqa başladь. Getdikçə ajь Qaraça qьza jaqьnlaşьrdь. Bu halda Qaraça qьzьn qabaqьna bir ucurum dərə cьqdь. Qaraça qьz dərədən endikdə ajь øzyny ona catdьrdь. Ançaq o enişi aşa-

qь qaca bilmədijindən dərənin icinə jumbalandь. Qaraça qьz firsət tapьb øzyny dərənin dəşyndəki maqaraja saldь. Bu maqaranьn aqzь enli idi, amma icəri getdikçə daralьrdь. Ajь dərənin dibinə kibi jumbalandь. Sonra ajaqa qalqьb yzy juqarь dьrmaşmaqa başladь.

Bəllidir ki, ajьnьn dal ajaqlarь qьsa olduqu ycyn enişi pis və joquşu asan dьrmaşa bilir. Ajь aqtarьb maqaranь taparaq icərijə soquldu. Qaraça qьz syrynə-syrynə øzyny maqaranьn dar jerinə jetirdi. Ajь isə dar jerə soqula bilmədi. Bir az donquldanьb maqaranьn aqzьnda jatdь.

Qaraça qьz tərpənməjə də qorqurdu. Ançaq onun qorqusu nahaq idi, cynky indi ajьnьn hirsi jatmьşdь, ona dəjməzdi və bəlkə də onun orada olmasьna sad olardь.

***

Iki saatdan artьq idi ki, Qaraça qьz maqaranьn icində uzanьb qalmьşdь. Bicarə qьz ajьnьn qorqusundan øzyny maqaranьn deşijinə elə pərcim etmişdi ki, tərpənməjə də imkanь joq idi. Bir tərəfdən maqaranьn icindəki havanьn azьqь, digər tərəfdən də ajьnьn vahiməsi jazьq qьzь bihuşluq halьna salmьşdь. Ajь isə fьsьldaja-fьsьldaja jatmьşdь. Birdən ajь ojanьb donquldanmaqa başladь. Bu halda Qaraça qьzьn qulaqьna coqlu it səsi gəldi. Ajьnьn da donqultusu artdь. Coq cəkmədi ki, itlər hyrə-hyrə maqaranьn aqzьnь aldьlar, ançaq çyr'ət edib icəri girə bilmədilər. Bir azdan sonra at ystyndə avcьlar qьşqьra-qьşqьra gəlib cьqdьlar. Bunlar maqaranьn icindən ajьnьn nəriltisini eşidib tyfənglərini hazьrladьlar və itləri icəri qьsqьrtdьlar. Itlərin bir neçəsi çyr'ətlənib maqaranьn icinə soquldu. Ançaq coq cəkmədi ki, jenə zingildəjə-zingildəjə ge-

ri qaİıtdılar. Onlardan bir, ikisi jaralanmışdı. Bu halda avcılar bajırdan:

— Axdar, bas, Xallı bas, Gymyş bas,—dejə qısqırtdılar. Itlər çyr'ətlənib jenə özlərini icəri soqdular və ajı ilə dutaşdılar. Ajı bir myddət onlar ilə boğuşandan sonra maqaradan sıcrajıb cıqdı. Bu halda yc gyllə birdən onun yzərinə acıldı. Bunların zərbindən bicarə ajı boqanaqdan jıqılan aqac kibi jerə sərildi. Avcıların biri:

— Afərin mənim gylləm.

— Xajır, Hysejnqulu aqa, səhv edirsən, ajını öldyrən mənim gylləmdir.

— Baqışla. Səlim bəj, mən ajını başından atmışam, jəqin ki, onu jıqan mənim gylləmdir.

— Səbr edin, əzizlərim. Bu saat mə'lum olar,— bunu dejib, əvvəlki adam atdan dyşdy və nökərlərin köməgilə ajının çəmdəgini o jan bu jan cevirib diqqət ilə baqmaqa başladı.

— Əzizlərim, hec bəhs etməjin, ycymyzyn də gylləsi ajıja dəjmişdir. Sonra yzyny nökərlərinə tərəf dutub dedi:

— Çəld ajının dərisini sojun. Rəhim bəj sənə demədimmi ki, ajısız bu avdan qajıtmajaçaqam. Hələ öz meşəni tə'rif edib məni məsxərə edirdin ki, sizin meşənizdə davşan da tapılmaz. Bəs bu nədir?

Bu halda Rəhim bəj ajıja diqqət ilə baqıb dedi:

— Jenə də Hysejnqulu aqa öz fikrimdə möhkəm durmuşam. Bu ajı meşə ajısı dejil. Əldə bəslənmiş ajıdır.

— Elə iş ola bilməz. Onu haradan bildin?

— Budur, baq ajının bojun tyklərini zənçir aparmışdır. Səlim bəj doğrumu dejirəm?

Səlim bəj baqıb Rəhim bəjin sözyny təsdiq etdi. Bundan sonra bəjlər qaqqıltı ilə gylməjə baş-

ladılar. Hysejnqulu aqa əvvəl dostlarının sözyny zarafat hesab etdi, amma sonra özy də diqqət ilə baqdıqda şəkkə dyşdy. Bu halda av tulalarına qoşulmuş qara köpək maqaraja girdi, bunun dalınca başqa itlər də getdilər və jenə icəridə hyryşmə başlandı. Bunu gördykdə Hysejnqulu aqa dedi:

— Dejəsən maqarada jenə ajı var.

Bəjlər tyfənglərini hazırlajıb maqaranın aqzını kəsdilər. Bu zaman qara köpək Qaraça qızın ajaqından dutub itlərin arasından syryjə-syryjə onu maqaradan bajıra cıqartdı. Bəjlər bunu gördykdə təəccyb edib hejrətdə qaldılar. Qara köpək Qaraça qızı buraqdı, amma o, hərəkətsiz qalıb ajaqa qalqmadı. Bəjlər Qaraça qızın ystyny aldılar. O, zəif bir hal ilə gözlərini acdı; lakin harada olduqunu anlamadı. Hysejnqulu aqa ondan soruşdu:

—Qız, sən kimsən? Bu maqarada nə qajırırdın? Qaraça qız çavab vermədi. Rəhim bəj dedi:

— Hysejnqulu aqa, görmyrsənmi ki, qız hələ lazımınca özynə gəlməmişdir. Nə sual edirsən. Mən əhvalatı onsuz da anlajıram. Qızın sifətindən və libasından qaracı qızı olduqunu dujmursanmı. Bu av etdijimiz ajı da əldə bəslənmiş qaracı ajısıdır. Ançaq sahibi harada qalmış burası mənim ycyn aşkar dejildir.

Səlim bəj qıza diqqətlə baqıb dedi:

— Ha, bu qızı mən görmyşəm. Məşhur oqujan və oynajan Qaraça qızdır, sahibi də qaracı Jusyfdyr. Yc aj bundan qabaq ona nə qədər pul və xəl'ət və'd etdimsə də, bu qızı mənə satmadı, indi jaqsı əlimə dyşybdyr. Siz öləsiniz gyndə qonaqlıq edib sizə böjyk kef verəcəjəm.

Hysejnqulu aqa bunu eşitdikdə dedi:

— Demək o kefi mən verə bilmərəm. Əslinə baqsan qız mənə catar. cynky mənim köpəjim tapmışdır.

Bəjlərin arasьna bəhs dyşdy. Səlim bəj dedi:

— Hysejnqulu aqa, özyn jaqşьça bilirsən ki, arvadьn Pəri Çahan xanьm qaracь qьzьnь evinə qojmaz, nə ycyn bəhs edirsən?

— Nə ycyn qojmur? Ev sahibi odur, joqsa mən? Bundan ilavə qьzь Piri kişijə verəçəjəm ki, o saqlasьn.

Bəjlər buna razь oldular. Hysejnqulu aqa qьzь nökərlərinə tapşьrdь. Bəjlər jenə av etməjə başladьlar, lakin dört saata qədər meşəni dolanьb bir tylky və yc davşandan başqa əllərinə bir av keçirə bilmədilər. Ona görə avь tərk edərək jola dyşdylər.

Qaraça qьz özynə gəlib jol uzunu başьna gələn əhvalatь ala-jarьmcьq naqьl etdi. Hysejnqulu aqa onun atasьz, anasьz jetim olmaqьnь eşidib dedi:

— Coq gözəl oldu, indi hec kəs qьzь məndən ala bilməz.

***

Aqşam vaqtь Hysejnqulu aqa öz dostlarь Rəhim bəj və Səlim bəj ilə bərabər evlərinə gəldilər. Itlərin hyrməji, avcьlarьn səsləri, nökər və mehtərlərin qьşqьrьqь bir-birinə qarьşmьşdь. Aqça xanьm bu səs-kyjə myrəbbijəsindən iznsiz bajьra cьqdь. Kənarda durmuş Qaraça qьzь göryb ona jaqьnlaşdь. Qaraça qьz və Aqça xanьm nəzərlərini bir-birinə salьb bir myddət diqqət ilə baqьşdьlar. Bu iki uşaqьn arasьnda böjyk fərq vardь: birinin ata anasь bəjzadə, o birininki isə joqsul idi. Biri zəif, zərif, hər bir işdə özgəjə mehtac olduqu kibi, o biri isə polad kibi saqlam bədənli, az jaşьnda coq gormyş, öz zəhmətilə məişət edən bir coçuq. Birinin baqьşь sanki özgələri görməjə, o birinin nəzəri isə hamьnь qavqaja caqьrьrdь.

Aqça xanьm zərif əlini Qaraça qьza uzatdь, o da kobud barmaqlarь ilə onun əlini sьqdь. Aqça xanьm bu sьqmaqa davam etməjib qьşqьrdь, sonra gyldy.

Bir az cəkmədi ki, şirin söhbətə başladьlar. Bu vaqt Hysejnqulu aqa Qaraça qьzь unudub otaqda bəjlər ilə av bəhsinə girişmişdi. Aqça xanьm ilə Qaraça qьzьn sohbəti coq cəkmədi. Pəri Çahan xanьm otaqьndan həjətə endi və qьzьnь Qaraça qьz ilə söhbət edən goryb coq bərk açьqlandь və myrəbbijəsini caqьrьb dedi:

— Nə ycyn öz vəzifənizi unudursunuz xanьm. Baqьn tərbijə verdijiniz qьz kimin ilə dostluq etmişdir. Otaqьna aparьn. Bu geçə şamsьz qalaçaqdьr.

Myrəbbijə, gözy jaşlь Aqça xanьmьn əlindən dutub otaqьna apardь. Qaraça qьza da Pəri Çahan xanьm—dalьmça gəl, qaracь qьzь,—dejib Hysejnqulu aqanьn otaqьna apardь və rişxənd ilə dedi:

— Bu şahzada qьzьnь haradan tapьb gətirmisən.

Qьzьn ilə tanьş olub coq şirin söhbət edirdilər.

Hysejnqulu aqa əhvalatь ona naqьl edib dedi:

— Pəri Çahan, qьzьna jazьqьn gəlsin, gör joldaşsьzlьq, onu nə hala salmьşdьr. Qoj bu qьz ilə ojnasьn, atlansьn, qol qanadь acьlsьn, bədəni bərkisin, kejfi acьlsьn. Bu qьz qaracь qьzь dejildir və olsa da nə ejbi vardьr. Xanьmьn janьnda qarabaşь olmaznь? Myrəbbijəsi janьnda olaçaqdьr. Bir fəna iş edərlərsə tərbijə edib qojmaz.

Bu sözlər Pəri Çahan xanьma əsla tə'sir etmədi.

— Sən mənə söz vermişdin ki, tərbijə məsələsinə qarьşmajaçaqsan. Indi nə ycyn sözyndə davam etmirsən? Bu qьz buradan gedəsidir, artьq söz lazьm dejil

— Xajьr, bu qьz burada qalaşьdьr,—dejə Hysejnqulu səsini uçaltdь.

— Sənə dejirəm, bu qьz bu saat buradan gedəsidir. Joqsa mən burada qalmaram,—dejə Pəri Çahan xanьm qəzəbləndi. Səlim bəj firsəti fovtə verməjib dedi:

— Onda verin mən aparьm.

Hysejnqulu aqa dedi:

— Səlim bəj, hec vaqt ona razı olmaram. Neçə ki, sizə demişəm, elə də edəcəjəm. Qaraça qız baqbanım Piri babanın janında olaçaqdır.

Pəri Çahan xanım dedi:

— Bu şərtə mən də razıjam. Ançaq Aqça xanım ilə bilmərrə əlaqəsi olmajaçaqdır; cynky ondan pis xasijjət gətyrər.

Bu şərtlə aparıb Qaraça qızı Piri kişijə tapşırdılar.

Piri kişinin daxması aqalıqın bəjyk mejvə baqının icində idi.

Piri kişi 70 jaşında bir qoça idi. Hec bir kəsi joq idi, özy də Hysejnqulu aqanın rəijjəti olub onun atası zamanından bu baqa baqbanlıq edirdi. Piri kişi həmişə baqda əmr syryb işi dyşməsə aqalıq qapısına gəlməzdi.

Xidmətcilər Hysejnqulu aqadan qorqub hyzurunda ditrəjirdilər. Lakin Piri kişi kimsədən qorqmazdı və baçardıqı qədər qulluqcuları aqaların zylmyndən myhafəzə edərdi. Ona görə onu başqa nökərlər sevirdi. Qaraça qızın saqlanmaq ycyn Piri kişijə verilməsi onu coq şad etdi. Öz komasında Qaraça qız ycyn jer hazırladı. Onu jedirib rahat etdi. Qaraça qız jataqına girib bir myddət jata bilmədi. Sonra Piri kisidən soruşdu:

— Baba, o xanım, qızın nə ycyn mənimlə ojnamaqa və səhbət etməjə qojmajır?

— Qızım, onlar bəjdirlər, biz rəijjət, onlar aqadırlar, biz nökər. Bizimlə onların nə joldaşlıqı. Qızım sən Aqça xanımı jaddan cıqart. O sənə joldaş dejildir.

Qaraça qız bu sözlərlə sakit olmajıb dyşynyrdy.

— Mən Aqça xanıma nə etdim ki, anasının mənə açıqı dutdu. Bu geçə ona jemək verməjəçəklər.

Jazıq aç qalaçaqdır. Anam saq olanda məni də naharsız qojardı, ançaq mən nadinçlik edərdim. Bu ki, hec zad etməmişdi.

Qaraça qız fikrini bir jerə cıqarmamış juquja getdi. O geçəsi haman fikirlər Aqça xanımı da sakit etmirdi. Nə anasının, nə myrəbbijəsinin nəsihətini anlamırdı.

— Nə səbəbə mən o qızla ojnajıb danışa bilmərəm. Mən bəj qız olanda nə olar. Məni nə ycyn şamsız qojdular. Qaraça qız coq təəççybly şejlər danışırdı. O dejirdi ki, sənə qaval calmaq, ojnamaq öjrədəçəjəm. Ah. Nə ycyn anam məni qojmadı ki, onunla coqluça danışam.

Aqça xanım jorqanı başına çəkib gizlinçə aqlamaqa başladı və bir azdan sonra juquja getdi.

***

Piri kişi hələ uşaqlıqından gyn cıqmamış juqudan durmaqı adət etmişdi. Indi də tezdən qalqıb oçaqı qaladı, özy kibi ömry kecmiş hisdən qaralmış cajdanı su ilə doldurub oçaqa qojdu və daxmadan cıqdı ki, baqı dolansın.

Piri kişi bu bəslədiji baqı coq sevirdi. Buradakı aqaçların coqunu özy öz əlilə əkib beçərmişdi. O ətrafda bitən bir mejvə aqaçı joq idi ki, bu baqda olmasın. Hysejnqulu aqanın bu baqı mylkədarlar arasında xejli şöhrət qazanmışdı. Hysejnqulu aqaja qonaq gələndə o öz qonaqlarını baqına tamaşa etməjə apararardı. Baqı oqrudan qorumaqa Piri kişinin birçə köməkcisi vardı. O da Qaraça qızı maqaradan cıqaran Qaraça köpək idi. Qaraça köpək qajət hejbətli və hynərli bir it idi. Onun qorqusundan hec kəs baqa dolana bilməzdi. Bu köpəkdə bir qəribə hal vardı: hər kəs ki, Piri kişijə dyşman idi, köpək onu sevməjib, jaqına qojmazdı. Piri kişi bir

jeni şəxs ilə tanış olanda, qara köpək o adama qujruq bulayıb yaqınlaşsajdı, Piri kişi onu özynə dost hesab edərdi, əksinə o adama dişlərini aqardıb mırıldasajdı, onu özynə dyşman bilərdi. Qara köpəjin bu hissini Piri kişi dəfələrlə imtəhan etdiji ycyn belə dejərdi:

— Dost-dyşmanımı qara köpək ilə tanıjıram.

Piri kişi qara köpəji hec vaqt zənçirləmirdi. Geçə və gyndyz qara köpək asudə idi. Bununla belə qara köpək, baqdan kənara cıqmazdı. Ançaq bə'zi vaqt Hysejnqulu aqa ava getdikdə o da həvəslənib av tulalarına qoşulardı: bu vaqt onu geri qajtarmaq ycyn gərək Piri kişi özy gələjdi, joqsa kimsəjə qulaq asmazdı.

Piri kişi komadan cıqdıqda, qapını acıq qojmuşdu. Bu halda qara köpək icəri girib, evdə bir adamı jatmış gördy. Qulaqlarını şəkləlib hejbətli bir halət ilə ona tərəf jönəldi. Sonra Qaraça qızı tanıjıb qujruqunu buladı və ilərı gəlib janında uzandı. Əlini jalamaqa başladı. Bu vaqt Qaraça qız gözlərini acdı və hələ juqulu olduqu ycyn qara köpəji tanımajıb qışqırdı. Bunun səsinə Piri kişi çəld içəri girib dedi:

— Qızım, nə ycyn qışqırdın? Kimdən qorqdun?

— Baba, burada ajı var.

— Joq, qızım qara köpəkdir, qorqma burada ajının nə işi var? Sonra qara köpəjə: cəkil... dejə onu bajıra qovladı.

— Jat, qızım hələ tezdir.

— Joq baba, daha juqum gəlmir, mən həmişə tez dururam.

— Coq jaxşı edirsən, qızım, adam gərək səhər tezdən dura ki, bədəni saqlam ola. Qaraça qız paltarını gejib dedi:

— Baba, əl-yzymy harada jujum?

— Budur daxmamızın janından su aqır, get orada ju.

Qaraça qız yzyny jumaqa getdi. Piri kişi də syfrəni salıb pəndir, cörək və jaq qojdu, sonra cajdandan iki finçan caj tökyb syfrəjə qojdu. Bu vaqt Qaraça qız yzyny jujub içəri girdi.

— Al, qızım yzyny sil, otur caj içək.

Piri kişi Qaraça qıza dəstmal verdi. Qaraça qız da əl-yzyny qurudub syfrəjə oturdu. Hər ikisi jejib içməjə məşqul oldular.

Cajdan sonra Piri kişi Qaraça qıza dedi:

— Dur qızım, gyn qızmamış həm baqımızı gəzək, həm də aqalar ycyn mejvə dərək.

Piri kişi özy bir səbət götyrdy və Qaraça qıza da bir çəvərən verdi. Evdən bajıra cıqdıqda qara köpək də onlara qarışdı. O qujruqunu bulaja-bulaja Qaraça qıza janaşdı. Qaraça qız onun başını qaşqallajıb çəvərəni onun bojnundan asdı. Qara köpək başını bulajıb çəvərəni jerə saldı. Qaraça qız pək başını bulajıb çəvərəni jerə saldı. Qaraça qız götyryb jenə bojnuna kecirdi. Qara köpək bu dəfə də başını əjib çəvərəni jerə saldı. Piri kişi dedi:

— Qızım, zəhmət cəkmə, Qara köpək azadəlijə öjrənmişdir, o tə'limə jatmaz.

— Joq baba, jatar, bir gör onu neçə öjrədəçəjəm.

Bunu dejə Qaraça qız qara köpəjin qabaqında cöməldi və onun gözlərinə baqarkan dedi:

— Qaraça köpəjim, əqilli köpəjim, çəvərəni götyr.

Qaraça qız çəvərəni jenə onun bojnuna saldı. Bu dəfə Qara köpək çəvərəni jerə salmajıb Qaraça qızın yzynə baqa-baqa janınça getdi. O da sevinçək dedi:

— Afərin, Qaraça köpəjim. Baba, gördynmy?

— Göryrəm qızım və coq da təəccyb edirəm.

Qara köpək indijə qədər məndən başqasının əmrinə tabe' olmamışdı. Indi isə hətta çəvərəni də aparır.

— Hələ bu nədir ki, baba, gör ona nələr öjrədəcəjəm. Mən qaracı dəstəsində olan zaman ajını, mejmunu və qejri hejvanları öjrədəndə görmüşəm, ançaq, baba, hejvanı əzizləjə-əzizləjə öjrətməlidir, joqsa dəjmək ilə bir şej olmaz; amma qorqutmaqın ejbi joqdur. Baq, Jusyf ajını dəjdy, o da onu parcaladı. Piri kişi balaça qızın əhvalatını balaça eşitmişdi.

Indi isə Qaraça qızın kim olduqunu, bu vaqta qədər neçə jaşadıqını ona ətraflı naqıl etdirdi. Qaraça qızın yrək jandırıcı façiəsindən rəhimdil Piri kişi xejli qəmgin oldu və yrəjində bu jetim coçuqa məhəbbəti artdı. Səhərin saf və gözəl havası kolların və meivələrin ətri, quşların nəqmələri insana zevq-səfa verirdi. Belə təbiət icində jaşamış Piri kişijə baqanda adam onun jetmiş jaşında olduquna inanmajırdı.

Bunlar gəlib almalıqa catdılar. Qırmızı ətirli almaları gördykdə Qaraça qızın gözləri parladı.

— Baba, nə gözəl almalardır.

— Qızım, baqımızda hər çyr meivə var, dərib jeməji qadaqan etmirəm, ançaq aç qarına jeməjəsən, joqsa azarlarsan. Indi sən aqaça cıq, almaları dər, mən də səbətə jıqım.

Qaraça qız tez aqaça dırmaşdı, almaları dərib jerə tokməjə başladı. Aqzını da bikar qojmajırdı. Bir azdan sonra Piri baba dedi:

— Qızım daha bəsdir, dyş gedək bir qədər armıd, hulu jıqaq.

Qaraça qız dyşdy. Almalardan çəvərəninə qojub jenə qara köpəjin bojnuna asdı. Armıdlıqa gedərkən birdən qara köpək çəvərəni jerə atıb ildırım

kibi gotyryldy. Qaraça qız tokylmyş almaları jıqarkən baqıb gördy ki, bir balaça pişik qacır. Qara köpək də istəjir onu dutsun. Bunu görçək Qaraça qız çəld qalqıb jyjyrə-jyjyrə Qara köpəji geri caqırdı. Lakin nə qədər qışqırdısa o, pişikdən əl çəkmədi. Piri baba da caqırdı, Qara köpək onun da sözynə qulaq asmadı. Qara köpək az qalmışdı ki, onu dutsun—pişik çəld armıd aqaçına dırmaşıb özyny qızmış köpəkdən xilas edə bildi. Qaraça qız bu işdən xejli şad olub əllərini bir-birinə vura-vura qaqqıltı ilə gylməjə başladı.

— Dızz, Qara köpək, dızz neçəsən, duta bildinmi,—dejə Qara köpəjə janıq verdi.

Qara köpək isə işi belə gördykdə aqaçın dibində elə həşir etməjə başladı ki, sankı bu saat pişiji də elə həşir etməjə başladı ki, sankı bu saat pişiji qorqudub jerə salaçaqdır. Jazıq pişik hərsəsi ilə qorqudub jerə salaçaqdır. Jazıq pişik hərcəndi hyndyrdə və əl catan jerdə dejildi; lakin bunula belə ditrəjə-ditrəjə gözlərini Qara köpəkdən çəkə bilmirdi. Qaraça qız özyny aqaça jetirib dırmaşmaqa başladı. Pişik onu göryb oturduqu budaqdan juqarı cıqmadı. Qaraça qız ona jaqınlaşıb gördy ki, xallıça bir gözəl pişik balasıdır. Piri kişi də Qaraça qızın almalarını çəvərənə doldurub armıd aqaçın dibinə gəldi. Bu halda Qara köpək bir qədər çının dibinə gəldi. Bu halda Qara köpək bir qədər sakit olmuşdu. Amma jenə də gözləri aqaçda idi.

— Baba baq, nə gözəl pişik balasıdır, bunu aparıb evimizdə saqlajaçaqam.

— Coq jaxşı, qızım apar. Indi o armıdları dər sonra dyş. Qaraça qız armıdları dərib pişiji quçaqına alaraq jerə dyşdy. Qara köpək əvvəl bir qədər özyny rahatsız saqladı, sonra Qaraça qızın sə'ji ilə bilmərrə sakit oldu və axırda pişijə də dəjməjib onunla dostluq binasını qojdu. Meivələr hazır olduqda Piri baba dedi:

— Indi bunlarь aqalьqa aparmaq lazьmdьr. Qapьja kibi mənə kəmək et sonra mən özym apararam.

— Baba, məjər mən aqalьqa gedə bilmərəm?

— Joq, qьzьm getsən Pəri Çahan xanьma xoş gəlməz, elə bilər ki, onun əmrindən cьqьrьq.

Qaraça qьz Piri kişini baqьn qapьsьna kibi ətyryb, özy xal-xal pişijini quçaqьna aldь; baqь gəzməjə başladь. Cəpərin qьraqь ilə gedərkən Qaraça qьz gərdy ki, Aqqa xanьm da myrəbbijəsi ilə sqamjanьn ystyndə oturub kitab oqujur. Gərynyr ki Aqqa xanьm kitabь fikirlə oqumur və oquduqunu da sevmirdi. Bu halda bir gözəl kəpənək gəlib Aqqa xanьmьn oturduqu sqamjanьn başьna qondu. Aqqa xanьm gizlinçə kəpənəji dutmaq istədisə lakin duta bilmədi. Bunu myrəbbijə göryb coq açьqь dutdu və hirsli Aqqa xanьmьn əlindən dutub evə apardь. Qaraça qьz bir myddət ðajandь ki, gərsyn Aqqa xanьm jenə baqcaja cьqaçaqmь. Bir azdan sonra myrəbbijə jalьnьzca gəlib sqamjanьn ystyndə əjləşdi və kitab oqumaqa məşqul oldu. Qaraça qьz dujdu ki bu Aqqa xanьmı evə salьb dustaq etdi. Bu işdən rəhimdil Qaraça qьz nə qədər Aqqa xanьma yrəji jənьb jazьqь gəldisə bir o qədər də myrəbbijəjə dyşmənciliji artdь.

Aqalьq evi təzə qajda ilə tikilmiş iki mərtəbə gən--bol bir imarət idi. Bundan başqa evin baş tərəfindən yc balaça otaqdan ibarət bir qədim tikili də vardь. Bu Hysejnqulu aqanьn babasьndan qalma köhnə bir imarət idi. Bu evin pənçərələri xьrda və rəng-bə-rəng şişələrdən ibarət idi. Bu evlərdə hec kəs olmurdu. Həmişə iki otaqьn aqzь baqlь olardь. Orada Hysejnqulu aqanьn babasьndan qalma əntiq şejləri saqlanьrdь. Ançaq ycyncy otaq qədim jaraqlar və zinətli şejlər ilə bəzənib Hysejnqulu aqa ycyn acьq saqlanьrdь. Burada Hysejnqulu aqa nahardan son-

ra uzanьb bir az rahatlьq edərdi. Bu otaqьn birçə dənə pənçərəsi vardь, o da qejri pənçərələr kibi jana acьlmajьb, juqarь çəkilirdi. Onun xьrdaça və rəng-bə-rəng şişələri icərijə bir o qədər işьq buraqmazdь, ona görə də otaqьn ici qaranlьq idi. Bu otaq aqalьqda «Baba otaqь» adь ilə məşhur idi. Axьr vaqtlarda Aqqa xanьm myqəssir olduqda onu tənbih ycyn bu otaqa salьrdьlar.

Qaraça qьz cəpər uzunu gəlib evin başьna catdьqda, gözləri naqьl etdijimiz Baba otaqьna sataşdь, pənçərənin abь, jaşьl, qьrmьzь, sarь və qejri rəngli şişələri Qaraça qьzьn diqqətini çəlb etdi. Cəpər hyndyr olduqundan Qaraça qьz bu otaqь jaqşь görə bilmirdi. Ona görə bir aqaça cьqdь ki, oradan baqsьn. Bunu Aqqa xanьm icəridən göryrdy. Barmaqь ilə şişəni dəjdy ki, özynyn orada olduqunu Qaraça qьza bildirsin; birdən şişə çingilti ilə sьnьb jerə tökyldy. Bundan hər ikisi qorquja dyşdy. Qaraça qьz aqaçdan jerə dyşmədisə də, japraqlarьn qalьn jerlərində özyny gizlətdi. Bir azdan sonra Aqqa xanьm sьnan şişənin jerindən baqьb javaşçadan Qaraça qьzь caqьrdь, o da özyny ona göstərib dedi:

— Aqqa xanьm, səni orada myrəbbijənmi dustaq eləmiş?

— Bəli, onu sən haradan bildin?

— Mən bajaq cəpərin arasьndan gylly baqcaja baqьrdьm, sən də kitab oqujurdun. Istəjirdin kəpənəji dutasan, myrəbbijənin sənə açьqь dutdu dustaq etdi.

— Doqru dejirsən, anamьn və myrəbbijəm Maria Ivanovnanьn açьqь dutanda, məni buraja salьrlar. Ah, sən nə xoşbaxt uşaqsan. Mənim kibi dustaq olmajьb özyn ycyn baqda azad gəzirsən.

— Sən də həmişə dustaq olmursan ki, qejri vaqtlarda mənim kibi gəzirsən.

— Joq, məni hec kəs ilə ojnamaqa qojmurlar, gəzəndə həmişə Marja Ivanovna janьmda olur. Mən onunla gəzməji sevmirəm.

Qaraça qьz dedi:

— Nə etməli, səni mənimlə ojnamaqa qojmurlar.

— O, quçaqьndakь nədir,—dejə Aqça xanьm soruşdu.

Qaraça qьz xallь pişiji göstərib dedi: bu pişik balasьnь bu sabah baqdan tapmьşam.

— Ah nə gözəl pişikdir,—dejə Aqça xanьm koksyny ətyrdy.

— Istəjirsən sənə baqьşlajьm.

— Coq jaqşь, gətir bu deşikdən ver.

— Oraja nə tevr gəlim, qapьdan gəlsəm məni görərlər və qojmazlar.

— Gör cəpərdən kecə bilərsənmi?

— Jaqşь, gorym kecə bilərəmmi,—dejə Qaraça qьz aqaçdan dyşyb cəpərdən kecməjə jol aramaqa başladь. Gəzərkən cəpərin altьndan su arxьnьn jolunu gördy: bu deşikdən Qaraça qьz xejli cətinlik ilə evin dal həjətinə cьqdь. Sonra gizlinçə gəlib pəncərənin qabaqьna cьqdь. Aqça xanьm sevinə-sevinə dedi:

— Haradan kecdin?

— Su arxьnьn deşijindən. Al, gör nə jaqşь pişikdir.

Aqça xanьm pişiji alьb baqrьna basdь. Qaraça qьz deşikdən icəri baqьb dedi:

— Nə gözəl otaqdьr, nə coqlu jaraq asьlmьşdьr.

Aqça xanьm dedi:

— Mən buranь sevmirəm, özym də qorquram. Pəncərəni aca bilsəjdim sən də gələrdin, burada söhbət edərdik. Ançaq onu juqarь qaldьrmaq lazьmdьr. Mənim də gyçym catmьr. Qoj gorym Marja Ivanovna qapьnь daldan baqlamьş ja joq.—Bunu dejə Aqça xanьm qapьnь cəkdi, qapь acьldь.

— Ah nə jaqşь oldu, tez ol gəl.

Qaraça qьz ətrafьna baqa-baqa çəld icəri girdi. Hər ikisi sevinərək bir-birini quçaqladь. Sonra da şirin söhbət etməjə başladьlar.

Bu vaqt Marja Ivanovnanьn oquduqu kitab xejli maraqlь olduqundan başь qarьşьb Aqça xanьmь bir saat əvəzinə iki saatdan artьq dustaq etdijindən xəbəri joq idi. Lakin bu unudulmaqa Aqça xanьm coq sad idi. O, Qaraça qьzь vaqtьnda qacьrmaq ycyn tez-tez qapьja cьqьb baqьrdь ki, gərsyn myrəbbijəsi gəlirmi. Bir dəfə də cьqanda anasьnь janьnda bazьr gordy. Bu ittifaqdan Aqça xanьmьn rəngi qacьb bədəninə ditrəmə dyşdy. Özyny elə itirmişdi ki, anasьnьn suallьna çavab verə bilmirdi. Pəri Çahan xanьm Baba otaqьnь acьq göryb fikir etdi ki, Hysejnqulu aqa icəridə olar, bu qəsd ilə də oraja girmək istədikdə Aqça xanьm lap özyny itirib onun qabaqьnь kəsdi:

— Ana, buraja girmə, girmə,—dejə özy də aqlamaqa başladь.

Pəri Çahan xanьm təəççybdə ikən Marja Ivanovna gəlib cьqdь və ondan qьzьnьn dustaq olmaqьnь bildi. Pəri Çahan xanьm, myrəbijə və onlarьn arqasьnça Aqça xanьm otaqa girdilər. Pəri Çahan xanьm pişiji göryb soruşdu: bundan ətrymy qorqdun? Nə gözəl pişikdir, bunu saqlamaqa sənə izn verirəm. Aqça xanьm Qaraça qьzь icəridə görməjib bir qədər yrəkləndi, Qaraça qьz isə divanьn altьna girib gizlənmişdi. Hər ycy otaqdan cьqьb qapьnь baqladьlar və nahar jeməjə getdilər. Qaraça qьz qapьsь baqlь evdə qaldь.

Xanьmlar gedəndən sonra Qaraça qьz çəld divanьn altьndan cьqьb qapьja tərəf jyjyrdy ki, bir kəs gəlməmiş buradan getsin. Lakin qapьnь dal-

dan çəftələnmiş gəryb mə'jus qaldь. Sonra pəncərəni cəkmək fikrinə dyşdy; amma nə qədər calьşdьsa, bir şej baçarmadь; cynky pəncərənin juqarьdan iki nəzik dəmir mil ilə baqlь olduqunu anlamajьb, ançaq var gyçy ilə juqarь qaldьrьrdь. Xejli calьşdьqdan sonra Qaraça qьz umudsuz divanьn ystyndə oturdu. O, xejli təşvişdə idi; cynky bilirdi ki bu sirrin ysty acьlsa Pəri Çahan xanьm onu buradan qovub qьzьna da bəjyk tənbeh edəçəkdir. Bir az oturandan sonra Qaraça qьz jenə pəncərəni cəkmək fikrinə dyşdy. Bu səfər diqqət jetirdikdə, nəzəri dəmir millərə sataşdь, dərhal qalqьb onlarь cьqartdь və sonra pəncərəni cəkməjə başladь. Pəncərə hərcənd aqьr idi, amma Qaraça qьz da qyvvətli idi. O, pəncərəni qaldьrьb altьndan çəftə ilə bənd elədi. Sonra pəncərədən cьqьb qapьnь acdь. Pəncərəni saldь, bajьra cьqьb qapьnь baqladь, gəldiji deşikdən baqa girib komalarьna getdi.

Bu vaqt Aqça xanьm Qaraça qьz barəsində artьq dərəçədə iztirabda idi. Boqazьndan əsla cərək getmirdi; fikri mydam Qaraça qьzьn janьnda idi. Hətta qəsdən şorbanь syfrəjə tokdy ki, bəlkə ona tənbeh edib jenə Baba otaqьna salalar, lakin bu hilə onu myradьna catdьrmadь; cynky Pəri Çahan xanьm qьzьnьn rəngi qacdьqьnь gəryb təşvişə dyşdy.

— Qorqma, qьzьm ejbi jəqdur, xorəji syfrəjə qəsdən daqьtmadьn ki, özy tökyldy. Joqsa qьzьm azarlamьsan.—Bunu dejə Pəri Çahan xanьm əlini qьzьnьn alnьna qojdu:

— Doqrudan da qьzdьrman var. Bir az şorba ic sonra jataçaqsan. Daha bu gyn hec jerə cьqmajaçaqsan.

Bu əhvalatdan Aqça xanьm daha da artьq təşvişə dyşyb dedi:

— Joq, ana mən azarlь dejiləm. Məni jataçaq otaqьna göndərmə.

Hysejnqulu aqa yzyny arvadьna tərəf dutub dedi:

— Indi sap-saq qьzь azarlь edəçəksən.

— Rəça edirəm mənim tərbijə verməjimə qarьşmajasan.

— Nə ycyn, mən ata dejiləm?

— Atasan, ançaq nadansan. Nadan atadan qьz nə tərbijə götyrə bilər?

Hysejnqulu aqa çəld jerindən qalqьb açьqlь jumruqunu masaja elə bərk vurdu ki, boşqablar bir-birinə dəjdi:

— Sus! Tezlik ilə sənə göstərərəm ki, bu evin sahibi mənəm...—Bunu dejə Hysejnqulu aqa qabaqьndakь boşqabь götyryb jerə caqdь və hirsli jemək otaqьndan cьqdь.

— Get, pijan saldat,—dejə Pəri Çahan xanьm baqьrdь.

Bu hadisədən zavallь Aqça xanьm ditrəjərək göz jaşь tökməjə başladь. Pəri Çahan xanьm myrəbbijəjə dedi:

— Bu qьzь otaqьna apar, sojundurub rahat et. Sonra gejinin, bə'zi şejlər almaq ycyn şəhərə gedəçəjik.

Daja xanьmla getdilər. Pəri Çahan xanьm da öz otaqьna getdi.

Bir azdan sonra Pəri Çahan xanьm myrəbbijə ilə fajtona minib jola dyşdy.

Anasь gedəndən sonra Aqça xanьm bir myddət otaqda qalьb pəncərədən baqdь, oradan dəmir jol stansijasь gərynyrdy. Vaqzal Hysejnqulu aqanьn mylkyndə tikilmişdi. Hərdən bir Aqça xanьm öz myrəbbijəsi ilə oraja gəzməjə gedərdi.

Birdən vaqon fit verdi.

Hə, anamgil getdi. Bir də aqşam caqь gələçəklər, indi gedim Qaraça qьzь dustaqdan xilas edim. Bunu dəjə Aqça xanьm çəld gejindi və cьqьb Baba otaqьna tərəf getdi. Oraja jetişdikdə gordy ki, otaqьn qapьsь çəftəlidir. Javaşça qapьnь acьb icəri girdi. Gordy ki atasь divanьn ystyndə uzanьb sьqara cəkir və ondan başqa da icəridə kimsə joqdur. Bu ittifaqa Aqça xanьm həm şad və həm də təəççyb etdi. Bu vaqt atasь onu gordy.

— Hə, qьzьm dustaqdan qacmьsan. Coq da jaxşь etmisən. O, dəli ananьn səzlərinə qulaq asma. Gəl bir az ata bala səhbət edək.

Aqça xanьm atasьnьn belə mehriban rəftarьndan istifadə edərək onun quçaqьna atьldь. Sonra başьnь əjib divanьn altьna baqdь və Qaraça qьzь orada gərməjib mat qaldь. Hysejnqulu aqa soruşdu:

— Qьzьm nə ycyn mat qalmьsan? Səhbət elə gərək nə var nə joq.

Aqça xanьm sordu:

— Ata sən coqdanmь buradasan?

— Nahardan sonra gəldim qьzьm.

— Sən gələndə qapь acьq idimi?

— Joq, mən ozym acdьm.

— Icəridə kim vardь?

— Icəridə baq bu xallь pişik vardь.—Bunu dejə Hysejnqulu aqanьn dal tərəfində qьvrьlьb jatmьş pişiji ona gəstərdi.

— Qьzьm bundan otrymy soruşdun?

Aqça xanьm pişiji alьb dedi:

— Joq ata, bundan otry soruşmuram.

— Bəs kimdən otry soruşursan?

Aqça xanьm çavab vermejib fikrə getdi.

— Qьzьm nə ycyn fikrə getdin, uşaq atasьndan səz gizlətməz.

Aqça xanьm bilirdi ki, atasь arvadьnьn açьqьna Qaraça qьzla ojnamaqa ona izn verər. Ona gərə sirri acmaq istədi. Atasьnьn bojnunu quçaqlajьb dedi:

— Ata, anama deməzsən ki, səjləjim.

— Demərəm qьzьm, səjlə.

Aqça xanьm əhvalatь ona səjləjib soruşdu:

— Ata, bəs Qaraça qьz buradan neçə cьqmьşdьr.

— Indi, mənim Piri kişilə işim var. Sən də mənimlə gedərsən, orada Qaraça qьz ilə ojnarsan və həm də onun buradan neçə cьqmasьnь ozyndən sorusarsan.—Bunu dejə Hysejnqulu aqa divanьn ystyndən qalqdь. Aqça xanьm şadlьqьndan bilmirdi ki, nə etsin.

Hysejnqulu aqa qьzь ilə baqь gəzərkən gəlib Piri kişinin daxmasьna catdь. O vaqt Piri kişi qapьsьnda oturub səbət hərytdy. Qaraça qьz da arxda qablarь jujub daxmaja girirdi. Qaraça qьz Hysejnqulu aqanь gəryb qorquja dyşdy. O icəridən dəşək gətirib jaşьl otlarьn ystynə saldь. Hysejnqulu aqa oturdu və yzyny qьzlara dutub dedi: siz də gedin baqda ojnajьn.

Qaraça qьz qavalьnь gətyryb Aqça xanьm ilə gəzməjə və ojnamaqa getdilər. Aqça xanьm və Qaraça qьz əl-ələ verib baqda qacmaqa və ojnamaqa başladьlar. Aqça xanьm başьna gələni Qaraça qьza naqьl etdi; o da Baba otaqьndan neçə cьqdьqьnь ona səjlədi. Bunlar əz aralarьnda səz qojdular ki, mymkyn olduqça Baba otaqьnda gəryşsynlər. Qaraça qьz Aqça xanьma qaval calьb mahnь oqumaqь və ojnamaqь əjrədirdi. Axьrda hər ikisi gəj otun ystyndə oturub səhbət etməjə başladьlar. Aqça xanьm bu halda coq şad idi. Ançaq anasьnьn bir neçə saatdan sonra qajьtmasь jadьna dyşdykçə yrəji sьqьlьrdь.

Bir azdan sonra Hyseynqulu aqa Piri kişi ilə gəlib qızlar oturduğu jerə cıqdılar. Bunlar qızların gəryb arı pətəklərinin tamaşasına getdilər. Qızlar arıların işləməsinə coq həvəslə baqırdılar. Piri kişi bir pətəjə catdıqda dedi:

— Bu pətəgin arıları coq vuraqandılar. Qızlarım. Bunlardan özynyzy gözləjin.

Bir başqa pətəgə catdıqda gördylər ki, buranın arıları pətəgin aqzında qarışqa kibi qajnaşırlar. Bunu gördykdə Piri kişi dedi: «Jaqşı vaqtda gəlmişik, bu saat buranın arısı becə verəçəkdir.»

Sonra yzyny Qaraça qıza tərəf dutub dedi:

— Qızım, qacaraq get, evimizdən o gyn sənə göstərdijim aq torbanı gətyr gəl.

Qaraça qız jyjyrərək getdi, bir azdan sonra arılar pətəkdən dəstə-dəstə cıqıb ucmaqa başladı. Piri kişi onların dalınça dyşdy. Axırda arılar bir gilas ağacının budaqına qondular. Bir dəqiqə keçmədi ki, biri-birinin ystynə qonaraq yzym salqım kibi aqaçdan sallandılar. Bu zaman Qaraça qız torbanı gətirdi. Hamı aqaçın altında hazır oldu. Piri kişi Aqça xanıma dedi:

— Aqça xanım, hər juvada birçə dişi arı olar. Ona şah dejərlər. Bir juvada iki şah olanda dava olur. Jeni doqmuş şah məcbur olur, ucub başqa juva arasın. O vaqt onun dalına jeni törəmiş arılar dyşyrlər. Baq, gör jeni şahın qoşunları onu nə çyr ihatə etmişlər. Indi biz onu dutub təzə arı səbətinə salmalıjıq. Onda arılar da onun başına çəm olaçaqlar.

Bu sözlərdən sonra Piri kişi yzyny Qaraça qıza tərəf dutub, dedi:

— Qızım, cıq aqaça və bu sallanan arıları torbanın icinə salıb aqzını byz.

Qaraça qız pişik kibi aqaça dırmaşmaqa başladı. Aqça xanım Piri kişidən soruşdu:

— Baba, o arılar Qaraça qızı sançmazlarmı.

— Joq xanım arını inçitməsən və onlardan qorqnasan, adamı sançmazlar.

Qaraça qız arı dəstəsini torbaja salıb aqzını byzdy. Piri kişi dedi:

— Indi—qızım budaqı silkələ, arılar torbaja tökylsyn ja da budaqı sındır, torbanın icində qalsın.

Qaraça qız budaqı sındırdı və aşaqı endi. Piri kişi torbanı ondan aldı. Hamı arılıqa gəldi. Piri kişi torbadakı arıları bir boş pətəgə boşaltdı.

— Aqça xanım, bu pətəgi sənin adına saqlajaçaqam və balı da öz ixtijarında olaçaqdır. Hacan gənlyn bal istədi gələrsən, kəsib verərəm.

Bundan Aqça xanım coq şad oldu. Hyseynqulu aqa dedi:

— Qızım, bu da sənin arın, indi gəl gedək bir azdan sonra anan gələçəkdir.

***

Aqşam caqı Pəri Çahan xanım Marja Ivanovna ilə şəhərdən gəlib cıqdı. Pəri Çahan xanım Aqça xanımı coq şad və janaqları qızarmış göryb dedi:

— Baq, qızım mənə qulaq asıb evdən bajıra cıqmadın, ona görə saqalıb rəngin özynə gəldi. Gör qızım sənə nə qədər şejlər gətirmişəm.

Aqça xanım anası gətirdiji gözəl quqlalara, başqa ojun şejlərinə və şirin jeməli şejlərə baqıb, coq şad oldu. Bu vaqt Aqça xanımın arzı etdiji bir şej vardısa, o da bu şejləri Qaraça qıza göstərib onunla bəlyşmək idi. Bu da ançaq Baba otaqında mymkyn idi. Aqça xanımın təbiəti coq həlim idi, özy də söza baqan bir qız idi. Lakin Qaraça qız ilə göryşmək arzısı onda o qədər artıq idi ki, myrəbbijəsinin əmrindən qəsdən cıqıb tez-tez özyny Baba otaqına saldırırdı.

Aqça xanьmьn gyndən-gynə saqlam olmaqь anasьnь nə qədər şad edirdisə, bir o qədər də myrəbbijəsinin əmrindən cьqьb özynə tənbeh etdirməji onu qəmgin edirdi. Bu barədə Pəri Çahan xanьm ərinə şikajət edəndə, Hysejnqulu aqa rişxənd ilə dejirdi:

— Iki bəjyk arvad bir balaça uşaqь tərbijələndirə bilmirsinizmi. Mən sizə məsləhət göryrəm ki, onu tez-tez Baba otaqьna salьb dustaq edəsiniz.

Bu kibi hallarda Hysejnqulu aqa qьzьna açьqlanьb Baba otaqьna göndərirdi və gizlin Qaraça qьza xəbər verirdi.

***

Piri kişi Qaraça qьzьn Aqça xanьm ilə gizlin göryşyb dostluq etməsinə əsla razь dejildi. O bilirdi ki, quduz bəjzadələrdən başqa qejrilərini insan dərəçəsinə qojmajan Hysejnqulu aqa bu jetim qьzь arvadьnьn açьqьna Aqça xanьmьn janьna buraqьr. O biri tərəfdən Piri kişi dyşynyrdy ki, bu sirr acьldьqda Pəri Çahan xanьm Qaraça qьzь qovaçaq. Piri kişinin bir də narazьlьqь onda idi ki, Hysejnqulu aqa zinətli qaracь libasь tiktirib Qaraça qьza gejindirirdi və öz qonaqlьqlarьnda ojnadьrdь. Bunun ystyndə Piri kişinin Hysejnqulu aqaja coq açьqь duturdu. Lakin qьzь onun əlindən almaqdan açiz idi. Piri kişinin fikri janlьş dejildi. Belə ki, bir dəfə Hysejnqulu aqa bəjyk qonaqlьq edib coq adam caqьrmьşdь. Bu qonaqlьqda oqujub calan dəstəsi də vardь. Hysejnqulu aqa Qaraça qьzьn dalьnça nökər göndərdi ki, gəlib ojnasьn. Bu vaqt Qaraça qьza sojuq dəjdijinə görə jerdə jatьrdь. Piri kişi qьzь getməjə qojmadь. Bu ittifaqdan sərxoş aqa artьq dərəçədə qəzəbnak olaraq ikinci dəfə nökəri göndərdi ki, qьzь jerdən qaldьrьb gətirsin. Piri kişi ilaçsьz qaldьqda Qaraça qьz qalqьb

qaracь paltarьnь gejdi və qavalьnь əlinə alьb jola dyşdy.

Qaraça qьzьn ojnamaqa özynyn də mejli coqdu. O rəqs etməji olduqça sevərdi... Odur, ki, məçlisə mybarizə istəjən pəhləvan kibi atьldь. Bir məharətlə ojnamaqa başladь ki, bytyn danьşьq və səs kəsildi. Qaraça qьz elə çoşmuşdu ki, orada olan adamlar onun gözyndən itmişdi. Ançaq öz ustadь olan Jasəmən gözynyn önyndə durmuşdu. Birdən Qaraça qьz elə bir tərzdə fьrlandь ki, baqanlarьn nəzərində bir şar kibi görynyrdy. Qəflətən Qaraça qьz bir dizi ystə cökərək əlinin birini qaval ilə juqarь dutub o birini belinə qojdu. Rəqsi belə bitirmək Qaraça qьzьn adəti idi. Qaraça qьz qonaqlar tərəfindən gurultulu alqьşlandь, sonra hamь rəça etdilər ki, bu ojunu bir də təkrar etsin. Qaraça qьz qəbul etmədi. Hətta Hysejnqulu aqanьn da sözynə baqmadь. Hamьnьn umudu kəsilmişdi ki, birdən Aqça xanьm ortaja cьqьb, calqьcьlara haman rəqsi calmaqь əmr etdi. Hamь təəççyb ilə ona baqьrdь. Calqьcьlar caldьlar, Aqça xanьm da ojnamaqa başladь. Bunun ojnamaqь gözəl və qajdalь idi. Hər hərəkətindən mə'lum edirdi ki, bu Qaraça qьzьn şəjirdidir. Bir-iki devrə vurandan sonra Qaraça qьzь caqьrdь, o da dərhal sьcrajьb ortalьqa girdi və hər ikisi qabaq-qabaqa ojnamaqa başladь. Bu xəbər bir anda Aqalьq xidmətcilərinə jajьldь. Onlar dəstə ilə jyjyryb qapьnьn aqzьndan tamaşa etməjə başladьlar. Bu xəbər Pəri Çahan xanьma da catdь. O da tamaşaja gəldi. Ançaq o, qьzьnьn ojnamaqьna əsla şad olmajьb açьqьndan bilmirdi ki, nə etsin.

Qьzlar ojnamalarьnь bitirdilər. Hər tərəfdən onlarь alqьşladьlar. Hysejnqulu aqa fərəhlənib qьzь-

nь baqrьna basdь. Bəjlər onu tə'rif edib başьnь sьqalladьlar.

Bir azdan sonra Pəri Çahan xanьm qulluqcusunu göndərib Aqça xanьmь janьna caqьrtdь. Hysejnqulu aqa dujdu ki, arvadь qьzьnь tənbih etmək ycyn caqьrьr. Bu fikir dyz də cьqdь. O biri otaqdan Pəri Çahan xanьmьn hajqьrtьsь gəlirdi. Hysejnqulu aqa səbr edə bilməjib qonaqlardan yzr istədi və Pəri Çahan xanьmьn janьna getdi gördy ki, Aqça xanьm hönkyrty ilə aqlajьr və Pəri Çahan xanьm da qьşqьrьr:

— De görym, bu ojnamaqь sənə kim өjrətmişdir?

Hysejnqulu aqa dedi:

— Bujur, çavabьnь mən verim, bunu Qaraça qьz өjrətmişdir. Sözyn nədir?

— Qaraça qьz onu harada göryrdy ki, өjrətsin. Mən onunla göryşməji qədəqən etməmişdimmi?

— Sən etmişdin, lakin mən etməmişdim. Bu evin sahibi mənəm, joqsa sən. Kimin həddi var bundan sonra mənim əmrimdən cьqsьn...

Pəri Çahan xanьm indijə qədər ərini bu dərəcə hirsli görməmişdi.

— İndi ki belədir, daha mən bu evdə nə ycyn oturmuşam.

— Өzyn bilərsən, otururs an—otur, gedirsən—get. Bunu bilməlisən ki, bundan sonra mən өz istədijim kibi davranaçaqam.

O biri otaqdan bəjlər onun səsini eşitdilər. Rəhim və Səlim bəj onun ailəsinə məhrəm olduqlarь ycyn onlarь sakit etməjə gəldilər. Hysejnqulu aqanь cəkib o biri otaqa apardьlar. Bu ittifaqdan qonaqlar pərişan olub bir-bir daqьlmaqa başladьlar. Ançaq Rəhim bəj ilə Səlim bəj qaldьlar ki, ər ilə arvadь barьşdьrьb getsinlər. Bunlar istədiklərinə

catdьlar. Hysejnqulu aqanьn hirsi jatьb arvadьna dejirdi:

— Nə ycyn razь olmajьrsan Aqça xanьm ojnasьn, ojnamaqьn nə zərəri var ki.

Səlim bəj dedi:

— Pəri Çahan xanьm, mənim qьzьm Aqça xanьm kibi ojnamaq bilsəjdi, onun başьna dolanardьm. Amma nə etməli ki, atasь kibi şyursuz cьqьb ajaq atmaqь da bilmir.

Rəhim bəj dedi:

— Uşaq tajfasь Aqça xanьm kibi ojnamaqa, gylməjə jaranmьşdьr. Joqsa mənim qьzьm kibi qara dinməzdən nə fajda.

Pəri Çahan xanьm onun sözyny kəsərək dedi:

— Mən demirəm ki, qьzьm ojnamaq bilməsin, lakin mən dejirəm ki, Mehdi aqanьn nəvəsi Aqça xanьma bir qaracь qьzь ilə joldaş olub oturmaq, durmaq jaraşmaz. Bu ittifaqdan sonra mən Aqça xanьmь burada qoja bilməjəçəjəm. Mən iləriki kibi şəhərə köcəçəjəm və qьzьmь da pansiona verəçəjəm: Hysejnqulu aqa burada qalsьn; cynky şəhərdə jaşamaqь sevmir.

Hysejnqulu aqa buna razь oldu.

***

Sabahьsь gyny Aqça xanьm anasь ilə şəhərə köcdy. Jazьq qьzçьqaz istəkli dostu Qaraça qьz ilə görүşə bilmədi. Aqça xanьmьn şəhərə köcməsi Qaraça qьza böjyk tə'sir etdi. Bir tərəfdən Aqça xanьmьn ajrьlьq həsrəti o biri tərəfdən də onun ata anasьnьn arasьna ədavət dyşməsi Qaraça qьzь coq qəmgin edirdi. Onu şad edən bir şej varsa, o da kecirib өz evində az görүnməsi idi ki, beləliklə Qaqonaqlьqda zyhur edən ittifaqdan sonra Hysejnqulu aqa gynlərini dostu Səlim bəj və Rəhim bəjgildə raça qьzь da ojnamaqa caqьrmьrdь. Bundan ilavə

Qaraça qız özy də oynamağı tərk etmişdi. O, gynlərini bağda keçirirdi. Joldaşı da Qaraça köpək idi. Bu it Qaraça qızla elə dost olmuşdu ki, yanından iraq olmaq istəmirdi. Qaraça qız da onu elə öyrətmişdi ki, hər istədiyini edirdi. Piri kişi həmişə bunları bir yerdə gərəndə gylyb deyirdi:

— Iki qara yaqşı tapışmısınız.

Bu ittifaqdan sonra Qaraça qızın Qara köpəjə məhəbbəti daha da artmışdı. Belə ki, bir gyn Qaraça qız moruq yığmaq qəsdi ilə çəvərənini gəzyryb meşəjə getmişdi. Qara köpək də yanında idi. Meşə Hyseynqulu ağanın mylkyndə idi. Qaraça qız azmaqdan və meşə heyvanlarından qorqmurdu; cynky hər iki halda qara köpək onu xilas edə biləcəyini anlayırdı. Meşədə çəvərəni moruq ilə doldurub evə tərəf yz qoydu. Meşənin icindən dəmir yolu gedirdi. Qaraça qız yolu kecdiyi zaman ayağı bydrəyib yıqıldı və moruqu yola tökyldy. Bunu yığan vaqt vaqon qatarı gəryndy. Qaraça qızın başı moruqunu yığmağa qarışıb qatarın gəlməsindən xəbəri yoq idi. O vaqt qara köpək meşədən yola cıqdı və Qaraça qızı başı aşağı moruq yığan və qatarı iti gələn gəryb ildırım kibi gətyryldy, və Qaraça qıza elə dəş vurdu ki, o da, özy də dərəjə ucdular. Qaraça qızın sağ ayağı kola ilişib qanadı. Bunun ağrısından və Qara köpəjin belə hərəkətindən açıqlanıb qışqırdı. Amma başını yuqarı qaldırdıqda vaqon qatarının kecdiyini gördy. Qaraça qız anladı ki, əqilli köpək onu bu tevr ölymdən qurtarmışdır, ona görə də dərhal açığı yatdı və Qara köpəjin başını sığallayıb onu əzizlədi. Sonra yola cıqdı ki, görsyn çəvərəni neçə olmuşdur. Gördy ki, ondan ançaq qırılıb yerə tökylmyş cöplər qalmışdır. Qaraça qız ölymdən qurtarmasına

coq şad olub çəvərənin tələf olmasına bir o qədər də yanmadı.

Bu xəbər gedib şəhərə də catmışdı. Aqça xanım qorqdu, Qaraça qızın ölymdən xilas olmasına coq şad olub atasına yazdığı məktubun icində bir yahı irilijində zərli bir kağız da qoymuşdu ki, bu da mənim tərəfimdən Qara köpəjə baxşış olsun.

***

Yayın axır gynləri idi. Aqça xanımın pansiona girməsinə az qalmışdı. O, anasından rəca etdi ki, bu axır gynlərini kəndlərində kecirməjə izn versin. Piri Çahan xanım razı olub dedi:

— Yaqşı, qızım mən özym də sənlə bərabər oraja gedəcəjəm ki, bir az rahat olaq. Yoqsa burada gəlib gedənlərin əlindən bir dəqiqə asudə deyiləm, ançaq Aqça, şərtim budur ki, o qaracı qızı ilə tamamilə əlaqəni kəsməlisən. Sən bəy qızsan, elə rəijjət qızı ilə oturub durmaq sənə yaraşmaz. O gyny atan şəhərə gəlmişdi, özy dutduqu əməldən peşiman olmuşdur. O deyirdi ki, mən arvadımın açıqmış olmuşdur. Yoqsa Aqçanı Qaraça qız ilə göryşdyryrdym. Jo-qına Aqçanı Qaraça qız da qoymuşdu ki, bu da mənim tərəfimdən Qara köpəjə baxşış olsun. Piri kişini də Qaraça qızı da qovaçaqam.

Bu xəbərdən Aqça xanım qəmgin və pərişan oldu. O indi kəndə getməsinə şad deyildi. O idi ki, səhəri gyny anası onu yuqudan qaldırdıqda dedi:

— Ana mən kəndə getmək istəmirəm.

— Nə yçyn dynən sən özyn demirdinmi? Qalq. tənbəllik etmə.

Aqça xanım istər-istəməz qalqıb geyindi. Piri Çahan xanım kəndə gələcəklərini teleqraf ilə Hyseynqulu ağaja xəbər verdi.

Vaqon qatarь stansijada dajandьqda Aqqa xanьm pənçərədən atasьnь gəryb caqьrdь. Vaqondan endikdə Aqqa xanьm Qaraça qьzь kənarda durmuş gərdy. Pəri Çahan xanьmьn başь şejlərinə qarьşmьşdь. Nəkərlər şejləri alьb fajtona jьqьrdьlar. Bundan Aqqa xanьm istifadə edərək gizliçə Qaraça qьzьn janьna qacdь. Onunla gəryşdy.

— Tez ol get, xanьm bizi burada gərməsin joqsa jenə açьqь dutar,—dejə Qaraça qьz Aqqa xanьmь tələsdirdi.

— Doqru dejirsən, sonra gəryşərik,—dejə Aqqa xanьm ata-anasьna janaşdь və fajtona minib jola dyşdylər.

Aqalar qapьja catdьqda xidmətcilər həjətdə çərgə ilə dyzylyb zalьm xanьmьn qorqusundan tir-tir əsirdilər. Bunlarьn icində Piri kişi də vardь. Pəri Çahan xanьm Qaraça qьzь orada gərməjib qьzьnьn yrəjini ondan sojutmaq ycyn rişxənd ilə dedi:

— «Qьzьm bu da dostun Qaraça qьzьn vəfasь. gər səni neçə tez jadьndan cьqarmьş.»

Aqqa xanьm anasьnьn bu tə'nəsinə səbr edib sirrin ystyny acmadь. Sabahь gyny Marja Ivanovna da gəlib cьqdь. Aqqa xanьmьn buraja gəlmədən məqsədi Qaraça qьz ilə gyn kecirmək idi. O da mymkyn olmadьqьndan coq bikef və qəmgin idi.

***

Qaraça qьz da qəmgin idi. Kumadan cьqmaq istəmirdi. Gyn cьqьb qalqmьşdь. Qaraça qьz ojanmьşdьsa da hələ jerindən qalqmamьşdь.

— Qьzьm, nə coq jatmьsan, sən hec belə geçikməzsən. Azarlь dejilsən ki,—dejə Piri kişi sordu.

— Joq baba, azarlь dejiləm. Amma durmaqa hec gənlym joqdur.

Piri kişi kumanьn qapьsьnь acьb dedi:

— Qьzьm, baq gər nə gəzəl gynəş cьqmьş. Belə havalarda ançaq tənbəllər jatar.

Qaraça qьz qalqьb aram ilə gejinməjə başladь. Sonra əl-yzyny jujub caj icməjə məşqul oldu. Cajdan sonra bajьra cьqdь. Həqiqətdə gynəş xejli parlaq idi. Baqь gəzərkən Qaraça qьzьn gəzynə qarьnça juvasь sataşdь. Bu qarьnçalarьn icində qanadlьlarь da vardь. Onlar qalqьb havada ucurdular. Gah bu juvanьn gah da o juvanьn aqzьnda qajnaşьrdьlar. Piri kişi Qaraça qьza jaqьnlaşьb dedi:

— Qarьnçalara baqьram baba. Bunlarьn icində qanadlьlarь da var. Baba bu nə ycyn?

— Qьzьm, onlarьn qanadlarь həmişəlik dejildir. onlar təkyləçəklər. Bu gyn qarьşqalarьn toj gynydyr. Maja dutandan sonra onlarьn dişilərinin qanadь qurujub dyşəçək.

Qaraça qьz babasьndan qarьşqa toju eşitçək əllərini bir-birinə vurub şaqqьltь ilə gylməjə başladь. Piri kişi də ona qoşulub gylməjə başladь.

— Bəli qьzьm, qarьşqalarьn tojudur. Get qavalьnь gətir cal, onlar da səndən razь qalsьnlar.

Piri babanьn bu fikri Qaraça qьza xoş gəldi. O qacaraq kumaja gedib qavalьnь gətirdi. Calьb ojnamaqa başladь. Piri kişi bu işdən şad oldu.

Bu vaqt Aqqa xanьm myrəbbijəsilə baqcada oturmuşdular. Marja Ivanovna kitab oqujurdu. Aqqa xanьm da evçik tikirdi. Cicəkləri dərib onu bəzəçə

qızıb özyny myrəbijəsinin ystynə atdı. Bunun qışqırığına anası və xidmətcilər tökyldylər. Maria Ivanovna özyny itirib Aqça xanımı baqcada tək qojub evə su gətirməjə qacdı. Aqça xanım da qışqıra-qışqıra onun dalınca jyjyrməjə başladı.

— Qızım, qavalını calma, gərək o aqalıqdan gələn səs nədir, dejə Piri baba Qaraça qızı dajandırdı.

— Baba, bu səs Pəri Çahan xanımın səsidir,— dejə Qaraça qız ildırım kibi gətyryldy. Həjətə catdıqda gördy ki, Aqça xanımın biləjindən qan axır və Pəri Çahan xanım da aqlajaraq xidmətcilərə jalvarır.

— Aman, sizə qurban olum. Tezçə bir Aqçanın jarasını sorub ilanın zəhərini jerə tökynyz.

Lakin hec kəs bu qorqulu işə çyr'ət edib qədəm qojmurdu.

Qaraça qız Pəri Çahan xanımdan bunu eşitçək Aqça xanımın qolundan zəhəri sorub jerə tökməjə başladı. Hamı qorqulu bir halda buna təəççyb edirdi. Pəri Çahan xanım Qaraça qızın saclarını öpərək dejirdi:

— Qaraça qız, mənə rəhmin gəlsin qızımı ölməjə qojma.

Qaraça qız isə Pəri Çahan xanımın naləsinə əsla fikir verməjib öz istəkli dostunu əlymdən xilas etməjə sə'j edirdi. Bir azdan sonra Qaraça qız nə qədər sordusa daha jaradan qan gəlmədi. Aqça xanım jaradan bir o qədər şikajət etmirdi. jaradan juqarı qajtan ilə möhkəm baqlanmış jerdən şikajət edirdi:

— Ana, qajtanı ac qolumu kəsir.

— Joq qızım, olmaz. Onda zəhər bədəninə jajılıb səni öldyrər. Səbr et bu saat şəhərə teleqram vuraçaqam. Atan həkim gətirsin,—bunu dejə Pəri

Çahan xanım bir teleqram jazdı və nökərə verdi ki, aparıb stansijadan vursun. Aqça xanımın qolunu baqlajan zaman Piri kişi gəlib çıqdı. Əhvalatdan xəbərdar olub xejli iztirab ilə Qaraça qızın yzynə baqdı.

— Baba gördynmy başımıza nə gəldi,—dejə Pəri Çahan xanım şikajətləndi.

— Bəli gördym. Onu da göryrəm ki, öz balanı əlymdən xilas etmək ycyn bu atasız, anasız jetimi bəlaja salmısan,—dejə Piri kişi sərt nəzər ilə onun yzynə baqdı.

— Baba, nə dejirsən. Qaraça qıza hec bir şej olmamış.

— Jaqşı baq xanım.

Bu vaqt Qaraça qız dedi:

— Baba icərim janır. Mənə su ver, icim.

— Gəl qızım gedək. Görym sənə nə carə edə bilərəm. Sonra yzyny xidmətcilərə dutub dedi:

— Çəld gedib mənim kumamdan qatıq gətirin ajran edib qıza icirdim.

—Baba, bu saat,—dejə xidmətcilər jyjyryşdylər.

— Baba, sənə jalvarıram. Qaraça qızı aparma.

— Baba, sənə jalvarıram. Qaraça qızı aparma. Qoj burada jatsın,—teleqram vurmuşam. Hysejnqulu aqa şəhərdən həkim gətirəçəkdir.—Bunu dejə Pəri Çahan xanım onun qabaqını kəsdi.

— Cəkil, sən indijə kibi bu qızı aqalıqın ətrafına dolanmaqa qojmamısan ki, bəjzadə qızına fəna xasijjətləri tə'sir edər. Indi də mən onun bu zylm juvasında qalmasına razı dejiləm.—Bunu dejə Piri baba Qaraça qızın əlindən dutub apardı.

***

Piri kisi Qaraça qızı sojundurub rahat etdi. Ona tez-tez ajran verirdi. Lakin Qaraça qızın dişinin dibi qanadıqı ycyn jaranı sorduqda zəhər typyr-

çəklə Qaraça qızın qanına jerimişdi. Bununla belə Piri baba Qaraça qızdan umudunu kəsməmişdi. Lakin öz çanın özgə uğrunda fəda etmiş qızçığazın həjatı bitmək yzrə idi.

— Baba, mən ölsəm məni o baqımızın janındakı göj təpədə basdırın. Oranı mən coq sevirəm. Oradan hər jer görynyr. Orada hər çyr cicək var.

— Qorqma qızım, həkim gəlib sənə dərman verəçək. Sən də saqalaçaqsan. Uzun jaşajaçaqsan. Mən qoça babanı o dedijin göj təpədə basdıraçaqsan.

Hysejnqulu aqa həkim ilə gəlib cıqdı. Həkim Aqça xanıma baqdıqdan sonra dedi:

— Aqça xanımın hec bir qorqusu joqdur. Ilanın zəhəri bədəninə jajılmamış rəf' olunmuş, azacıq hərarəti var. Dərman verərəm jaqşı olar.

Bu xəbərdən ata və ana coq şad oldular. Sonra həkim ilə bərabər Piri babanın daxmasına getdilər. Qaraça qızın qan ilə dolmuş gözləri jumulmuşdu. Həkim ona baqdıqdan sonra dedi:

— Xəstənin halı coq aqırdır; cynky sovuran zaman zəhəri udmuşdur, o qanına qarışıb bədəninə jajılmışdır. Saqalması cətindir. Bu xəbərdən Piri kişi mə'jus olub dedi:

— Həkim, öz balasının ölymdən xilas etmək ycyn başqa bir balanı ölymə verən qadına nə dejərlər?

— Sus, qoça köpək, mənim qızımı bir qaracı qızına tajmı edirsən,— dejə Hysejnqulu aqa hajqırdı. Həkim onları sakit edib gətirdiji dərmanı Qaraça qıza icirdi və Piri kişijə tapşırdı ki, bundan xəstəjə tez-tez versin.

— Baba mə'jus olma. Qız coq saqlamdır. Umudvaram ki, saqalar,— dejə həkim aqalar ilə bərabər getdi.

Piri baba daxmanın qapısının acıb Qaraça qızın başı tərəfində oturdu. Sonsuz qoça Qaraça qıza artıq dərəçədə məhəbbət baqlamışdı. Qaraça qız onun əski kumasına jeni bir həjat, jeni bir şö'lə gətirmişdi. Indi o şö'lə sönyr... Ona da səbəb tam coçuqluqundan zylmyny cəkdiji aqaları olmuşdu.

Qaraça qız qan ilə dolmuş gözlərini acdı axır nəfəsində gynəşin şəfəqinə bir myddət baqdı, sonra gylymsyndy, gözlərini jenə jumdu. Qaraça qız öldy.....

— Daxmamın bylbyly ucub getdi,— dejə Piri baba goz jaşı tökdy.

1913

20032

Şəhər kd. Mərkəzi Türk
KUTUBXANASI
Центр. Тюрк. Библиотека
имени
«САБИРА»

KITABЬN ICINDƏKILƏR

Səhifə

Sylejman Sani Axundov 7

Hekajələr

Kevkəbi-Hyrrijjət 15
Juqu 17
Qonaqlьq 19
Qatil coçuq 21
Çəhalət qurbanь 30
Umud cьraqь 43
Qan-bulaqь 47
Molla Qasьm 53
Təbrik 62
Nə ycyn 71
«Joluqma xəstəlik» 76
Sona xala 80
Zarafat 89
Iki dost iki dyşman 92
Myaləçə 104
Namus 114
Mister Cjirejin kəpəji 127
Baq mən buna joqam 133

Pjeslər

Təməhkar 143
Dibdat bəj 207
Tyrk birliji 233
Şahsənəm və Gyloori 243
Carxь-fələk 261
Qaranlьqdan işьqa 279
Lacьn juvasь 293
Eşq və intiqam 353
Bir eşqin nəticəsi 455

Iki jol 489
Şejtan 507
Jeni həjat 529

Coçuq hekajələri

Qorqulu naqьllar 557
I Əhməd və Məlejkə 563
II Abbas və Zejnəb 568
III Nurəddin 615
IV Qaraça qьz 615

Azərbaycan Respublikası
Dövlət Kitabxanası
17018

İstehsalata verilmiş 27|VI-36. Capa imzalanmış25|VII-36. Cap listi 14¼. Kaqız formatı 72x105|32 Bir cap listində getmiş hyrufat 66880. Baş Mətbuat Mydirliyi Myvəkkilliyi № 987. Azərnəşr № 85. Tiraj 4000. Sifariş 358. Azərnəşr mətbəəsində basıldı. 26-lar adına „Kitab Sarayı". Bakı, Əli Bayramov kyçəsi.

1936
103